AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ



# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI-

# 140

# MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSI

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

# ***"İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI-140"***

## *MÖVZUSUNDA RESPUBLİKA ELMİ KONFRANSI*

**NAXÇIVAN-2023**

*Naxçıvan Dövlət Universitetinin*
*Elmi Şurasının 27 fevral 2023-cü il tarixli*
*07 saylı qərarı ilə nəşr edilib.*

**KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ**

**Elbrus İsayev,** *Naxçıvan Dövlət Universitetinin rektoru,*
*tarix üzrə fəlsəfə doktoru, dosent – sədr*

**Üzvlər:**
**Vahid Rzayev -** *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
**Vəli Əliyev**– *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
**Taleh Xəlilov**– *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
**Nəzakət Yusifova**– *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**BURAXILIŞA MƏSUL: ƏLİ HƏŞİMOV**
*"Qeyrət" nəşriyyatının direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent*

*Naxçıvan Dövlət Universiteti. "İrəvan Müəllimlər Seminariyası-140"*
*Mövzusunda Respublika elmi konfransının materialları,*
*Naxçıvan, "Qeyrət" nəşriyyatı, 2023, səh.131*

© NDU, "Qeyrət" nəşriyyatı, 2023

**RÜFƏT HÜSEYNZADƏ**
*prof.rufat@mail.ru*

# İRƏVAN MİLLİ MAARİFÇİLİK MÜHİTİ, TƏDRİS MÜƏSSİSƏLƏRİ, MÜƏLLİMLƏR VƏ MƏZUNLAR

*1881-ci ildə İrəvanda 3 böyük tədris müəssisəsi-İrəvan Kişi Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası və İrəvan Qız Progimnaziyası açılmışdır.*

*İrəvan Kişi Gimnaziyası 4 illik olmuş, müxtəlif peşələr üzrə ixtisaslı kadrlar hazırlamışdır. Gimnaziyanın ilk direktoru Vladimir İosifoviç Brajnikov, Azərbaycan şöbəsinin müdiri isə İsmayıl bəy Şəfibəyov olmuşdur. İrəvan Kişi Gimnaziyasının müəllimlərindən aşağıdakıların adlarını çəkə bilərik: Mirzə Ələkbər Elxanov Molla Tağı Mahmud oğlu, Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, Rəhim Xəlilov, Mirzə Məmmədvəli Qəmərlinski, Axund Məmmədbağır Tağızadə və başqaları olmuşdur. 1881-ci il 8 noyabrda İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır. İrəvan Müəllimlər Seminariyasının Azərbaycan Şöbəsinin müdiri Axund Məmməd Bağır Qazızadə olmuşdur. Seminariyanın fəaliyyətində Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, C.Ələkbərbəyov, Cəlil Məmmədquluzadə, M.Terequlov və başqalarının böyük xidmətləri olmuşdur.*

*1824-1949-cu illərdə fəaliyyət göstərmiş İrəvan Pedaqoji Məktəbinin pedaqoji kadr hazırlığında mühüm xidmətləri olmuşdur. Bu texnikumda Azərbaycan dili və ədəbiyyatından Lətif Hüseynzadə Müzəffər Nəsirli, Abbas Azəri, tarixdən Nəzər Paşayev, pedaqogika və psixologiyadan Tacirə Bağırova, Zəhra Abbasova, fizika və riyaziyyatdan Məmməd Həsənov və Kərəm Abbasov kimi aydın simalar dərs deyirdilər. Texnikumun ilk məzunları arasında Əmir Abasquluyevi, Adil Axundovu, Nəriman Əliyevi, Paşa Makinskini, Əbülfət İbrahimi, İmanqulu Kərimovu, Nəriman Fəxrini, Rübabə Bağırbəyovanı, Nəsir Əliyevi, Musa Qafarovu, Əbülfət Rəhimovu, Tağı Bağırovu, Nəzər Paşayevi, Mirzə Bəşirovu göstərmək olar.*

*1935-ci ildə Məmməd Səid Ordubadi, Mikayıl Müşfiq, Mehdi Hüseyn və başqalarından ibarət nümayəndə heyəti İrəvanda səfərdə olarkən pedaqoji texnikumun müəllim və tələbə kollektivi ilə görüş keçirmişlər. M.S.Ordubadi texnikumun müəllim və tələbə heyəti qarşısında çıxış edərkən bu tədris ocağının fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Türk Pedaqoji Texnikumu bizdə böyük intibahlar yaratdı. Türk mədəniyyətinin nə qədər böyük inkişafda olduğunun canlı şahidi olduq".*

***Açar sözlər:*** *İrəvan, maarifçilik mühiti, tədris müəssisələri, müəllimlər, məzunlar*

## Giriş

1881-ci il 8 noyabrda İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır.

İrəvan Müəllimlər Seminariyasının Azərbaycan Şöbəsinin müdiri Axund Məmməd Bağır Qazızadə olmuşdur. Seminariyanın fəaliyyətində Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, C.Ələkbərbəyov, Cəlil Məmmədquluzadə, M.Terequlov və başqalarının böyük xidmətləri olmuşdur.

1824-1949-cu illərdə fəaliyyət göstərmiş İrəvan Pedaqoji Məktəbinin pedaqoji kadr hazırlığında mühüm xidmətləri olmuşdur. Bu texnikumda Lətif Hüseynzadə Azərbaycan dili və ədəbiyyatından, Müzəffər Nəsirli, Abbas Azəri, tarixdən Nəzər Paşayev, pedaqogika və psixologiyadan Tacirə Bağırova, Zəhra Abbasova, fizika və riyaziyyatdan Məmməd Həsənov və Kərəm Abbasov kimi aydın simalar dərs deyirdilər. Texnikumun ilk məzunları arasında Əmir Abasquluyevi, Adil Axundovu, Nəriman Əliyevi, Paşa Makinskini, Əbülfət İbrahimi, İmanqulu Kərimovu, Nəriman Fəxrini, Rübabə Bağırbəyovanı, Nəsir Əliyevi,

Musa Qafarovu, Əbülfət Rəhimovu, Tağı Bağırovu, Nəzər Paşayevi, Mirzə Bəşirovu göstərmək olar.

1935-ci ildə Məmməd Səid Ordubadi, Mikayıl Müşfiq, Mehdi Hüseyn və başqalarından ibarət nümayəndə heyəti İrəvanda səfərdə olarkən pedaqoji texnikumun müəllim və tələbə kollektivi ilə görüş keçirmişlər. M.S.Ordubadi texnikumun müəllim və tələbə heyəti qarşısında çıxış edərkən bu tədris ocağının fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Türk Pedaqoji Texnikumu bizdə böyük intibahlar yaratdı. Türk mədəniyyətinin nə qədər böyük inkişafda olduğunun canlı şahidi olduq".

İrəvanda ədəbi-mədəni mühit.

İrəvanda Azərbaycan əbədi-mədəni mühitinin canlanması, inkişafı və formalaşmasında Türk Pedaqoji Texnikumunun müəllim və tələbə kollektivi-nin müstəsna xidmətləri olmuşdur. Belə ki, İrəvanda Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Zəngi" qəzetinin (1924) azərbaycanlılar arasında yayılmasında və tirajının artırılmasında, yeni türk əlifbasının tətbiqində və təbliğində, savadsızlığın aradan qaldırılmasında texnikumun müəllim və tələbə heyəti çox böyük rol oynamışdı. "Zəngi" qəzetinin ən fəal müxbirləri və təbliğatçıları da məhz bu təhsil ocağının müəllim və tələbələri idi. Tağı Camalov, Mehdi Bəşirov, Rüstəm Tağıyev, Nəriman Fəxri, Telman Nəzərli, Yunis Tağıyev, Qasım Əliyev, Əbilfət İbrahim, Əliqulu Səlimov, Abbas Tahir, Əbülfət Rəhimov, Adil Axundov, Musa Qafarov, Nurəli Qurbanov, Şamo Hətəmov, Nəzər Paşayev, Məmməd Paşayev və başqaları "Zəngi" qəzetinin ən fəal müxbirləri idi.

Azərbaycanın bir çox görkəmli ziyalıları: Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal, Yusif Vəzir Çəmənzəminli, Sabit Rəhman, Səməd Vurğun, Əbülhəsən, Nigar Rəfibəyli, Mikayıl Rəfili, Vəli Xuluflu, Süleyman Rüstəm və başqaları bu təhsil ocağının qonağı olmuşlar.

İrəvan Pedaqoji Məktəbi yarandığı gündən 1947-ci ilin ortalarına qədər 1370 nəfər orta ixtisas təhsilli pedaqoji kadr hazırlamışdır.

Pedaqoji məktəbin fəaliyyətini ardıcıl izlədikdə aydın olur ki, müxtəlif vaxtlarda bu təhsil ocağına rəhbərlik etmiş Mehdi Kazımovun, Bəhlul Yusifovun, Həbib Məhəmmədzadənin, Əsgər Cəfərovun və məktəbin müəllimlərindən Məmməd Həsənovun, Əyyub Babayevin, Rəziyyə İsmayılovanın, Sadiq Heydərzadənin, Zərri Qurbanovanın, Təvəkkül Kərimovun, Həbib Əkbərovun, Hüseyn Əliyevin, Cəfər Ələkbərovun, Şura Fərhadovanın, Surə Babayevanın, Raziyə Abdullayevanın və başqalarının fədakar əməyi sayəsində tələbələrin yüksək təhsil səviyyəsi təmin edilirdi.

1949-cu ilə qədər fəaliyyət göstərən İrəvan Türk Pedaqoji Məktəbi təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda Qərbi Azərbaycanda ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynamışdır. Bolşevik cildinə bürünmüş erməni daşnaklarının məkrli siyasəti nəticəsində təhsil tariximizin ən şanlı səhifələrindən birini təşkil edən böyük, şərəfli tarixi bir yol keçmiş bu təhsil ocağı da kollektiv şəkildə deportasiyaya məruz qoyularaq 1949-cu ildə Azərbaycanın Xanlar rayonuna köçürülmüş, 1972-ci ilə qədər orada fəaliyyət göstərmişdir.

**İrəvan tədris müəssisələri.**

İrəvan Pedaqoji Məktəbinin məzunları olmuş sonralar yüksək elmi dərəcələrə laiq görülmüş, uzun illər elm və təhsil sahəsində çalışmış akademik Budaq Budaqov, akademik Zərifə Budaqova, prof. Əli Fərəcov, prof. Yusif Yusifov, prof. Cəfər Cəfərov, prof. Süleyman Məmmədov, prof. Nəriman Əliyev, prof. Fərhad Fərhadov, prof. Qasım Mustafayev, prof. Tapdıq Əmiraslanov, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəcəf Nəcəfov, ictimai xadim Qəşəm Aslanov, dosent Zəhra Əliyeva və ADPU-nun professoru olmuş Kövsər Tarıverdiyeva və başqaları bu məktəbin fəal məzunları olmuş, xalqımızın fədakar, peşəkar müəllimləri, elm adamları, ictimai xadimləri kimi xalqa, vətənə

ləyaqətlə xidmət etmişlər. Azərbaycanın bir çox görkəmli ziyalıları-akademik Yusif Məmmədəliyev, Ələşrəf Bayramov, Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal Paşayev, Səməd Vurğun, Mikayıl Rəfili, Yusif Məmmədəliyev və başqaları bu pedaqoji məktəbdə olmuş, tələbələrlə görüşmüş, müəyyən dövrlərdə dərs də demişlər (2, s.25).

1925-ci ildə İrəvanda iki illik müəllimlər kursu, 1936-cı ildə İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutu, 1937-ci ildə iki illik Müəllimlər İnstitutu, 1945-1988-ci illərdə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan Şöbəsi fəaliyyət göstərmişdir.

İrəvan Pedaqoji İnstitunda dos. Əkbər Yerevanlı, dos. Lətif Hüseynzadə, dos. Əli Dalqılıcov, dos. Fərrux Rzayev, dos. İsrafil Məmmədov, dos. Mehdixan İrəvanski, dos. Hüseyn İsmayılov, dos. Məhərrəm Hüseynov, dos. Vilayət Əliyev, prof. Fərhad Fərhadov, prof. Rəhim Allahverdiyev, prof. Həmid Əliyev, prof. Mirəli Seyidov, Adil Süleymanov, Sabir Əsədov, Arzuman Qəmbərov, Təvəkkül Kərimov kimi tanınmış pedaqoq alimlər dərs demişlər.

İrəvan Pedaqoji İnstitutunda dərs demək üçün müxtəlif illərdə Bakıdan müəllimlər də dəvət olunmuşdur: Prof. İnayət Bektaşi, prof. Firudin Hüseynov, prof. Əkbər Bayramov, prof. Əhməd Seyidov, prof. Hüseyn Əhmədov, prof. Xalid Əlmirzəyev, prof. Cəfər Cəfərov, prof. Abbas Zamanov, prof. Mürsəl Həkimov, prof. Nizami Xudiyev, prof. Cəlil Nağıyev, Bəxtiyar Vahabzadə və başqalarının xalqa, millətə fədakar xidmətləri olmuşdur (3, s.38).

Onu da xüsusi qeyd edək ki, Prezident İlham Əliyevin 30 avqust 2006-cı ildə İrəvan Azərbaycan Dram Teatrının 125 illik yubileyinin, 29 dekabr 2006-cı ildə İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyinin keçirilməsi haqqında sərəncamları, milli-mənəvi dəyərlərimizin inkişafında mühüm əhəmiyyət kəsb etməkdədir.

1881-ci ildə İrəvanda 3 böyük tədris müəssisəsi – İrəvan Kişi Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası və İrəvan Qız Progimnaziyası açılmışdır.

İrəvan Kişi Gimnaziyası 4 illik olmuş, müxtəlif peşələr üzrə ixtisaslı kadrlar hazırlamışdır. Gimnaziyanın ilk direktoru Vladimir İosifoviç Brajnikov, Azərbaycan şöbəsinin müdiri isə İsmayıl bəy Şəfibəyov olmuşdur. İrəvan Kişi Gimnaziyasının müəllimlərindən aşağıdakıların adlarını çəkə bilərik: Mirzə Ələkbər Elxanov 1856-1885-ci illərdə ana dili və şəriət müəllimi, Molla Tağı Mahmud oğlu 1836-1856-cı illərdə ana dili və şəriət müəllimi, Firudin bəy Köçərli 1850-1895-ci illərdə ana dili, hüsnxət və şəriət müəllimi olmuşdur. Həmçinin İsmayıl bəy Şəfibəyov, Rəhim Xəlilov, Mirzə Məmmədvəli Qəmərlinski, Axund Məmmədbağır Tağızadə və başqaları bu gimnaziyada dərs demişlər.

İrəvan Kişi Gimnaziyasının aşağıdakı məzunlarından bir neçəsinin adını da qeyd edə bilərik:

Mustafa bəy Topçubaşov (1895-1981) İrəvan Kişi Gimnaziyasını sonuncu qızıl medalçısı olmuşdur. O, sonralar Kiyev universitetinin tibb fakültəsində təhsil almış, görkəmli cərrah, ictimai və dövlət xadimi, akademik olmuşdur.

Əziz Əliyev (1897-1962) elm və dövlət xadimi. İrəvan Kişi Gimnaziyasını 1917-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsil almış, səhiyyənin, təhsilin müxtəlif sahələrində, dövlət işlərində yüksək vəzifələrdə çalışmış, 1929-1932-ci illərdə Azərbaycan Klinik İnstitutunun rektoru, Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru, 1937-ci ildə Azərbaycan Dövlət Universitetinin rektoru olmuş, professor, Əməkdar həkim, ictimai və dövlət xadimi olmuşdur.

Əhməd Rəcəbli (1898-1963) 1907-ci ildə Gimnaziyaya daxil olmuş və 1916-cı ildə oranı gümüş medalla bitirmişdir. 1919-cu ildə AXC hökuməti Ə.Rəcəblinin İtaliyaya oxumağa göndərmiş, qayıtdıqdan sonra Moskva Universitetində dərs demişdir. Azərbaycan Kənd Təsərrüfatı Elmlər

Akademiyasının akademiki, bitkiçilik bölməsinin akademik katibi olmuşdur.

Heydər Hüseynov (1908-1950) Şərqşünas alim olaraq müxtəlif elm sahələrində, dövlət işlərində, yüksək vəzifələrdə çalışmışdır.

Mehdi Kazımov (1890-1954), Miryusif Mirbabayev (1889-1951), Səid Rüstəmov (1907-1983) və daha başqa görkəmli tanınmış şəxsiyyətlər İrəvan Kişi Gimanziyasını bitirmişlər.

1881-ci il 8 noyabrda İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2021-ci il tarixində imzaladığı "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı mühüm elmi, pedaqoji, siyasi və tarixi əhəmiyyət kəsb edir. Sərəncamda deyilir: "Biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu, gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı-bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq" (İlham Əliyev. Bakı şəhəri, 29 dekabr 2021-ci il/https: //president.az/az/articles/view/55116)(1). Bu sərəncam İrəvan mahalında azərbaycanlıların min illər boyu yaşayıb-yaratdığı tarixi-mədəni irsə sahib çıxmağa çağırış, qan yaddaşımızı oyatmağa yönələn mühüm tarixi bir sərəncamdır.

İrəvan Müəllimlər Seminariyasının və Kişi Gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha geniş vüsət almasına ciddi təsir göstərdi. Seminariyada tatar dilini (Azərbaycan) Axund Məmməd Bağır Qazızadə tədris edirdi. O, 1853-cü ildə İrəvanda anadan olmuş, İrəvan progimnaziyasını bitirmişdir. Yüksək biliyə malik olan Axund Məmməd Bağır Qazızadə həm də seminariyada Azərbaycan bölməsinə rəhbərlik edirdi. O, 1911-ci ildə İrəvan Müəllimlər Seminariyasının bir qrup əməkdaşları ilə Tiflisdə Azərbaycan dilində nəşr olunmuş "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri idi. Aparılan araşdırmalardan məlum olur ki, seminariyanın Azərbaycan bölməsinin rəhbəri Axund Məmmədbağır Qazızadə burada şəriət dərslərinin yüksək səviyyədə keçirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, gənc soydaşlarımızın seminariyaya daha çox cəlb edilməsi istiqamətində böyük rol oynamışdır.

37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda bağlanmışdır. Seminariyanın Azərbaycan bölümünün rəhbəri Axund Məmmədbağır Qazızadə olmuşdur. Seminariyanın fəaliyyətində Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, C.Ələkbərbəyov, Cəlil Məmmədquluzadə, M.Terequlov və başqalarının böyük xidmətləri olmuşdur. İrəvan Müəllimlər Seminariaysının Azərbaycan Şöbəsinin müxtəlif vaxtlarda direktorları Məmmədbağır Qazızadə, Rəşidbəy Şahtaxtinski, Həmid bəy Şahtaxtinski, Cəfər bəy Cəfərbəyov olmuşdur:

Xalqımızın bir sıra tanınmış nümayəndələri, maarif xadimləri-Həbib bəy Səlimov, Haşım bəy Nərimanbəyov, Nəcəf bəy Vəzirov, Haşım bəy Vəzirov, Tağı bəy Səfiyev, Mirzə Abbas Məhəmmədzadə, Cabbar Məhəmmədzadə, Hüseynəli bəy Rüstəmov, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, İbadulla Muğanlinski, Ş.Mahmudbəyov, C.Məmmədov, Tağı bəy Şəfibəyov, Mirzə Cəlil Şürbi, Eynəli bəy Sultanov, Sadıq Xəlilov, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, İbrahim Səfiyev, Məmmədqulu bəy Kəngərli, Rəhim Xəlilov, Axund Məmmədbağır Kazımzadə, Məmməd Axundov, Hacı Məmmədəli oğlu, Məmməd bəy Qazıyev, Qasım bəy Camalbəyov İrəvan Müəllimlər Seminariyasından məzun olmuşlar.

1824-1949-cu illərdə fəaliyyət göstərmiş İrəvan Pedaqoji Məktəbinin pedaqoji kadr hazırlığında mühüm xidmətləri olmuşdur. “İstiqlal” ordenli Əməkdar müəllim, dosent Lətif Hüseynzadə 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsindən məzun olaraq təyinatla İrəvan Pedaqoji Məktəbinə Azərbaycan dili və ədəbiyyat müəllimi kimi göndərilmişdir. Lətif Hüseynzadə daha sonralar İrəvan Pedaqoji İnstitunun Azərbaycan Şöbəsində dərs demiş, pedaqoji kadrların hazırlığında mühüm xidmətlər göstərmiş və İrəvan yazıçı və şairlərinin ədəbi orqanı olan “Ədəbi Ermənistan” almanaxının redaktoru vəzifəsində də çalışmışdır.

1934-cü ildə pedaqoji texnikumda Azərbaycan dili və ədəbiyyatından Nəsib Əfəndiyev, Müzəffər Nəsirli, Abbas Azəri, tarixdən - Nəzər Paşayev, pedaqogika və psixologiyadan Tacirə Bağırova, Zəhra Abbasova, fizika və riyaziyyatdan Məmməd Həsənov və Kərəm Abbasov kimi aydın simalar dərs deyirdilər. Texnikumda yüksək səviyyəli pedaqoqların olması tədrisin keyfiyyətinin daha da yüksəlməsinə səbəb olmuşdu.

1929-cu ilin iyun ayında texnikumun ilk buraxılışı oldu. 1926-cı ildə qəbul olunmuş 32 nəfər tələbədən 20 nəfəri texnikumu bitirməyə müvəffəq ola bilmişdi ki, onlardan da 18 nəfəri oğlan, 2 nəfəri isə gənc qızlar idi. Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, tələbələrdən 3 nəfəri təhsil aldığı müddətdə ağır və yoluxucu xəstəliyə tutularaq dünyasını dəyişmiş, 9 nəfəri isə müxtəlif səbəblərdən təhsilini yarımçıq qoyaraq texnikumu tərk etməyə məcbur olmuşdu.

Texnikumun ilk məzunları arasında Əmir Abasquluyevi, Adil Axundovu, Nəriman Əliyevi, Paşa Makinskini, Əbülfət İbrahimi, İmanqulu Kərimovu, Nəriman Fəxrini, Rübabə Bağırbəyovanı, Nəsir Əliyevi, Musa Qafarovu, Əbülfət Rəhimovu, Tağı Bağırovu, Nəzər Paşayevi, Mirzə Bəşirovu göstərmək olar. Texnikumun məzunu olmuş görkəmli alim, akademik Budaq Budaqov milli pedaqoji kadrların hazırlanması işində böyük xidmətləri olmuş bu təhsil ocağı haqqında yazır: "İrəvan Pedaqoji Məktəbi oraya toplanmış müəllimlərin pedaqoji ustalığı, ensiklopedik biliyi və hazırlanan kadrların savadının pedaqoji məktəb səviyyəsindən universitet tələbələri səviyyəsinədək qaldırılması bu məktəbə haqlı şərəf, şöhrət, nüfuz gətirmişdi. İrəvan Pedaqoji Məktəbinə daxil olmaq ən yüksək müsabiqəli ali məktəbə qəbuldan çətin idi. Məktəbdə olan daxili intizam, yığcamlıq, yüksək təhsil vermək ənənəsi, yaxşı oxuyanların hörmətini layiq olduğu səviyyəyə qaldırmaq bizi valeh edirdi".

Tərcüməçi-publisist Zahid Əhmədov pedaqoji texnikum haqqında yazırdı: "O vaxtlar bu məktəbə qəbul olmaq istəyənlərin sayı qədərindən çox idi. Odur ki, burada ancaq yaxşıların yaxşısı oxuya bilərdi. Məktəb mahalda öz ənənələri, müəllim kollektivi və yetişdirmələri ilə sayılıb-seçilən təhsil ocaqlarından biri idi".

1935-ci ildə Məmməd Səid Ordubadi, Mikayıl Müşfiq, Mehdi Hüseyn və başqalarından ibarət nümayəndə heyəti İrəvanda səfərdə olarkən pedaqoji texnikumun müəllim və tələbə kollektivi ilə görüş keçirmişlər. M.S.Ordubadi texnikumun müəllim və tələbə heyəti qarşısında çıxış edərkən bu tədris ocağının fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Türk Pedaqoji Texnikumu bizdə böyük intibahlar yaratdı. Türk mədəniyyətinin nə qədər böyük inkişafda olduğunun canlı şahidi olduq".

İrəvanda Azərbaycan əbədi-mədəni mühitinin canlanması, inkişafı və formalaşmasında Türk pedaqoji texnikumunun müəllim və tələbə kollektivinin müstəsna xidmətləri olmuşdur. Belə ki, İrəvanda Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Zəngi" qəzetinin (1924) azərbaycanlılar arasında yayılmasında və tirajının artırılmasında, yeni türk əlifbasının tətbiqində və təbliğində, savadsızlığın aradan qaldırılmasında texnikumun müəllim və tələbə heyəti çox böyük rol oynamışdı. "Zəngi" qəzetinin ən fəal müxbirləri və təbliğatçıları da məhz bu təhsil ocağının müəllim və tələbələri idi. Tağı Camalov, Mehdi Bəşirov, Rüstəm Tağıyev, Nəriman Fəxri, Telman Nəzərli, Yunis Tağıyev, Qasım Əliyev, Əbilfət

İbrahim, Əliqulu Səlimov, Abbas Tahir, Əbülfət Rəhimov, Adil Axundov, Musa Qafarov, Nurəli Qurbanov, Şamo Hətəmov, Nəzər Paşayev, Məmməd Paşayev və başqaları "Zəngi" qəzetinin ən fəal müxbirləri idi.

Azərbaycanın bir çox görkəmli ziyalıları: Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal, Yusif Vəzir Çəmənzəminli, Sabit Rəhman, Səməd Vurğun, Əbülhəsən, Nigar Rəfibəyli, Mikayıl Rəfili, Vəli Xuluflu, Süleyman Rüstəm və başqaları bu təhsil ocağının qonağı olmuşlar.

İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi yarandığı gündən 1947-ci ilin ortalarına qədər 1370 nəfər orta ixtisas təhsilli pedaqoji kadr hazırlamışdı.

Pedaqoji məktəbin fəaliyyətini ardıcıl izlədikdə aydın olur ki, müxtəlif vaxtlarda bu təhsil ocağına rəhbərlik etmiş Mehdi Kazımovun, Bəhlul Yusifovun, Həbib Məhəmmədzadənin, Əsgər Cəfərovun və məktəbin müəllimlərindən Məmməd Həsənovun, Əyyub Babayevin, Rəziyyə İsmayılovanın, Sadiq Heydərzadənin, Zərri Qurbanovanın, Təvəkkül Kərimovun, Həbib Əkbərovun, Hüseyn Əliyevin, Cəfər Ələkbərovun, Şura Fərhadovanın, Surə Babayevanın, Raziyə Abdullayevanın və başqalarının fədakar əməyi sayəsində tələbələrin yüksək təhsil səviyyəsi təmin edilirdi.

1949-cu ilə qədər fəaliyyət göstərən İrəvan Türk Pedaqoji Məktəbi təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda, Qərbi Azərbaycanda ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynamışdır. Bolşevik cildinə bürünmüş erməni daşnaklarının məkrli siyasəti nəticəsində təhsil tariximizin ən şanlı sə-hifələrindən birini təşkil edən böyük, şərəfli tarixi bir yol keçmiş bu təhsil ocağı da kollektiv şəkildə deportasiyaya məruz qoyularaq 1949-cu ildə Azərbaycanın Xanlar rayonuna köçürülmüş, 1972-ci ilə qədər orada fəaliyyət göstərmişdir.

İrəvan Pedaqoji Məktəbinin məzunları olmuş sonralar yüksək elmi dərəcələrə nail olmuş, uzun illər elm və təhsil sahəsində çalışmış, akademik Budaq Budaqov, akademik Zərifə Budaqova, prof. Əli Fərəcov, prof. Yusif Yusifov, prof. Cəfər Cəfərov, prof. Süleyman Məmmədov, prof. Nəriman Əliyev, prof. Fərhad Fərhadov, prof. Qasım Mustafayev, prof. Tapdıq Əmiraslanov, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəcəf Nəcəfov, ictimai xadim Qəşəm Aslanov, dosent Zəhra Əliyeva və ADPU-nun professoru olmuş Kövsər Tarıverdieva və başqaları da bu məktəbin fəal məzunları olmuş, xalqımızın fədakar, peşəkar müəllimləri, elm adamları, ictimai xadimləri kimi xalqa, vətənə ləyaqətlə xidmət etmişlər. Azərbaycanın bir çox görkəmli ziyalıları – akademik Yusif Məmmədəliyev, Ələşrəf Bayramov, Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal Paşayev, Səməd Vurğun, Mikayıl Rəfili, Yusif Məmmədəliyev və başqaları bu pedaqoji məktəbdə olmuş, tələbələrlə görüşmüş, müəyyən dövrlərdə dərs də demişlər (Cəfərov C.Ə.,Allahverdiyev C.V. 2017.s.25)

1925-ci ildə İrəvanda iki illik müəllimlər kursu, 1936-cı ildə İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutu, 1937-ci ildə iki illik Müəllimlər İnstitutu, 1945-1988-ci illərdə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi fəaliyyət göstərmişdir.

İrəvan Pedaqoji İnstitunda dos. Əkbər Yerevanlı, dos. Lətif Hüseynzadə, dos. Əli Dalqılıcov, dos. Fərrux Rzayev, dos. İsrafil Məmmədov, dos. Mehdixan İrəvanski, dos. Hüseyn İsmayılov, dos. Məhərrəm Hüseynov, dos. Vilayət Əliyev, prof. Fərhad Fərhadov, prof. Rəhim Allahverdiyev, prof. Həmid Əliyev, prof. Mirəli Seyidov, Adil Süleymanov, Sabir Əsədov, Arzuman Qəmbərov, Təvəkkül Kərimov kimi tanınmış pedaqoq alimlər dərs demişlər.

**Nəticə**

İrəvan pedaqoji İnstitutunda dərs demək üçün müxtəlif illərdə Bakıdan müəllimlər də dəvət olunmuşdur: Prof. İnayət Bektaşi, prof. Firudin Hüseynov, prof. Əkbər Bayramov, prof. Əhməd Seyidov,

prof. Hüseyn Əhmədov, prof. Xalid Əlmirzəyev, prof. Cəfər Cəfərov, prof. Abbas Zamanov, prof. Mürsəl Həkmov, prof. Nizami Xudiyev, prof. Cəlil Nağıyev, Bəxtiyar Vahabzadə və başqalarının xalqa, millətə fədakar xidmətləri olmuşdur (3, s.3). Onu da xüsusi qeyd edək ki, cənab Prezident İlham Əliyevin 30 avqust 2006-cı ildə İrəvan Azərbaycan Dram Teatrının 125 illik yubileyinin, 29 dekabr 2006-cı ildə İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyinin keçirilməsi haqqında sərəncamları, milli-mənəvi dəyərlərimizin inkişafında mühüm əhəmiyyət kəsb etməkdədir.

## ƏDƏBİYYAT

1. İlham Əliyev. “İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsihaqqında” Sərəncam. Bakı şəhəri, 29 dekabr 2021-ci il/https: //president.az/az/articles/view/55116
2. Cəfərov C.Ə., Allahverdiyev C.V. Təhsil tariximizdən: İrəvan Pedaqoji Məktəbi. Bakı: Orxan NPM, 2017, 240 s.
3. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ADPU, 2021, 538 s.

## SUMMARY

**Rufat Huseynzade**

### IRAVAN NATIONAL ENVIRONMENT OF EDUCATION, EDUCATIONAL INSTITUTIONS TEACHERS AND GRADUATES

In 1881, Yerevan Men's Gymnasium, Yerevan Teachers' Seminary and Yerevan Girls' Pro-Gymnasium were opened in Yerevan. Yerevan Men's Gymnasium has been in existence for 4 years and has trained qualified personnel in various professions. Ismayil Bey Shafibeyov was the head of the Azerbaijan department of the gymnasium. Among the teachers of Yerevan Boys' Gymnasium were the following: Mirza Alakbar Elkhanaov Molla Taghi Mahmud oglu, Firudin bey Kocherli, Ismayil bey Shafibeyov, Rahim Khalilov, Mirza Mammadvali Gamarlinski, Akhund Mammadbagir Taghizade and others. On November 8, 1881, the Yerevan Teachers' Seminary was opened in the city of Yerevan. Akhund Mammad Bagir Gazizadeh was the head of the Azerbaijan department of the Yerevan Teachers' Seminary. Firudin Bey Kocherli, Ismayil Bey Shafibeyov, J. Alek-Barbeyov, Jalil Mammadguluzade, M. Teregulov and others contributed greatly to the activity of the seminary. The Yerevan Pedagogical School, which operated in 1824-1949, had important services in the training of pedagogical personnel. Latif Huseynzade from Azerbaijani language and literature, Muzaffar Nasirli, Abbas Azeri from history, Nazar Pashayev, Tajira Bagirova from pedagogy and psychology, Zahra Abbasova from pedagogy and psychology, Mammad Hasanov and Kerem Abbasov from physics and mathematics taught at this technical school. Among the first graduates of the technical school, Amir Abasguluyevi, Adil Akhundov, Nariman Aliyev, Pasha Makinsky, Abulfat Ibrahim, Imangulu Karimov, Nariman Fakhri, Rubaba Baghirbeyova, Nasir Aliyev, Musa Gafarov, Abulfat Rahimov, Tagi Baghirov, Nazar Pashayev, Mirza Bashirov can be mentioned. In 1935, Mammad Said Ordubadi, Mikayil Mushfiq, Mehdi Huseyn had a meeting with the teachers and students of the Pedagogical Technical College. M.S. Ordubadi said during his speech: "The Turkish Pedagogical Technical College created great renaissance in us. We witnessed the great development of Turkish culture."

***Key words:*** *Yerevan, educational environment, educational institutions, teachers, graduates*

**РЕЗЮМЕ**

**Руфат Гусейнзаде**

**ИРАВАНСКАЯ НАЦИОНАЛЬНАЯ СРЕДА ОБРАЗОВАНИЯ, ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЙ ПРЕПОДАВАТЕЛИ И ВЫПУСКНИКИ**

В 1881 году в Ереване были открыты Ереванская мужская гимназия, Ереванская учительская семинария и Ереванская женская прогимназия. Ереванская мужская гимназия существует уже 4 года и готовит квалифицированные кадры различных профессий. Исмаил бек Шафибеков был заведующим Азербайджанским отделением гимназии. Среди учителей Ереванской мужской гимназии были: Мирза Алекпер Эльханаов Молла Таги Махмуд оглы, Фирудин бек Кочерли, Исмаил бек Шафибеков, Рагим Халилов, Мирза Мамедвали Гамарлинский, Ахунд Мамедбагир Тагизаде и другие. 8 ноября 1881 года в городе Ереване была открыта Ереванская учительская семинария. Азербайджанским отделением Ереванской учительской семинарии руководил Ахунд Мамед Багир Газизаде.Большой вклад в деятельность семинарии внесли Фирудин бек Кочерли, Исмаил бек Шафибеков, Дж.Алек-Барбеков, Джалил Мамедгулузаде, М.Терегулов и другие. Ереванское педагогическое училище, действовавшее в 1824-1949 гг., имело важные заслуги в подготовке педагогических кадров. В этом техникуме преподавали Лятиф Гусейнзаде по азербайджанскому языку и литературе, Музаффар Насирли, Аббас Азери по истории, Назар Пашаев, Таджира Багирова по педагогике и психологии, Захра Аббасова по педагогике и психологии, Мамед Гасанов и Керем Аббасов по физико-математическому факультету. Первыми выпускниками техникума могут стать Амир Абасгулуев, Адиль Ахундов, Нариман Алиев, Паша Макинский, Абульфат Ибрагим, Имангулу Каримов, Нариман Фахри, Рубаба Багирбекова, Насир Алиев, Муса Гафаров, Абульфат Рагимов, Таги Багиров, Назар Пашаев, Мирза Баширов. упомянул. В 1935 году Мамед Саид Ордубади, Микаил Мушфик, Мехти Гусейн встретились с преподавателями и студентами педагогического техникума. PC. Ордубади сказал во время своего выступления: «Турецкий педагогический технический колледж создал в нас большое возрождение. Мы стали свидетелями большого развития турецкой культуры».


***Ключевые слова:*** *Ереван, образовательная среда, образовательные учреждения, учителя, выпускники.*

**LƏZİFƏ QASIMOVA**
*Bakı Dövlət Universiteti*
*reraro@mail.ru*

## FİRİDUN BƏY KÖÇƏRLİ VƏ İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI

*1881-ci il 8 noyabrda İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır. İrəvan Müəllimlər Seminariyası maarifçilik və pedaqoji hərəkatın inkişafında və müəllim kadrlarının hazırlanmasında xüsusi xidmətlər göstərmiş, pedaqoji fikrin əsas mərkəzlərindən biri kimi tanınmış, şöhrət tapmış və Qafqazda ictimai pedaqoji mühitin formalaşmasına, inkişafına, pedaqoji kadrların hazırlanmasına güclü təsir göstərmişdir.*

*Azərbaycanlı pedaqoji kadrların hazırlığında mühüm xidmətləri olan bu təhsil müəssisəsi 1918-ci ilin 6 avqustunda Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır. Seminariyanın direktoru, görkəmli maarifçi Yakop Stepanoviç Şuşevski əsas diqqəti tədris ocağını müəllim kadrları və şagird kontingenti ilə təmin etməyə yönəltmişdi. Onun səyi nəticəsində birinci il seminariyaya 9 müəllim və 42 şagird cəlb edilmişdi. Seminariyanın Azərbaycan bölümünün rəhbəri Axund Məmmədbağır Qazızadə olmuşdur. Seminariyaya Azərbaycanın müxtəlif bölgələrindən bura təhsil almağa gəlmişlər. İrəvan Müəllimlər Seminariyası xalqın maariflənməsində, intellektual potensialının yüksəlməsində mühüm rol oynamışdır. İrəvan Müəllimlər Seminariyasının fəaliyyətində Qori Müəllimlər Seminariyasının azərbaycanlı məzunlarının, xüsusilə böyük pedaqoq, maarif xadimi, görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərlinin böyük rolu olmuşdur. Görkəmli maarifçi-demokrat Firidun bəy Köçərlinin ilk pedaqoji fəaliyyəti İrəvan pedaqoji mühiti ilə bağlı olmuş, buradakı təhsil müəssisəslərində-İrəvan Kişi Gimnaziyasında, Uluxanlı kənd məktəbində və İrəvan Müəllimlər Seminariyasında dərs demiş, məhsuldar elmi pedaqoji fəaliyyət göstərmiş, geniş maarifçilik fəaliyyəti ilə məşğul olmuşdur.*

***Açar sözlər:*** *İrəvan Müəllimlər Seminariyası, Firidun bəy Köçərli, Qazax Müəllimlər Seminariyası*

**Giriş**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 dekabr 2021-ci il tarixli “İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında” 3094 nömrəli verdiyi sərəncamında deyilir: “1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır”.

1. İrəvan Müəllimlər Seminariyası və kadr hazırlığı

İrəvan Müəllimlər Seminariyası Qafqaz məktəbləri üçün müəllim kadrlarının hazırlanmasında müstəsna rol oynamışdır. “Azərbaycanda pedaqogika elminin yayılması və inkişafı, xalq maarifinin bütöv bir dövrü İrəvan Müəllimlər Seminariyası məzunlarının və müəllimlərinin fəaliyyəti ilə bağlıdır. Görkəmli Azərbaycan maarifçisi Firidun bəy Köçərlinin pedaqoji fəaliyyəti də bu təhsil ocağında təkmilləşmiş və o 10 il bu təhsil müəssisəsində çalışmışdır” (4, s.457).

2. İrəvan Müəllimlər Seminariyası və Firidun bəy Köçərli

Firidun bəy Köçərli həmçinin İrəvan Kişi Gimnaziyasında Azərbaycan bölməsinin müdiri, eyni

zamanda Azərbaycan dili müəllimi vəzifəsində də çalışmış, maarif məsələlərinə dair dəyərli məqalələr yazmış, Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türki" adlı dərslik tərtib etmiş, "Təlimati-Sokrat" (1891) adlı fəlsəfi əsərini nəşr etdirmiş, rus klassikllərindən bədii tərcümələr də etmişdir. Daha sonra 1912-ci ildə uşaqlar üçün yazdığı "Balalara hədiyyə" kitabı çap olunmuş, 1913-cü ildə yazdığı "Azərbaycan ədəbiyyatı tarixi" adlı üç cildlik əsərini tamamlamışdır. 1920-ci ildə "Vətən dili"nin I hissəsinin yenidən işlənməsində böyük xidmətlər də göstərmişdir.

İrəvanda pedaqoji fəaliyyəti dövründə Firidun bəy Köçərlini düşündürən mühüm məsələlərdən biri əhalinin savadlanması, tərəqqi etməsi təhsil alması idi. Amma bu tərəqqinin qarşısını bir tərəfdən rus çarizmi alırdısa, digər bir qismi isə fanatik din xadimləri, xürafatçı mollalar idi.

İrəvan mühiti ilə yaxından tanış olan F.Köçərli öz təəssüratlarını belə bölüşürdü: "İrəvanın 202 üləması çox geridə qalmışdır. Onlar o dərəcədə cəhalətə qapılıblar ki, hətta "Tərcüman" qəzetini oxumağı, mühəriri İsmayıl bəy Qaspıralı sünni olduğu üçün qadağan edirlər. Bunlar başa düşmürlər ki, inkişaf üçün nəinki Şərqdən, hətta xristian Qərbindən də kitab, qəzet gətirmək vacibdir".

Firidun bəy Köçərli İrəvan Müəllimlər Seminariaysında çalışdığı müddətdə xalqın maariflənməsində, tərəqqisində böyük işlər görmüşdür. İrəvan teatrının əsaslı fəaliyyəti demək olar ki, Firidun bəy Köçərli ilə başlamışdır. 1886-cı ildə Firidun bəy Köçərli İrəvanda teatr tamaşası təşkil etmişdir. Həmin tamaşa - M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilmişdir. F.Köçərli İrəvan şairlərinin əsərlərini, folklor nümunələrini toplamış və bu gün seçilmiş əsərlərində "İrəvan şairləri"adlı məqaləsində deyilir: "Şəhri İrəvani keçmişdə mərkəzi-üləma, füzəla və şüəra olub, Axund Molla Məhəmməd İrəvcanı kimi böyük alim və mücahidlər yetiribsə də, axır vaxtlarda belə fazil və alim şəxslərdən və dəqiq ədiblərdən və xoştəb şairlərdən məhrum qalıbdır..." (2, s.215).

Deyə bilərik ki, İrəvan Müəllimlər Seminariyası öz fəaliyyəti ilə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda xalq məktəbi və təhsilin, mədəni-maarif işinin inkişafında, pedaqoji kadrların hazırlığında böyük rol oynamışdır. Həmin təhsil ocaqlarının milli təhsil tariximizdəki yeri və rolu bu gün də öyrənilir, tədqiq edilir, gənc nəslin, tələbələrin elmi-pedaqoji biliyinin artırılmasında geniş istifadə edilir.

## ƏDƏBİYYAT

1. Əliyev İ.H. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2021-ci il tarixli, 3094 nömrəli sərəncam/ Xalq qəzeti, 30 dekabr, 2021-ci il.
2. Firudin bəy Köçərli. Azərbaycan ədəbiyyatı. İki clddə. Bakı: Avrasiya, 2005. I cild, 564 s., II cild, 560 s.
3. Cəfərov C., Allahverdiyev C. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb, 2017.
4. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ADPU, 2021, 538 s.

## SUMMARY

**Lazifa Gasimova**

## FIRUDIN BEY KOCHERLI I IRAVANSKAYA UCHITEL'SKAYA SEMINARIYA

On November 8, 1881, the Yerevan Teachers' Seminary was opened in the city of Yerevan. The Yerevan Teachers' Seminary provided special services in the development of the enlightenment and pedagogical movement and in the training of teaching staff, was recognized and gained fame as one of the main centers of pedagogical thought, and had a strong impact on the formation and development of the public pedagogical environment in the Caucasus, as well as the training of teaching staff.

This educational institution, which had important services in the training of Azerbaijani pedagogical personnel, was closed on August 6, 1918, at the same time as the Ulukhanli school. Yakop

Stepanovich Shushevsky, the director of the Yerevan Teachers' Seminary, an outstanding educator, focused on providing the educational center with teaching staff and student contingent. As a result of his efforts, 9 teachers and 42 students were involved in the first-year seminary. Akhund Mammadbagir Ghazizade was the head of the Azerbaijani department of the seminary. Young people from various regions of Azerbaijan, especially from Nakhchivan, have come to the seminary to study here. The Yerevan Teachers' Seminary played an important role in the education of the people, the rise of their intellectual potential and their progress. The Azerbaijani graduates of the Gori Teachers' Seminary, especially Firudin Bey Kocherli, a great educator, educationalist, outstanding literary critic, played a great role in the activity of the Yerevan Teachers' Seminary. The first pedagogical activity of the outstanding educationist-democrat Firudin Bey Kocharli was related to the Yerevan pedagogical environment, he taught in the educational institutions here - Yerevan Men's Gymnasium, Ulukhanli Village School and Yerevan Teachers' Seminary, performed productive scientific pedagogical activities, and carried out extensive educational activities. has been engaged with.

***Key words:*** *Yerevan, Teachers' Seminary, Firudin Bey Kocherli, Kazakh Teachers' Seminary*

## РЕЗЮМЕ

**Лазифа Гасимова**

## ФИРУДИН БЕЙ КОЧЕРЛИ И ИРАВАНСКАЯ УЧИТЕЛЬСКАЯ СЕМИНАРИЯ

8 ноября 1881 года в городе Ереване была открыта Ереванская учительская семинария. Ереванская учительская семинария оказала особые услуги в развитии просветительско-педагогического движения и в подготовке педагогических кадров, получила признание и получила известность как один из главных центров педагогической мысли, оказала сильное влияние на становление и развитие общественной педагогической среды на Кавказе, а также подготовка педагогических кадров.

Это учебное заведение, имевшее важные заслуги в подготовке азербайджанских педагогических кадров, было закрыто 6 августа 1918 года одновременно со школой Улуханлы. Якоп Степанович Шушевский, директор Ереванской учительской семинарии, выдающийся педагог, сосредоточил свое внимание на обеспечении учебного центра преподавательским составом и студенческим контингентом. В результате его усилий в семинарии-первокурснике было задействовано 9 преподавателей и 42 студента. Ахунд Мамедбагир Газизаде был заведующим азербайджанским отделением семинарии. В семинарию приехали учиться молодые люди из разных районов Азербайджана, особенно из Нахчывана. Ереванская учительская семинария сыграла важную роль в воспитании народа, подъеме его интеллектуального потенциала и прогресса. Большую роль в деятельности Ереванской учительской семинарии сыграли азербайджанские выпускники Горийской учительской семинарии, особенно великий просветитель, просветитель, выдающийся литературовед Фирудин-бек Кочерли. Первая педагогическая деятельность выдающегося просветителя-демократа Фирудин бека Кочарли была связана с ереванской педагогической средой, он преподавал в здешних учебных заведениях – Ереванской мужской гимназии, Улуханлинской сельской школе и Ереванской учительской семинарии, вел плодотворную научно-педагогическую деятельность, вел вела обширную просветительскую деятельность.

***Ключевые слова:*** *Ереван, учительская семинария, Фирудин-бек Кочерли, казахская учительская семинария.*

**EMİN ŞIXƏLİYEV**
*AMEA Naxçıvan Bölməsi*
*emin.amea@yahoo.com*

# ERMƏNİSTAN DÖVLƏTİNİN YARADILMASININ BÖYÜK GÜCLƏRİN GEOSİYASİ PLANLARINDA YERİ, TARİX VƏ REALLIQLAR

*Bu araşdırma başlıca olaraq Böyük Britaniyanın Milli Arxivlərində yer alan sənədlər əsasında hazırlanmışdır. İngiltərə arxivləri erməni məsələsi ilə bağlı reallıqların aşkara çıxarılmasında əsas rol oynayan qiymətli materiallara sahibdir. Bu sənədlərdə erməni amilinin, Ermənistan dövlətinin yaradılmasının böyük güclər, xüsusilə də İngiltərə üçün əhəmiyyətini ifadə edən ingilis dövlət adamlarının öz aralarındakı yazışmaları və yüksək səviyyəli rəsmi şəxslər tərəfindən imzalanmış çox gizli raportlar mövcuddur. Bu materiallar Panturanizm ideologiyasının ortadan qaldırılmasında ermənilərdən baryer olaraq istifadə edildiyini, Türkiyə ilə Azərbaycan, dolayısı ilə türk dünyası arasındakı əlaqələrin kəsilməsi hesaba qatılaraq Ermənistan dövlətinin yaradılmasının Antanta dövlətlərinin birbaşa maraqları daxilində olduğunu, bu məqsədlə maliyyələşdirilən və hərbi baxımdan silahlandırılan erməni dəstələrinin 1917-1920-ci illər arasında Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda yerli əhaliyə qarşı sistemli soyqırımı siyasəti yeritdiklərini sübut edir.*

***Açar sözlər:*** *Ermənistan, İngiltərə, Osmanlı, Azərbaycan, Naxçıvan, geosiyasi maraqlar, qətliamlar.*

Son dövrlərdə elmi dairələrdə Ermənistan dövlətinin qurulması məsələsi ən çox müzakirə olunan məsələlərdən birinə çevrilib. Lakin təəssüf ki, bu barədə ya Osmanlı dövləti ittiham olunur, ya da Azərbaycan Xalq Cümhuriyyəti liderləri günahlandırılır. Ola bilsin ki, müəyyən vəzifəli şəxslərin və ya hansısa qüvvələrin marağı ola bilərdi. Amma ümumilikdə bir dövləti və liderləri ittiham etmək doğru yanaşma deyildir. Sual olunur, "Ermənistan dövlətini yaratmaqda Osmanlı dövlətinin və Cümhuriyyət liderlərinin nə marağı ola bilərdi? Yəni bu düşüncə nə qədər məntiqlidir?" Heç kim nədənsə çıxıb demir ki, İngiltərə Osmanlı dövlətini yıxıb, onun torpaqları üzərində ayrı-ayrı dövlətlər yaradaraq özündən asılı vəziyyətə salmaq istəyirdi. Bəs İngiltərənin bu torpaqlarda nə işi var idi? Ermənistanı niyə yaratmaq istəyirdi? Bu barədə niyə Osmanlıya diktə edir və təzyiqlər göstərirdi? İngiltərənin Bakıda nə işi var idi? Niyə Bakı işğal olunmuşdu? Eyni zamanda ingilislər niyə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanı işğal edərək burada general-qubernatorluq yaratdılar? Onlar nəyə görə Naxçıvanı ermənilərə vermək istəyirdilər? Bəli, nədənsə İngiltərə görməzdən gəlinir!

Qeyd etmək lazımdır ki, Böyük Britaniya arxivlərində yer alan sənədlər tarixi reallıqların ortaya çıxarılması və araşdırılan problemin daha obyektiv meyar içərisində dəyərləndirilməsi baxımından olduqca vacibdir. Bu materiallar Pantu¬ranizm ideologiyasının ortadan qaldırılmasında ermənilərdən baryer olaraq istifadə edildiyini, Türkiyə ilə Azərbaycan, dolayısı ilə türk dünyası arasındakı əlaqələrin kəsilməsi hesaba qatılaraq Ermənistan dövlətinin yaradılmasının Antanta dövlətlərinin birbaşa maraqları daxilində olduğunu, bu məqsədlə maliyyələşdirilən və hərbi baxımdan silahlandırılan erməni dəstələrinin 1917-1920-ci illər arasında Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda yerli əhaliyə qarşı sistemli soyqırımı siyasəti yeritdiklərini sübut edir.

İngiltərənin Azərbaycanla bağlı geosiyasi maraqları, ümumilikdə Qafqaz siyasəti "tarixi Şərq məsələsi"nin ayrılmaz tərkib hissəsi kimi dəyərləndirilməlidir. İnkaredilməz həqiqətdir ki, tarixən hər bir

böyük güc öz imperialist siyasətini həyata keçirərkən müxtəlif bəhanələrdən və amillərdən istifadə etmişdir. Hal-hazırda dünyada baş verən hadisələrdə, böyük güclərin geosiyasi maraqlarında da bu amilləri müşahidə etmək mümkündür. Günümüzdə böyük güclərin geosiyasi maraqlarının rallaşdırılmasında Əl-Qaidə, İşid, Boko Haram və s. kimi terrorist təşkilatların oynadığı rolu XIX əsrin sonu-XX əsrin əvvəllərində Armenakan, Hnçaq, Daşnaksütyun kimi erməni terror təşkilatları oynayırdılar. Metodlar eynidir, sadəcə olaraq günümüzdə rollar dəyişib. XX əsrin əvvəllərində İngiltərənin istər Osmanlı ərazilərində, istərsə də Cənubi Qafqazda öz geosiyasi maraqlarını həyata keçirməsində başlıca rol oynayan amillərdən biri də heç təsadüfi deyildir ki, məhz ermənilər olmuşdur. Qeyd etmək lazımdır ki, ermənilər XIX əsrin sonları və XX əsrin əvvəllərində İngiltərənin geosiyasi maraqlarının icraçısına çevrilsələr də, öz növbəsində dünyanın bu böyük gücündən gələcəkdə qurulması planlaşdırılan “Ermənistan Dövləti” üçün öhdəliklər də tələb etmişdilər. Yəni ingilis-erməni əlaqələrini bir növ “qarşılıqlı istifadə və faydalanma” münasibətləri çərçivəsində xarakterizə etmək olar. Qeyd olunduğu kimi, İngiltərə “erməni məsələsi”nin ortaya çıxmasında və millətlərarası problemə çevrilməsində başlıca rol oynamış, özünün Osmanlı torpaqları ilə bağlı ekspansionist siyasətində, o cümlədən Cənubi Qafqazla bağlı geosiyasi maraqlarında ermənilərdən əsas vasitə kimi istifadə etmişdir.

Bu təşviq hərəkətlərinin pərdə arxası nə idi? Ermənilərin vəziyyəti ingilisləri bu qədər yaxından maraqlandırırdısa, nəyə görə Osmanlı torpaqları üzərində özündən asılı milli dövlətlər yaratmaq siyasətinə uyğun olaraq Şərqi Anadoluda bir erməni dövlətini qurmadı? Osmanlı İmperiyasını parçalayaraq onun torpaqları üzərində mandatlıq rejimi ilə özündən asılı çox sayda dövlətlər (ərəb dövlətləri – E.Ş.) yaradan İngiltərə baxımından bu ərazidə “erməni dövləti”nin yaradılması çətin idimi? “Erməni dövləti”nin yaradılması planının Cənubi Qafqaza ixrac edilməsinin əsas səbəbləri nə idi? Bu suallara cavab verə bilmək üçün o dövrün siyasi proseslərini diqqətlə təhlil etmək lazım gəlir.

Geostrateji baxımdan Cənubi Qafqaz İngiltərə üçün böyük əhəmiyyətə malik idi. Xüsusilə Azərbaycan, onun iri sənaye-maliyyə mərkəzi olan Bakı üzərində nəzarətin ələ keçirilməsi və Xəzər limanının zəbt olunması cəhdləri ingilis siyasətinin ənənəvi və prioritet istiqamətlərindən idi, eyni zamanda onun ümumilikdə Avrasiya ilə bağlı əsas geosiyasi konsepsiyasına uyğun gəlirdi. Xəzər dənizinə sahib olmaq təkcə Qafqaza deyil, eyni zamanda Mərkəzi Asiyada nəzarət qazanmaq, Hindistana gedən yolu qorumaq demək idi (4, s. 208). Lakin 1917-ci ildə Rusiyada baş verən hadisələr nəticəsində Qafqaz Osmanlı dövləti üçün açıq dəhlizə çevrildi. Meydana gələn proseslər türklərə Qafqaz vasitəsilə İrana və Orta Asiyaya girmək üçün əlverişli imkan yaratmış, Hindistan təhlükə altına düşmüşdü. Çar Rusiyasında ortaya çıxan qarışıqlıqlar türklərə öz planlarını tətbiq etmək üçün bir fürsət yaratmış, Pantürkist (və ya Turançılıq) arzuların reallaşması üçün də bir yol açılmışdı.

XX əsrin əvvəllərində Türkiyənin siyasi və ictimai xadimləri arasında Osmanlı dövlətinin tənəzzülünün qarşısını almaq məqsədilə həyata keçirilməli olan siyasi tədbirlərlə bağlı gərgin müzakirələr gedirdi. İttihadçılar iqtidarı ələ keçirdikdən sonra “Osmançılıq, İslamçılıq və Türkçülük” cərəyanlarının hər üçünə əsaslanan bir siyasət yeritməyə başladılar. Lakin Birinci Dünya müharibəsi başladıqdan sonra inkişaf edən proseslər nə Osmançılığın, nə də İslamçılığın reallaşmasının mümkün ola bilməyəcəyini ortaya qoydu. Müharibə irəlilədikcə, ərəblərin ingi¬lislərə, ermənilərin də Antanta dövlətlərinə yaxınlaşmalarını görən rəhbərlik bütün diqqətini Qafqaz və Orta Asiyaya yönəldərək dövlətin rəsmi ideologiyası olaraq Türküçülük, daha doğrusu, Turançılıq xəttini qəbul etdi (bu barədə ətraflı bax: 3, s. 33-35; 6, s. 58; 2, s. 130). Digər tərəfdən, o dövrün məşhur türkçülərindən Yusif Akçura, Məmməd Emin Əfəndi, Xalidə Edip, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Ziya Göyalp və başqalarının İttihad və Tərəqqi Partiyasına daxil olmaları, türkçülük ideologiyasının partiya tərəfindən

mənimsənilməsi Osmanlı dövlətinin xarici siyasətinə əsaslı təsir göstərmiş və xarici siyasətin "Turançılıq" üzərində qurulub möhkəmlənməsinə gətirib çıxarmışdı (3, s. 35).

Qeyd olunduğu kimi, 1917-ci ildə Rusiyada meydana gələn qarışıqlıqlar türklərə öz planlarını və pantürkist ideyalarını tətbiq etmək üçün bir fürsət yaratmış, beləliklə, Qafqaza və Xəzər ətrafına, oradan da Orta Asiyaya doğru irəliləmə ehtimalı daha da güclənmişdi. Şərqdəki ingilis maraqları baxımından ciddi təhlükə kəsb edən bu proseslər, Türkiyə, Azərbaycan, İran, Əfqanıstan və Orta Asiya türklərinin birliyi əsasında dünyanın siyasi sistemində çox güclü bir Türk-İslam ittifaqının meydana gəlməsi ehtimalı İngiltərəni müəyyən tədbirlər almaq məcburiyyəti qarşısında qoydu. Çünki belə bir ehtimalın reallaşması İngiltərənin maraqlarına Orta Asiyada, daha sonra isə Cənubi Asiyada zərbə vura bilərdi (5, s. 320). Panturanizm təhlükəsi ilə qarşılaşan İngiltərə Qafqazı strateji baxımdan İran, Əfqanıstan və daha da önəmlisi Hindistandakı iqtidarı üçün həyati dərəcədə əhəmiyyətli hesab edirdi (1, s. 18). Yaxın gələcəkdə türk hegemonluğunun qurulması ehtimalı nəzərə alınaraq İngiltərənin Asiyadakı mövqeyi baxımından real təhlükə mənbəyinin aradan qaldırılması üçün mütləq şəkildə Türkiyə ilə Türk Dünyası arasında bir sədd yaradılmalıydı. Məhz bu baxımdan baş verən proseslər qarşısında lazımi tədbirlər alınmalıydı.

İngiltərə hökuməti Türkiyə ilə türk dünyası arasındakı yeganə baryerin ermənilər olduğunu anlamışdı. Bu səbəbdən Qafqazı türk ordularına qarşı müdafiə etmək üçün tərcih edilən millət ermənilər oldu. Məşhur ingilis tarixçisi, Birinci Dünya müharibəsi dövründə Hərbi Nazirliyin nəzdində fəaliyyət göstərən Təbliğat Bürosunun tanınmış nümayəndələrindən olan Arnold Toynbi İngiltərənin Xarici İşlər Nazirliyinin nüfuzlu əməkdaşlarından cənab Kidstona yazırdı ki, "Bizim siyasətimiz erməniləri türk boyunduruğundan xilas etməkdir. Bu baxımdan mənafelərimizdən biri fəal şəkildə Turan hərəkatına mane olmaqdır" (11).

Erməni ordusunun İngiltərə tərəfindən hərbi və maliyyə dəstəyi ilə təmin olunduğu bu dövrdə "erməni məsələsi"nə yönəlik siyasi açılımlar da özünü göstərdi. Ermənilər türklərə qarşı müharibə qarşılığında Ermənistanın gələcəyi ilə bağlı öhdəliklər tələb etdilər. Bu tələblər qarşısında London İngilis-Erməni Komitəsinin sədri və İngiltərə Parlamentinin üzvü Anerin Uilyams 4 dekabr 1917-ci ildə İngiltərənin məşhur diplomatlarından olan Xarici İşlər nazirinin müavini, eyni zamanda Millətlər Cəmiyyətinin qurucusu Lord Robert Sesilə göndərdiyi məktubda ermənilərə yardım göstərilməsinin zəruri olduğunu bildirirdi. Anerin Uilyams hətta ermənilərin silahlandırılmasını və Andranik kimi silahlı dəstə liderlərindən istifadə edilməsini də son dərəcə gərəkli hesab edirdi (9). Məktubda ingilis, fransız və amerikan hökumətlərinin də erməni ordusuna maddi dəstək vermələrinin vacib olduğu bildirilmiş, sərhədlərdən kənarda yaşayan ermənilərin pul yardımı ilə Şərqi Anadoluya və Qafqaza gətirilmələrinin qaçılmaz olduğu yazılmışdı (9).

Nəticədə, İngiltərənin Hərbi Kabineti özünün 7 dekabr 1917-ci il tarixli iclasında ermənilərə maliyyə dəstəyi verilməsi haqda qərar qəbul etdi (13, p. 103). Bununla yanaşı İngiltərənin Xarici İşlər Nazirliyi erməni könüllü dəstələrinin Qafqaza fərqli yollardan gəlməsinə də köməklik göstərmiş (8), eyni zamanda Hərbi Kəşfiyyat fondlarından da ermənilərə pay ayrılmışdı (13, p. 101).

Qeyd etmək lazımdır ki, pul, qızıl, müxtəlif silah və sursatlar ermənilərə panturanizm təhlükəsinə qarşı baryer təşkil etmək üçün verilirdi (10). Panturanizm təhdidinə qarşı ermənilərdən istifadə siyasəti Versaldakı Antanta Ali Hərbi Şurası ingilis hərbi mütəxəssislərinin 1917-ci ilin dekabr ayındakı memorandumunda açıq şəkildə göstərilməkdədir: "Ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində erməni qüvvələrindən gələcəkdə türklərin diz çökdürülməsi üçün faydalanmaq olar" (14).

İngilislərin bu dəstəyi sayəsində külli miqdarda silah və sursat təmin edən ermənilər Azərbaycanın bir çox bölgələrində ciddi etnik təmizlik siyasəti gerçəkləşdirdilər. Xüsusilə Naxçıvanda, Zəngəzurda, Qarabağda və s. bölgələrdə törədilən qırğınlar erməni silahlı dəstələrinin rəhbəri olan, adı sonraları erməni milli qəhrəmanı kimi özdəşləşən Andranik Ozanyan və onun kimi radikal türk düşmənçiliyi ilə tanınan Nijde, Dro, Doluxanyan və s. rəhbərliyi altındakı erməni gücləri tərəfindən həyata keçirilmişdi.

Düzdür, İngiltərə qarşılıqlı istifadə və faydalanma münasibətləri çərçivəsində vəd etdiyi “Böyük Ermənistan” dövlətini yaratmasa da, Türkiyə ilə türk dünyası arasında tampon dövlət olaraq daşnak Ermənistan dövlətinin qurulmasında bilavasitə yaxından iştirak etmiş, ümumtürk birliyi arasına baryer kimi erməniləri yerləşdirərək öz milli və geosiyasi maraqlarına uyğun olaraq Panturanizmin qarşısına sədd çəkmiş, beləliklə, öz vəzifəsini tamamlamışdır. Digər bir ifadə ilə, Ermənistan dövlətinin qurulması İngiltərənin, ümumilikdə Antantanın məqsədləri içərisində olub, Panturanizm təhlükəsinə qarşı baryer kimi “əsas maneə” rolunu oynamış və bu yolda milyonlarla sterlinqlər xərclənmişdir. 1918-ci ilin oktyabr ayında İngiltərənin Xarici İşlər naziri Artur Balfur tərəfindən erməni milli nümayəndəsinin rəhbəri Poqos Nubar paşaya ünvanlanan yazıda qeyd olunurdu ki, Ermənistan dövlətinin yaradılması Antantanın, xüsusilə İngiltərənin müharibə məqsədlərindən biridir (12). Bu yazı açıq bir etirafdır.

Ümumiyyətlə, məsələnin mahiyyətinə endikcə aydın olur ki, Antantanın, xüsusilə də İngiltərənin iradəsi olmasaydı, erməni dövlətinin qurulmasından və mövcudiyyətindən söhbət gedə bilməzdi. Bu barədə fransız tədqiqatçısı Jorj de Malevil də “1915-ci il erməni tragediyası” adlı əsərində göstərir: “İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində qurulub qısa bir ömür (1918-1920) sürən erməni respublikası bütün tarixi boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti idi” (7, s.15).

Göründüyü kimi, müstəqil daşnak Ermənistan dövləti məhz İngiltərənin geosiyasi maraqlarına uyğun olaraq onun iradəsi ilə yaradılmışdır. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, “Böyük Ermənistan” ideyası ilə yaşayan radikal erməni millətçilərinin düşüncəsinin əksinə olaraq müstəqil Ermənistan dövləti Osmanlı İmperiyasının ərazilərində deyil, Cənubi Qafqazda qurulmuşdur. Bunun da müəyyən səbəbləri var idi. Əgər “Böyük Ermənistan” dövləti Şərqi Anadoluda yaradılsaydı, bu dövlət İngiltərənin deyil, Rusiyanın nəzarəti altına keçə bilərdi. Rusiyanın 1828-ci ildə “Erməni vilayəti”nin əsasını qoymaqla gələcəkdə ondan hücum mərkəzi olaraq düşünməsini, “erməni kartı”ndan yararlanaraq gələcəkdə Osmanlı dövlətini parçalamaq, Şərqi Anadoluda yaşayan erməniləri müstəqillik və “Böyük Ermənistan” vədləri ilə qızışdıraraq, onları öz himayəsi altında bir araya gətirərək Osmanlı ərazilərinə yiyələnmək arzusunda olması faktlarını xatırlatmaq kifayətdir. Bu ehtimalı nəzərə alan İngiltərə Osmanlı torpaqlarını öz nəzarətində saxlaya bilmək üçün Erməni dövlətinin qurulması məsələsini Cənubi Qafqaza ixrac etmişdir. Beləliklə, İngiltərə Türkiyə ilə türk dünyası arasında tampon dövlət olaraq müstəqil daşnak Ermənistan dövlətinin qurulmasında bilavasitə yaxından iştirak etmiş, ümumtürk birliyi arasına baryer kimi erməniləri yerləşdirərək öz milli və geosiyasi maraqlarına uyğun olaraq panturanizmin qarşısına sədd çəkmiş, Ermənistan dövlətini yaratmaqla türk dünyasının bağrına bir xəncər saplamış, beləliklə, öz vəzifəsini tamamlamışdır. İngilislərin sonradan bölgəni tərk etmələri ilə Daşnak Ermənistanı sovetləşdirilmiş və Rusiyanın nəzarəti altına keçmişdir. Heç şübhəsiz ki, geosiyasi maraqların toqquşmasının nəticəsi olaraq Ermənistan dövlətinin yaradılması o tarixdən günümüzə qədər Azərbaycan üzərində ağır dərin izlər buraxmışdır. Hal-hazırda Rusiyanın Cənubi Qafqazdakı maraqlarının icraçısı olaraq ənənəvi vəzifəsini həyata keçirən Ermənistan bölgədə sabitliyi pozmaqda, Azərbaycan və Türkiyəyə qarşı əsas təhlükə mənbəyi kimi çıxış etməkdədir.

## ƏDƏBİYYAT


1. Bülent Gökay. Bolşevizm ile emperyalizm arasında Türkiye (1918-1923). İstanbul: "Tarih Vakfı Yurt" yayınları, 1998, 264 s.
2. Çolak Mustafa. Alman imparatorluğunun Doğu siyaseti çerçevesinde Kafkasya politikası (1914-1918). Ankara: "Türk Tarih Kurumu" yayınları, 2006, 324 s.
3. Qafarov Vasif. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, 474 s.
4. Qasımlı Musa. Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr – 1918-ci il noyabr) / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 191-224.
5. Öke Mim Kemal. Siyonizm'den uygarlıklar çatışmasına Filistin sorunu. İzmir: Ufuk kitapları, 2002, 507 s.
6. Yılmaz Reha. Birinci Dünya müharibəsinin başlanğıcında Osmanlı dövlətinin Qafqaz siyasəti / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı: "Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu" nəşriyyatı, 2008, s. 57-74.
7. Малевил Жорж де. Армянская трагедия 1915 года. Баку: Элм, 1990, 128 с.
8. PRO. FO. 371/3016/237541, J.A.Malcolm to Ronald Graham (Foreign Office), December 14th, 1917.
9. PRO. FO. 371/3062/231202, Aneurin Williams to Lord Robert Cecil (Foreign Office), December 4th, 1917.
10. PRO. FO. 371/3018/245628, Foreign Office to Sir G.Buchanan, December 30th, 1917.
11. PRO. FO. 371/3448/178219, A.J.Toynbee to Mr. Kidston, October 26th, 1918.
12. PRO. FO. 371/3404/162745, Arthur James Balfour to Boghos Nubar Pasha, (12, Avenue du Trocadero, Paris), October 12nd, 1918.
13. PRO CAB. 23/4, War Cabinet, 294, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Friday, December 7th, 1917, at 5:30 PM.
14. PRO. CAB. 25/120, S.W.C. 1, Secret, "Note on the Military Situation in Armenia" by Supreme War Council, British Section, Versailles, December 3th, 1917.


## SUMMARY

**Emin Shikhaliyev**

### THE PLACE OF CREATION OF THE ARMENIAN STATE IN THE GREAT POWERS' GEOPOLITICAL PLANS: HISTORY AND REALITIES

This study was prepared mainly on the basis of documents of the National Archives of the United Kingdom. The UK archives contain precious materials that play a key role in revealing the truth about the Armenian question. These documents contain correspondence between British officials and top secret reports signed by senior officials, which shows the importance of the Armenian factor, creation of the Armenian state for major powers, particularly the United Kingdom. These materials prove that the Armenians were used as a barrier for the elimination of the ideology of Panturanism, and the creation of an independent Armenian state by cutting ties between Turkey and Azerbaijan and indirectly the Turkic

world was in the interests of the Entente countries, and Armenian detachments funded and armed for this purpose carried out a systematic policy of genocide against the local population of the South Caucasus, particularly of Azerbaijan in 1917-1920.

***Key words:*** *Armenia, England, Ottoman empire, Azerbaijan, Nakhchivan, geopolitical interests, the great powers, massacres*

## РЕЗЮМЕ

**Эмин Шихалиев**

## МЕСТО СОЗДАНИЯ ГОСУДАРСТВА АРМЕНИЯ В ГЕОГЕОЛОГИЧЕСКИХ ПЛАНАХ ВЕЛИКИХ ДЕРЖАВ: ИСТОРИЯ И РЕАЛИИ

Это исследование было разработано в основном на основе документов, хранящихся в Национальных архивах Великобритании. Британские архивы содержат ценные материалы, которые играют ключевую роль в выявлении реалий армянского вопроса. В этих документах существуют переписки между английскими официальными лицами, их подписи и множество секретных рапортов, выражающих особое значение армянского фактора, создания Армении для Великих Держав, особенно для Англии. Эти материалы свидетельствуют о том, что армяне использовались в качестве барьера в искоренении идеологии Пантуркизма, принимая во внимание разрыв связей между Турцией и Азербайджаном, также косвенно Тюркским миром, создание Армянского государства было в непосредственных интересах союзников Антанты, доказывает, что в 1917-1920-х годах финансируемые и вооружённые армянские группировки проводили систематическую политику геноцида против местного населения на Южном Кавказе, особенно в Азербайджане.

***Ключевые слова:*** *Армения, Англия, Османская империя, Азербайджан, Нахчыван, геополитические интересы, великие державы, резня.*

**VAHİD RZAYEV**
*Naxçıvan Dövlət Universiteti*

# İRƏVAN İCTİMAİ- MƏDƏNİ MÜHİTİ VƏ F.KÖÇƏRLİ

*Məqalədə görkəmli maarifçi, pedaqoq-metodist, Azərbaycan ədəbiyyat tarixi elm sahəsinin yaradıcısı Firudin bəy Köçərlinin 10 ilə yaxın bir dövr ərzində İrəvan ictimai-mədəni mühitində fəaliyyətindən bəhs olunmuşdur. İrəvan Azərbaycanın qədim bölgələrindən biri olmuş, özünəməxsus xüsusiyyətləri ilə fərqlənmiş, xalqımızın yaxşı adət-ənənələrinin daşıyıcı olmuşdur. Digər bölgələrimizin insanları da böyük həvəslə bu diyarda yaşamış, işləmiş, yerli əhali ilə qaynayıb qarışmışlar. Firudin bəy Köçərli təkcə İrəvan gimnaziyasında dərs deməklə kifayətlənməmiş, şəhərin ədəbi, pedaqoji mühitinin fəal iştirakçısı olmuş, yeni məktəbin yaradıcılarının, yeni tədris-tərbiyə üsularını həyata keçirmək istəyən müəllimlərin müdafiəsinə qalxmış, onların xalq üçün faydalı olan təcrübələrini ümumin müzakirəsinə çıxararaq təbliğ etmişdir. F.Köçərli Qori seminariyasında mənimsədiyi pedaqoji bilikləri əhali arasında yaymağın ilk təşəbbüskarlarından biri olmuşdur. Onun İrəvan mühitindəki fəaliyyəti həm tarixi təcrübə kimi, həm də pedaqji fikrimizin mənzərəsinin zənginləşməsi amili kimi aktualdır və yeni-yeni tədqiqatların mövzusu olmağa layiqdir.*

***Açar sözlər:*** *İrəvan ictimai-mədəni mühiti, İrəvan gimnaziyası və F.Köçərli, İrəvan Müəllimlər Seminariyası, İrəvan müəllimləri və F. Köçərli, şəhər əhalisi arasında F. Köçərlinin nüfuzu*

İrəvan XX əsrin 20-ci illərinə qədərki böyük bir tarixi dövr ərzində Azərbaycanın mədəni mühit mərkəzlərindən biri olmuşdur. Şəhər və onun mahalları özünün maddi mədəniyyət abidələri, mənəvi resurslarının zənginliyi və spesifik inkişaf xüsusiyyətləri ilə həmişə Azərbaycanın siyasi, iqtisadi, mədəni həyatının tərkib hissəsi kimi tanınmışdır. Bölgə Azərbaycan ictimai fikrinin, elm və təhsilinin, mədəniyyətimizin müxtəlif sahələrinin və dini ideologiyamızın inkişafına misilsiz töhfələr vermişdir. XIX əsr və XX əsrin əvvəllərində rus imperiyasının mənfur müstəmləkə siyasətinin nəticələri nə qədər ağır olsa da, irəvanlılar milli kimliyini, azərbaycançılıq ruhunu qoruyub saxlaya bilmişdi.

Möhtəşəm İrəvan qalası, Sərdar sarayı, Cümə məscidləri, Əmir Saəd məqbərəsi, Pir Hüseyn türbəsi, Həzrət Abbas ocağı, Dəlmə bağları, Xan Bağı, karvansaraylar və hamamlar Azərbaycanın, İslam Şərqinin sənət inciləri idi. XIX əsrin dövrü nəşrləri və arxiv sənədləri şəhərdə 12 cümə məscidi olduğunu təsdiqləyir. “Кавказский календарь” təqvim nəşrində “Qafqazın ən gözəl məscidləri” adlı yazıda Zaqafqaziyada böyük əhəmiyyətə malik Camelər və məscidlərdən bəhs olun ki, burada Qərbi Azərbaycanın və Naxçıvan diyarının məscidləri, pir və ziyarətgahları haqqında da maraq doğuran fikirlər yer almışdır. Bütün Zaqafqaziyada böyük əhəmiyyətə malik məscidlər sırasında İrəvan şəhərindəki üç məscidin adı çəkilir ki, bu da şəhərin Cümə məscidlərinin həqiqətən möhtəşəm olduğu haqqında təsəvvürlərimizi bir daha zənginləşdirir. Mənbədə adı çəkilən məscidlər bunlardır:

1. İrəvan Zalxan məscidi;
2. Hüseynəli xanın şiələr üçün tikdirdiyi İrəvan Camisi;
3. İrəvan Novruz Əli bəy məscidi [3, s.156].

İrəvan şəhəri “İrəvani” təxəllüsü ilə tanınan böyük mütəfəkkirlər, ilahiyyatçı alimlər, şair və aşıqlar yetişdirmişdir. Orta əsrlərdən XX əsrin əvvəllərinədək yaşayıb yaratmış “İrəvani”lərin əsərləri Azərbaycan Şərq-İslam gülzarlığının gözəl çiçəkləri, nadir inciləri idi. Bu böyük şəxsiyyətlərin “İrəvani” təxəllüsündən istifadə etməsi onların vətən, yurd sevgisini, azərbaycançılıq hisslərini çox yaxşı ifadə edir.

XIX əsrdə də İrəvan şəhəri Azərbaycan mədəni həyatı üçün əhəmiyyətli olan hadisələrlə zəngindir. Sənətdə və ədəbiyyatda yeni düşüncə qatının, zamanının qabaqcıl ideyalarının formalaşması da bu mühiti səciyyələndirən xüsusiyyətdir. Mirzə Qədim İrəvani (1825-1875) Azərbaycan rəsm sənətində müasir meyilləri gətirə bilən ilk rəssamlardan biridir. XIX əsrin sonlarında ədəbi mühitdə də canlanma açıq hiss olunurdu. “İrəvanda yaşayan ziyalılardan Əbülfət Şahtaxtinskinin tərcümə etdiyi İohann Volfhanq Hötenin “Gənc Verterin iztirabları”, Ə.Z.Qəmərlinskinin tərcümə etdiyi Molyerin “Zorən təbib”, Firudin bəy Köçərlinin tərcümə etdiyi “Təlimati-Sokrat” kitabları azərbaycanlı ziyalıların ilk tərcümə ədəbiyyatı hesab edilir. Həmin vaxtdan etibarən İrəvanda mövcud olan mətbəələrin bir qismi ərəb əlifbası şriftləri gətizdirərək Azərbaycan dilində kitab çapına başlamışdılar. Firudin bəy Köçərlinin A.S.Puşkindən tərcümə etdiyi “Torçu və balıq” hekayəsi 1892-ci ildə İrəvanda çap edilmişdi” [4, s.148].

XIX əsr və XX əsrin əvvəllərində İrəvan ictimai-mədəni mühitində yeni pedaqoji ideyaların yayılması, təhsil müəssisələrinin dəyişmiş zamanla səsləşməsi ziyalı-müəllimlərin həyata keçirmək istədiyi başlıca vəzifə hesab olunurdu. Təhsildə və pedaqoji fikirdə yenilik hissləri bölgənin Azərbaycan mühit mərkəzlərindən biri kimi nüfuzunun artmasına əhəmiyyətli təsir göstərdi. Şəhərin təhsil həyatında hadisə sayıla biləçək bir çox tədris müəssisələri böyüyən nəslin elmi biliklərə yiyələnməsi, dünyagörüşünün yeniləşməsi istiqamətində fəliyyəti təqdir olunmalı təxrübə idi. Sofiya Stasyulayeviçin azərbaycanlılar üçün pansion-məktəbi, şair və müəllim Məşədi Molla İsmayılın Hacı Kazımovun, əslən Cənubi Azərbaycandan olan Mirzə Kazım Əsgərzadənin, Axund Mirzə Əlinin, Mirzə Abbas Məmmədovun, Mirzə Həsən Rüşdiyyə Təbrizlinin ana dili məktəbləri, rus-Azərbaycan oğlan və qız məktəbləri, M.Kəngərlinin xüsusi məktəbləri və digər məktəblər İrəvan şəhərində fəaliyyət göstərən təhsil müəssisələri idi.

İrəvan Müəllimlər Seminariyasının məzunları da azərbaycanlı uşaqlar üçün xüsusi məktəblərin yaradılması işində fəallıq göstərmişlər. Əsgər Axundov 1911-ci ildə İrəvan Seminariyasının tam kursunu bitirmiş, 1912-ci ildə pansionu olan III dərəcəli I sinifli məktəb açmışdır [5, v.124].

İrəvan qəza məktəbinin əsasında yaradılmış İrəvan oğlan gimnaziyasının və İrəvan Müəllimlər Seminariyasının 1881-ci ildən fəaliyyətə başlaması İrəvan mədəni- pedaqoji mühitinin şərəfli səhifələri idi. Hər iki təhsil ocağı gənclərin rus dili vasitəsilə rus və Avropa mədəniyyətini, pedaqoji nəzəriyyəsini və təhsilini müasir ideyalarını mənimsəməsi işində birbaşa və şəriksiz imkanlara malik idi.

İrəvan ictimai-mədəni mühitində dövrünün qabaqcıl pedaqoji-metodik ideyalarını praktik işdə həyata keçirən məktəbdar müəllimlər, tədris və tərbiyə sahəsində müasir düşüncəni, milli mənafeləri (ana dilinin tədrisi, təlimin ana dilində aparılması, zamana uyğun həyat tərzinin formalaşdırılması və s.) müdafiə və təbliğ edən pedaqoqlar fəaliyyət göstərmişlər. Şəhər təhsil mühitinin müəllimləri təkcə İrəvan və onun mahallarından ibarət olmamışdır. Bu mühit özündə Azərbaycanın digər bölgələrindən– Naxçıvandan, Qarabağdan, Təbriz və onun ətraf bölgələrindən gələn tanınmış maarifçilərlə yerli ziyalıların birgə fəaliyyətini ehtiva edirdi. Maarifçi hərəkatın uğurları bu ziyalıların ideya-əqidə birliyinin nəticəsi idi. Onların adları indi də hörmətlə çəkilir, pedaqoji fəaliyyəti və yaradıcılıq irsi öyrənilir. Molla Tağı Mahmud oğlu, Mirzə Ələkbər Elxanov, Molla İsmayıl Kazımov, Mirzə Kazım Əsgərzadə, Axund Mirzə Əli, Mirzə Abbas Məmmədov, Mirzə Həsən Rüşdiyyə Təbrizli, Axund Məmməd Bağır Tağızadə, Axund Məmmədbağır Qazızadə, Mirzə Rəhim Xəlilov, İsmayıl Şəfibəyov, Mirzə Məmmədvəli Qəmərlinski, Cəfər bəy Cəfərbəyov, Məmməd Axundov, Mirzə Cabbar Məhəmmədzadə, Məmmədqulu bəy Kəngərli, Cəlil Məmmədquluzadə və başqalarının İrəvan mühitinin formalaşmasında xüsusi əməyi olmuşdur.

1885-ci ildə Qori Müəllimlər Seminariyasının tam kursunu bitirib təyinatla İrəvan oğlan

gimnaziysının Azərbaycan dili müəllimi kimi fəaliyyətə başlayan gələcəyin böyük maarifçisi, pedaqoq-metodist, ədəbiyyat tarixi ilə bağlı tədqiqatları ilə məşhur olan Firudin bəy Köçərli də gənc olmasına baxmayaraq, bu ictimai-mədəni mühitin fəal, sayılıb seçilən iştirakçılarından olmuşdur. Firudin bəy Köçərli ilk günlərdən çoxşaxəli fəaliyyəti ilə şəhər ictimaiyyətinin, pedaqoji mühitin diqqətini cəlb etmişdir. Onun pedaqoji fəaliyyəti İrəvan gimnaziyası ilə birbaşa bağlı olmuşdur. F. Köçərli müəllim kimi nümunəvi fəaliyyəti ilə yanaşı, mətbuatda maraqlı yazılarla çıxış edir, elmi və ədəbi əsərlərin tərcüməsilə məşğul olur, şəhərin mədəni tədbirlərində fəal iştirak edir, teatr tamaşalarının hazırlanmasında xüsusi səylə çalışır və buna nail olurdu.

Firudin bəy Köçərli İrəvan oğlan gimnaziyasında fəaliyyət göstərdiyi dövrdə (1885-1890) Azərbaycan dili, hüsnxətt fənlərini tədris etməklə yanaşı, pansion mürəbbisinin köməkçisi vəzifəsini də daşımışdır. Gənc müəllim pedaqoji işdə qazandığı uğurlara görə dövlət məmurlarının diqqətini cəlb etmiş, rütbə və mükafatlara layiq görülmüşdür. Maarifçi-pedaqoq tezliklə şəhərin azərbaycanlı müəllim-ziyalıları ilə sıx dostluq əlaqələri yarada bilir. Belə dostluq və munis ünsiyyətin nəticəsi idi ki, F.Köçərli sonralar Molla İsmayıl Kazımov (Bəzmi), Mirzə Kazım Müttəle və başqalarının müəllimlimliklə bərabər, şeir yaradıcılığını Azərbaycan ədəbiyyatının tarixinə aid tədqiqatında geniş çəkildə işıqlandırmışdır. Buradan aydın olur ki, F.Köçərli Molla İsmayıl Bəzmi ilə dostluq əlaqələrinin yaranmasında tanınmış məktəbdarın yeni tədris üsullarını mənimsəyib öz məktəbində istifadə etməsi, getdiyi doğru yolda möhkəm iradə, dönməzlik nümayiş etdirə bilməsi idi. Böyük maarifçi yazırdı: "Bu fəqir bəndə İrəvan gimnaziyasına yeni müəllim təyin olunan vaxtlarda Mirzə İsmayılla tanış olub və bəzi vaxtlar onun üsuli-tədrisi ilə tanış olmaq üçün məktəbinə gedərdim və onun artıq şövq ilə təlimi-ətfalə məşğul olmağını görüb, dəxidə artıq onunla yaxınlaşmağa və dostluq əlaqəsini bağlamağa səy edərdim. Çifayda, əcəl fürsət verməyib, ol cənabın dostluğundan bizi məhrum qıldı və hicrətin 1305-ci sənəsində şərbəti-mərgi içirtdi" [6, s.203].

Bu hər iki ziyalını biri-birinə yaxınlaşdıran şeiriyyətə sevgi, yeni pedaqoji ideyalara əqidəli baxışlar idi. Məqalədə F.Köçərli təsis etdiyi xüsusi məktəbdə Mirzə İsmayılın qabaqcıl tədris üsul və vasitələrindən bacarıqla istifadə etməsi və təbliği sahəsində uğurlarından bəhs edir və yazırdı: "Məşədi İsmayıl bizim məktəblərdə babadan bəri işlənən köhnə qayda üzrə dərs verməyin qüsurunu anlayıb, üsul-sövti ilə təlim vermək üçün özü təzə bir əlifba tərtib etmişdi. Amma mərhumun bu işi nə qədər əhəmiyyətli və xeyirli idisə də, köhnə qaydanı sevən və işıqdan bixəbər olan adamlara o, xoş gəlmədi. Mərhumun təzə əlifbası avam və əhli-qərəz lisanında gülünc və iztehza üçün bir alət oldu. Amma möhtərəm müəllim bu istehza və kinayələrə əsla mültəfit olmayıb, öz işində sabitqədəm və möhkəm dururdu" [6, s.203].

F.Köçərlinin İrəvan haqqında tədqiqatlarda geniş şəkildə istifadə olunan fikirləri şəhərin Rusiyanın işğalına qədərki dövrü, bu mühitin keçmişinin möhtəşəmliyi ilə bağlı dəqiq, aydın təsəvvürlər yaradır: "Şəhri-İrəvan keçmişdə mərkəzi üləma, füzəla və şüəara olub. Axund Molla Məhəmməd İrəvani kimi böyük alim və müctəhidlər yetirib". Lakin şəhərin indiki halı müəllifi məyus edir və acı təəssüf hissi ilə bu vəziyyəti qələmə alaraq yazır ki, İrəvan "axır vaxtlarda belə fazil və alim şəxslərdən və dəqiq ədiblərdən və xoştəb şairlərdən məhrum qalıbdır. Elm və mərifət əshabı varsa da, onların ədədi avama nisbət çox azdır, yoxluq mənziləsindədir" [6, s.202].

F.Köçərlinin "Azərbaycan ədəbiyyatı"nda bəhs etdiyi ikinci İrəvanlı şair və müəllim Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədovdur. Ədəbi mühitdə "Müttəle" təxəllüsü ilə tanınmışdır. Əslən Təbriz mahalındandır. Gənc yaşlarından İrəvana gəlmiş İran dövlətinin konsulluğunda işləmişdir. Mirzə Kazım həm də "təlimi-ətfala artıq meyli olmağa görə, məxsusi məktəb açıb müəllimlik edərdi və məktəb işlərinə

artıq səliqə və qayda üzrə aparıb mübtədilərə üsuli-sövti ilə təlim edərdi. Mirzə Kazımın məktəbi cümlə İrəvan əhlinin rəğbətini kəsb etmişdir və əlhəq ol öz şüğlü sənətində bir qüsur qoymayıb canü dildən təlimi ətfala qurşanmışdı” [6, s.207].

Mirzə Kazım Əsgərzadənin ədəbi irsinə aid yazısında F.Köçərli belə bir maraq doğuran fikri də qeyd edir ki, müəllim Mirzə Kazımın “təlim-tərbiyə məsələlərindən səva fikrü zikri yox idi”. Mirzə Kazımın yeni pedaqoji bilikləri daha əhatəli və dərindən öyrənməyə səy göstərməsi, onları təcrübi işdə tətbiq etmək həvəsi əsl pedaqoqa xas olan keyfiyyətlər idi. Mirzə Kazım gimnaziyanın müdiri Brajnikovdan icazə alıb F.Köçərlinin və hazırlıq sinfinin müəllimi Çistiyakovun dərslərini dinləyirmiş. İrəvanda məktəb açmış Axund Mirzə Əli də Mirzə Kazımla birlikdə “Üsuli-cədidlə aşina olmaq üçün mütəvəffa Çistiyakovun gah evinə və gah klasına (sinifinə) tez-tez gəlib, lazım olan məlumatı ondan əxz edərdi. Çistiyakov isə hər iki müəllimlərə artıq mehribançılıq və iltifat göstərib, əldən gələn köməyi müzayiqə etməzdi və özü məktəbdarların məktəblərini ziyarət edib, nəzərə gələn qüsurların islahında bəzli-himmət edərdi” [6, s.207].

F.Köçərli şəhərin ana dili məktəblərinin yaradıcılarından biri olan Mirzə Abbas Məmmədovun yazdığına əsaslanaraq Mirzə Kazım Əsgərzadənin 5 kitab müəllifi olduğunu yazırdı. Onlardan dördü- “Elmi-hesab”, “Sərfü-nəhv”, “Elmi-bəlağət”, “Vacibəti-şəriyyə” dərslikləri ana dili məktəblərində şagirdlərin təlimi üçün nəzərdə tutulmuşdu. Beşinci kitab ”Teatr hekayəsi” adlanırdı. Təəssüf ki, bu dərsliklər çap olunmamış, əlyazmaları itib batmışdır.

F.Köçərli şəhərin pedaqoji mühiti ilə mütəmadi olaraq sıx əlaqə saxlamış, məktəblərdəki nümunəvi təlim-tərbiyə işlərini diqqətlə izləmiş, müəllimlərlə fikir mübadiləsi aparmış, onların tədris prosesində əldə etdiyi nailiyyətləri şəhərin pedaqoji mühitində təbliğ etmiş, yaymağa çalışmışdır. Böyük maarifçi yeni üsullu tədris müəssisələrinin-ana dili məktəblərinin fəaliyyəti barədə Azərbaycan mətbuatı vasitəsilə ictimai fikrin diqqətinə çatdırmağı da vacib bilərək yazırdı ki, “...iki-üç sənə var ki, şəhərimizdə (İrəvanda-V.R.) bir-iki qaydalı və səliqəli məktəb açılıb, müsəlman balaları da sair millətin ətfalı təki təzə üsul ilə elm və ədəb təhsil edirlər.

Onlar da köhnə məktəblərin adətinə münəkis quru həsrin və tozlu palazın üstə oturmayıb, taxtalar (ckəmiyələr) üstə əyləşirlər. Səhərdən axşama təki ağır havalı məktəbdə toz-torpağın içində təzə və cavan ömürlərini çürütməyib hər saatda 5-10 dəqiqə təsfiyyəyi hava üçün dişarı çıxıb, oynayıb şad olurlar. Əlbəttə bu məktəblərin bu halda qüsurları da çoxdur, amma ümid var ki, İrəvan əhli hümmət edib az zamanda məktəblərin hər bir maehtiyaçını düzəldələr” [7].

“İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamında göstərildiyi kimi İrəvan Müəllimlər Seminariyası “40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksək ixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır” [8].

Təkcə İrəvan mahalı üçün yox, Azərbaycanın bir çox bölgələrinin müəllim kadrlarına olan ehtiyacının ödənilməsinə müəyyən köməklik göstərmiş bu təhsil müəssisəsi ilə F. Köçərlinin sıx əlaqə saxladığı, buradakı təhsilin gedişi, mədəni tədbirlərin iştirakçısı olduğu haqda mənbələrdə və tədqiqatlarda fakt və məlumatlar var. F. Köçərlinin “Kəşkül” məcmuəsindəki aprel 20 1890-cı il tarixdə nəşr olunmuş məqaləsi böyük maarifçinin seminariyanın mədəni həyatı ilə yaxın təmaslar qurduğunu, azərbaycanlı gənclərin uğurlarına necə diqqətlə, həssaslıqla yanaşdığını sübut edir. Müəllif məqalədə seminaristlərin hazırladığı teatr tamaşasından bəhs edir. F.Köçərli yazırdı: ”Bu aprelin 4-də

darülmüəllimində elm və kamal kəsb edən müsəlman cavanları hökumət rüsxəti ilə Mirzə Fətəli Axundovun "Məstəli şah" ünvanında tərtib etdiyi komediyanı oynayıb cümlənin diqqət və hörmətini cəlb etdilər. Komediya türk dilində oynandı.

Təklif olunan komediya icmanın bir o qədər xoşuna gəldi ki, pərdənin axırında afərin sədası göyə çıxıb üç-dörd dəfə pərdənin qalxmağını və oynayanların zühura gəlməyini əl çalıb tələb edirdilər. "Məstəli şah"dan sonra "Könülsüz" ünvanında bir pərdədə tərtib olunmuş təfriqə (vodevil) oynandı. O dəxi hamının xoşuna gəldi.

Məlum ola ki, "Könülsüz nigah"ı yazan darülmüəllimin şagirdlərindən Rzayev familiyasında bir şagirddir ki, müsəlmanca oxuyub-yazmağa artıq şövqü var. Müsəlman camaatı bu dərəcədə komediyadan razı qaldılar ki, dübarə təkrarına talib və xahişmənd oldular" [7].

Göstərilən məqalənin yazılma və nəşr tarixinə aid bəzi tədqiqatlarda yanlış, elmi əsası olmayan fikirlər yer almışdır. Bu məsələ ilə bağlı yazıçı-publisist, tədqiqatçı-alim İsrafil Məmmədov ilk mənbələr əsasında həqiqi elmi nəticələr əldə etmiş, məqalənin nəşr olunma və yazılma tarixi haqqında doğru-düzgün, əsaslı və etibarlı fikir söyləmişdir [9, s.13-14].

F.Köçərlinin müəllim kimi fəaliyyətinin ilk on ili (1885-1895) İrəvan ictimai-pedaqoji mühitində formalaşmış, bu mühitdə kamil bir pedaqoq kimi yetişmişdir. Gənc maarifçi-pedaqoqun İrəvan ziyalıları ilə sıx dostluq əlaqələri yaranmış, xoş ünsiyyəti ilə şəhər əhalisi arasında hörmət və nüfuz sahibi olmuşdur. Qədim Azərbaycan şəhəri İrəvan da bütün ömrü boyu maarifə, maarifçiliyə susamış F.Köçərlinin yaddaşında həmişə xoş xatirələr kimi qalmış, onun ruhunda, yaradıcılığında azərbaycançılıq idealının bir hissəsinə çevrilmişdir. İrəvan Firudin bəy Köçərli üçün Azərbaycan adlı bir məmləkətin canından, qanından ayrılmaz parçası idi.

Azərbaycan pedaqoji fikrinə aid elmi məktəbin yaradıcısı professor Əhməd Seyidovun ilk dəfə işıqlandırdığı bir məsələ dediklərimizi təsdiq edə bilər. 1906-cı ildə İrəvanda rus-Azərbaycan məktəbinin müdiri, əslən Qarabağdan olan Həşim bəy Nərimanbəyovla bir neçə nəfər arasında münaqişə yaranmışdı. Həmin şəxslər H.Nərimanbəyov haqqında mətbuatda qərəzli, heç də yaxşı olmayan fikirlər söyləmişdilər. Şəhərin müasir pedaqoji-metodik düşüncəyə sahiblənmiş müəllimlərindən biri kimi tanınan H.Nərimanbəyov mətbuatda bu şəxslərə cavab verməli olur. Məsələ F.Köçərlinin də diqqətini cəlb edir. O, bu məsələ ilə bağlı "İrşad" qəzetinin 2 iyun 1906-cı il tarixli sayında "Məişətimizə dair" adlı məqalə dərc etdirir. Görkəmli maarifçi məqalədə bir neçə şəxsin H.Nərimanbəyovun cüzi bir təqsirini şəxsqərəzlik mövqeyindən qiymətləndirmələrini düzgün hesab etmir, təcrübəli müəllimin isə İrəvanda özünü qərib sayması haqqında fikirlərinə şərik çıxmadığını bildirərək yazırdı ki, H.Nərimanbəyovun" özünü qərib və İrəvanı qürbət hesab etməsi düz deyil. Əvvala, Qarabağ əhli İrəvanda, İrəvan əhli Şamaxıda, Şamaxı əhli Salyan və Naxçıvanda özlərinə qərib deməkləri səhih deyil...xüsusən o halda adam öz qardaşlarının yanında ola, bir dillə danışıb bir adət üzrə güzəran edə...nə qədər ki, biz İrəvan əhlini tanıyırıq, onlar yad yerin adamlarını dimdikləyən deyillər, beləliklə, onlara qəribnəvaz, desək səhv etmiş olmarıq, ancaq bir para adamlar var ki, həmişə şərarət edib, öz xeyirlərini görüb, şəxsiqərəz və təmannalarına uyub, insaf və mürüvəttdən xaric iş görməkdədilər. Bu qism vücudlar öz vətəninin içində də az deyil. Ona binaən bir neçə nəfərin bihimmət, kəmfürsət və nəfspərəst olmağın bütün camaata həm bərabər tutmaq və isnad etmək rəva deyil "[10, s.173].

F.Köçərlinin bu yazısının şəhər əhalisi ilə H.Nərimanbəyov arasında baş verən hadisənin səngiməsinə, yaxşılığa doğru getməsinə əsaslı təsir göstərdiyi şübhəsizdir. Bu həm də Firudin bəy Köçərlinin İrəvan şəhərinin əhalisi arasında böyük nüfuza malik olduğunu göstərir. Həşim bəy Nərimanbəyovun 1917-ci ilədək bu şəhərdə rus-Azərbaycan oğlan və eyni adlı qız məktəbinə müdirlik

etməsi də fikrimizi təsdiqləyir [11]. Bu məqalə və böyük maarifçi-pedaqoqun həyat fəaliyyəti və yaradıcılığı göstərir ki, F.Köçərlinin bir mütəfəkkir kimi simasını, vətəninə, xalqına xidmət etmək təşnəliyini öyrənmək, hərtərəfli araşdırmalar aparmaq vacibliyi gündəmdən düşməməlidir. Çünki bu böyük xəzinədə azərbaycançılıq ruhu, Vətənə və xalqa necə və nə üçün xidmət etmək idealı özünü bütün aydınlığı və zənginliyi ilə göstərir, insanlara hansı amallar yolunda mübarizə aparmağı öyrədir, onları ali məsləklərlə yaşamağa vadar edir.

**ƏDƏBİYYAT**

1. Шопен И. И. Исторический памятник состояния Армянской области в эпохи ее присоединения к Российской империи. СП:1852, 1236 с.
2. Отчет ведомости о действиях и состоянии училищ в 1862 г. // Ermənistan Respublika MDA, F.1, s.1, iş 664, 38 v.
3. Мечети более замечательныя Закавказие. /Кавказский календарь на 1886 год, Тифлис, 1885, - 453 с.
4. Mustafa N.Y. İrəvan şəhəri. Bakı: -«Red N Line» MMC - 2020, 292 s.
5. Ermənistan MDTA, F.19, s.1, iş 325, 125 v.
6. Köçərli F. Azərbaycan ədəbiyyatı. İki ciliddə, II cild, Bakı: “Elm”,1981
7. İrəvandan məktub /Firidun bəy Köçərli, //Kəşkül. 1890. №104. 20 aprel.
8. “İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı, Bakı, 29 dekabr2021-ci il
9. Məmmədov İ. S. İrəvan dəftəri III.Teatr tariximizdən səhifələr. Bakı: Qismət, 2009
10. Seyidov Ə.Y.Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən, Bakı: “Maarif”, 1987
11. Rzayev V. İlk seminaristlərdən biri: Həşim bəy Nərimanbəyov, Y.Məmmədəliyev adına NDU, Elmi əsərlər, Naxçıvan: 2000, №6, s. 41-44

**CƏLAL ALLAHVERDİYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

## İRƏVANDA AZƏRBAYCAN ƏDƏBİ MÜHİTİ

XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlər ilə yanaşı, İrəvan Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Azərbaycanda elm və mədəniyyət tarixinə "İrəvani" təxəllüsü ilə daxil olmuş və öz önəmli töhfələrini vermiş xeyli alimlərə, ədəbiyyat və mədəniyyət xadimlərinə rast gəlmək olar. Mirzə Qədim İrəvani, Fazil İrəvani, Balağa İrəvani, Mirzə Müslüm İrəvani, Aşub İrəvani, Mirzə Məhəmməd İrəvani, Dəlil İrəvani, Əbdülkərim İrəvani və başqa şəxsiyyətlərin yaradıcılığı bunu bir daha təsdiq edir.

Görkəmli alim, pedaqoq Firidun bəy Köçərli XIX əsrin axırlarında İrəvan gimnaziyasında dərs deyərkən "Azərbaycan ədəbiyyatı" adlı əsəri üçün materiallar toplamış, ədəbi-bədii sözün görkəmli xadimləri arasında İrəvanda yaşayıb - yaratmış Məşədi İsmayıl Hacı Kazımzadə "Bəzmi" (1846-1888), Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov "Mütəlle" (1832-1892), Hacı Seyid Rza Əmirzadə" (-1906), Mirzə Əlixan Şəmsül-Hükəma "Ləli" (1845-1907) kimi sənətkarların yaradıcılığına toxunmuşdu. Bu şairlərin əsərlərindən verdiyi nümunələr əsasında F.Köçərli sübut edir ki, İrəvan şairləri əruz vəznində türkcə gözəl şeirlər yazmışlar.

Vaxtilə Mirzə Hüseyn Ağa, Mirzə Cabbar Əsgərzadə, Axund Məhəmmədbağır Qazızadə, Əli Məhzun, Abbas Ağa Fərəcov, Yaqub Mustafa oğlu, Mirzə Abbas kimi ədəbiyyat xadimləri və ziyalılar İrəvanın ədəbi həyatında fəal iştirak etmişlər.

Azərbaycanın bir çox görkəmli şair və yazıçıları-Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Abbas Səhhət, Hüseyn Cavid, Eynəli bəy Sultanov, Əziz Şərif, Heydər Hüseynov və başqaları İrəvan ədəbi mühitinin aparıcı simaları ilə sıx dostluq və yaradıcılıq əlaqələrində olmuşlar. Haşım bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə və başqaları inqilabdan əvvəl İrəvanda işləmiş, öz ədəbi fəaliyyətlərini burada da davam etdirmişlər.

Onu da qeyd etmək yerinə düşər ki, İrəvan ədəbi-mədəni, ictimai-siyasi mühitinin görkəmli nümayəndələrinin Şərq elmində, ədəbiyyatında, mədəniyyətində oynadığı müstəsna rolun təsiri bu gün də ədəbi-mədəni prosesdə duyulmaqdadır.

1918-1920-ci illərdə ermənilərin Qərbi Azərbaycanda (indiki Ermənistan) apardıqları soyqırım siyasəti nəticəsində əvvəllər ədəbi-estetik fikrimizin inkişafında böyük rolu olan İrəvan ədəbi mühiti də dərin tənəzzülə uğramış, onun bir sıra nümayəndələri soyqırıma və deportasiyaya məruz qalmışlar. Ədəbi mühitin görkəmli nümayəndələri məcburiyyət qarşısında qalaraq İrəvanı tərk etmiş, Türkiyə, İran, Azərbaycan, Orta Asiya və başqa ölkələrə üz tutmuşlar. İrəvanda yaşlı nəslə mənsub ziyalı qalmamış, nəsillər arasında sələf-xələf münasibətləri pozulmuşdur. Şübhəsiz ki, bu, İrəvan ədəbi məktəbinin yaradıcı potensialına təsir etməyə bilməzdi.

Məlumdur ki, XX əsrin sonu - XX əsrin əvvəllərində bütün Azərbaycan poeziyasında olduğu kimi, İrəvan ədəbi mühitinin yetirmələrinin yaratdıqları bədii nümunələr daha çox klassik şeir janrlarına - qəsidəyə, qəzələ, müxəmməsə və s. uyğun olaraq yaradılırdı. İnqilabdan sonra, yəni keçən əsrin 1920-ci illərindən başlayaraq, İrəvanda yaşayan azərbaycanlı sənətkarlar forma sahəsində yeni poetik janrlara, məzmun sahəsində isə zəmanənin sərt tələb kimi ortaya qoyduğu ideologiyanın təcəssümünə üstünlük verirdilər. Amma bununla yanaşı, İrəvanda yaşayan şərqşünas alim Mirzə Hüseyn Ağa və "Vahid" təxəllüslü Məşhədi Heydər İsmayılov klassik janrlara müraciət edirdilər.

Etiraf etmək lazımdır ki, 1920-ci il noyabr ayının 29-da Ermənistanda sovet hakimiyyətinin qurulması bütün çatışmazlıqlarına baxmayaraq, İrəvan ədəbi mühitinin bərpasına dar çərçivədə rəvac vermişdir. Lakin bəzən gizli, bəzən də açıq şəkildə özünü büruzə verən erməni şovinizmi əhatəsində bu proses heç də asan olmamışdır.

Qeyrətli azərbaycanlı ziyalılar Cahangir Ələkbərbəyov, Məmmədəli Nasir, Bala Əfəndiyev, Mustafa Hüseynov, Rza Vəlibəyov, Mehdi Kazımov, Əhməd Əhmədov, Əkbər Rızayev, Rza Şeyxzadə, Abbas Ağa Fərəcov, Miryusif Mirbabayev, Ələmdar Haşımov, Murtuza Muradov, Yusif Ziya, Yusif Fikrət, Həbib Məhəmmədzadə, Salman Rəhimov, Bülbül Kazımova və başqaları ədəbi mühitin bərpasında, inkişafında fədakarlıq göstərmiş, siyasi və milli iradə nümayiş etdirmişlər.

1920-ci illərdən sonra İrəvandakı siyasi durum bir xətli, eyni xarakterli olmadığı üçün bədii ədəbiyyatın, o cümlədən poeziyanın inkişaf xətti də ziqzaqlı olmuşdur. Yaradılan "Azsaylı xalqlar şöbəsi" və onun mübariz rəhbəri Bala Əfəndiyevin səyi nəticəsində 1924-cü ildə nəşrə başlayan "Zəngi" qəzeti səhifələrində artıq Azərbaycan dilində şeir nümunələri görünməyə başladı.

Ağır repressiya şəraitində, şübhəsiz ki, nəinki ədəbi prosesin inkişafından, heç bədii nümunələrin meydana gəlməsindən və işıq üzü görməsindən söhbət belə gedə bilməz. Məhz buna görə də 1924-cü ilə kimi Ermənistanda, xüsusilə İrəvanda şeir və nəsr nümunələrinə təsadüf olunmur. 1924-cü il iyun ayının 28-də ÜİK(b) P Mərkəzi Komitəsinin "Partiyanın ədəbiyyat sahəsindəki siyasətinə dair" adlı qətnaməsi sovet ədəbiyyatının əsas inkişaf istiqamətlərini müəyyənləşdirdi.

Qətnamədə gənc proletar ədiblərindən yaşlı nəsilə mənsub olanlara ehtiyatla yanaşmaq, onları sosialist ədəbiyyatının yaranmasında səfərbər etmək tələb edilirdi. Eyni zamanda qətnamədə, yeni yetişən gənc nəsli daha cəsarətlə müdafiə etmək dövrün tələbi kimi qoyulurdu.

Bu səbəbdən də bir sıra gənc ədəbiyyat həvəskarları 1924-cü ildən nəşrə başlayan "Zəngi" qəzeti səhifələrində siyasi məzmunlu şeirlər dərc etdirməyə başladılar. Keçmişi gecəyə, sovet hakimiyyəti illərini günəşli gündüzə bənzətmək o dövrkü şeirdə ən geniş yayılmış metafora idi. Başqa görkəmli sovet sənətkarları ilə yanaşı, İrəvan şairlərinin çoxu da həmin mövzuda yazmağa meyl edirdilər.

Məhz bu mövzu həm də yaxın keçmişdə bolşevik daşnaklarının Azərbaycan türklərinə qarşı etdiyi cinayəti örtbasdır etməyə, kommunist ideologiyasını safa çıxartmağa, ermənilərlə türklər arasında mövcud gərgin münasibətlərə qardaşlıq və beynəlmiləlçilik libası taxmağa imkan verirdi. İrəvanda türkdilli poeziyanın inkişafına 1927-ci ildə Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin nəzdində yaradılmış Türk bölməsinin yaranması da kömək etdi. Türk bölməsi İrəvanda yazıb-yaradan azərbaycanlı gənc ədəbiyyat həvəskarları arasında yaxından iş apararaq onların yaradıcılığına istiqamət verir, köməklik göstərirdi.

1927-ci ildən başlayaraq Nəriman Fəxri, Abbas Tahir, Abbas Azəri, Əbülfət Rəhimov, Əşrəf Bayramov, Adil Axundov, Telman Nəzərli, Teymur Əhmədli, Yusif Rizayi, Əkbər Həsənov, Bəhlul Mamedov, Əbülfət İbrahim, Cəlal Sərdar, Əli Şahin, Əli Əliyev, İslam Süleymanov, Sona Bağırova, Foqiyə Kəngərli və başqaları İrəvanda Azərbaycan poeziyasının aparıcı qüvvələri idilər. Bu işdə onlara Bala Əfəndiyev, Mehdi Kazımov, Mustafa Hüseynov və digər azərbaycanlı ziyalılar yaxından kömək edirdilər. İrəvan ədəbi mühitinin nümayəndələri faktiki olaraq ikiqat əsarət - total sovet və lokal erməni təzyiqi altında yazıb yaratmağa məcbur idilər.

İrəvanda ədəbi dövrü beş qismə bölmək olar:

1) 1918-ilə qədər;
2) 1924-cü ildən 1941-ci ilə qədər (müharibəyə qədərki dövr);
3) 1941-1945-ci illər (müharibə dövrü);

4) 1946-1953-ci illər (müharibədən sonrakı və deportasiya dövrü)

5) 1953-1988-ci illər (deportasiyadan sonrakı köçürülməyədək olan dövr)

İnqilabdan sonrakı dövr İrəvan şairləri demək olar ki, bütünlüklə gənclərdən ibarət idi. Ədəbi qüvvələr içərisində Abbas Tahir, Abbas Azəri, Əli Əliyev, Sərdar Cəlal, Əbülfət Rəhimov, Adil Axundov, Əli Şahin, İsmayıl Şirvani xüsusilə diqqəti cəlb edir. Onlar bütün yaradıcılığı boyu Oktyabr ideyalarına inanmış və səmimiyyətlə bu ideyaları vəsf etməklə kommunist ideallarına sədaqətlərini ifadə etmişdilər. Müharibə ərəfəsində İrəvanda yaşayan türk sənət adamlarının bir qismi repressiya qurbanı olmuş, başqa bir qismi isə döyüşən ordu sıralarına çağırılmışdı.

İrəvanlı sənətkarlardan Abbas Tahir, Əli Şahin, İsmayil Şirvani, Əli Əliyev, Adil Axundov döyüşən ordu sıralarında vuruşmaqla yanaşı, öz bədii yaradıcılıqlarını da davam etdirirdilər. Beləliklə də, bilavasitə səngərlərdə savaşan şairlərin timsalında döyüş lirikası yaranırdı (1 s.142). 1927-ci ildə Ermənistan Şura Yazıçıları Cəmiyyətinin nəzdində yaradılmış azərbaycanlı yazarlar bölməsinin fəaliyyəti 1945-ci ildə EK (b) P MK tərəfindən dayandırılmışdır. Azərbaycanlı ziyalıların mərkəzə etdikləri kəskin müraciətlərdən sonra 1946-cı ildə yenidən bərpa edilmişdir (2 s.56; 1 s.115).

Erməni şovinizminin arasıkəsilməz təzyiqlərinə baxmayaraq, İrəvanda Azərbaycan ədəbi - mədəni həyatı öz məcrasında inkişaf edərək, ədəbiyyatımız rəngarəng yüksək bədii səviyyəyə malik əsərlərlə zənginləşirdi.

## ƏDƏBİYYAT

1. Allahverdiyev C. İrəvan ədəbi mühiti. Bakı, Elm, 2010, 250 s.

2. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı: 1997, 260 s.

## РЕЗЮМЕ

**Джалал Аллахвердиев**

## ЛИТЕРАТУРНАЯ СРЕДА АЗЕРБАЙДЖАНА В ИРАВАНЕ

Как видно из анализа, азербайджанская литературная среда Еревана прошла уникальный путь развития и сопровождалась творческими личностями и разнообразными художественными образцами, определившими развитие и эволюцию национального литературного процесса. В статье в той или иной степени освещается самоотверженная деятельность нашей интеллигенции, имеющей исключительные заслуги в развитии литературной среды Азербайджана в Ереване.

***Ключевые слова:*** *Ереван, образование, литература, школа, наука, культура.*

## SUMMARY

**Jalal Allahverdıyev**

## LITERARY ENVIRONMENT OF AZERBAIJAN IN IRAVAN

As can be seen from the analysis, the Azerbaijani literary environment in Yerevan has undergone a unique development path and was accompanied by creative personalities and various artistic examples that determined the development and evolution of the national literary process. In the article, the selfless activity of our intellectuals who have exceptional services in the development of Azerbaijan's literary environment in Yerevan is highlighted to some extent.

***Key words:*** *Yerevan, education, literature, school, science, culture.*

**MEHRİBAN ƏSƏDULLASOY (QULİYEVA)**
*Naxçıvan Dövlət Universiteti*
*quliyeva.mehriban@list.ru*

## İRƏVAN GİMNAZİYASININ MƏZUNU YAZIÇI – PUBLİSİST EYNƏLİ BƏY SULTANOVUN HEKAYƏLƏRİNİN BƏDİİ DİLİ

*Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndəsi Eynəli bəy Sultanov mənsub olduğu xalqın milli ictimai düşüncəsini, mübarizəsini, dilini öz əsərlərində böyük sevgi ilə yaşadan ədiblərdən biridir. Eynəli bəyin yaradıcılığını aktual edən əsas amillərdən biri xalq dili, onun həyatı, məişəti, düşüncəsi, mübarizəsi bütün ziddiyyət və detalları ilə əsərlərində əks olunmasındadır. Yazıçının əsərləri sadə süjet xətti, kompozisiya bitkinliyi, sadə sintaktik quruluşu ilə diqqəti cəlb edir. Hekayələrində işlənən bədii ifadə və təsvir vasitələri, dialekt sözlər tarixi proses nəticəsində yaranmışdır.*

*Eynəli bəy fərdi üslubunu müəyyənləşdirərək xalq dilinin zənginliyini, dil əlvanlığını əsərləri üzərinə köçürə bilmişdir. Yazıçı baş verən hadisələri müəyyən zaman daxilində ardıcıllıqla izləmiş, eyni zamanda, bilavasitə şahidi olduğu hadisələri də təhkiyə dilində ustalıqla təsvir etmişdir. Ədib əsərlərində qələmə aldığı təbiət mənzərələrini, personajların zahiri görünüşü və daxili aləminin təsvirini, hiss-həyəcanı və duyğularını mənalı surətdə ifadəsinə nail ola bilmişdir. Eynəli bəy canlı danışıq dili ilə ədəbi dilin bir-birinə təsirini, onlar arasında qarşılıqlı əlaqəni hekayələrində əks etdirə bilmişdir.*

**Açar sözlər:** *Eynəli bəy Sultanov, Naxçıvan, ədəbi dil, bədii dil, hekayə dili.*

**Giriş.** Eynəli bəy Sultanov (1866 - 1935) Azərbaycan ədəbiyyatında nasir kimi də özünəməxsus yer tutmuşdur. İrəvan gimnaziyasının məzunu yazıçı-publisist Eynəli bəy Sultanov nəsr estetikasının gözəlliyini hekayələrinin bədii dilində və üslubunda özünəməxsus yaradıcılıq coşğusu ilə üzə çıxarmışdır. XX əsrin əvvəlləri Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndələrindən biri olan Eynəli bəy mənsub olduğu xalqın milli ictimai düşüncəsini, mübarizəsini, dilini öz əsərlərində böyük sevgi ilə yaşadan ədiblərdən biridir. Eynəli bəy Sultanov dilimizin zəngin imkanları hesabına hekayələrində obrazların dilinə, daxili aləminə, sosial mənşəyinə, işinə, peşəsinə uyğun söz seçmək bacarığını sərgiləmişdir. Rəngarəng dil vahidlərindən istifadə edən Eynəli bəy müxtəlif üslubi məqamlarda yazıçı təfəkkürünü ortaya çıxarmış, xalq dilinə, onun adət-ənənəsinə hörmət əlaməti olaraq obrazların bədii dilində təqdim etmişdir. Bədii dilin qüdrəti ilə ədib rəssam kimi obrazlar silsiləsi yaratmağa nail olmuş, fərdi üslubi-linqvistik tərzi ilə dövrün danışıq tərzini, koloritini əsərlərində əks etdirmişdir. Fəxrəddin Veysəlli "Dilimiz və dilçiliyimiz" məqaləsində dil hadisəsinə daha geniş çərçivədə yanaşmışdır: "İnsan cəmiyyətinin ən kamil ünsiyyət silahı olan dil öz mahiyyəti və təbiəti etibarı ilə çox mürəkkəb ictimai bir hadisədir" (9, s. 44). Ona görə də bədii əsərlərin dil xüsusiyyətlərinin elmi-nəzəri cəhətdən araşdırılması dil tarixinin yaddaşını təzələyir. Eynəli bəyin hekayələrində də ritorik suallardan istifadə canlı təəssüratın yaradılması, hadisə və əhvalatlara diqqəti yönəltmək məqsədi daşıyır: " - İxtiyar özünündür, sahibim! Mən nə deyə bilərəm? - Bilmirəm bu böyüklər bizim yaxamızdan nə səbəbə əl çəkmirlər, bizə nə verib ala bilmirlər? Bəs deyil bizi el içində rüsvay etdikləri, indi bir də qapılarına çağırmaq nədi ki? (6, s. 26). Axı, mən bəxtəvərliyi nə ilə qazandım?" (6, s. 68).

Aytən Bəylərova "Bədii dildə üslubi fiqurlar" kitabında bədii əsərlərdə sıxlıqla müraciət olunan bədii

sualı üslubi fiqurun sintaktik-məntiqi fiqur kimi tədqiqini məqsədəuyğun hesab etdiyini qeyd edərək yazır: "Lakin Azərbaycan bədii dil nümunələri sübut edir ki, ritorik suallı cümlələrdə həm təsdiq, həm də inkar sual formasında təqdim olunur və bununla da fikir daha ifadəli, emosional-ekspressiv çalar qazanır. Bu sintaktik konstruksiyalar xüsusi üslubi priyom kimi, bədii əsərlərdə daha dərin ifadə üçün, oxucunun diqqətini bu və ya digər məsələyə, hadisəyə cəlb etmək, ona daha dərindən təsir etmək məqsədilə işlənir" (2, s. 31).

Nəsr əsərlərində emosionallığı təmin etmək məqsədilə konkret mənaya malik olmayan, obrazların danışıq prosesini tamamlayan nidalardan istifadəyə üstünlük verilir. Rüxsarə Abbasəliyeva "Dildə ekspressivlik və emosionallığın verbal və qeyri - verbal ifadə vasitələri" kitabında emosional - ekspressiv xüsusiyyətlərin dialoq zamanı üzə çıxmasından geniş şəkildə bəhs edərək yazır: "Nida nitqdə yalnız real gerçəkliyə emosional münasibəti ifadə etmək vasitəsi kimi deyil, həm də dilin faktik funksiyasını yerinə yetirən, dialoq iştirakçıları arasında ünsiyyət yaradan, nitq rabitəsini davam etdirən vasitə olur" (1, s. 109). Konkret situasiyanı tamamlayan nidalar, eyni zamanda obrazların gerçəkliyə münasibətini üzə çıxarmaqda yazıçıya kömək edir. Ədibin hekayələrində bədii dil faktlarını üzə çıxarmaq üçün nümunələrə müraciət edək: " - Yaşasın, Kamran Sultan! Yaşasın el anası naxırçı qızı Gözəl, yaşasın bunların cavan balaları!" (6, s. 30). " – Yaşasın, yoldaş Mollazadənin adına yapılan xəstəxana! (6, s. 50). Ah, sevən ana ürəyi! Şükür sənə, Allahım! Sənə minnətdaram! (6, s. 68).

İrəvan müəllimlər seminariyasında aldığı mükəməl təhsili nəsr yaradıcılığına ciddi təsir etmiş, bədii hadisələrə həqiqi sənət ölçüləri, prinsipləri ilə yanaşmağı öyrətmişdir. Keşməkeşli həyat yolu, zəngin təcrübəyə söykənən Eynəli bəy Sultanov mükəmməl dil və üslub vərdişlərinə yiyələnmişdir. Eynəli bəyin də hekayələrində xalqın mənəvi mədəniyyəti, etnoqrafiyasını əks etdirən elementlərə geniş yer verilmişdir: "Qabaqlarında bir qızıl rəxli atın üstündə Kamran Sultan özü idi. Başında tirmə sarıq, əynində tirmə dun, belində əyri qılınc" (6, s. 16). Qədim yaşayış məntəqəsi olan, orta əsrlərdən şəhər kimi formalaşan İrəvan xanlığının əsası XVIII əsrin ortalarında Mirmehdi xan tərəfindən qoyulmuş, azərbaycanlıların qədim yaşayış məskənlərindən olmuşdur. Eynəli bəyin də təhsil həyatında və hekayələrində bu qədim şəhərin adı olduğu kimi istifadə olunmuşdur: "Bağır xan həmişə İrəvandan gələndə uşaqlara çoxlu konfet və başqa töhfələr gətirərdi" (6, s. 42).

Ədəbi mühit nümayəndələrinin əsərlərində dialekt və şivələrə aid zəngin materiallar yer almışdır. Mübariz Yusifovun dilimizin tarixliyini üzə çıxaran dil faktları haqqında fikirləri də bu baxımdan maraqlıdır: "Dil faktları öz ənənəsində qədimliyin izlərini daşıyır. Həmin faktların araşdırılması ilə müvafiq nəticələr əldə etmək mümkün olur" (11, s. 81). Eynəli bəyin əsərlərində Naxçıvan dialekt və şivələrinə aid çoxlu sözlər yer almışdır: *gödən* (6, s. 14) Naxçıvan dialektində qarın mənasında, *muşqurmaq* (6, s. 111) isə dodaqların hərəkəti ilə müəyyən səs çıxarmağı (4, s. 206) ifadə etmişdir. Yəni bu cibələk gəlib Kərim xanın yerini tutacaqdır? (6, s. 56) cümləsində idə *cibələk* sözü balaca, kiçik birisinin çoxbilmişliyi mənasında işlənmişdir (4, s. 57). Eynəli bəy Culfa, Ordubad dialektində işlənən *gədix* (4, s. 109) dialektində aşırım mənasında olan *gədi*k sözündən istifadə etmişdir: "Nə qədər qalmışamsa bilmirəm, ancaq özümə gələndə gördüm ki, kürd ilə qızı dağın kəlləsinə çatıb gədiyi aşdılar" (6, s. 107). Funksional məna çalarına görə ara söz olan *eyhana* şübhə mənasını ifadə etmiş, danışıq dilində hazırda işləkliyini qoruyub saxlamışdır: "Ancaq dediyim odur ki, evimiz kəndin lap qurtaracağındadır, əgər, eyhana - eyhana bizə bir hadisə üz verərsə, qorxuram ki, harayımıza da gələn olmaya" (6, s. 80).

Əzizə Mikayılova “Onomastik vahidlərin üslubi imkanları” kitabında XIX əsrin ikinci yarısında ədəbi dilin bədii üslubunda yaranmış onomastik leksika işlənmə miqdarı, mənşəyi, quruluşu və üslubi imkanlarından bəhs edən müəllif ədiblərin onomastik vahidlərin yaşadılmasında, unudulmaqdan qorunmasında xüsusi rolları olduqları vurğulayaraq yazır: “Nəzərdə tutulan dövrdə yaşamış və Azərbaycan ədəbiyyatında misilsiz xidmətləri ilə seçilən yazıçılarımızın həyatına nəzər yetirsək, əsərlərində mövcud olan onomastik layların məhz öz dövrlərinə məxsus vahidlər, toponimlərin isə onların anadan olduqları, yaşadıqları, yaxud da qısa bir müddətə getdiyi yerlərin adı ilə bağlı olduğunu görmək olar” (5, s. 16). Eynəli Sultanovun nəsr əsərlərində də coğrafi adların bədii dildə üslubi imkanlarına müxtəlif mövqelərdən yanaşılmışdır: Araz (6, s. 80), Maku, Sədərək (6, s. 82), Ərdəbil (6, s. 108), Tiflis (6, s. 85), Şeytanbazar (6, s. 87) və s.

Elxan Yurdoğlu “Eynəli bəy Sultanovun hekayələrində atalar sözləri və məsəllərdən istifadə” adlı məqaləsində ədibin hekayələrində atalar sözləri və məsəllərin həm müəllifin, həm də ayrı - ayrı tiplərin dilindən işlədilməsinə münasibət bildirərək yazır: “O, bu və ya digər tipin işlətdiyi atalar sözləri ilə onların məqsədini, xasiyyətlərini müəyyənləşdirir” (7, s. 144). Yazıçının hekayələrində yer alan atalar sözləri, məsəllər danışıq dilində hadisələrin daha canlı, təsirli, emosional əks olunmasını təmin etmişdir: “Onları suya aparıb susuz qaytararam” (6, s. 85). Bu cür münasibət məsəllərdən istifadədə də özünü göstərmiş, obrazın düşüncələrini, həyata münasibəti dərin və geniş mənalarda ifadə edən köməkçi vasitə kimi istifadə olunmuşdur: “Mənim Araz aşığımdan, Kür topuğumdan” (6, s. 85).

Bədii əsər üçün vacib sayılan xüsusiyyətlərdən birinin də yazıçı təhkiyəsində obrazın dilinin ifadəli və obrazlı olması, eyni zamanda xarakterlərin canlı və dolğun çıxmasına şərait yaratmasıdır: “Bağır xan qapıdan içəri girəndə əynindəki abasının ətəyi ilişdi qapıya, aba çiynindən sürüşüb yerə düşdü” (Sultanov, 2016: 84). Yazıçı bəzi sözlərin tərkibində müəyyən fonetik dəyişmələr edərək danışıq dili şəklinə üstünlük vermişdir. Hekayədə yer alan *əba* sözündə ə > a səs əvəzlənməsi Naxçıvan qrupu şivələri üçün xarakter haldır. Məmmədağa Şirəliyev “Azərbaycan dialektologiyasının əsasları” kitabında önsıra saitlərinin arxasıra saitləri ilə əvəzlənməsindən bəhs edərək ə səsinin a səsi ilə əvəzlənməsi hadisəsinin daha çox ahəngi gözləyən qərb dialekt və şivələrinə aid olduğunu qeyd edərək yazır: “Lakin bu hadisəyə Şahbuz, Şərur, Zaqatala - Qax, Muğan şivələrində, Bakı və Qubanın müəyyən kənd şivələrində də təsadüf edilir. Bu hadisəyə sözün müxtəlif yerlərində və bir çox hallarda ərəb, fars mənşəli sözlərdə də rast gəlmək olar” (8, s. 4).

Əsgər Əhməd “XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti” kitabında şifahi xalq ədəbiyyatı nümunələrində, o cümlədən atalar sözləri və məsəllərdə də misqal, batman, arşın və s. kimi ölçü vahidlərinin adına rast gəlindiyindən geniş şəkildə bəhs edərək yazır: “Biz, ölçü vasitələrinin tarixini öyrənməklə konkret bir dövrün təsərrüfat durumu, əhalinin tələbatları və onların təmin edilməsi yolları, görülmüş işlərin həcmi və qiymətləri, eləcə də ərzağın qiymətlərinin müəyyənləşdirilməsi haqqında daha ətraflı fikir yürüdə bilərik” (3, s. 320). “Mən sizi inandırıram ki, onların beşində bir misqalca hünər yoxdur” (6. s. 81). Nəsr əsərlərində müxtəlif dövrlərə aid ayrı - ayrı dövlətlərin pul vahidlərinin adlarından da istifadə olunur. Eynəli Sultanov müxtəlif dövrlərdə işlənən pul vahidlərinin adını çəkdiyi kimi Türkiyədə istifadə olunan *məcidiyyənin* adını arxaikləşən *töycü* sözü ilə yanaşı işlətmişdir: “Bundan savayı hər bir nəfər də ildə xana bir qızıl türk məcidiyyəsi töycü verərdi” (6, s. 76).

Elxan Yurdoğlu “Eynəli bəy Sultanov və folklor” kitabında hekayə ustasının çoxlu sayda folklor mövzu və süjetlərinin seçilib işlətməsinə münasibət bildirərək yazır: “Əslində hekayə xalq lətifələrinin

təsiri altında yazılmaqdan ziyadə, həmin lətifələrin xalq arasında dolaşan əhvalatların hekayələşmiş formasıdır (10, s. 130). Eynəli bəyin "Qurd balası" hekayəsinin epiqrafı *Qurd oğlu Əhməd, bədəslə lənət, övlad, nə övlad!* xalq deyimi ilə ilə başlayır. " – Qurd balası qurd olar. Allah eləməsin bu böyüsün, əgər böyüyüb atasının yerini tutsa, aləm bunun əlindən qan" (6, s. 52). Ədib xalq danışıq dili üçün səciyyəvi olan üslubda, yəni öz dili, loru sözləri ilə tipin necə bir insan olmasını vurğulaması da maraq doğurur. Eynəli bəyin fəaliyyətinin müəyyən dövrü Tiflislə bağlı olmuşdur. Məhz bu səbəbdən də onun əsərlərində Tiflisə dair təriflər, ona vurğunluq da yer almışdır: "Tramvay yolu işləmirdi, elektrik fanarları ölə-ölə yanırdı, tez-tez sönüb dübarə işıqlanır, deyəsən Tiflisin şux qızları kimi adama göz eləyirdilər"(6, s. 87).

**Nəticə.** Göründüyü kimi, hekayələrin təhlili Eynəli bəy Sultanovun nəsrinin bədii struktur baxımından fərqliliyini ortaya qoyur. Yazıçının nəsr əsərlərindən seçdiyimiz bəzi örnəkləri, ifadə və cümlələri linqvistik yöndən təhlil edərək, yazıçının dil və üslub cəhətdən tədqiqata cəlb etdik. Hekayələrdə yer alan xalq yaradıcılığı, folklor nümunələri olduqca sadə, yığcam və koloritli dildə də yazıçı dilinin bədii xüsusiyyətini ifadə etmişdir. Eynəli bəy Sultanovun hekayələrində yaşadığı dövrün ədəbi dil normalarını əks etdirən sözlərlə yanaşı, klassik ədəbi dildən gələn bəzəkli kəlmələr, ərəb və fars mənşəli, osmanlı türkcəsinə daxil olan sözlər təşkil edir. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında maarifçi realizmin təkamülü nəticəsində dilimizə çoxlu sayda sözlər daxil olmuşdur. Qeyd etmək lazımdır ki, ədəbi mühitin görkəmli nümayəndələrinin dilində rast gəlinən sözlər XIX əsr osmanlı ədəbiyyatının maarifçilik ənələrinin təsiri ilə bədii ədəbiyyata daxil olan sözlər idi. Eynəli bəy Sultanovun nəsr əsərləri klassik və yeni ənənənin sintezi ilə bütünləşərək özünəməxsus yaradıcılıq axtarışlarının bariz göstəricisinə çevrilmişdir.

## ƏDƏBİYYAT


1. Abbasəliyeva R. Dildə ekspressivlik və emosionallığın verbal və qeyri - verbal ifadə vasitələri. Bakı: 2018,160 s.
2. Bəylərova A. Bədii dildə üslubi fiqurlar. Bakı: Nurlan, 2008, 212 s.
3. Əhməd Ə. XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti. Bakı: Elm, 2012, 372 s.
4. Quliyev Ə., Əliyeva N. Naxçıvan dialekt və şivələrinin lüğəti. Naxçıvan: Əcəmi, 2017, 296 s.
5. Mikayılova Ə. Onomastik vahidlərin üslubi imkanları. (XIX əsrin ikinci yarısında yaranmış nəsr əsərlərinin materialları əsasında linqvistik tədqiqat). Bakı: Memar Nəşriyyat –Poliqrafiya MMC, 2008, 302 s.
6. Sultanov E. Hekayələr. Bakı: Elm və təhsil, 2006, 288 s.
7. Sultanov Eynəli bəy: taleyi və sənəti. Bakı: Elm və təhsil, 2011, 240 s.
8. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Şərq - Qərb, 2008, 416 s.
9. Veysəllı F. Seçilmiş əsərlər. 3-cü cild. Bakı: Mütərcim, 2016, 420 s.
10. Yurdoğlu E. Eynəli bəy Sultanov və folklor. Naxçıvan: Əcəmi NPB, 2017, 208 s.
11. Yusifov M. Linqvistik tipologiya (dillər arası müştərəklik və təfəkkür topologiyası). Bakı: Elm və təshil, 2017, 184 s.

**SUMMARY**

**Mehriban Asadullasoy (Guliyeva)**

**ARTISTIC LANGUAGE OF THE STORIES BY EYNELI BEY SULTANOV, A GRADUATE OF IRAVAN GYMNASIUM, WRITER – PUBLICIST**

Eynali bey Sultanov, a prominent representative of Nakhchivan's literary environment, is one of the writers who vividly conveyed the people’s social thoughts, struggle, and language of his nation in own works. One of the main factors that made Eynali Bey's creativity relevant is the depiction of people’s language, life, everyday routine, thoughts and struggles with all contradictions and details in his art pieces. The writer's works stand out with a simple plot line, composure, and simple syntactic structure. The means of artistic expression and description, dialect words used in his stories got formed as a result of the historical processes.

Having defined his individual style, Eynali bey managed to transfer the richness and the elegance of the folk language to his works. The writer followed the historical events in sequence within a certain period , and at the same time, he skillfully described the events witnessed directly in the narrative style. In his art pieces, he mastefully depicted the landscapes, the external appearance and inner world of the characters, feelings and emotions in a meaningful way. Eynali Bey succeeded to reflect in his stories the influence of living spoken language and literary language on each other, and the interaction between them.

***Key words:*** *Eynali bey Sultanov, Nakhchivan, literary language, artistic language, narrative language*

**РЕЗЮМЕ**

**Мехрибан Асадулласой (Гулиева)**

**ХУДОЖЕСТВЕННЫЙ ЯЗЫК РАССКАЗОВ ЭЙНАЛИ БЕК СУЛТАНОВА, ВЫПУСКНИКА ИРЕВАНСКОЙ СРЕДНЕЙ ШКОЛЫ, ПИСАТЕЛЯ-ПУБЛИЦИСТА**

Эйнали бек Султанов, видный представитель литературной среды Нахчывана, является одним из писателей, проживающий национальную общественную мысль, борьбу, язык своего народа в ссобственных произведениях с огромной любовью. Одним из главных факторов, обуславливающих актуальность творчества Эйнали бека, является отражение народного языка, жизни и быта простых людей, их мыслей и борьбы в его произведениях со всеми их противоречиями и подробностями. Произведения писателя привлекают внимание простой сюжетной линией, собранностью, простой синтаксической структурой. Средства художественной выразительности и описания, диалектные слова, используемые в его рассказах, были созданы в результате исторического процесса.

Определив свой индивидуальный стиль, Эйнали бек сумел передать в своих произведениях богатство народного языка, его красочность. Писатель последовательно следил за событиями в течение определенного периода времени, и в то же время мастерски описывал события, свидетелем которых он был, непосредственно в повествовательном формате. В своих литературных произведениях он содержательно выражал природные ландшафты, внешний облик и внутренний мир персонажей, чувства и эмоции. Эйнали бек сумел отразить в своих рассказах влияние живого разговорного и литературного языка друг на друга, взаимодействие между ними.

**Ключевые слова:** Эйнали бек Султанов, Нахчыван, литературный язык, художественный язык, повествовательный язык

**VƏLİ ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# İRƏVANDA MƏKTƏBDARLIQ VƏ MAARİFÇİLİK

Xalqın, millətin formalaşmasında ərazi, dil, mənəviyyat birliyinin mühüm amil olması əsas şərtlərdəndir. Azərbaycanda tarixən məskunlaşmış türklər yüksək mədəniyyətə malik olduqlarından onların bölgədəki başqa xalqların mədəniyyətini mənimsəmələrinə elə bir ehtiyac duyulmamışdır. Azərbaycan türkçülüyünün islamı qəbul etməsi ilə eramızdan əvvəlki minilliklərin Azərbaycan mədəniyyətinə müəyyən mənada strateji münasibət ifadə edilmişdir. Məzmun etibarı ilə Azərbaycan mədəniyyəti türk-müsəlman mədəniyyəti olsa da, müxtəlif dövrlərdə dünya mədəniyyətinin təsirlərinə məruz qalmışdır (3, s.53). Türk mənşəli olan Azərbaycan mədəniyyətinin təşəkkülü bu ölkədə yaşayan azərbaycanlıların mədəniyyət aktıdır. “Avesta”dan başlamış, “Dədə Qorqud”dan bu yana şifahi xalq ədəbiyyatımızın parlaq nümunələri, Molla Nəsrəddin lətifələri və bu kimi folklor örnəklərimizin yaranması ilə bir şəraitdə formalaşan Azərbaycan mədəniyyətinin təbii-tarixi konteksti türk və regional olaraq Şərq mühiti ilə bağlı bir mədəniyyətdir. Dünya mədəniyyəti səviyyəsinə qalxması da türk mühiti ilə, həmçinin özünün folklor mədəniyyətinin öyrənilib yaradıcılıq təcrübəsinə daha səmərəli şəkildə cəlb edilməsi ilə bağlıdır. Bu mədəniyyət də şifahi və yazılı ədəbiyyatımızın, incəsənətimizin bütün sahələrinin professional mədəniyyətin dirçəlməsinə yaratdığı şəraitdən və təsirdən asılı olmuşdur. Bu təsirlər Azərbaycan mədəniyyətini bütövlükdə cilalamış, onu dünya mədəniyyətinin tərkib hissəsinə çevirmişdir. İstər Qərbi və Şərqi, istərsə də, Şimali və Cənubi Azərbaycanda mədəniyyətin türk müsəlman ideologiyası əsasında təkamülü və onun demokratikləşməsi, milli əsaslar üzərində yenidən formalaşması XIX əsrin sonu və müasir Azərbaycan mədəniyyəti mərhələsi olan XX əsrin əvvəlləri ilə səciyyəvidir. Bu səciyyəvilik isə Azərbaycnda elmin, təhsilin, məktəbdarlığın, maarifçiliyin, kitab nəşrinin, incəsənətin sahələrinin inkişafı ilə daha çox bağlıdır.

Hazırda yaşadığımız XXI əsrdə də işlərin bu istiqamətdə davam etdirilməsi dövlətçiliyimizin və idarəçiliyimizin əsas prioritet istiqamətlərindəndir.

XIX əsr Azərbaycanda elmi-ictimai fikrin inkişafında yeni mərhələ təşkil etdiyi kimi, pedaqoji fikrin, xalq maarifi və məktəb təhsilinin inkişafı tarixində ayrıca mərhələ təşkil edir. Azərbaycanın Rusiya tərkibinə daxil edilməsi söhbəti keçən əsrin 30-cu illərindən başlayaraq, dövlət tərəfindən yeni tipli məktəblərin təşkilinə zərurəti artırırdı (5, s.26).

İrəvan quberniyasına daxil olan yaşayış məskənlərindən Naxçıvanda üç sinifli, Ordubadda, İrəvanda, Qəmərlidə iki sinifli, Uluxanlıda iki sinifli, Baş Noraşendə 1885-ci ildə 52 şagird oxuyan iki sinifli, Gözəldərədə, Güllücədə, Yelenovkada, Yengicədə, Aralıq Başkənddə, Böyük Vedidə, Məzrədə, İmanşalıda, Qarxunda, Qulubənddə fəaliyyət göstərən məktəblər və həmin məktəblərdə çalışan məsul adamlar, ayrı-ayrı fənn müəllimləri haqqında "Kafqazskiy kalendar”ın 1889-cu il buraxılışının 80, 81, 82-ci səhifələrində müfəssəl məlumat verilmişdir.

"Kafqazskiy kalendar”ın 1890-cı il buraxılışının 163-169-cu səhifəsində isə İrəvan quberniyasindakı orta təhsil ocaqlarına dair məlumatlarla yanaşı, quberniyada yeni açılan təhsil müəssisələrinin yaranması tarixləri, onlarda çalışan fənn müəllimlərinin, məktəb müdirlərinin kimliyi və burada oxuyan şagirdlərin say tərkibi barədə daha əhatəli məlumatlara yer ayrılmışdır. Məlumatlarda orta təhsil ocaqlarından 1881-ci ildə 216 şagird üçün yaradılmış İrəvan kişi gimnaziyasında işləyən fənn müəllimlərindən, burada tatar dili (Azərbaycan dili - V.Ə.) və hazırlıq sinfində hüsnxətt müəllimi işləyən,

gimnaziyanın nəzdində fəaliyyət göstərən pansionda gecə tərbiyəçisinin köməkçisi Firidun bəy Əhmədağa oğlu Köçərlinin fəaliyyəti barədə məlumat verilmişdir. 1881-ci ildə yaradılan və 69 şagirdi olan İrəvan Müəllimlər Seminariyasında Axund Məmmədbağır Kazımzadənin tatar dili (Azərbaycan dili - V.Ə.) müəllimi işlədiyi göstərilir. Həmçinin 1884-cü ildə 91 şagirdlik İrəvan qız progimnaziyasında (natamam gimnaziya, 4 və 6 sinifli progimnaziya) Xeyriyyə Cəmiyyəti Şurasının və Pedaqoji Şuranın yaradıldığı göstərilmiş, giminaziyanın direktoru Vladimir İosifoviç Brajnikov, gecə dayəsi Varvara Ağayeva, şuranın sədri kişi gimnaziyasının direktoru, üzvləri isə natamam gimnaziyanın rəisi və fənn müəllimləri olmuşdur. Pansionda progimnaziyaya 8 yaşından 12 yaşınadək olan şagirdlər xeyriyyə vəsaiti hesabına, yuxarı yaşlılar isə öz vəsaitləri hesabına məktəbə götürülürlərmiş. Progimnaziyada təhsil alan pansioner qızlar cəmi 150 manat təhsil haqqı ödəyirmişlər. İlk əvvəl qəbul üçün 36 manat, ilin sonunda isə sinifdən-sinfə keçəndə bir qayda olaraq 30 manat vəsait daxil edirmişlər. Yelizavetpol və İrəvan quberniyasının Qars vilayəti xalq məktəbinin direktorluğu və xalq məktəbləri üzrə müfəttişlər Yekim Dmitiryeviş Pasxalov, Dimitri Daniloviç Orlov Yelzavetapol quberniyasının xalq məktəbi direktorunun tabeliyində birgə işləmişlər (4, s.41).

İrəvan quberniyasında şəhər məktəbləri ilə yanaşı, ibtidai məktəblər də fəaliyyət göstərmişdir. Ordubadda (1854, 41 şagird) müəllim Məmməd Axundov, İrəvanda (1882, 64 ş.) Ələsgər Hacıməmmədəli oğlu, normal məktəblərdən Uluxanlıda (1881, 83 ş. 2 sinifli) Hacı Rəhimağa Qaibov, Hacı Kərim Rzaquliyev, Məmməd bəy Şəfibəyov, Hacı Əli Hüseyn oğlu, Naxçıvanın Cəhri kəndində (1885, 67 oğ, 7 qız,) Molla Əli Eynalı oğlu, Nehrəm kəndində (1885, 26 ş.) Cəlil Məmmədquliyev, Molla Məmmədqulu Abdulhəsən oğlu, Sadıx Xəlilov, Aşağı Göyləsər kəndində (1877, 1 sinifli, 83 şagird) məktəb, Şərur-Dərələyəz nahiyəsinin Baş Noraşen kəndində (1885, 52 şagird), Məmməd bəy Qazıyev, Fəzləli Fərəculla bəy oğlu) məktəb, Naxçıvanın Şaxtaxtı kəndində (1888, 31 oğlan, müəllimlər Abbas Kərbəlayi Oruc Əli oğlu, İsgəndər bəy Əlibəyov, Hacı Mollaəli Axund Mollaələsgər oğlu, Əbdülqasım Sultanov, Əbülfət Ağa Şaxtaxtinski) məktəb, Şərur-Dərələyəz nahiyəsində (1882-ci ildə 20 şagird oxuyan, müəllimlər Ələkbər Süleymanov, Zeynalabdin Qurbanbəyov, Abdulla Kəngərlinski) məktəb, Sürməli nahiyəsinin Aralıx Başkənd kəndindəki (1884, 1 sinifli 6 şagird, müəllimlər Məmməd Zamanbəyov, Halay bəy Əliağa oğlu, Abbas Həzrətqulu oğlu) məktəb, Böyük Vedidə (1883, 30 ş., müəllimlər Kərim bəy İsmailov, Mollaməmməd Molla oğlu Hacıyev, Balasultan Şadlinski), İmanşalıda (1883, 40 ş., müəllim Molla Əli Axundov), Naxçıvan qəzasının Qulubənd kəndində (1882, 40 ş.), Yeni Bayazid qəzasının Məzrə kəndində (1884, 39 şagird, müəllim Qurban Əhməd oğlu) məktəb, Naxçıvanda üç sinifli, Ordubad, İrəvan, Qəmərli, Baş Noraşen, Yengicə və Uluxanlıda iki sinifli, Gözəldərədə, Güllücədə, Yelenovkada, Qarxunda fəaliyyət göstərən məktəblər və onlarda çalışan ayrı-ayrı fənn müəllimləri haqqında "Kafqazskiy kalendar"ın ayrı-ayrı buraxılışlarında, xüsusən də 1889-cu il buraxılışının 80, 81, 82-ci səhifələrində müfəssəl məlumat vardır.

XIX əsrin ikinci yarısınadək bütün Qafqazda Azərbaycan dilində dünyəvi fənləri tədris edən məktəblərin və müəllimlərin olmaması üzündən belə məktəblərin açılması və dərs demək üçün pedaqoji kadrların hazırlanması olduqca vacib məsələlərdən idi. Rus maarifçilik hərəkatının təsiri ilə Qafqaz xalqlarının azadlıq, milli dirçəliş, milli mədəniyyətlərinin yüksəlməsi uğrunda mübarizəsində yeni mərhələnin əsasının qoyulduğu artıq hiss olunurdu. Burada qəza məktəblərinin açılması, yeni üsullu dərsliklərin hazırlanması, təhsilin rus dilində və hər millətin öz ana dilində aparılmasına yaradılan imkan zamanın tələbi kimi diqqəti cəlb edirdi. Tiflis hərbi qubernatoru Sipyağ hələ 1827-ci ildə bu barədə məsələ qaldıraraq (1, s.85), müxtəlif illərdə bir-birinin ardınca, biri digərini tamamlayan "Zaqafqaziya məktəblərinin nizamnamələri" qəbul və təsdiq olunmuşdu. Hətta bu məsələ ilə əlaqədar layihənin

hazırlanmasına dair knyaz M.S.Voronsovun 1845-ci ildə təklifi də olmuşdur.

Aparılan işlər nəticəsində 1830-cu illərdən başlayaraq Qafqazın bir sıra qəzalarında İrəvan, Bakı, Tiflis, Naxçıvan və digər yerlərində rus dilində təhsil verən məktəblər açıldı. Naxçıvanda 1837-ci ildə Ehsan xanın evində açılan qəza məktəbinə xanın hərbçi oğlanları İsmayıl və Kəlbəli xan evlərini pulsuz olaraq uzun müddətə və hər il də gümüş pulla iki yüz manat ianə olaraq vermişlər (2, s.74).

İlk ibtidai məktəblər XIX əsrin ortalarında meydana gəlmiş və bu məktəblər ilk dəfə Qafqaz məktəblərinin 1853-cü il Nizamnaməsi ilə təsis edilmişdir. Həmin Nizamnaməyə görə, Qafqaz Tədris Dairəsi Tiflis, Kutaisi, Stavropol və Qara dəniz sahilindən ibarət dörd direksiyaya bölünmüşdü ki, Azərbaycandakı məktəblərin əksəriyyəti Tiflis məktəblər direksiyasına, Naxçıvan qəza məktəbi ilə Ordubad ibtidai məktəbi isə İrəvan quberniyası ilə birlikdə Kutaisi məktəblər direksiyasına tabe edilmişdir. 1854-cü il noyabrın 24-də Ordubad şəhərində bir sinifdən ibarət ibtidai məktəb açılmışdı.

Azərbaycanlı uşaqların İrəvan qəzasında oxuyanlarının sayı 1850-ci ildə cəmi 15 nəfər, 1863-cü ildə isə 24 nəfər olmuşdur. “Kavkazskiiy kalendar”ın 1886-cı il buraxılışının 233-cü səhifəsində Tiflis xeyriyyə cəmiyyətinin məktəblərdə ilk vaxtlar hər şagirdə 10 manat vəsait verilməsi barədə qeyd vardır. 1864-1867-ci illərdə 1155 şagirdi əhatə edən məktəblərin ümumi sayı 65-ə çatdırıldığı və həmin kalendarın 85-87-ci səhifələrində Zaqafqaziya Müəllimlər Seminariyası nəzdində tatar (azərbaycanlılar nəzərdə tutulur – V.Ə) Xalq Məktəbi yaradıldığı və İrəvanda Qənbərovun, Axund Məhəmmədbağır Kazımzadənin tatar (Azərbaycan) dili müəllimi olduğu göstərilir. Naxçıvanda fəaliyyətə başlayan 3 sinifli xalq məktəbinə Mixail Semyonoviç Zeqrenidze müfəttiş, Masinskiy, Yefrem Petroviç Qorqladze müəllim, Saleh bəy Zöhrabbəyov köməkçi müəllim, Mirzə Əli Xəlilov və başqaları olmaqla cəmi 8 nəfər həmin məktəbdə işləmişdir.

## ƏDƏBİYYAT

1. Məhərrəmov Z. H. (2010). İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi mədəni mühit). Bakı: Nurlan, 320 s.
2. Hüseynzadə R. L. (2012). Pedaqoji kadr hazırlığında İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti və onun azərbaycanlı məzunları / “Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri” mövzusunda keçirilmiş konfransın materialları. Bakı: Mütərcim, s. 247-248
3. Allahverdiyev C.V. (2008). İrəvanda Azərbaycan ədəbi mühiti (1920-1950): Filol. elm. nam. dis. Bakı: 159 s.
4. Adıgözəlov Ə. M. (2003). Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. Bakı: Təhsil, 92 s.
5. Zeynalov Ə. M. (1999). İrəvan ziyalıları. Bakı: Oğuz eli, 368 s.

## SUMMARY

**Vali Aliyev**

## SCHOOL EDUCATION AND EDUCATION IN IRAVAN

In this article, the emergence and development of schooling and culture, including the literary movement of enlightenment, in the Western zone of Azerbaijan in the territory of the Iravan Khanate, which has an ancient history and rich literary traditions, is investigated.

***Key words:*** *Nakhchivan, Yerevan, education, school, class, pupil, teacher*

## РЕЗЮМЕ

**Вали Алиев**

## ШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ И ОБРАЗОВАНИЕ В ИРАВАНЕ

В данной статье исследуется возникновение и развитие школьного образования и культуры, в том числе литературно-просветительского движения, в западной зоне Азербайджана на территории Иреванского ханства, имеющего древнюю историю и богатые литературные традиции.

***Ключевые слова:*** *Нахчыван, Ереван, образование, школа, класс, ученик, учитель*

**TALEH XƏLİLOV**
*x.taleh@gmail.com*
**VALEH ƏLİXANOV**
*Naxçıvan Dövlət Universiteti*

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ NAXÇIVANLI MƏZUNLARININ MAARİFÇİLİK FƏALİYYƏTİ

XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda marifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının böyük rolu olmuşdur. İrəvan şəhərində 1881-ci il noyabr ayının 3-də əsası qoyulmuş bu tədris müəssəsi 1885-ci ildə ilk buraxılışını vermişdir (Məhərrəmov, 2010: 59). Akademik Hüseyn Əhmədovun "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" kitabının yeni nəşrində isə seminariyanın 1880-cı il noyabr ayının 25-də açıldığı göstərilmişdir (Əhmədov, 2014: 127). Qeyd edək ki, həmin ildə (1885-ci il) seminariyanı bitirmiş məzunların 25 nəfəri azərbaycanlı, 2 nəfəri isə dağıstanlı olmuşdu. Bu məzunlar Azərbaycanın digər bölgələrində oluğu kimi, Naxçıvan bölgəsində də fəaliyyət göstərən bir çox məkəblərdə dərs demişlər.

Mənbələrin məlumatlarından aydın olur ki, İrəvan Müəllim Seminariyasının direktoru Stepan Suşevskiy olmuşdur. Seminariyada Qasım Qənbərov Azərərbaycan dilini, Məmmədbağır Qazızadə ədəbiyyatı, Mixail Klopov isə rus dili fənnini tədris etmişdir (İrəvan əyalətinin icmal dəftəri, 1996: 28).

Azərbaycan Respublikası Dövlət Tarix Arxivində saxlanılan sənədlərin araşdırılmasından məlum olur ki, İrəvan Müəllimlər Seminariyasının ən çox azərbaycanlı məzunu 1890-cı ildə olmuşdur. Belə ki, həmin ildə bu seminariyanı 69 azərbaycanlı gənc bitirmişdi. Bu məzunlar İrəvan və Yelizavetpol quberniyalarında, Bakıda, Dağıstanda, Kutaisidə və Stavropolda pedaqoji fəaliyyətlə məşğul olmuşlar (Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, 18).

İrəvan Müəllimlər Seminariyasının məzunlarından bir çoxları təyinatlarına uyğun işlə təmin oluna bilmədikləri üçün müəllimlik sənətini ataraq qeyri-pedaqoji peşələrdə də işləmişlər. Bu haqda görkəmli pedaqoq Firidun bəy Köçərli yazırdı: "1888-ci ildə qızıl medal ilə institut kursunu tamam edən cavanlarımızdan cənab Hacı Rəhimbəy Qayıbova şəhərdə yer verilməyib, İrəvan uyezdində Uluxanlı qəryəsinə müəllim təyin olundu. O da bir-iki sənə kənd müəllimliyi edib özü üçün tərəqqi yolu görməyib, okrujnoy sud (dairə məhkəməsi-T.X) məhkəməsində qulluğa girdi" (Köçərli, 1981: c.2, 195-196).

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan sənəddən məlum olur ki, 1902-ci ildə İrəvan Müəllimlər Seminariyasının tərkibində xəzinə hesabına 6 ibtidai məktəb də fəaliyyət göstərmişdir (Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, 9). Həmin məktəblərin 2-si şəhər, 4-ü isə kənd məktəbi olmuşdur.

Tədqiqatçı Cəlal Allahverdiyev yazır: "1882-ci ildə İrəvanda 64 nəfər şagirdi olan daha bir Müəllimlər Seminariyası da fəaliyyət göstərmişdir" (Allahverdiyev, 2008: 22).

Qeyd edək ki, İrəvan şəhərində 1920-ci ildən sonra elmin və mədəniyyətin inkişafı üçün Pedaqoji texnikum da yaradılmışdır. Məktəbin tanınmış müəllimlərindən Əsəd Məmmədov, Əjdər Kazımov, Qadir Məmmədov, Məmmədəli Məhərrəmov, Əli Həsənov, Tağı Məhərrəmov, İsmayıl İsmayılov, Qulam Namazov və başqaları məhz, İrəvan Pedaqoji Texnikumun məzunları olmuşdur (Zeynalov, 1999: 104).

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının məzunlarından Məmmədqulubəy Kəngərlinin, Rəhim Xəlilovun, Axund Məmmədbağır Kazımzadənin, Məmməd Axundovun, Hacı Məmmədəli oğlunun, Məmmədbəy Qazıyevin, Tağı bəy Səfiyevin, Sadıq Xəlilovun, Mirzə Cəlil Şürbinin, Qasım bəy Camalbəyovun, Eynəli

bəy Sultanovun və başqalarının adlarını qürur hissi ilə çəkə bilərik.

Bu dövrdə Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə Məmmədqulubəy Kəngərlinin misilsiz xidmətləri olmuşdur. O, 1864-cü ildə Naxçıvan şəhərində anadan olmuş, 1905-ci il avqust ayının 29-da Batumi şəhərində erməni komitəsi tərəfində 41 yaşında faciəvi şəkildə qətlə yetirilmişdir ("Həyat" qəzeti, 23 sentyabr 1905, № 71).

Məmmədqulubəy Kəngərli ilk təhsilini atası mayor Şəfiağa Kəngərlidən almışdı. Daha sonra təhsilini atasının onun üçün tutduğu xüsusi müəllim yanında evdə fərdi şəkildə davam etdirmişdir. Akademik İsa Həbibbəyli Məmmədqulubəy Kəngərlinin maarifçilik fəaliyyəti haqında yazır: "Məmmədqulubəy Kəngərli birbaşa mənsub olduğu xalqa xidmət göstərmək niyyəti ilə hərbi işi buraxıb maarifçilik cəbhəsinə keçmək qərarına gəlmişdi" (Həbibbəyli, 1985: 37).

Məmmədqulubəy Kəngərli 1893-cü ildə istefaya çıxdıqdan sonra aşağıdakı iki istiqamətdə maarifçilik fəaliyyətini davam etdirmək qərarına gəlmişdi:

1. Vəkil-hüquqşünas;
2. Məktəbdarlıq.

Məhz onun nə üçün vəkil peşəsini seçdiyi "Həyat" qəzetində çap olunmuş məqalədə daha açıq şəkildə ifadə edilirdi: "Candan əziz sevdiyi millətinin ən ziyadə nəyə möhtac olduğunu təhqiq etdi. Bildi ki, İrəvan quberniyasının müsəlmanları əməlsizlikdən, dövlətin qanunu, məmurların ixtiyarını bilməmələrindən hər an bir müsibətdən digər bir bəlaya düçar olurlar. Bildi ki, ən əvvəl müqtədir bir vəkil olub millətə xidmətə buradan başlamaq lazımdı" ("Həyat" qəzeti, 23 sentyabr 1905, № 71).

Qeyd edək ki, Məmmədqulubəy Kəngərli müəllimlik fəaliyyəti ilə də məşğul olmuşdur. O, Qafqazda ilk dəfə olaraq "Leyli" qız məktəbini açmışdır. "Həyat" qəzetində Məmmədqulubəy Kəngərlinin müəllimlik fəaliyyəti haqqında deyilirdi: "Şəhi-ali-məqam belə ciddi, əhəmiyyətli bir xidmət ilə məşğul ola-ola, övladi-millətin tərbiyə və təhsilini əsla yaddan çıxarmazdı. Millətin səlamət və tərəqqisi üçün ən birinci qapı, ən birinci vasitə zəmanənin təqazasına görə açılacaq məktəb olduğunu çox yaxşı bilirdi. Axırda vəkilliyin ağırlığına baxmayaraq, Qafqazda birinci müsəlman "milli" məktəbi açdı. Ömürlərini müəllimlikdə çürüdüb, Qafqazda bu qədər böyük şəhərlərində bir müsəlman məktəbi aça bilməyən müəllimlərə ən ibrət bəxş bir nümunə, bir müəllim oldu. Məktəbi az vaxtda dərəceyi-tərəqqinin ən üst mərtəbəsinə çıxardı" ("Həyat" qəzeti, 23 sentyabr 1905, № 71).

İrəvan Müəllimlər Seminariyasının məzunlarından Məmmədbəy Qazıyevin də Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə böyük rolu olmuşdur. O, 1897-ci il yanvar ayının 18-də Naxçıvan şəhərində anadan olmuş, 1909-cu il mart ayının 30-da Uluxanlı stansiyasında sərnişin qatarının altına düşərək faciəli şəkildə vəfat etmişdir (Zeynalov, 1999: 175).

Məmmədbəy Qazıyev İrəvan Müəllimlər Seminariyasındakı təhsilini başa vurduqdan sonra (1886-cı ildə-T.X) elə həmin ilin avqust ayının 1-də təyinatla Uluxanlı normal məktəbinə ikinci müəllim vəzifəsinə göndərilmişdir (Adıgözəlov, 2003: 51). O, bu məktəbdə cəmi bir il işləyə bilmişdir. Buna səbəb onun 1887-ci il avqust ayının 7-də qəflətən ağır xəstələnməsi idi. Bir müddət müalicə aldıqdan sonra yenidən pedaqoji fəaliyyətə başlamış, 1888-ci il iyun ayının 1-də Xalq Məktəbləri Direktorluğunun (XTD) 895 №-li əmri ilə Baş Noraşen ikisinifli məktəbinə müdir əvəzi vəzifəsinə təyin olunmuşdur (Adıgözəlov, 2003: 36-37). O, Baş Noraşen məktəbindən sonra Uluxanlı məktəbinə getmiş, 1896-1909-cu illərdə bu məktəbdə nəzarətçi müəllim vəzifəsində çalışmışdır. Onun məktəbdarlıq sahəsindəki uğurlu fəaliyyətini Xalq Məktəbləri Direktorluğu daima diqqət mərkəzində saxlamışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan bir sənəddə Məmmədbəy Qazıyevin III dərəcəli Müqəddəs Anna ordeni ilə təltif olunduğu da göstərilmişdir (Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, 11).

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarif nurunun yayılmasında İrəvan

Müəllimlər Seminariyasında 1889-1893-cü illərdə təhsil almış naxçıvanlı maarifpərvər ziyalı Tağı bəy Səfiyevin də çox böyük rolu olmuşdur. O, bu seminariyadakı təhsilini başa vurduqdan sonra təyinatı üzrə Baş Noraşen məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. “Molla Nəsrəddin” jurnalında dərc olunmuş məqalədən aydın olur ki, Tağı bəy Səfiyev 1895-1896-cı illərdə Nehrəm kənd məktəbində ikinci müəllim vəzifəsində də işləmişdir (“Molla Nəsrəddin” jurnalı, 17 noyabr 1908, № 46). Onun Nehrəm kəndində fəaliyyət göstərən məktəbdə ikinci müəllim vəzifəsinə təyin olunmasında böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin böyük rolu olmuşdur.

Qeyd edək ki, Tağı bəy Səfiyev Nehrəm məktəbində rus dili fənnindən dərs demişdir. O, bu fənnin məktəblərdə tədrisinin təkmilləşdirilməsinin yeni metod və yolları haqqında Rusiya Maarif Komissarlığına (RMK) özünün hazırladığı xüsusi bir layihə də təqdim etmişdir. Onun bu layihəsi Rusiya Maarif Komissarlığı (RMK) tərəfindən bəyənilmişdir. Bu münasibətlə Tağı bəy Səfiyevi Rusiya Maarif Komissarlığı “Maarif zərbəçisi” döş nişanı ilə təltif etmişdir (Azərbaycanda xalq maarifinin inkişafı, 1928: 86).

Tağı bəy Səfiyev eyni zamanda bir ictimai xadim kimi də fəaliyyət göstərmişdir. O, Türkiyə-Rusiya və Azərbaycan arasında bağlanmış Qars müqaviləsinin imzalanma mərasimində Naxçıvan nümayəndəliyinin tərkibində iştirak etmişdir (Hacıyev, Quliyev,1998: 32).

Tağı bəy Səfiyevin o, dövrdə bir ictimai xadim kimi tanınması, mövcud hakimiyyət orqanlarının bir çox məmurlarını narahat etməsi, onun 1937-ci il repressiya qurbanlarının siyahısına daxil olmasına səbəb olmuşdur (Məmmədov, 2003: 97). O, 1937-ci ildə həbsdə olmuş, 1939-cu ildə Baş Noraşendə ürək tutmasından qəflətən vəfat etmişdir.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının inkişafında seminariyanın qabiliyyətli məzunlarından Sadıq Xəlilovun da danılmaz xidmətləri olmuşdur. O, 1864-cü il dekabr ayının 20-də Naxçıvan şəhərində dünyaya göz açmış, 1905-ci il noyabr ayının 3-də isə Naxçıvan şəhərində faciəli şəkildə qətlə yetirilmişdi (Zeynalov, 1999: 108).

Sadıq Xəlilov ilk təhsilini 1877-1882-ci illərdə Naxçıvan şəhər ibtidai məktəbində almış, 1882-ci ildə İrəvan Müəllimlər Seminariyasına qəbul olmuş, 1886-cı ildə isə seminariya təhsilini başa vurmuşdur. Xalq Məktəbləri Direktorluğu (XMD) 1886-cı il 01 iyul tarixli 284 saylı sərəncamı ilə Sadıq Xəlilovu Yengicə məktəbinə ikinci müəllim vəzifəsinə təyin etmişdir (Qafqaz Təhsil Dairəsinin sərəncamları, 1892: 78).

Sadıq Xəlilov bir il Yengicə məktəbində müəllim işlədikdən sonra 1888-ci il iyul ayının 14-də Nehrəm kənd məktəbinə eyni vəzifəyə (ikinci müəllim vəzifəsinə-T.X) dəyişdirilmişdir. O, bu məktəbdə də uzun müddət qalmamış, Xalq Məktəbləri Direktorluğunun (XMD) 1892-ci il 14 sentyabrında imzaladığı 1666 №-li əmri ilə yenidən Yengicə məktəbinə qaytarılmışdır (Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, 4).

Akademik İsa Həbibbəyli “Cəlil Məmmədquluzadə: mühiti və müasirləri” adlı tədqiqat əsərində yazır: “Sadıq Xəlilov 1901-ci ildən etibarən Naxçıvan şəhər məktəbində ana dili və şəriət müəllimi işləmişdir. 22 aprel 1902-ci ildə isə Azərbaycan və rus dillərini mükəmməl bilən savadlı ziyalı kimi Naxçıvan şəhər rəisi Cəfərqulu Naxçıvanskinin köməkçisi vəzifəsinə dəyişdirilmişdir” (Həbibbəyli, (1997: 141).

XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvan Müəllimlər Seminariyasının tanınmış naxçıvanlı məzunlarından Mirzə Cəlil Şürbi (Mirzəyev) Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə öndə gedənlərdən biri olmuşdur. O, 1874-cü il fevral ayının 12-də Naxçıvan şəhərində anadan olmuş, 1915-ci il sentyabr ayının 4-də isə Naxçıvan şəhərində dünyasını dəyişmişdir (Zeynalov, 1999: 84). Başqa bir mənbədə isə onun 1865-ci ildə doğulduğu göstərilmişdi (Şərif, 1957: 197).

Əli Şamilovun “Sovet Naxçıvanı” qəzetində dərc olunmuş “İkinci Mirzə Cəlil” başlıqlı məqaləsində deyilirdi: “M.C.Şürbi (Mirzəyev) Naxçıvan şəhər məktəbini bitirdikdən sonra 1888-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuş, 1892-ci ildə seminariyadan məzun olmuşdur” (Şamilov

Ə. H. İkinci Mirzə Cəlil. "Sovet Naxçıvanı" qəz., 27 dekabr 1986, № 297).

Mirzə Cəlil Şürbi (Mirzəyev) seminariyadakı təhsilini başa vurduqdan sonra (1892-ci ildə) təyinatı üzrə Şərur-Dərələyəz qəzasının Aralıq ibtidai məktəbində müəllimlik fəaliyyətinə başlamışdı. İki il burada işlədikdən sonra 1894-cü ildə Nehrəm kənd məktəbinə dəyişdirilmişdir. Lakin onun Nehrəm kənd məktəbindəki müəllimlik fəaliyyəti çox çəkmədi. Çünki, o yenidən Naxçıvan şəhər məktəbinə göndərildi. Yazıçı Məmməd Səid Ordubadi xatirələrində Mirzə Cəlil Şürbi (Mirzəyev) ilə ilk tanışlığından yazırdı: "Yay aylarının birində... Naxçıvana gəlmişdi... Şair bala Əşrəf məni Şürbi Mirzə Cəlil ilə tanış etdi. Bu tanışlıq mənim Mirzə Cəlil Məmmədquluzadə ilə birinci kərə görüşməyim üçün zəman yaratdı" (Ordubadi, 2012: 168).

Mənbələrdə Mirzə Cəlil Şürbinin (Mirzəyevin) 1903-1908-ci illərdə Ordubad qəzasının Vənənd kənd ibtidai məktəbində nəzarətçi vəzifəsində işlədiyi də göstərilmişdir ("Həyat" qəzeti, 23 sentyabr 1905, № 71). Mirzə Cəlil Şürbi (Mirzəyev) bir müddət Vənənd kənd ibtidai məktəbində nəzarətçi işlədikdən sonra geri çağırılmış, Naxçıvan şəhər rus-tatar məktəbinə müdir vəzifəsinə təyin edilmişdir. O, bu vəzifədə 1913-cü ilin əvvəllərinədək çalışmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan bir sənəddə Mirzə Cəlil Şürbinin (Mirzəyevin) pedaqoji fəaliyyətinə görə 1909-cu ildə "Kollec reqistratoru" rütbəsi verildiyi göstərilmişdir (Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, 4).

Qeyd edək ki, Mirzə Cəlil Şürbi (Mirzəyev) 1914-cü il avqust ayının 27-də Xalq Məktəbləri Direktorluğunun xüsusi bir sərəncamı ilə Şahbuz məktəbinə dəyişdirilmişdir (Həbibbəyli, 1997: 28). Bunun əsas səbəbi onun Naxçıvan mühitindən uzaqlaşdırılması idi. Bu dəyişiklik heç də Mirzə Cəlil Şürbinin (Mirzəyevin) razılığı ilə olmamışdı. Ona görə də o, bir müddət Şahbuz məktəbinə getmək istəməmişdir. Lakin maddi vəziyyəti ilə əlaqədar olaraq getməyə məcbur olmuşdur.

XX əsrin əvvəllərində İrəvan Müəllimlər Seminariyasının bacarıqlı naxçıvanlı məzunlarından Qasım bəy Camalbəyovun da adını çəkə bilərik. Siyasi və diplomatiya tarixində özünəməxsus xidmətləri olan Qasım bəy Camalbəyov 1881-ci ildə Naxçıvan şəhərində dünyaya göz açmış, 1938-ci ildə isə Bakı şəhərində qətlə yetirilmişdir (Hacıyev, 1980: 91).

Qasım bəy Camalbəyovun atası Abbasqulu bəy 7 yaşında olarkən oğlunu mədrəsəyə oxumağa göndərmişdir. Mədrəsə təhsilini yarıda kəsən Qasım bəy Camalbəyov daha sonra təhsilini "Məktəbi-tərbiyə" ("Tərbiyə") məktəbində davam etdirmişdir. O, iki il bu məktəbdə təhsil aldıqdan sonra şəhər dördillik məktəbinə daxil olmuşdur. Pedaqogika üzrə elmlər doktoru, professor Rüfət Hüseynzadə yazır: "Qasım bəy Camalbəyov 1901-ci ildə İrəvan Müəllimlər Seminariyasında imtahan vermiş, xalq müəllimi rütbəsi almış, 1901-ci ildən, 1911-ci ilədək İrəvan quberniyasının müxtəlif kəndlərində müəllimlik etmiş, 1912-ci ildən isə tərcüməçi işləməyə başlamışdır" (Hüseynzadə, 2012: 248).

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının tanınmış naxçıvanlı məzunlarından biri də Eynəli bəy Sultanov olmuşdu. O, Naxçıvan qəza məktəbində ibtidai təhsilini 1879-cu ildə başa vurmuş, bir il sonra, yəni 1880-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur (Eynəli bəy Sultanov, 2011: 4-5).

Eynəli bəy Sultanov yüksək hazırlığına, mənəvi yetkinliyinə, ədəbi istedadına görə İrəvan Müəllimlər Seminariyasında axıradək oxuyub tam kursu bitirməsinə ehtiyac qalmamışdı. O, 1886-cı il iyun ayının 5-də seminariyanın yeddinci sinfindən çıxmışdır. Elə həmin ildə (1886-cı il) İrəvan Müəllimlər Seminariyasının Pedaqoji Şurasının qərarı ilə 538 №-li müəllimlik şahadətnaməsinə əsasən ona şəhər ibtidai məktəblərində müəllimlik etmək hüququ verilmişdir (Eynəli bəy Sultanov, 2011: 17).

Eynəli bəy Sultanov İrəvan Müəllimlər Seminariyasında oxuduğu müddətdə mükəmməl təhsil almış, xüsusən Avropa dövlətlərini və Qərb maarifçiliyini dərindən öyrənə bilmişdir. O, xarici dillərdən rus, latın, yunan və fransız dillərini, fənlərdən isə riyaziyyat, fizika, tarix, coğrafiya, ilahiyyat və hüsnxət kimi fənləri öyrənməyə həvəs göstərmişdir. Onu da qeyd edək ki, mənbələrdə Eynəli bəy Sultanovun 1881-1882-ci tədris ilinin imtahanlarında yunan dili və ədəbiyyatı, latın dili və tarixi fənlərindən "əla"

qiymətlər aldığı, tərcümə məşğələləri zamanı xüsusi qabiliyyət nümayiş etdirdiyi göstərilmişdir (Məhərrəmov, 2010: 165).

Pedaqogika üzrə elmlər doktoru, professor Rüfət Hüseynzadənin araşdırmalarına nəzər saldıqda İrəvan Müəllimlər Seminariyasının daha bir naxçıvanlı məzunu Axund Məmmədbağır Kazımzadənin adının çəkildiyini görərik (Hüseynzadə, 2012: 248).

XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının naxçıvanlı məzunlarından Məmməd Axundovun, Hacı Məmmədəli oğlunun və Rəhim Xəlilovun da unudulmaz xidmətləri olmuşdur. "Kavkazskiy kalendar"ın 1900-cü il məcmuəsinin 235-ci səhifəsində Rəhim Xəlilovun Uluxanlı məktəbinə, daha sonar isə İrəvan Müəllimlər Seminariyasına dəvət olunduğu göstərilmişdir (Кавказский календарь на 1917 г. Типография канцелярии Е.И.В. наместника на Кавказе, 1916: 235-236).

Təəssüf hissi ilə bir məsələni də vurğulamaq lazımdır ki, 37 ilə qədər fəaliyyət göstərən bu təhsil ocağı (İrəvan Müəllimlər Seminariyası) 1918-ci ilin avqust ayının 6-da İrəvan gimnaziyası isə Uluxanlı məktəbi ilə eyni vaxtda fəaliyyətini dayandırmışdır. Uluxanlı məktəbi 1920-ci ildə yenidən açılsa da, İrəvan Müəllimlər Seminariyası və İrəvan gimnaziyası bir daha fəaliyyət göstərməmişdir.

Beləliklə, XIX sonu XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının böyük rolu olmuşdur. Burada dərs deyən müəllimlər təkcə tədrislə məşğul olmamış, həm də böyük ictimai-siyasi, elmi pedaqoji və metodiki işlər həyata keçirmişlər. İrəvan Müəllimlər Seminariyasının məzunları Azərbaycanın bir çox bölgələrində, o cümlədən Naxçıvan bölgəsində uğurla pedaqoji işlə məşğul olmuş, xalqın, millətin tərəqqisində və irəli getməsində mühüm işlər görmüşlər.

## ƏDƏBİYYAT


1. Məhərrəmov Z. H. (2010). İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi mədəni mühit). Bakı: Nurlan, 320 s.
2. Qafqaz Təhsil Dairəsinin sərəncamları. (1892). Tiflis, № 12
3. Köçərli F. Ə. (1981). Azərbaycan ədəbiyyatı. 2 cilddə. II c., Bakı: Elm, 460 s.
4. İrəvan əyalətinin icmal dəftəri: (1996). Araşdırma, tərcümə və qeydlər akad. Z.Bünyadov. Bakı: Elm, 184 s.
5. Hüseynzadə R.L. (2012). Pedaqoji kadr hazırlığında İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti və onun azərbaycanlı məzunları / "Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda keçirilmiş konfransın materialları. Bakı: Mütərcim, s. 247-248
6. "Həyat" qəzeti, 23 sentyabr 1905, № 71
7. Həbibbəyli İ. Ə. (1997). Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 682 s.
8. Həbibbəyli İ. Ə. (1985). Ədəbi yüksəliş. Bakı: Bilik cəmiyyəti, 63 s.
9. Hacıyev A. M. (1980). Tiflis ədəbi mühiti. Bakı: Yazıçı, 183 s.
10. Əhmədov H. M. (2014). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində təhsil alan tələbələr üçün dərslik. Bakı: Elm və təhsil, 432 s.
11. Eynəli bəy Sultanov: Taleyi və sənəti. (2011). Bakı: Elm və təhsil, 240 s.
12. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi: F.797, siy1, iş 11, v.15-20.
13. Azərbaycanda xalq maarifinin inkişafı (1920-1927). (1928). Bakı: Azərnəşr, 128 s.
14. Allahverdiyev C.V. (2008). İrəvanda Azərbaycan ədəbi mühiti (1920-1950): Filol. elm. nam. ... dis. Bakı: 159 s.

15. Adıgözəlov Ə. M. (2003). Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. Bakı: Təhsil, 92 s.
16. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.314, siy.6, iş 13, v.8-15.
17. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.24, siy.1, iş 1662, v.10-16.
18. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.19, siy.2, iş 1197, v.3-11.
19. Кавказский календарь на 1917 г. Типография канцелярии Е.И.В. наместника на Кавказе. (1916). Казенный дом. Тифлис: 310 с.
20. Hacıyev İ. M., Quliyev Ə. A. (1998). Tarihte ve günümüzde Nahçıvan. Ankara: Ankara Universitesi Basım evi, 92 s.
21. Zeynalov Ə. M. (1999). İrəvan ziyalıları. Bakı: Oğuz eli, 368 s.
22. Şərif Ə. Q. (1957). Cəlil Məmmədquluzadənin mühiti (1894-1903). “Azərbaycan” jurnalı, № 2, s. 25-29
23. Şamilov Ə. H. (1986). İkinci Mirzə Cəlil. “Sovet Naxçıvanı” qəz., 27 dekabr 1986, № 297
24. Ordubadi M. S. (2012). “Həyatım və mühitim” (Toplayanı, tərtib edəni, çapa hazırlayanı və ön sözün müəllifi İ.Ə.Həbibbəyli). Naxçıvan: Əcəmi, 336 s.
25. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi: F.1, siy.4, iş 312, v.2-23.
26. “Molla Nəsrəddin” jurnalı, 17 noyabr 1908, № 46
27. Məmmədov İ. S. (2003). Tariximiz, torpağımız, taleyimiz. Bakı: Adiloğlu, 700 s.

## SUMMARY

**Taleh Khalılov**

## EDUCATIONAL ACTIVITY OF NAKCHIVANI GRADUATES OF IRAVAN TEACHERS' SEMINARY

In the article, the educational activity of Nakhchivan graduates of the Yerevan Teachers' Seminary was studied. It was determined that the intellectuals from Nakhchivan, who were educated at the Yerevan Teachers' Seminary, rendered great services in the opening of new schools in Nakhchivan and the training of teachers. They have done important work in the field of conducting training in the mother tongue, preparing textbooks in the mother tongue, nationalizing the content of education and applying new teaching methods.

***Key words:*** *Nakhchivan, Yerevan, education, school, class, pupil, teacher*

## РЕЗЮМЕ

**Талех Халилов**

## УЧЕБНАЯ ДЕЯТЕЛЬНОСТЬ НАХЧИВАНСКИХ ВЫПУСКНИКОВ ИРАВАНСКОЙ УЧИТЕЛЬСКОЙ СЕМИНАРИИ

В статье изучена воспитательная деятельность нахчыванских выпускников Ереванской учительской семинарии. Установлено, что интеллигенция Нахчывана, получившая образование в Ереванской учительской семинарии, оказала большие услуги в открытии новых школ в Нахчыване и подготовке учителей. Они проделали важную работу в области проведения обучения на родном языке, подготовки учебников на родном языке, национализации содержания образования и применения новых методов обучения.

***Ключевые слова:*** *Нахчыван, Ереван, образование, школа, класс, ученик, учитель*

**NƏZAKƏT YUSİFOVA**
*Naxçıvan Dövlət Universiteti*
*n.yusifova@nu.edu.az*

# AXUND MƏMMƏDBAĞIR QAZIZADƏ İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ ZİYALILARINDAN BİRİ KİMİ

*1881-ci ilin 8 noyabr ayında 9 müəllim, 42 şagirdlə fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yadda qalan səhifələr yazmışdır. Xalqımızın maariflənməsi, təhsillənməsi üçün o dövr çox əhəmiyyətli olmuşdur.*

*Məqalədə İrəvan Müəllimlər Seminariyasının fəaliyyətindən bəhs olunub, onun müəllim kadrları hazırlığındakı rolundan danışılıb. Seminariya 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərib, pedaqoji fikir salnaməmizə yadda qalan səhifələr yazıb.*

*Məqalədə həmçinin görkəmli şəxsiyyətlərdən biri olan, həyatının 45 ildən artıq bir hissəsini müəllimliyə, İrəvanda Azərbaycan maarifi və mədəniyyətinin inkişafına həsr etmiş, ictimai-pedaqoji fikir tariximizin görkəmli nümayəndəsi, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri və tatar (Azərbaycan) dili müəllimi, dövrün görkəmli elm, maarif və din xadimi Axund Molla Məhəmmədbağır Hacı Molla Mehdi oğlu Qazızadənin həmin seminariyanın fəaliyyətindəki rolu araşdırılmışdır.*

***Açar sözlər.*** *Azərbaycan, ziyalı, axund, pedaqoji kadr, İrəvan Müəllimlər Seminariyası*

## Giriş

Seminariya 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərib, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazıb. Seminariyanın məzunları azərbaycanlıların yaşadığı bölgələrdə dünyəvi məktəblərin açılmasında, məktəbyaşlı uşaqların təhsilə cəlb edilməsində fəal iştirak etmiş, İrəvanda, Naxçıvanda və Azərbaycanın digər bölgələrində maarifin yayılmasında böyük fədakarlıq göstərmişdilər. Bu səbəbdən də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 29 dekabr 2021-ci il tarixində "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Bu sərəncam İrəvan mahalında azərbaycanlıların min illər boyu yaratdığı tarixi irsə sahib çıxmaqla tarixi yaddaşımızı bərpa etməyə və strateji hədəflərə nail olmağa hədəflənib və bu seminariyanın elm və təhsil sahəsindəki rolunu müəyyənləşdirməyə imkam verir. Bu baxımdan İrəvan Müəllimlər Seminariyasının fəaliyyətində mühüm rol oynayan tanınmış şəxsiyyətlərdən biri olan həmin təhsil müəssisəsinin Azərbaycan şöbəsinin müdiri və tatar (Azərbaycan) dili müəllimi, dövrün görkəmli elm, maarif və din xadimi Axund Molla Məhəmmədbağır Hacı Molla Mehdi oğlu Qazızadənin fəaliyyətinin öyrənilməsi bu sahədə görülən işlərin davamıdır.

İrəvan Müəllimlər Seminariyasının yaranması və fəaliyyəti haqqında.

1881-ci ilin 8 noyabr tarixində fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında elmi-mədəni həyatda təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Xalqımızın maariflənməsi, təhsillənməsi üçün o dövr çox əhəmiyyətli olmuşdur.

Müəllimlər seminariyasının ilk əsasnaməsinə görə, bu tip təhsil müəssisəsinə 16 yaşdan yuxarı pravoslav oğlan uşaqları qəbul oluna bilərdi. 1875-ci ildə qəbul edilən “Müəllimlər seminariyaları haqqında təlimat”da seminariyalarda pravoslavlarla yanaşı, müsəlmanların da təhsil almasına icazə verildi. 1879-cu ildə Daşkənddə Türküstan Müəllimlər Seminariyası, Orsk şəhərində Qazax Müəllimlər Seminariyası açıldı. Rusiya Dövlət Şurası 20 oktyabr 1880-ci ildə “Kutaisi və İrəvan quberniyalarında müəllimlər seminariyalarının təşkil edilməsi haqqında” qərar qəbul etdi. İrəvan Seminariyasına dövlət xəzinəsindən 28.350 rubl vəsaitin ayrılması nəzərdə tutuldu. Xalq Maarif Nazirliyi tərəfindən İrəvan Müəllimlər Seminariyasının ştat cədvəli təsdiq olundu (Sbornik postanovleniy po Ministerstvu narodnogo prosveshcheniya Tsarstvovaniye imperatora Aleksandra II. 1883). İrəvan Müəllimlər Seminariyası 8 noyabr 1881-ci ildə 9 müəllim, 42 şagirdlə fəaliyyətə başladı. İlk vaxtlar seminariyanın binası yox idi, İrəvan Xalq Təsərrüfatı İnstitutunun indiki binasında fəaliyyət göstərirdi. Seminariyanın ilk direktoru görkəmli maarifçi Yakob Stepanoviç Suşevski idi . O, ilk illərdə seminariyanın təşkilində böyük çətinliklərlə qarşılaşmalı oldu. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin popeçiteli A.O.Çernyayevskinin seminariyaya azərbaycanlı tələbələrin cəlb edilməsindəki çətinlikləri o da yaşamalı oldu. Kuban və Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının mütərəqqi ənənələrindən bəhrələnən Y.S.Suşevski çətinliklə də olsa, ilk tədris ilində seminariyaya 9 müəllimin, 42 şagirdin cəlb edilməsinə, maliyyə məsələlərinin həllinə nail oldu. İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladığı ilk dövrdə tədris prosesi üçün lazımi səviyyədə əlverişli şəraiti olmayan, illik icarə haqqı 5 min rubl olan birmərtəbəli binada yerləşmişdi. Binanın qapısının üzərindən kiçik bir lövhə asılmışdı. İrəvan təhsil tarixinin tanınmış tədqiqatçısı dosent Cəlal Allahverdiyevin araşdırmalarına görə, həmin lövhənin üzərində əski ərəb əlifbası ilə bu sözlər yazılmışdı: “Əcəb səadətə çatdıq görüb əsl səidi, bu zülmət içrə göründü gözə “Ziyayi-Rəşidi”. 1901-ci ildə seminariyanın pedaqoji şurası təhsil müəssisəsi üçün ayrıca bina tikmək qərarına gəldi, şəhərin yuxarı hissəsində (Daşlı küçədə) bağlarla əhatə olunmuş ərazi məktəb binası üçün ayrıldı. Bir il sonra memarlar Vasili Mirzoyan və Nikolay Kitkin layihəsi əsasında binanın tikintisinə başlandı. 1905-ci ildə tikintisi başa çatan binada on il İrəvan Müəllimlər Seminariyası fəaliyyət göstərdi. 1915-ci ildə bina kazarmaya çevrildiyindən seminariya Armavirə köçürüldü. İki il müəllimlər seminariyası kimi fəaliyyət göstərən təhsil ocağı 1917-ci il fevral burjua inqilabından sonra Rusiya imperiyasının digər seminariyaları kimi üçillik pedaqoji kursa çevrildi və 1918-ci ildə isə öz fəaliyyətini. tamamilə dayandırdı. Seminariyada ilahiyyat fənlərini P.Q.Qambarov (pravoslav), keşiş Q.Q Amanasyanç (ermaniqriqoryan) və Axund Məmmədbağır Qazızadə (islam) tədris edirdi. Axund Məmmədbağır Qazızadə həm də tatar (Azərbaycan) dili müəllimi vəzifəsində çalışırdı. 1883-cü ildə seminariyada A.A.Karamosko, İ.A.Tamamşev, S.A.Nazaryan, A.O.Raymeman, Bazılyeviç, E.K.Bayor kimi müəllimlər çalışırdı. 1884-cü ildə P.Q.Qəmbərov keşiş A.Sokolovla əvəz olunmuş, yuxarı siniflər açıldığından yeni müəllimlər – İ.M.Klopov (rus dili və tarix), A.İ.Lyaudanski (riyaziyyat), V.Dıviçkiy (təbiət elmləri və coğrafiya), N.A.Suvorov (ibtidai məktəbin müdiri), S.N.Kaspadze, A.B.Zeldliç, V.V.Zaüçov və b. pedaqoji fəaliyyətə cəlb edilmişdir. 1885-ci ildə müəllimlərin sayı 12-yə, 1889-cu ildə

13-ə çatdı. Kollektivin təcrübəli, öz işini sevən müəllimlərdən təşkil edilməsi seminariyada təhsil-tərbiyə işlərinin ildən-ilə yaxşılaşmasına, nümunəvi tədris müəssisəsinə çevrilməsinə səbəb oldu. Siniflər və dərəcələr Qafqazdakı digər seminariyalar kimi, İrəvan Müəllimlər Seminariyasının da tərkibi beynəlmiləl idi. İlk təhsil ilində seminariyaya qəbul olunan 42 şagirdin 8-i rus, 28-i erməni, 6-sı azərbaycanlı idi. İkinci tədris ilində azərbaycanlıların sayı xeyli artdı. İkinci tədris ilinin sonunda tələbələrin ümumi sayı 54 nəfər olmuşdu ki, onlardan da 7-si rus, 23-ü azərbaycanlı, 23-ü isə erməni idi.

Arxiv sənədlərindən məlum olur ki, hər il 15 nəfər azərbaycanlı tələbənin İrəvan Müəllimlər Seminariyasında dövlət vəsaiti hesabına oxuması və pansionda yaşaması müəyyənləşdirilmişdi . Seminariyada təhsil müddəti 3 il idi, nəzdində hazırlıq sinfi, nümunəvi ibtidai məktəb fəaliyyət göstərirdi. Seminariya iki qrupla (böyük hazırlıq qrupu və birinci qrup) başlamışdı. 1883-cü ildə üçüncü sinif təşkil olunmuşdu. Seminariya tələbələri pedaqoji təcrübəni həmin məktəbdə keçirdilər. Seminariyanın nəzdində pansionat (yataqxana) fəaliyyət göstərirdi. Burada azərbaycanlılarla bərabər, erməni, gürcü, rus və digər xalqların uşaqları təhsil alırdı. Seminariyanın əsasnaməsi Qori Müəllimlər Seminariyasının əsasnaməsi ilə eynilik təşkil edirdi. Digər seminariyalar kimi, İrəvan Müəllimlər Seminariyası da 4 sinifdən ibarət idi. Hər il hazırlıq qrupuna və birinci sinifə şagird qəbulu elan edilirdi. Şagirdlərin II və III siniflərə birbaşa qəbuluna icazə verilmirdi. İbtidai məktəb müəllimi olmaq istəyənlər progimnaziyanın ikinci sinfinin proqramına uyğun olaraq ilahiyyat, rus dili, hesab, həndəsə, coğrafiya, tarix və biologiya fənlərindən imtahan verməli olurdular. 1883-1884-cü tədris ilində hazırlıq qrupunda həftəlik dərs saatlarının miqdarı 36 saat, I sinifdə 38 saat, II sinifdə 39 saat, IV sinifdə isə 40 saat olmuşdu. Sonrakı illərdə şagirdlərin və müəllimlərin sayı artmışdı. Seminariyanın nəzdində nümunə məktəbi ibtidai məktəb fəaliyyət göstərirdi. 1896-cı ildə məktəbin müəllimləri bu şəxslər idi: N.A.Suvorov, A.İ Sokolov (keşiş), Q.Amanasyanç (erməniqriqoryan), Məmmədbağır Qazızadə (şəriət). Təhsilin müddəti 3 il idi. Rus dili və hesab birinci dərəcəli fənlər hesab edildiyindən onların tədrisinə xüsusi diqqət yetirilirdi. Ana dili, nəğmə, rəsm, təbiət və digər fənlər ikinci dərəcəli fənlər hesab edilirdi. İbtidai məktəbdə şagirdlərin ətraf aləmlə tanışlığına, sinifdənxaric tədbirlərin təşkilinə, onların fiziki, əxlaqi, estetik tərbiyəsinə mühüm əhəmiyyət verilirdi. Seminaristlər ibtidai məktəbin tədbirlərində iştirak edir, şagirdlərlə müxtəlif oyunlar təşkil edir, müəllimin ən yaxın köməkçisi rolunda çıxış edirdilər. Seminaristlər pedaqoji təcrübəni həmin məktəbdə keçirdilər. 1882-1883-cü tədris ilində ibtidai məktəbdə 61 şagird təhsil alırdı ki, onlardan da 13-ü azərbaycanlı, 38-i erməni, 10-u rus millətinin nümayəndələri idi. 1889-1900-cü illərdə şagirdlərin sayı 82 nəfərə çatmışdı. Nümunə məktəbinin müdiri ayrı-ayrı vaxtlarda V.A.Muxin, A.Suvorov, ilk azərbaycanlı müəllimi isə Məşədi Bağır Qazızadə olmuşdu. 1891-ci ildə seminariyanın 12, 1892-ci ildə 4, 1893-cü ildə 5, 1894-cü ildə 9, 1895-ci ildə 14 nəfər məzunu olub. 1881-1895-ci illərdə seminariyanın 12 buraxılışı olub ki, burada da 123 nəfərə ibtidai məktəb müəllimi adı verilib. Onlardan 25 nəfəri azərbaycanlı, 67 nəfəri erməni, 8 nəfəri rus, 2 nəfəri dağlı, 10 nəfəri digər millətlərin nümayəndələri olub. 1895-1915-ci illərdə İrəvan Müəllimlər Seminariyasını 38 nəfər, 1916-cı ildə 19 nəfər, 1917-ci ildə 22 nəfər, 1918-ci ildə 23 nəfər azərbaycanlı bitirib (Allahvediyev 2022, 39). Seminariyanın 20-ci buraxılışı 1903-cü ildə, 30-cu buraxılışı 1913-cü ildə olub. XIX əsrin sonlarında Cənubi Qafqazda işləyən kənd məktəbləri müəllimləri və müdirlərinin xeyli hissəsi müxtəlif illərdə həmin seminariyada ekstern yolu ilə imtahan verərək müəllimlik hüququ qazanmışdılar. Seminariyanın pedaqoji şurasının qərarına əsasən 1895-ci ildə Cəlil Mirzəyev, Tağı bəy Səfiyev, Məmməd bəy Qazıyev, 1902-ci ildə isə İbadulla bəy Muğanlinski, Cabbar Məmmədov, Şamdan Mahmudbəyov və başqalarına kənd müəllimi adı verilmişdi. Bu nəcib işin də təşəbbüsçüsü və təşkilatçısı qocaman maarif xadimi Axund Məmmədbağır Qazızadə olmuşdu. Əhməd bəy Qaziyev, Əli Əşrəf Qaziyev, Həsən bəy Axund Molla Xəlil bəy oğlu Qaziyev,

Fərəməz Mahmudbəyov, Yusif bəy Qaziyev (Qazızadə), Məmməd bəy Əli bəy oğlu Mahmudbəyov, Xəlil Məmmədəliyev, Həsən Nəsirbəyov, Saleh Məşədi Teymur oğlu Güllücinski, Ağa bəy Firudinbəyov, Ağa bəy Rəhim bəy oğlu Firudinbəyov, Abbas Qədimov, Abbas Allahverdi oğlu Qədimov, Fərrux Ağakişibəyov, Əli Cəlilzadə, Mirzə Bağır Əliyev, Şıxəli bəy Firudinbəyov, Cəfərbəy Cəfərbəyov, İbrahim Şahtaxtlı, Vahid Musabəyov, Rəşid bəy İsmayılov, Həbib bəy Səlimov, İsmayıl bəy Şəfibəyov, Mirzə Abbas Məhəmmədzadə, Cabbar Məhəmmədzadə, İbadulla bəy Muğanlinski, Vahid Musabəyov, Hüseynəli bəy Rüstəmbəyov, Tağı bəy Səfiyev, Haşım bəy Nərimanbəyov, Şamil Mahmudbəyov, Həmid bəy Şahtaxtinski və b. ayrı-ayrı vaxtlarda seminariyanın məzunları olublar.

İrəvan Müəllimlər Seminariyası şəhərdə yalnız təhsil ocağı deyil, elm və mədəniyyət mərkəzinə çevrilmişdi. Seminariyada azərbaycanlılarla yanaşı, demokratik fikirli rus, ukraynalı və erməni müəllimləri fəaliyyət göstərirdi. 1881-ci ildən 1914-cü ilədək İrəvan Müəllimlər Seminariyasını 63 nəfər azərbaycanlı bitirmişdi. İrəvan Müəllimlər Seminariyasının direktoru V.V.Dobrotinin 1918-ci ildə yazdığı hesabatdan aydın olur ki, 1915-1916-cı tədris ilində seminariyanı 19 nəfər, 1916-1917-ci tədris ilində 22 nəfər, sonuncu – 1917-1918-ci tədris ilində isə 23 nəfər azərbaycanlı bitirmişdi. Ümumiyyətlə, üç il ərzində seminariyanı 316 nəfər bitirmişdi ki, onlardan 64 nəfərini azərbaycanlılar, 2 nəfərini isə türklər təşkil etmişdi. 1915-ci ildə İrəvan Müəllimlər Seminariyası Armavirə köçürüldü və 1918-ci ilə kimi orada fəaliyyət göstərdi. Həmin dövrdə seminariyaya direktor B.B.Dobrotin rəhbərlik edirdi. Seminariyada 3 ilahiyyat müəllimi, 9 fənn müəllimi və 1 həkim çalışırdı. Azərbaycan dili fənnini Mirzə Cabbar Məmmədov, şəriət fənnini isə Axund Məmmədbağır Qazızadə tədris edirdi. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə səbəbindən seminariya fəaliyyətini dayandırdı, müəllimlərin və tələbələrin bir qismi amansızcasına qətlə yetirildi, sağ qalanlar isə doğma yurdlarını tərk edərək Türkiyəyə və Azərbaycana pənah apardılar (Rüstəmov 2022, 111).

**Axund Məmmədbağır Qazızadənin İrəvan Müəllimlər Seminariyasındakı fəaliyyəti.**

Məlumdur ki, İrəvan ədəbi-mədəni, ictimai-siyasi mühitinin görkəmli nümayəndələrinin Şərq elmində, ədəbiyyatında, mədəniyyətində oynadığı müstəsna rolun təsiri bu gün də ədəbi-mədəni prosesdə duyulmaqdadır. Bütün bunlara baxmayaraq həmin ərazilərin əsl sakinləri və sahibləri azərbaycanlılar olsa da, tarixin müxtəlif dövrlərində zor gücünə öz əzəli torpaqlarında yaşamaq hüququndan məhrum edilmişlər.

Belə görkəmli tanınmış şəxsiyyətlərdən biri də İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri və tatar (Azərbaycan) dili müəllimi, dövrün görkəmli elm, maarif və din xadimi Axund Molla Məhəmmədbağır Hacı Molla Mehdi oğlu Qazızadədir. O, 1829-cu ildə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində bölgənin tanınmış din xadimi Hacı Molla Mehdinin ailəsində dünyaya gəlib. Onun həyatında atası mühüm rol oynayıb. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, dövlət quruculuğunun və digər mühüm sahələrin inkişafında Qazızadələrin böyük rolu olub. Qazızadələr soyu XVIII-XIX əsrlərdə nəinki Cənubi Qafqazda, bütün Yaxın Şərqdə tanınırdı. Bu sülalə Azərbaycanın elmi, ədəbi-mədəni, ictimai-siyasi mühitinə dəyərli şəxsiyyətlər bəxş edib (Allahvediyev 2022, 59).

İlk dini savadını atasından alan Məhəmmədbağır Qazızadə sonra İrəvanda mədrəsədə oxuyub. Burda özünün çalışqanlığı sayəsində Quranı, fars və ərəb dillərini öyrənib. Elmə marağı olan Məhəmmədbağır Qazızadə İrəvan qəza məktəbini bitirdikdən sonra elmini və təhsilini daha da təkminləşdirmək, ali ruhani təhsilini almaq üçün Nəcəf şəhərinə gəlir və orda təhsilini davam etdirir. O, burda təhsil aldığı müddətdə Şərq ədəbiyyatını, tarixini və digər elm sahələrini də böyük həvəslə dərindən öyrənməyə nail olur. Bu elmi mühit onun elmi həyatında mühüm mərhələ təşkil edir. Öz üzərində səylə çalışan Məhəmmədbağır Qazızadə riyaziyyata, tarixə, ədəbiyyata, məntiqə aid çoxlu kitablar oxuyur. Onun burda oxuduğu dövr dünyagörüşünə,

həyat və yaradıcılığına ciddi təsir göstərir. O, Şərq ədəbiyyatının, mədəniyyətinin gözəl bilicisi olmaqla yanaşı, Avropa ölkələrinin maarif sisteminə, mədəniyyətinə də dərindən yiyələnir.

Məhəmmədbağır Qazızadə Nəcəf şəhərindəki ali dini təhsilini başa vurduqdan sonra doğma vətəni İrəvana qayıdır. Zaqafqaziya Ruhani İdarəsində imtahan verərək axund titulu alır. 1873-cü ildə İrəvan Quberniyası Ruhani Məclisinin üzvü seçilir. O, burda sədr olmaqla yanaşı İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri və müəllimi kimi də öz vəzifəsinin öhdəsindən layiqincə gəlmişdir.

Dərin biliyə və savada malik olan Məhəmmədbağır Qazızadənin azərbaycanlı əhali arasında böyük hörmət və ehtirama sahib olmasının əsas səbəbi öz fəaliyyətində təkcə bir məscidin, bir icmanın maraqlarını nəzərə almır, ümumilikdə xalqa, onun inkişafına xidmət etməsi idi.

Dövrün qabaqcıl maarifçiləri kimi Məhəmmədbağır Qazızadə də yeni tipli məktəblərin yaradılması, pedaqoji kadrlara olan ehtiyacı ödəmək, savadlı kadrlar hazırlamaq zərurətini görüb, İrəvanda onun həyata keçirilməsi uğrunda mübarizə aparanların önündə gedirdi.

Fədakar maarif xadimi Axund Məhəmmədbağır Qazızadə nəinki çalışdığı seminariyada, yaşadığı İrəvanda, bütün Şərqdə böyük nüfuza malik idi. O, bütün ömrünü bilik və bacarığını müəllim kadrların hazırlanmasına, yeni tipli məktəblərin yaradılmasına, Azərbaycan maarifinin və mədəniyyətinin inkişafına sərf etmişdir.

O, pedaqoji ustalığı, hər şagirdlə fərdi məşğul olması, təcrübəsi ilə ən fəal və qabaqcıl maarif işçisi kimi fərqlənirdi. O, bir müəllim kimi öz ideyalarını həyata keçirmək uğrunda yorulmadan mübarizə aparırdı. Məhəmmədbağır Qazızadənin 1898-ci ildə İrəvanda rus-tatar məktəbinin açılmasında xüsusi rolu olmuşdur. Onun pedaqoji fəaliyyətinin əsas istiqamətlərindən biri də azərbaycanlı qızlar üçün şərait yaradılmasına, onların məktəbə cəlb edilməsinə ciddi səy göstərməsidir. O, İrəvanda ilk qızlar məktəbinin açılmasının təşəbbüskarı və təşkilatçısı olmuşdur. İrəvanda öz evində 1902-ci ildə rus-tatar (azərbaycanlı) qızlar məktəbi açmışdır. Bu Cənubi Qafqazda III müsəlman qız məktəbi idi. Azərbaycanlı qızları üçün İrəvanda açdığı bu məktəb çox böyük mədəni hadisəyə səbəb olmuş və ziyalılar tərəfindən rəğbətlə qarşılanmışdır. Həmin məktəbdə şəriət fənnini isə özü tədris etmişdir. Məhəmmədbağır Qazızadə istər məktəbdə, istərsə də seminariyada təhsil alan, maddi imkanları hədsiz dərəcədə zəif olan azərbaycanlı şagirdlərin bir çoxuna öz vəsaiti hesabına köməklik göstərmiş, onları geyim və dərs vəsaitləri ilə təmin etmişdir. O, səmərəli pedaqoji və ictimai fəaliyyətinə görə 1882-ci ildə gümüş medalla, 1898-ci ildə isə III dərəcəli müqəddəs Anna medalı ilə təltif edilmişdir. Məhəmmədbağır Qazızadə 1911-ci ildə bir neçə irəvanlı müəllimin Tiflisdə Azərbaycan dilində nəşr etdirdiyi "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri olmuşdur.

İrəvanda qabaqcıl maarifçilərin sırasında öz dəsti-xətti ilə seçilən Məhəmmədbağır Qazızadənin ictimai-pedaqoji fəaliyyəti dövründə xalq maarifi sahəsində böyük bir canlanma baş vermişdir. Bununla yanaşı Zaqafqaziya Ruhani İdarəsinin sədri Axund Əhməd Hüseynzadə seminariyada tədris olunan şəriət qanunlarının öyrənilməsi üçün Məhəmmədbağır Qazızadənin hazırladığı proqramı daha münasib hesab etmiş və onu böyük qiymətləndirmişdir. Onun seminariyada şəriət qanunlarının öyrənilməsi ilə tərtib etdiyi proqramda gənc nəslin formalaşmasında müəyyən rol oyanayan, yüksək insani, humanist xüsusiyyətlər aşılayan, əxlaqi və tərbiyəvi mahiyyət kəsb edən dini mövzulara geniş yer verilmişdir.

Axund Molla Məhəmmədbağır Qazızadə İrəvanın ictimai-siyasi, mədəni həyatında böyük rol oynamış və hər zaman azərbaycanlıların hüququnun keşiyində durmuşdur. O, ömrünün sonuna kimi İrəvan Quberniyasının Ruhani Məclisinin sədri və İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri və ilahiyyat müəllimi vəzifəsində çalışmışdır. Xalqımızın tarixində mühüm rol oynayan Həmid bəy Şaxtaxtinski, Həbib bəy Səlimov, Mirzə Cabbar Məmmədzadə, Haşım bəy Vəzirov, Rəşid bəy İsmayılov və bu kimi onlarla tarixi şəxsiyyətlər, alimlər, ictimai-siyasi xadimlər onun tələbəsi

olmuşdur. O seminariyada ciddi çətinliklərlə qarşılaşmasına baxmayaraq hər il burada təhsil alan tələbələrin sayını artırmağa çalışmışdır. Onun səyi nəticəsində bir il ərzində seminariyada azərbaycanlı tələbələrin sayı dörd dəfə artaraq 23 nəfərə çatmışdır.

Həyatının 45 ildən artıq bir hissəsini müəllimliyə, İrəvanda Azərbaycan maarifi və mədəniyyətinin inkişafına həsr etmiş ictimai-pedaqoji fikir tariximizin görkəmli nümayəndəsi Axund Molla Məhəmmədbağır Qazızadə 1911-ci ildə dekabr ayında İrəvanda vəfat etmişdir. Onun dəfn mərasimində böyük izdiham yaşanmış, regionun tanınmış din və ictimai xadimləri iştirak etmişdir.

**Nəticə**

Millət yaratdığı şərəfli tarixi ilə özünü ifadə edir. İndi yadlara, yağılara qalan qədim İrəvan şəhərində 140 il bundan əvvəl fəaliyyətə başlayan müəllimlər seminariyası təhsil və pedaqoji fikir tariximizin, maarifçilik tariximizin, milli mədəniyyət tariximizin və kimliyimizin parlaq səhifələrindən birini təşkil edir. Zəngi çayının sahilində dağlarla əhatə olunmuş düzənlikdə salınan qədim Azərbaycan şəhəri İrəvan bölgəsində fəaliyyət göstərən İrəvan Müəllimlər Seminariyası təhsil-tərbiyə mədəniyyətinin, maarifin və maarifçiliyin inkişafında mühüm rol oynayıb və bu seminariyanın yetirdikləri ziyalılar Azərbaycanın elm, təhsil və mədəniyyətinə öz layiqli töhfəsini vermiş, yüzlərcə ziyalıların formalaşmasına köməklik göstərmişdir.

Əminliklə demək olar ki, Prezident İlham Əliyevin İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncam təhsil tarixinin şərəfli bir səhifəsinin daha ətraflı öyrənilməsinə, tədqiq və təbliğ olunmasına təkan verəcək.

## ƏDƏBİYYAT

1. “İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2021-ci il tarixli Sərəncamı. “Xalq qəzeti” 29 dekabr 2021-ci il.
2. Allahverdiyev C. İrəvan Müəllimlər Seminariyası. Bakı: 2022
3. Rüstəmov F.Azərbaycanlı müəlimləri kadr hazırlığında İrəvan Müəllimlər Seminariyasının rolu. Azərbaycan məktəbi, 2022, №1/698
3. Rüstəmov F.Pedaqoji fikir tarixi. Bakı, Nurlan, 2006

## SUMMARY

**Nazakat Yusifova**

**AKHUND MAMMADBAGYR GAZIZADE AS ONE OF THE INTELLECTUALS OF THE YEREVAN TEACHERS' SEMINARY**

Despite the fact that the Yerevan Teachers' Seminary, which began its activity onNovember 8, 1881 with 9 teachers and 42 students, was established in the interestsof the tsarist authorities in the region, for almost 40 years highly qualified national teaching staff with a modern outlook and thinking have rendered worthy services in the scientific and cultural life of the Irevan district, where Azerbaijanis predominate, wrote memorable pages of our chronicle of pedagogical thought.

This period was very important for the enlightenment and education of our people.The article talked about the activities of the Yerevan Teachers' Seminary, talked about its role in the training of teaching staff.

Highly qualified national pedagogical personnel with a modern outlook and thinking, trained by the seminary for almost 40 years, the seminary has rendered remarkable services in preserving the traditional completeness and vitality of literary, social, scientific and cultural life in the Irevan district, where Azerbaijanis predominate, and has writtenmemorable pages in our chronicle of pedagogical thought.

The article also says that one of the outstanding figures who devoted more than 45 years of his life to teaching, development of Azerbaijani education and culture in Yerevan, a prominent representative of the history of socio-pedagogical thought,head of the Azerbaijani department of the Yerevan Teachers' Seminary and teacher of the Tatar (Azerbaijani) language, an outstanding figure of science, education and religion of that time. The role of Haji Akhund molla Muhammedbagir Haji molla Mehdi oglu Gazizade in the activities of this seminary was studied.

***Key words:*** *Azerbaijan, intelligentsia, akhund, teaching staff, Yerevan Teachers' Seminary*

## РЕЗЮМЕ

**Назакат Юсифова**

### АХУНД МАМЕДБАГЫР ГАЗИЗАДЕ КАК ОДИН ИЗ ИНТЕЛЛЕКТУАЛОВ ЕРЕВАНСКОЙ УЧИТЕЛЬСКОЙ СЕМИНАРИИ

Несмотря на то, что Ереванская учительская семинария, начавшая свою деятельность 8 ноября 1881 года с 9 преподавателями и 42 учениками, была создана в интересах царской власти в регионе, в течение почти 40 лет высококвалифицированные национальные педагогические кадры с современным мировоззрением и мышлением оказали достойные услуги в научно-культурной жизни Иреванского района, где преобладают азербайджанцы, написал запоминающиеся страницы нашей летописи педагогической мысли. Этот период был очень важен для просвещения, образования нашего народа. В статье говорилось о деятельности Ереванской учительской семинарии, говорилось о ее роли в подготовке педагогических кадров.

Высококвалифицированными национальными педагогическими кадрами с современным мировоззрением и мышлением, подготовленными семинарией за почти 40 лет, семинария оказала замечательные услуги в сохранении традиционной полноты и жизнеспособности литературно-общественной, научно-культурной жизни в Иреванском районе, где преобладают азербайджанцы, написала памятные страницы в нашей летописи

педагогической мысли.

В статье также говорится, что один из выдающихся деятелей, посвятивший более 45 лет своей жизни преподаванию, развитию азербайджанского просвещения и культуры в Ереване, видный представитель истории общественно-педагогической мысли, заведующий азербайджанским отделением Ереванской учительской семинарии и учитель татарского

(азербайджанского) языка, выдающийся деятель науки, просвещения и религии того времени. Изучалась роль Хаджи Ахунда моллы Мухаммедбагира Хаджи моллы Мехти оглы Газизаде в деятельности этой семинарии.

***Ключевые слова:*** *Азербайджан, интеллигенция, ахунд, педагогические кадры, Ереванская учительская семинария*

**MƏTANƏT QULİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*m.quliyeva1963@gmail.com*

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI MÜƏLLİM HAZIRLIĞINDA MÜHÜM TƏHSİL OCAĞI KİMİ

*Hər millət öz tarixi və mədəniyyəti ilə tanınır. Öz fəaliyyətin 140 il əvvəl qədim Azərbaycan torpağı İrəvanda başlayan İrəvan Müəllimlər Seminariyası millətimizin pedaqoji fəaliyyət və mədəniyyətindən xəbər verir. Cənab prezidentimizin sərəncamı ilə İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyi yaddaşları təzələdi və azərbaycanlı müəllim və alim heyətini bu yolda yeni axtarışlara sövq etdi. Hər bir millət öz tarixini həyatı boyu çiyinlərində daşıyır. Yaddaşları yeniləmək və gələcək nəsillərə çatdırmaq adına bu ənənənin davam etdirilməsi təqdirəlayiqdir. Keçmişi bilmədən, analiz etmədən gələcəyə addım atmaq, inkişaf etmək və məqsədə nail olmaq mümkün deyil. Tariximizi öyrənib və təbliğ etmə nöqteyi-nəzərindən keçmişimizə sahib olmalı, mənəvi dəyərlərimizə yönlənərək yiyələnməliyik. Bu baxımdan İrəvan Müəllimlər Seminariyasının fəaliyyətini yenidən nəzərdən keçirərək elmi-pedaqoji, siyasi-ideoloji, mədəni-mənəvi dəyərləri ilə zəngin olan bu seminariyanı tədqiq etməyə dəyər. Biz İrəvandakı nəslin tarixinin sahibi olmalıyıq ki, mənfur düşmənlər bizim mədəniyyətimizi sahiblənməsinlər.*

***Açar sözlər:*** *İrəvan, seminariya, müəllim, sinif.*

## Giriş

İrəvanda yeni sistemli təhsilin inkişafı XIX əsrin 30-cu illərinə təsadüf edir. Həmin illərdə Zaqafqaziya məktəbinin yaranması haqqında sərəncamlar imzalanmışdır. Sərəncama əsasən Cənubi Qafqazda 20 məktəb açılmışdır. 1832-ci ildə İrəvanda ikiillik məktəb, 1839-cu ildə üçillik, 1869-cu ildə dördillik – gimnaziyaya qədərki, 1881-ci ildə isə gimnaziya yaradılmışdır. 600-a qədər azərbaycanlı bu gimnaziyadan məzun olmuşdur. Firidun bəy Köçərli Azərbaycan xalqının təhsil və mədəniyyətində xüsusi xidməti olan elm xadimidir. Onun iştirakı ilə bu illərdə yeni dərs nümunələri yaradıldı ki, artıq dərslər Azərbaycan dilində keçirilməyə başlandı. 1882-ci ildə Məşədi Molla İsmayıl Hacı Kazımov və Mirzə Kazım Əsgərzadə, 1883-cü ildə Mirzə Həsən Ruşdi ilə Təbrizdən İrəvana gələrək orada tədris müəssisəsi açdılar. (Cəfərov, Allahverdiyev 2017, 63-65). Bu müəssisənin açılması ilə əlaqədar olaraq güclü və tələbkeş pedaqoji heyət və müəllimlər bu tədris müəssisəsinə cəlb olundu. İrəvan Müəllimlər Seminariyasının verdiyi birinci qərara görə burada 16 yaşdan yuxarı xristian uşaqları oxumalı idi. 1875-ci ildə yeni qərarla İrəvan Müəllimlər Seminariyasında xristian uşaqları ilə yanaşı, müsəlman uşaqlarının da oxumasına icazə verildi. Seminariyada hazırlıq və ibtidai siniflər fəaliyyətə başladı. Seminariyada təhsil alacaq şagirdlər təcrübədən keçirdilər. Seminariyada şagirdlərin yaşaması üçün yataqxana da fəaliyyət göstərirdi. Burada Azərbaycan, gürcü, rus, erməni və başqa xalqların nümayəndələri təhsil alırdı. Bu seminariyanın qanun qaydaları Qori Müəllimlər Seminariyası ilə demək olar ki, eyni idi. Seminariya öz fəaliyyətini 2 qrupla başladı: hazırlıq və birinci sinif. Başqa seminariyalarda olduğu kimi, İrəvan Müəllimlər Seminariyasında da 4 sinif var idi. Hər il hazırlıq qrupları təzələnirdi. İkinci və üçüncü siniflərə qəbul yox idi. Birinci sinif şagirdləri məntiq, riyaziyyat, həndəsə, rus dili, coğrafiya, Azərbaycan dili, tarix və biologiya fənlərini keçərək imtahan verirdilər. İldən-ilə şagirdlərin sayı çoxalmağa başladı. İbtidai siniflərdə 61 nəfərdən 13 nəfəri azərbaycanlı idi. 1889-1900-cü illərdə Məşədi Bağır Qasımzadə İrəvan Müəllimlər Seminariyasında dərs deməyə başlamışdı. Azərbaycan uşaqlarının beşyaşlı siniflərə qəbulu məcburi deyildi. Siniflərin təşkili uşaqların bilik səviyyəsindən asılı idi. İrəvan Müəllimlər Seminariyasında dərs deyən ilk müəllimlərdən biri də

Məmmədbağır Qazızadə idi. İrəvan Müəllimlər Seminariyası təşkil olunduğu ilk gündən məntiq və Azərbaycan dili dərsləri keçirilirdi. 1897-1917-ci illərdə isə yalnız məntiq dərsləri keçirilirdi. 1892-ci ildə Mirzə Rəhim Xəlilov seminariyada Azərbaycan dili dərsləri deməyə başladı. O, bu seminariyanın məzunu olaraq Qasımzadə tərəfindən tövsiyə olunmuşdur. Müxtəlif zamanlarda Məmmədbağır Kərimzadə, Mirzə Məmmədəli Qəmərli, Rəşid bəy Şahtaxtinski, Məmmədbağır Qazızadə, Həmid bəy Şahtaxtinski, Zəfər bəy Zəfərbəyov, Məmməd Axundov, Axund Məmmədbağır Tağızadə, Mirzə Cabbar Məmmədzadə və bu kimi bir sıra azərbaycanlı elm adamları şəriət və Azərbaycan dili dərslərini tədris edirdilər (Cəfərov, Allahverdiyev 2018, 81-83). Başqa seminariyalarda olduğu kimi, İrəvan Müəllimlər Seminariyasında da təhsil ödənişli əsaslarla fəaliyyət göstərirdi. Şagirdlərin bir hissəsi dövlət hesabına oxuyurdu. Qəbul olunan il 220 manat, sonuncu illər isə 180 manat ödəyirdilər. 70 şagirddən 20-si öz büdcəsi hesabına təhsil alırdı. “Qafqaz təqvimi”nə görə 128 seminaristdən 46-sı rus, 37-si erməni, 30-u azərbaycanlı, 6-sı gürcü, 9-u isə başqa millətlərdən idi. 1884-cü ildə İrəvan Müəllimlər Seminariyasının birinci buraxılışı oldu. Həmin il 5 azərbaycanlı məzun oldu. 1893-cu ildə 10, 1903-cü ildə 20, 1913-cü ildə isə 30 nəfərin buraxılışı oldu. İrəvan Müəllimlər Seminariyasının pedaqoji şurasının qərarı ilə 1895-ci ildə Cəlil Mirzəyev, Tağıbəy Səfiyev, Məmməd bəy Qazıyev, 1902-ci ildə isə İbadulla bəy Müqaliski, Cabbar Məmmədov, Şamdan Mahmudbəyov və başqalarına kənd müəllimləri vəzifəsində çalışmağa icazə verildi. Bu missiyanın ideyaverici və təşkilatçısı Məmmədbağır Qazızadə olmuşdur. Məzunlar təyinatla bölgələrə gedir və ya əks təqdirdə 650 manat məbləğində pul ödəyirdilər. Müxtəlif illərdə məzun olmuş azərbaycanlı seminaristlər bunlar idi: Mirzəbağır Əliyev, Əhməd bəy Qazıyev, Əli Əşrəf Qazıyev, Həsənbəy Axund Molla Xəlil bəy oğlu Qazıyev, Fərəməz Mahmudbəyov, Yusif bəy Qazıyev, Məmməd bəy Əlibəy oğlu Mahmudbəyov, Xəlil Məmmədəliyev, Həsən Nəsirbəyov, Saleh Məşədi Teymur oğlu Güllüdünskiy, Ağabəy Rəhimbəy oğlu Firudinbəyov, Abbas Allahverdi oğlu Qədimov, Mirhəşim bəy Vəzirov, Əli Sultanov, Fərrux Ağakişibəyov, Şıxəli bəy Firudinbəyov, İbrahim bəy Şahtaxtinski, Rəşid bəy İsmayılov, Həbib bəy Səlimov, İsmayıl bəy Şəfibəyov, Nəcəf bəy Vəzirov, Həşim bəy Vəzirov, Mirzə Abbas Məmmədzadə, Cabbar Məhəmmədzadə, Vahid Musabəyov, Hüseynəli bəy Rüstəmbəyov, Tağı bəy Səfiyev, Həşim bəy Nərmanbəyov, Həmid bəy Şahtaxtinski və başqaları (Cəfərov, Allahverdiyev 2017, 103-105).

Soyqrımın nəticəsində 1918-1920-ci illərdə İrəvanda bütün Azərbaycan məktəbləri bağlandı. İrəvan cəmiyyəti erməni vəhşiliyinin qurbanı oldu. Azərbaycanlı ziyalılar şəhərdən çıxmaq məcburiyyətində qaldılar. Onların bir hissəsi İrana, digər hissəsi Türkiyəyə, yerdən qalan hissəsi isə Azərbaycanın digər şəhərlərinə qaçdı. Öz doğma yerlərini atan azərbaycanlılar adət - ənənələrindən, mədəniyyətlərindən qoparaq müxtəlif yerlərdə, müxtəlif adət və ənənələrə uyğunlaşıb yaşamalı oldular. Yalnız azərbaycanlılardan ibarət kiçik bir hissə İrəvana qayıda bildi. Onlar öz doğma torpaqlarında azsaylı xalq şəklində yaşamağa başladılar. 1920-ci il dekabrın 9-da Xalq Komissarları Soveti məktəb, məscid və kilsələr haqqında qanun imzaladı. Eləcə də 17 dekabr 1920-ci ildə Xalq Komissarlığı məktəblərdə təhsilin ana dilində və pulsuz keçirilməsi haqqında qərar imzaladı. Qərara əsasən azərbaycanlılar öz doğma dillərində təhsil almaqla yanaşı, erməni dilində və hər hansı bir xarici dildə də dərslər keçməli idilər. 1921-ci ildə Mərkəzi Kommitənin azsaylı xalqlar haqqında çıxardığı qərara görə Türk sektoru yaradıldı. Əvvəllər bu sektora irəvanlı Məmmədəli Nəsir, sonra isə Bala Əfəndiyev rəhbərlik etdi. 1932–ci ildə “azsaylı xalqların soveti” yaradıldı. “Azsaylı xalqlar soveti” Azərbaycan xalqının təhsil alması yolunda böyük rol oynadı və savadsızlığın aradan qaldırılmasına köməklik etdi. Az müddət ərzində azərbaycanlıların tələbi üzərinə məktəblərdə təkmilləşdirmə kursları yaradıldı. Bəzi müəllimlər Bakıya gedərək orada təkmilləşdirmə kurslarında öz təhsil və təcrübələrini artırırdılar. Əgər 1922-ci ildə Ermənistanda 32 Azərbaycan dilində ümumtəhsil məktəbi var idisə, 1923-1924-cu ildə isə bu rəqəm 104-ə qalxdı. Sovet İttifaqının ilk illərində Azərbaycan uşaqları rus – tatar qız məktəbində (İrəvanda),

Məşədi Əzizbəyov adına məktəbdə, Həşim bəy Nərimanbəyov adına texnikumda (əvvəllər S.M.Kirov adını daşıyırdı), Mirzə Fətəli Axundov adına məktəbdə və 2 ayrı beynəlxalq məktəbdə təhsil alırdılar. Bu illərdə İrəvanda savadsızlığa qarşı kurslar açılmağa başlandı. 1923-cü ildə savadsızlığa qarşı açılmış bu kurslarda əsasən evdar qadınların təhsili xüsusi yer tuturdu. 1925-ci il 30 mayda Əzizbəyov adına məktəbdə yeni əlifbanın tədrisi üzrə müəllimlərin iclası keçirilmişdir. 1930-1931-ci tədris illərində Ermənistanda 971 məktəb, 132300 şagird qeydə alınmışdır. Bunların cəmi 132-si Azərbaycan məktəbi, 9536 şagirdi isə azərbaycanlı olmuşdur. 1936-cı ildə Ermənistandakı Azərbaycan məktəblərində 541 pedaqoq fəaliyyət göstərmişdir ki, onlardan yalnız 5 nəfərin ali təhsili var idi. 1935-ci ildə Leninakanda (Qumru) tədrisi Azərbaycan dilində olan 2 pedaqoji institutut açıldı ki, orada yalnız qiyabi təhsil almaq mümkün oldu. Sonra bu institutut Dilicana köçürüldü, daha sonra isə bağlandı. İkillik pedaqoji institutda dərs deyən pedaqoqlar Bakıdan gəlirdi. Həmin illərdə çox qarışıq siyasi proses hökm sürürdü. Belə ki, 1928-ci ildə azərbaycanlılara məscidlərdə öz dini məclislərini və tədbirlərini keçirməyə icazə verilmirdi. Həmin illərdə azərbaycanlıların bir çoxu İrəvanda represiyaya məruz qaldılar. İbtidai təhsilini İrəvanda almış, sonra Bağdad və Nəcəfdə davam etdirmiş, ərəb və fars dillərini mükəmməl bilən savadlı xadim Mirzə Hüseyn ağa həmin illərdə repressiyanın qurbanı oldu. İrəvanda çıxan “Qızıl Şəfəq” qəzetində Mustafa Hüseynovun həbs edilib güllələnməsi haqqında yazılırdı. Qəzetin digər əməkdaşları İbrahim Əliyev, şair Abbas Azəri, İsmayıl Əliyev, Abdulla Mirzəyev də repressiyanın qurbanı oldu. 1930 – 1935-ci illərdə İrəvan-Türk pedaqoji texnikumunun 102 tələbə və müəllimi bəy, xan, mülkədar, hökmdar adı altında sürgün edildilər. İrəvan pedaqoji texnikumunun məzunları Ermənistanda Azərbaycan məktəbləri üçün yetişdirilirdi. Bunların içində akademiklər yüzlərlə ali savadlı müəllimlər yetişdirilmişdir. Müxtəlif vaxtlardan bu təhsil ocaqlarına Mehdi Kazımov, Bəhlul Yusifov və Həmid Məmmədzadə rəhbərlik etmişlər.

Seminariyanın məzunlarından biri də görkəmli rəssam İbrahim Səfiyevdir. Müxtəlif illərdə Yakop Stepanoviç Suşevskiy, İvan Andreyviç Pasyuteviç, Mixayil Alekseyviç Miropiyev və Valentin Vaselyeviç Dubrovin İrəvan Müəllimlər Seminariyasına başçılıq etmişlər. İrəvan Müəllimlər Seminariyası təkcə tədris müəssisəsindən ibarət deyildi, o həm də elm və mədəniyyət mərkəzi idi. 1881-ci ildən 1914-cü ilə qədər İrəvan Müəllimlər Seminariyasını 63 azərbaycanlı bitirdi. 1915-ci ildə İrəvan Müəllimlər Seminariyası Sərdarabada (əvvəlki Armavir) köçmək məcburiyyətində qaldı. 1918-ci ildə etnik hisslərə ermənilərin törətdiyi vəhşiliklərə görə seminariya öz fəaliyətini dayandırdı. Müəllim və tələbə heyəti ermənilər tərəfindən qəddarca öldürüldü. Qalanlar isə öz doğma torpaqlarını tərk edib Türkiyəyə və Azərbaycana qaçmaq məcburiyyətində qaldılar. Rusiyanın dəstəyi ilə qədim Azərbaycan torpağı olan İrəvan süni erməni dövləti (Ararat) olaraq elan edildi. Bu ərazidə yaşayan azərbaycanlılar öz doğma torpaqlarında az sayda qaldı. Get – gedə bu ərazidə azərbaycanlıların sayı daha da azalmağa başladı və doğma torpaqlarından didərgin düşdülər. Azsaylı xalqlar üzrə mərkəzi komitənin katibi Bala Əfəndiyevin səyi və tələbi nəticəsində İrəvanda Türk Pedaqoji texnikomu yaradıldı. Təhsil müəssisələrinin yenidən qurulmasında “Zəngi qəzeti”nin redaktoru Mustafa Hüseynov və azsaylı xalqlar üzrə komissar Mehdi Kazımovun rolu böyük oldu. Xalqımızın mədəni, elmi inkişafında mühim rol oynayan bu texnikum böyük çətinliklərlə üzləşdi. 1949-cu ildə Azərbaycan xalqının kütləvi departasiyası nəticəsində azərbaycanlılar Xanlar rayonuna köçürüldülər. Qərbi Azərbaycan ərazisindən indiki Ermənistana sürgün edildilər.

**ƏDƏBİYYAT**

1. Cəfərov C., Allahverdiyev C. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb, 2017, 440 s.
2. Cəfərov C., Allahverdiyev C. İrəvanda ictimai-siyasi və mədəni mühit. Bakı: ADPU, 2018, 242 s.

**SUMMARY**

**Guliyeva Matanat**

**YEREVAN TEACHERS' SEMINARY AS AN IMPORTANT EDUCATIONAL CENTER FOR TEACHER TRAINING**

Every nation is known for its history and culture. The Yerevan Teachers' Seminary, which started its activity 140 years ago in the ancient land of Azerbaijan, informs about the pedagogical activity and culture of our nation. By the order of our president, the 140th anniversary of the Yerevan Teachers' Seminary refreshed memories and pushed the Azerbaijani teachers and scientists to new searches on this path. Every nation carries its history on its shoulders throughout its life. It is commendable to continue this tradition in order to refresh memories and pass it on to future generations. Without knowing and analyzing the past, it is impossible to step into the future, develop and achieve the goal. We should study our history and own our past from the point of view of preaching, and master our moral values. From this point of view, it is worth re-examining the activities of the Yerevan Teachers' Seminary and studying this seminary, which is rich in scientific-pedagogical, political-ideological, cultural-spiritual values. We must own the history of the generation in Yerevan, so that the hateful enemies do not take possession of our culture.

***Key words:*** *Yerevan, seminary, teacher, class*

**РЕЗЮМЕ**

**Гулиева Матанат**

**ЕРЕВАНСКАЯ УЧИТЕЛЬСКАЯ СЕМИНАРИЯ КАК ВАЖНЫЙ УЧЕБНЫЙ ЦЕНТР ПОДГОТОВКИ УЧИТЕЛЕЙ**

Каждый народ известен своей историей и культурой. Ереванская учительская семинария, начавшая свою деятельность 140 лет назад на древней азербайджанской земле, информирует о педагогической деятельности и культуре нашего народа. По указу нашего президента 140-летие Ереванской учительской семинарии освежило память и подтолкнуло азербайджанских педагогов и ученых к новым поискам на этом пути. Каждый народ всю свою жизнь несет на своих плечах свою историю. Похвально продолжать эту традицию, чтобы освежить память и передать ее будущим поколениям. Не зная и анализируя прошлое, невозможно сделать шаг в будущее, развиваться и достигать цели. Мы должны изучать нашу историю и владеть своим прошлым с точки зрения проповеди, а также овладевать нашими моральными ценностями. С этой точки зрения стоит пересмотреть деятельность Ереванской учительской семинарии и изучить эту семинарию, богатую научно-педагогическими, политико-идеологическими, культурно-духовными ценностями. Мы должны владеть историей поколения в Ереване, чтобы ненавистные враги не завладели нашей культурой.

***Ключевые слова:*** *Ереван, семинария, учитель, класс*

**ELÇİN ZAMANLI**
*Naxçıvan Dövlət Universiteti*
*elcinzamnli@gmail.com*

# MƏHƏMMƏD XAN TƏKİNSKİNİN İRƏVANDA DİPLOMATİK FƏALİYYƏTİ

*Cümhuriyyətin yaranmasınadək Azərbaycan milli-azadlıq hərəkatının liderlərinin vasitəçiliyi ilə “Qafqaz evi” yaradılmışdı. Axundovun birlik üçün maarifləndirici ideyaları təbliğinə baxmayaraq, Qafqaz evinin yaradılması ideyası rəsmi səviyyədə Qafqaz regionunun müharibə dövründə inteqrasiya maraqlarını və fəaliyyətini ifadə etmək məqsədini daşıyan Məmməd Əmin Rəsulzadəyə aiddir. Rusiyada oktyabr inqilabından sonra Qafqazda Ermənistan, Gürcüstan və Azərbaycan daxil olmaqla, qısamüddətli (24 fevral-26 may 1918-ci il) Qafqaz Federasiyası yaradıldı. Bu, "Qafqaz evi"nin yaradılması istiqamətində ilk cəhd idi. Federasiya 26 may 1918-ci ildə Gürcüstanın, iki gündən sonra isə Azərbaycanın və Ermənistanın öz müstəqilliklərini elan etmələri ilə süquta uğradı.*

***Açar sözlər:*** *Təkinski, ermənilər, İrəvan, Naxçıvan, diplomatiya, cümhuriyyət*

## Giriş

XIX yüzillik boyunca Azərbaycan cəmiyyətində baş verən köklü etno-siyasi və sosial-iqtisadi dəyişiklər XX yüzilliyin əvvəllərində milli şüurun inkişafına və milli mənliyin dərk olunmasına gətirib çıxardı. 1918-ci ilin mayında ilk demokratik təmayüllü türk-müsəlman dövlətin yaradıldığını elan etmişkən, Paris barış konfransında yeni dünya nizamını müəyyən edən amerkan və ingilislərin Osmanlı İttihad hökumətinin xarici siyasət idarəsinin əli ilə Azərbaycana vurduğu çox böyük zərbə İrəvanın ələ keçirilməsi oldu. Tarixin ironiyasına baxın ki, sonrakı mərhələdə isə, yəni 1920-ci ilin 30 noyabrında bolşevik Rusiyası Nərimanov başda olmaqla Azərbaycan bolşeviklərinin əli ilə Zəngəzuru alıb Ermənistana verdi. Müasir ingilis tarixçisi Maykl A. Reynolds yazır ki, İstanbul çiçəyi burnunda yeni dövlətləri gecikmədən 4 iyunda tanıdı...Osmanlılar yeni dövlətə (yəni Ermənistana) Yeni Bəyazid, İrəvan, Eçmiədzin və Gümrü tərəflərindən 10 min kvadrat kilometr civarında ərazi ayırdılar. Xatisyan isə 300-400 min civarında qaçqınları olan Ermənistana bu ərazilərin yetmədiyindən şikayətlənirdi. (Reynolds 2016, 223). Əlimərdan bəy Topçubaşov İstanbulda Tələt, Nəsimi və Ədliyə naziri Xəlil bəylərlə yapdığı ayrı-ayrı görüşmələrdə ermənilərdən şikayətləndiyində üç dövlət adamı da onu danlayaraq azərbaycanlıların ermənilərlə tərəfdaşlıq yolları axtarmasını istəmişlər. Tələt Paşa Topçubaşova Çar Rusiyasının yıxılmasının I Dünya savaşının müsbət bir nəticəsi olduğunu vurğulamış və bu uğuru qorumaq üçün azərbaycanlıların ermənilərlə problemlərini həll edib barış içində yaşamaq məcburiyyətində olduqlarını bildirmişdi (Дипломатические беседы А.А. Топчибашева 1994, 9-15). Bu dövrdə milli-demokratik prinsipləri rəhbər tutan Azərbaycan aydınları qurulacaq milli dövlətin aydın siyasi xarakterini müəyyən etmişdilər. Azərbaycan siyasi liderlərinin barışcıl mədəni-siyasi fəaliyyətləri Cənubi Qafqazın gələcək siyasi mühitində etnik münaqişələrin sonlandırılması və bu regionun əbədi olaraq hüzur içində yaşaması prinsiplərinə əsaslanırdı. Batum konfransının gedişində Azərbaycanın ən mühüm geopolitik bölgəsi olan İrəvanın ermənilərə güzəştə gedilməsinə zorlanması milli şüurun ən incə qatlarında heç zaman unudulmayacaq yurd nisgilli notlar həkk etsə də, siyasi proseslərin davamında da cümhuriyyət qurucularının əsas qayəsi Transqafqaz Kofederasiyasının yaradılması olmuşdur.

İngilis və erməni dairələri Naxçıvanın ilhaq edilməsi ilə əlaqədar planlar hazırlayarkən Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsi Xan Təkinski bu cəhdlərin qarşısını almağa

çalışırdı. 1919- cu ilin əvvəlindən fəaliyyətə başlayan Xan Təkinski gəldiyi gündən bəri Cənub- Qərb bölgəsindəki vəziyyəti şifrəli teleqramlarla AXC hökumətinə bildirir, bu bölgədəki müsəlmanların müdafiəsi və iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün vəsait ayrılmasını xahiş edirdi. Onun Şərur-Naxçıvan üzərindəki təzyiqi azaltmaq üçün Ermənistanın şimal-şərq sərhədlərində müəyyən güc nümayiş etdirmək barədəki teleqramı isə ingilis kəşfiyyatı tərəfindən ələ keçirilmişdi.

Görünür, Ermənistan Məhəmməd Xan Təkinskinin o dövrdəki fəaliyyətini hələ də unuda bilməmişdir. Belə ki, Ermənistanın Milli Təhlükəsizlik Xidməti 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin İrəvandakı səfiri olmuş görkəmli diplomat Məhəmməd Xan Təkinskinin məxfi yazışmalarını mətbuata açıqlayıb. Xan Təkinskinin Bakıya göndərdiyi şifrəli, məxfi diplomatik teleqramlarda ermənilərin Naxçıvanı ələ keçirməyə yönəlmiş hərbi-diplomatik addımları barədə məlumatlar əksini tapıb. Milli Təhlükəsizlik Xidməti bildirir ki, 1919-cu ilin payızında Azərbaycan diplomat adı altında “qatı millətçi” Xan Təkinskini Ermənistana göndərib və həmin gündən etibarən Ermənistanın təhlükəsizlik orqanları Təkinskini izləyib, onun şifrəli teleqramlarını ələ keçirib və deşifrə edib. Həmin teleqramlara əsasən Təkinski Ermənistanın müxtəlif sferaları, o cümlədən erməni ordusunun strukturu və silahları barədə məxfi məlumatları Bakıya ötürüb. Bu sənədlərdə qeyd olunur ki, “Təkinski Naxçıvanın və Şərurun Ermənistana birləşdirilməsinə hər cür maneə yaradıb, teleqramların köməyi ilə öz hökumətinə Ermənistanın cənub və digər regionlarındakı hərbi-siyasi vəziyyət barədə informasiyaları ötürüb. O, habelə tatarlarla (indiki Ermənistanda o dövrdə yaşayan azərbaycanlılar) gizli əlaqələr saxlayıb, onları üsyana təhrik edib. Məxfi yazışmaların bir hissəsi silahlı qüvvələrə aid olub, qoşunların sayı, növləri, silahları və digər mühüm elementlər barədə məlumatlar göstərilib. Casusu izləyərək və onun fəaliyyətini araşdıraraq Ermənistan hökuməti Azərbaycandan Təkinskini geri çağırmağı tələb edib” (https://www.bizimyol.info/az/news/193291.html).

**Məhəmməd Xan Təkinskinin fəaliyyəti.**

Məhəmməd xan Təkinski 31 yanvar 1919-cu ildə Azərbaycanın Ermənistanda diplomatik nümayəndəsi təyin olunmuşdur (Азербайджанская Демократическая Республика 1998, 121).

Bu təsadüfi bir təyinat deyildi, çünki Azərbaycana qarşı həmin dövrdə geniş ərazi iddiaları ilə çıxış edən qonşu dövlətə məhz Məhəmməd xan Təkinski kimi dərin siyasi biliyə və mükəmməl diplomatik bacarığa malik bir şəxs təyin oluna bilərdi. Bu zaman Azərbaycan diplomatının qarşısında iki mühüm vəzifə dayanırdı: birincisi erməni silahlı çətələri tərəfindən İrəvandan türk-müsəlman əhalinin zorla qovulmasının və Naxçıvanın işğalının qarşısını almaq.

Yeri gəlmişkən, Məhəmməd xan Təkinskinin 1918-ci ilə kimi olan geniş fəaliyyəti haqqında arxivlərdə demək olar ki, yalnız bir neçə cümlə məlumat var. Onun şəxsi işi də bu günədək arxivdə aşkar olunmamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasında da Təkinski haqqında çox az məlumat veril. Burada qeyd olunur ki, Məmməd xan Təkinski 1918-ci ilin iyul-dekabr aylarında Azərbaycan Fövqəladə İstintaq Komissiyasının üzvü olmuş, 1919-cu il yanvarın 29-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Ermənistanda diplomatik nümayəndəsi təyin edilmişdi. Həmçinin Təkinskinin ermənilərin keçmiş İrəvan quberniyasının türk-müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklərin qarşısının alınmasında, azərbaycanlı qaçqınların problemlərinin həllində xidmətləri olmuşdur. O, Naxçıvan mahalında "erməni idarəçiliyi"nə son qoyulması məsələsinin zəruriliyini dəfələrlə Ermənistandakı beynəlxalq missiyalarının qarşısında qaldırmış, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətini bu işə fəal müdaxilə etməyə çağırmışdır. Təkinskinin fəal diplomatik mövqeyindən narazı qalan Ermənistanın daşnak hökuməti müxtəlif bəhanələrlə onun geri çağırılmasına nail olmuşdu. O, 1919-cu ilin

oktyabrından 1920-ci il aprelin 28-ə qədər xarici işlər nazirinin müavini vəzifəsini icra etmişdir. Ensiklopediyada M.Təkinski haqqında yalnız cümhuriyyət hakimiyyəti illərindəki fəaliyyəti barədə bu qədər qısa məlumat verilmiş, hətta onun şəkli belə tapılmamış, anadan olma və vəfatı tarixləri məlum olmadığı üçün onların yerlərində sual işarəsi qoyulmuşdur (Azərbaycan 2005, 399-400).

Milli arxiv idarəsinin keçmiş sədri, tarixçi alim A.Paşayevin özü də nə qədər araşdırma aparsa da, Təkinskinin 1918-ci ilə qədərki fəaliyyəti haqqında çox az məlumat əldə edə bilmişdi. Amma A.Paşayev Ukraynanın Odessa şəhərində xidməti ezamiyyətdə olarkən Odessa vilayətinin dövlət arxivində də olmuş, oradan digər sənədlərlə yanaşı, vaxtilə Novorossiysk Universitetində təhsil almış azərbaycanlı tələbələrin də şəxsi işlərini aşkar edərək surətlərini Azərbaycana gətirmişdir. Həmin işlər arasında Novorossiysk Universitetinin hüquq fakültəsinin tələbəsi olmuş Məmməd xan Təkinskinin də şəxsi işi var. Şəxsi işində sinif rəhbəri Avilov tərəfindən tərtib edilərək Tiflis birinci gimnaziyasının direktoru Markovun imzaladığı Məmməd xan Təkinskiyə verilmiş xasiyyətnamə də var. Rus dilində yazılmış həmin xasiyyətnaməni A.Paşayev tərəfindən təqdim olunan tərcüməsində qeyd olunur ki, "Məmməd Təkinskinin xüsusi taleyi olmuşdur. O, öz valideynləri haqqında heç nə deyə bilmir. Ona görə ki, onları görməyib. O, 1879-cu ildə Axal-Təki vadisində rusların türkmənlərlə müharibəsi zamanı anadan olmuşdur. Maraqlıdır ki, cəmi iki yaşı olarkən 1881-ci il yanvar ayının 12-si günü baş vermiş hadisə onun yaddaşına əbədilik olaraq həkk olunmuşdu. Xatırlayır ki, çayı keçərkən az qala boğulacaqmış, valideynləri onu ruslardan ot tayasında necə gizlətmişdilər, bir köynəkdə daşın üzərində necə oturmuşdu, ruslar küçələrdə türkmənləri necə doğrayırdılar, süngünü ona tuşlamış rus soldatının əlinə necə keçmişdi. Həmin gün onun bütün doğmaları məhv olmuşdu. O, rus ordusunun polkovniki Ehsan xan Naxçıvanski tərəfindən oğulluğa necə götürülmüşdür. Orada (yəni hərbi hissədə A.P.) o, necə hamının sevimlisinə çevrilmiş və hərtərəfli qayğı ilə əhatə olunmuşdu.

Lakin dəhşətli hadisələr Təkinskinin həyatında öz izlərini də buraxmışdı. Bir vaxt onun bədəni tamamilə şişir. Belə hesab edirlər ki, bu, əsəb sisteminin pozulmasının əlamətlərindən biridir. Bundan sonra müəyyən müddət onun dili dolaşır, topuq vururdu. Lakin müalicə olunmaqla o sağalmışdı. Son vaxtlarda isə onun bədəninin sol tərəfi yüngül şəkildə iflic olmuşdu. Xasiyyətindəki bir sıra kobudluqlara baxmayaraq, Təkinski, hər halda, yumşaq ürəkli, orta qabiliyyətlidir. Öz yaşına görə kifayət qədər inkişaf etməmişdir. Hesab etmək olar ki, onun əsəb xəstəliklərinin əsas səbəbi gərgin əmək və asan olmayan gimnaziya kurslarının keçirilməsi zamanı beynində yaranmış əsəb gərginliyi olmuşdur. Hər halda Təkinski kifayət qədər bilikli, kifayət qədər ümumi inkişafa malik şəxs kimi gələcəkdə əgər özünə, öz qüvvəsi və zövqünə uyğun peşə seçərsə cəmiyyət üçün yararlı şəxs ola bilər" (Paşayev 2010, 6).

Həmçinin xasiyyətnamədə Tiflis şəhəri birinci gimnaziyanın şagirdləri haqqında verilmiş məlumatda M.X.Təkinskinin atasının adı qrafasında- "Ehsan xan Təkinski", qəyyumu adlı qrafada isə göstərilir: "Cəfərqulu xan Naxçıvanski", milliyyəti-türkmən, dini etiqadı- müsəlman, təvəllüdü-1879-cu il. (Paşayev 2010, 6).

Azərbaycanın qeyrətli diplomatının Ermənistanda fəaliyyətə başladığı ilk anlardan İrəvan, Naxçıvan və çevrəsi onun əsas fəaliyyət obyektinə çevrilmişdi. Çünki Azərbaycan hökuməti yetərincə hərbi qüvvəyə malik olmadığından, bu ərazilərdə öz idarəçiliyini bilavasitə həyata keçirə bilmirdi və ona görə də diplomatik nümayəndəlikləri bu istiqamətdə fəaliyyətə yönəldirdi. Bu dövrdə Azərbaycan cümhuriyyəti üçün ən real və böyük təhlükə Ermənistan idi. Azərbaycan hökuməti də bu təhlükəni daha çox dinc diplomatik vasitələrlə zərərsizləşdirmək istəyirdi.

Məhəmməd xan Təkinskinin fəaliyyətinin elə ilk vaxtlarında Ermənistan daşnak hökumətinə təqdim etdiyi notada bu türk yurdlarında vəziyyətin nə qədər qorxunc və dəhşətli olduğu aydın görünür.

Bu cəsarətli notada qeyd olunur ki, türklər getdikdən bir neçə gün sonra İrəvan vilayətindən bir neçə erməni zabitinin komandanlığı altında erməni silahlı birləşmələri qarşılarına çıxan kəndləri darmadağın edərək Naxçıvana doğru hücuma keçdilər və yolların üstündə olan kəndlərdə yaşayan müsəlman dinc əhalini istisnasız olaraq qırdılar. Bu kəndlərdə qocalar, qadınlar və uşaqlar, eləcə də müsəlman qaçqınlar soyqırıma məruz qaldılar. Lakin Şərurda müqavimətlə qarşılaşan erməni dəstələri Tarovluya çəkildi. Eyni zamanda başqa erməni dəstəsi Cirmanisdən Qaraxaç, Şaqanlı, Kadılu və yuxarı Qarabağlar, Ağasıbəyli, Dəhnaz və Şeşıqı Dağ və bu kəndlərin bütün dinc müsəlmanlarını qırıb, bir neçə yüz ən gözəl qadın və qızı əsir götürdülər. Notada daha sonra Təkinski Azərbaycan hökuməti adından əsirlərin buraxılmasını tələb edir və müttəfiq nümayəndələrin də qatılacağı komissiyanın birgə fəaliyyəti ilə müsəlman kəndlərinə dəymiş zərərin müəyyənləşdirilməsini təklif edirdi (Азербайджанская Демократическая Республика 1998, 153).

İngilis və erməni dairələri Naxçıvanın ilhaq edilməsi ilə əlaqədar planlar hazırlayarkən Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsi Xan Təkinski bu cəhdlərin qarşısını almağa çalışırdı. 1919- cu ilin əvvəlindən fəaliyyətə başlayan Xan Təkinski gəldiyi gündən bəri Cənub- Qərb bölgəsindəki vəziyyəti şifrəli teleqramlarla AXC hökumətinə bildirir, bu bölgədəki müsəlmanların müdafiəsi və iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün vəsait ayrılmasını xahiş edirdi. Onun Şərur-Naxçıvan üzərindəki təzyiqi azaltmaq üçün Ermənistanın şimal-şərq sərhədlərində müəyyən güc nümayiş etdirmək barədəki teleqramı isə ingilis kəşfiyyatı tərəfindən ələ keçirilmişdi (Atnur 1999, 163).

Azərbaycan diplomatlarının Tiflis və İrəvandan, eləcə də Paris sülh konfransından göndərdiyi şifrəli teleqramların Batumda açılması ilə bağlı Gürcüstandakı diplomatik nümayəndəliyin başçısının müavini Fariz bəy Vəkilov ingilis generalı Biçə rəsmi nota göndərmiş, general isə öz növbəsində bu faktların araşdırılması üçün tədbirlər görəcəyinə söz vermişdi (Azərbaycan respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 54).

Göründüyü kimi, Cənubi Qafqazda qarşılıqlı siyasi münasibətlər o qədər kəskin idi ki, İrəvan və Tiflisdəki diplomatlarımız Naxçıvanın və çevrəsinin qurtuluşu üçün böyük fədakarlıq nümayiş etdirirdilər.

İrəvan diplomatik nümayəndəliyinin dəstəyi ilə Naxçıvan və Böyük Vedidə özünümüdafiə dəstələri yaradılırdı. Bu zərurət daha çox Azərbaycan partizanları və osmanlı könüllülərinin Naxçıvanda Türkiyə ilə strateji əlaqə yaratmaq imkanlarından qorxuya düşən Tomsonun bu ərazilərin erməni hakimiyyətinin sərəncamına verilməsi əmrindən sonra yarandı.

Elə bu zaman, yəni 1919- cu il mayın 4-də Məhəmməd xan Təkinski hökumət sədrinə və Xarici İşlər nazirliyinə göndərdiyi şifrəli teleqramda may ayının 2-də Naxçıvana erməni polklarının göndərildiyini və buna görə təcili olaraq Azərbaycan ordusunun Ermənistanla sərhədlərə cəmləşdirilməsinin zəruri olduğunu bildirirdi. Məhəmməd xan Təkinski göndərdiyi teleqramlarda dönə-dönə vurğulayırdı ki, Naxçıvan qəzası müqavimətə hazırdır, lakin ingilislərin Ermənistanın xeyrinə müdaxilə edəcəyindən çəkinirdilər.

Xan Təkinskinin ehtimalı özünü doğrultdu və proseslərin sonrakı cərəyanı onun uzaqgörən olduğunu sübut etdi. Belə ki, 1919- cu il may ayının 4-5-də Naxçıvana gələn ingilis generalı Devi Naxçıvan və Şərur qəzalarının müsəlmanlarını toplayıb bu ərazilərin Ararat Respublikasına aid olduğunu və buna görə də onların erməni hakimiyyətinə tabe olmalarının zəruri olduğunu bəyan etdi (Azərbaycan 1990, 304).

Belə ağır, çıxılmaz vəziyyətdə qalan Naxçıvan əhalisi Xan Təkinskiyə böyük ümid

bəsləyirdilər. Ona görə də diplomat Təkinski hadisələrə seyrçi qalmadı və həmin dövrdən başlayaraq Naxçıvan və çevrəsinin erməni idarəçiliyindən azad olunması uğrunda diplomatik mübarizəni daha qızğın davam etdirməyə başladı. Xan Təkinski uzaqgörən diplomat kimi ingilislərin artıq İrəvanı tərk etmələrini görüb Azərbaycan hökumətinə hərəkətə başlamağın əsl məqamı olduğunu bildirdi. Bunun üçün də Təkinski Şərur-Naxçıvan rayonunda hərbi təşkilatları gücləndirmək üçün Azərbaycan hökumətindən vəsait tələb edirdi.

1919-cu il iyun ayının 8-də AXC Xarici İşlər Naziri Məhəmməd Yusif Cəfərov Bakıdan Təkinskiyə teleqram göndərərək onun Naxçıvanla əlaqə yaratmaq istiqamətində gördüyü tədbirləri alqışlamış, regionun hərbi xərcləri üçün vəsait verməyə razı olduğunu bildirmiş və «pulu necə və kimə vermək lazım olduğunu bildirməyi xahiş etmişdir» (Azərbaycan respublikası Milli Arxiv İdarəsi , f. 970, siy.1, iş 54).

Məhəmməd Təkinski həmin günlərdə Azərbaycan hökumətindən erməni parlamentinə keçirilən seçkilərə qatılmaq üçün İrəvandakı Müsəlman Milli Şurasına 40 min manat pul göndərilməsini xahiş edirdi (Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 54). Ermənistan parlamentində müəyyən yerləri əldə etmək erməni hökumətinə təsir etmək üçün əlverişli vasitələrdən biri ola bilərdi.

Bu dövrdə Naxçıvan qəzasında bütün səylər Ermənistanla mübarizəyə yönəlmişdi. Arxiv sənədlərindən də məlum olur ki, bu istiqamətdə çox ciddi işlər görülmüş və əhalinin öndə gedən, tanınmış başçıları, əsasən Naxçıvan Milli Şurasının Hacı Mehdi Bağırov, Mirzə Nəsrullah Əmirov, Həmid bəy Qazıyev, Xəlil ağa Hacılarov, Şəfi ağa Səfiyev kimi savadlı, millətsevər üzvləri (Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 36) böyük qeyrət və siyasi iş nümunələri göstərmişlər. Bu şəxslər Azərbaycanın həm Ermənistandakı, həm də Gürcüstandakı diplomatik nümayəndəlikləri ilə davamlı əlaqə saxlamış və əsasən Məhəmməd Təkinskinin tapşırıqları əsasında fəaliyyət göstərmişlər. Bunu bilən ermənilər yerli xadimləri məhv etməyə çalışırdılar. Bu faktların aydın təsvir olunduğu İrəvan quberniyasının Müsəlman Həmyerlilər təşkilatının sədri Şeyxovun Azərbaycan baş nazirinə göndərdiyi 28 iyun tarixli məktubunda, erməni hökuməti tərəfindən Naxçıvan, Şərur, Ordubad rayonlarında müsəlman xadimlərinin artıq həbs olunmağa, mal və mülklərinin müsadirə edilməyə başlandığı bildirilirdi. Şeyxov Azərbaycan hökumətindən yuxarıdakı faktları ingilis komandanlığının nəzərinə çatdırmağı və Ararat hökumətinin qanunsuz hərəkətinə qarşı təxirəsalınmaz tədbirlər görməyi xahiş edirdi. O, eyni zamanda bir həftə gecikməyin bütün müsəlman kəndlərinin məhvinə səbəb olacağını bildirirdi (Azərbaycan respublikası Milli Arxiv İdarəsi , f. 970, siy.1, iş 113).

Bu həyacan siqnalı heç də əsassız deyildi. Belə ki, 1919- cu il iyulun əvvəllərində Ermənistan İrəvan quberniyasının müsəlman qəzalarına qarşı irimiqyaslı hərbi əməliyyatlara başladı. Azərbaycan hökuməti bütün vasitələrlə İrəvan quberniyasının müsəlman qəzalarının istiqlaliyyət uğrunda mübarizəsini müdafiə edirdi. Xalqın ermənilərə qarşı başladığı və ilk dəfə bizim tərəfimizdən elmi tarixşünaslığa gətirilən Böyük Vedi üsyanının uğurlu təşkili və qələbəsində diplomat Xan Təkinskinin böyük rolu olmuşdur. Azərbacan hökumətinin davamlı olaraq ərazi problemlərini arbitraj komissiyası vasitəsi ilə həlli təkliflərinə baxmayaraq, erməni hökuməti iyulun 4-də bir daha Cənub-Qərb rayonlarına-Böyük Vedi, Sinyankənd, Gelevan, Qaşlı və s. ərazilərə qarşı yürüşə başladı (Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 115).

Məhəmməd xan Təkinski bildirir ki, ümumi magistral yolu ilə deyil, Ağ-Dağ tərəfdən peyda olan Sasun polku ilə Böyük Vedi və Vedibasar rayonlarının əhalisi tərəfindən danışıqlara

göndərilən iki nümayəndənin, Kəndxuda Zeynalabdin Şıxəli oğlu və Nəsrulla bəy Bəşirbəy oğlunun öldürülməsi Azərbaycan tarixində Böyük Vedi üsyanının başlanmasına səbəb oldu. Bu böyük üsyan və Azərbaycan türklərinin tarixi qəhrəmanlığı Ararat daşnak hökumətini və Amerika diplomatik missiyasını elə qorxutdu ki, sonradan onlar ümumxalq həyacanının bir daha qalxmasından ehtiyat edir və əhalini sakitləşdirmək üçün diplomatik vasitələrə əl atırdılar. Amerikalıların Transqafqazdakı nümayəndəsi neytral zonanı müsəlman əhalisinə vəd edirdi ki, onların hüquqları Paris Sülh konfransında nəzərə alınacaqdır (Əliyev 1993, 49).

1920-ci ilin əvvəllərindən başlayaraq AXC hökuməti İrəvandakı diplomatik nümayəndəliyimizin başçıları olan Əbdürrəhim bəy Haqverdiyevin və Teymur bəy Makinskinin vasitəsilə Naxçıvan və Vedibasarda cərəyan edən prosesləri davamlı izləyir və məlumat tələb edirdi (Əliyev 1993, 80).

Bu zaman Əbdürrəhim bəy Haqverdiyev və Əli xan Makinski Naxçıvan valisi Səməd bəy Cəmillinski ilə müntəzəm əlaqə saxlayır və regionun vəziyyəti ilə bağlı valinin xahişlərini AXC hökumətinə bildirirdi. Əbdürrəhim bəy Haqverdiyev dövlət Müdafiə Komitəsinin hesabından ona göndərilən on milyon manat vəsaitin müəyyən hissəsini Naxçıvan general-qubernatoru Səməd bəy Cəmillinskiyə göndərmişdi (Əliyev 1993, 55).

Yeri gəlmişkən qeyd edim ki, Zəngibasar müsəlmanlarının nümayəndəsi Hacı Şeyx Əli də həmin günlərdə Azərbaycan hökuməti tərəfindən onlara ayrılmış iki milyon manat yardımı Əbdürrəhim bəy Haqverdiyevin köməyi ilə almağa çalışırdı (Əliyev 1993, 4).

1920-ci ilin aprel konfransı ərəfəsində İrəvandakı diplomatlarımız Teymur bəy Makinski AXC Xarici İşlər Nazirliyinin tələbinə cavab olaraq ardıcıl sürətdə Naxçıvan və İrəvandakı ictimai-siyasi durumu da teleqramlarla Bakıya çatdırırdı ( Əliyev 1993, 56).

Azərbaycanın Cənub- Qərb bölgəsinin qurtuluşu uğrunda Azərbaycan diplomatlarının yerinə yetirdiyi xidmətlər diplomatiya tariximizin ən şanlı səhifələridir.

**Nəticə.**

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması XIX yüzilliyin sonlarından başlayan milli-azadlıq hərəkatının nəticəsiydi. Öz Avropayi komediyaları ilə fanatizm ətalətində mürgüləyən xalq təfəkkürünü mədəni nailiyyətlərlə oyatmağa çalışan Axundovdan və geridə qalmış şərqi din-kültür təməlində qərbə inteqrasiya etməyə çalışan Cəmaləddin Əfqanidən başlayan mədəni inkişaf mərhələsi Həsən bəy Zərdabinin “Əkinçi” ilə başlayan azərbaycançılıq ruhu ilə aşılanmış maarifçi-demokratik zirvəsinə qovuşdu. Məhz bu maarifçi-demokratik irsdən qaynaqlanan milli-azadlıq hərəkatı demokratik cümhuriyyətin yaranması ilə nəticələndi.

Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı ilk anlardan qarşısında duran əsas vəzifə ərazi bütövlüyünü bərpa etmək idi. Bunu təhdid edən ən təhlükəli amil isə Ermənistan dövləti idi. Yeni yaranmış Azərbaycan milli hökuməti ermənilərin bitmək bilməyən ərazi iddialarının qarşısını almaq üçün yetərincə hərbi qüvvəyə malik deyildi, ona görə də yaxın xaric dövlətlərin hamısı ilə diplomatik münasibətləri qaydaya salmağa çalışırdı. Transqafqaz Konfederasiyası ideyasını həyata keçirməyə çalışan Azərbaycan, xüsusilə Ermənistanla diplomatik münasibətləri bərpa etmək üçün hətta müəyyən güzəştlərə getməyə məcbur olmuşdu. Qədim oğuz yurdu olan İrəvanı Ermənistana güzəştə gedən Azərbaycan oradakı türk-müsəlman əhalisinin doportasiyanın qarşısını almaq və Naxçıvanı erməni işğalından qurtarmaq üçün Məhəmməd Xan Təkinskini oraya diplomatik nümayəndə təyin etdi. Bu zaman Azərbaycan İrəvan quberniyasında yaşayan müsəlmanların sosial-siyasi durumu ilə bağlı ciddi tədbirlər görməyə çalışırdı.

Təsadüfi deyil ki, Təkinski hələ təyinat almamışdan əvvəl Azərbaycan Xarici İşlər Nazirinin

müavini Adil Xan Ziyadxanovun Ermənistan hökumətinə göndərdiyi notada İrəvan quberniyasında yaşayan türk-müsəlman əhaliyə qarşı erməni silahlı bandaları tərəfindən həyata keçirilən zülümlərin qarşısının alınması tələb olunurdu (Азербайджанская Демократическая Республика 1998, 135-136).

Xan Təkinski Ermənistanda 300-dən artıq kəndin darmadağın edildiyini, türk-müsəlman əhalinin buradan məqsədyönlü olaraq qovulması üçün qadın və uşaqların öldürülərək qorxu yaradıldığını Azərbaycan hökumətinə bildirirdi. O, həmçinin erməni 1919-cu il 14 iyunda Azərbaycan hökumətinə erməni əsgərlərinin Vedibasara hücum etdiyini, keşişlərin də dini ayinlərdə “Müqəddəs Xaç” uğrunda savaş elan etdiklərini xəbər verirdi (Wems 2006, 213-233).

Məhəmməd Xan Təkinski İrəvanda olduğu dövrdə yerli azərbaycanlı ziyalıları və deputatları da fəaliyyətə cəlb edərək İrəvanda sadə bir diplomatın görə biləcəyi işdən qat-qat artığını edə bilmişdi. Arxiv sənədləri göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə İrəvanda fəaliyyət göstərən diplomatik nümayəndəliyin və ayrı-ayrı İrəvan ziyalılarının və imkanlı şəxslərin fəaliyyəti Ermənistan xüsusi xidmət orqanlarının daim nəzarəti altında olmuşdur.

Erməni kəşfiyyatçısı Tiqran Devoyans “Həyatımdan parçalar” (“Hayrenik”(Boston) jurnalı,1945, N 4) adlı xatirələrində yazır ki, Azərbaycanın İrəvanda çox yaxşı kəşfiyyat şəbəkəsi var idi. O qeyd edir ki, İrəvandakı Azərbaycanın diplomatik missiyası nəinki Tiflisə və Bakıya Ermənistan ordusunun dislokasiyası və qoşunların yerdəyişməsi və təminatı haqqında təcili məlumatlar göndərirdi. Erməni tarixçisi Vanik Virabyan “1918-1920-ci illərdə Ermənistan Respublikasının dövlət təhlükəsizliyi sisteminin yaradılması və fəaliyyəti” əsərində (İrəvan, 2015, ermənicə) Tiqran Devoyansın xatirələrindən belə bir sitat gətirir: “Ermənistan parlamentinə azərbaycanlıların seçilməsi üçün Azərbaycan hökuməti 40.000 rubl göndərmişdi”. Qeyd edək ki, 1918-ci il avqustun 1-də açılan ilk Ermənistan parlamentində 6 azərbaycanlı deputat təmsil olunurdu. 1919-cu il iyunun 21-23-də keçirilən parlament seçkilərində isə cəmi iki azərbaycanlı deputat parlamentin üzvü idi (https://www.azerbaijan-news.az/view-147821/azerbaycanin-ermenistandaki-ilk-diplomatik-numayendesi-mehemmed-xan-tekinski).

Ən təqdirəlayiq hal isə Denikinin Azərbaycana hücum edəcəyi və Ermənistanın xəyanətkar mövqe tutacağı haqqında ilk məlumatı Təkinskinin verməsi idi. Təkinski 1919-cu il iyulun 7-də Bakıya məlumat verirdi: ―Ermənilər Könüllü Ordunun hərəkətlərinə sevinirlər, ümid edirlər ki, Bakını tutacaq. Hərçənd ki, iyunun 1-də Xatisov mənim yanımda nahar vaxtı müstəqilliyin qorunması məsələsində Ermənistanın Azərbaycanla ümumi maraqlarının olmasına məni inandırmağa çalışırdı. Könüllü Ordu ilə bizim aramızda mürəkkəb vəziyyət yaranarsa, Ermənistan bizə qarşı düşmən mövqe tutacaq (Nəsibzadə 1996, 93).

Bu dövrdə Naxçıvan qəzasında bütün səylər Ermənistanla mübarizəyə yönəlmişdi. Arxiv sənədlərindən də məlum olur ki, bu istiqamətdə çox ciddi işlər görülmüş və əhalinin öndə gedən, tanınmış başçıları, əsasən, Naxçıvan Milli Şurasının Hacı Mehdi Bağırov, Mirzə Nəsrullah Əmirov, Həmid bəy Qazıyev, Xəlil ağa Hacılarov, Şəfi ağa Səfiyev kimi savadlı, millətsevər üzvləri (Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, f. 970, siy.1, iş 36) böyük qeyrət və siyasi iş nümunələri göstərmişlər. Bu şəxslər Azərbaycanın həm Ermənistandakı, həm də Gürcüstandakı diplomatik nümayəndəlikləri ilə davamlı əlaqə saxlamış və əsasən Məhəmməd Təkinskinin tapşırıqları əsasında fəaliyyət göstərmişlər.

Məhəmməd Xan Təkinskinin İrəvandakı diplomatik fəaliyyəti Azərbaycan diplomatiya tarixinin ən qiymətli və yeni dünya nizamında Qərb siyasi prinsipləri müstəvisində diplomatik xidmət nümunəsinin yaradılması idi.

## QAYNAQLAR

1. Азербайджанская Демократическая Республика. Внешняя политика. (Документы и материалы). (1998). Баку: Издательство "Азербайджан". 632 с.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. (2005). Bakı: Lider. 472 s.
3. Wems A. Samuel. (2006). Ermənistan: terorist "hiristiyan" devletin sırları. İstanbul: İleri Yayınları. 390 s.
4. Атнур И.Е. (1999). Мухтариййат яряфясиндя Нахчыван. Нахчыван: Qeyrət, 442 s.
5. Əliyev Z. (2015). Qafqaz evi ideyası: tarixi və bu günü https://publika.az/ projects/gizlitarix/ 111462. html
6. Ялийев М.Б. (1993). Ганлы эцнляримиз. Бакы: Azərnəşr,142 s.
7. Азярбайсан тарихи сянядляр вя няшрляр цзря. (1990). Бакы: Azərnəşr. 380 s.
8. Paşayev A. (2010). Məmməd xan Təkinski kimdir? Xalq qəzeti,18 iyul, s. 6
9. Reynolds A.Michael. (2016). İmparatorlukların çöküşü. Osmanlı-rus çatışması. 1908-1918. İstanbul: Kültür Yayınları, 378 s.
10. Дипломатические беседы А.М. Топчибашева в Стамбуле (записи чрезвычайного посланинка и полномочного министра Азербайджанской Республики). 1918-1919 гг. (1994) Баку: «ЭРГЮН». 160 с.
11. Nəsibzadə N.L.(1996). Azərbaycanın xarici siyasəti (1918-1920-ci). Bakı: Ay-ulduz. 304 s.

**Arxiv materialları**

Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, ф. 970, сий.1, иш 54
Azərbaycan Respublikası Milli Arxiv İdarəsi , ф. 970, сий.1, иш 54
Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, ф. 970, сий.1, иш 149
Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, ф. 970, сий.1, иш 54
Azərbaycan Respublikası Milli Arxiv İdarəsi , ф. 970, сий.1, иш 36
Azərbaycan Respublikası Milli Arxiv İdarəsi , ф. 970, сий.1, иш 113
Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, ф. 970, сий.1, иш 115

**İnternet resurs.**

https://www.bizimyol.info/az/news/193291.html
https://www.azerbaijan-news.az/view-147821/azerbaycanin-ermenistandaki-ilk-diplomatik
numayendesi-mehemmed-xan-tekinski

**SEVDA KƏRİMOVA**
*Naxçıvan Dövlət Universiteti*

# İRƏVANDA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ VƏ TƏHSİLİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2021-ci il tarixində imzaladığı "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı mühüm elmi-pedaqoji, siyasi-ideoloji, mədəni-mənəvi əhəmiyyət kəsb edir. Bu sərəncam İrəvan mahalında azərbaycanlıların min illər boyu yaratdığı tarixi irsə sahib çıxmaqla tarixi yaddaşımızı bərpa etməyə nail olmağa hədəflənib. Bakı və Gəncə quberniyalarından sonra İrəvan quberniyasında yaşayan azərbaycanlıların sayı üçüncü yerdə idi. Bəzi məlumatlara görə, XIX əsrin 20-ci illərinin sonunda İrəvanda 8 məscid fəaliyyət göstərirdi.

Azərbaycan şəhəri İrəvan bölgəsində də təhsil-tərbiyə mədəniyyətinin və maarifin inkişafında mühüm rol oynayıb. XX əsrin əvvəllərinə kimi şəhər əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edib. Erməni ensiklopediyasında da verilən xronoloji cədvələ görə, İrəvan 438 il, yəni 1390-cı ildən 1828-ci ilədək azərbaycanlılar tərəfindən idarə olunub.

1828- ci ildə İrəvan xanlığı Rusiya tərəfindən birləşdirildikdən sonra İrandan 40 min və Osmanlı dövlətindən 84600 erməni qədim Azərbaycan torpağına yerləşdirilib. Ciddi demoqrafik dəyişikliyə baxmayaraq, həmin illərdə şəhər əhalisinin 9710 nəfərindən 7331 nəfəri (75.5 %) azərbaycanlı olub (Məmmədov, Əsədov, 1992). “Üləma, füzəla və şüəra" yurdu kimi tanınan İrəvan şəhəri qısa bir vaxtda ictimai-siyasi və pedaqoji fikrin mərkəzinə çevrilib. Mirzə Qədim İrəvani, Fazil İrəvani, Axund Molla Məhəmməd İrəvani, Əbülqasım İravani, Abbas Məhəmmədzadə, Cabbar Əsgərzadə, Mirabbas Mirbağırov, Teymur xan Makinski, Rəşid bəy İsmayılov, Nəriman bəy Nərimanbəyov, Miryusif Mirbabayev, Əkbər ağa Şeyxülislamov, Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Maqsud Məmmədov, Heydər Hüseynov, Cəfər Xəndan, Əhməd Cəmil, Mirəli Seyidov, Kamil Əliyev kimi onlarla görkəmli ziyalıların doğma ana yurdu kimi tanınıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2021-ci il tarixli Sərəncamında dediyi kimi, "İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır".

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində doğulub boya-başa çatan yüzlərlə elm, mədəniyyət, incəsənət, din xadimlərinin adları Azərbaycan tarixinə həkk olunmuşdur. Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər. İrəvan ziyalılarının, elm, mədəniyyət və din alimlərinin yaratdıqları əsərlər bu gün dünyanın müxtəlif kitabxanalarında, arxivlərində və muzeylərində saxlanılır.

Orta əsrlərdə İrəvanda bəylərbəylik və xanlıq üsul-idarələri bərqərar olduqdan sonra elm və mədəniyyətin inkişafı üçün əlverişli şərait yaranmışdır. Təəssüf ki, dağıdıcı müharibələr və təbii fəlakətlər nəticəsində baş vermiş miqrasiya prosesləri nəticəsində həmin dövrdə yazılan əsərlərin az bir qismi günümüzə qədər gəlib çatmışdır. XIX əsrin əvvəllərində İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra İrəvanın imkanlı və ziyalı elitasının xeyli bir qismi şəhəri tərk etmişdir. Əslən İrəvandan olan, xarici ölkələrdə “İrəvani” soyadı və təxəllüsü ilə yazıb-yaradan onlarla elm və

mədəniyyət xadimləri haqqında məlumatlar mövcuddur.

XIX əsrin sonlarında bir müddət İrəvanda işləyən görkəmli Azərbaycan ədəbiyyatşünası və maarif xadimi Firidun bəy Köçərli İrəvanı haqlı olaraq "mərkəzi-üləma, füzəla və şüəra" şəhəri – yəni üləmalar, fazillər və şairlər şəhəri adlandırmışdı. İrəvan şəhərində elm və təhsilin vəziyyəti haqqında ayrı-ayrı müəlliflərin əsərlərindən, o dövrün statistik məlumatlarından və arxiv sənədlərindən xeyli məlumat əldə etmək mümkündür.

İstər xanlıqlar dövründə, istərsə də Rusiya işğalı dövründə xanların və bəylərin, əyanların, din xadimlərinin övladlarının mükəmməl təhsil almalarına xüsusi fikir verilirdi. Bir çox imkanlı ailələr öz uşaqlarını xarici ölkələrdəki dünyəvi və yaxud ali dini məktəblərdə oxumağa göndərirdilər. İrəvanda şiəlik məzhəbi bərqərar olduğu üçün varlı ailələrin övladları əsasən Bağdadda, Nəcəfdə, Kərbəlada, Məşhəddə, Xorasanda, Təbrizdə, Qahirədə ali dini təhsil alırdılar. Həmin şəhərlərdə əslən İrəvan şəhərindən olan "İrəvani" soyadını daşıyan onlarla ayətullah, müctəhid, höccətül-islam titulunu daşıyan din xadimləri yetişmişdi. Özlərindən sonra zəngin irs qoyan ayətullah Molla Məhəmməd bin Məhəmməd Bağır İrəvani-Həcəfinin, ayətullah Seyyid Əbdülməcid İrəvaninin, ayətullah Seyyid Əli İrəvaninin, ayətullah Mirzə Əbdülhüseyn İrəvaninin, Hacı Mirzə Əliağa İrəvaninin, Mirzə Fəzləli ağanın adları məşhur islam alimləri sırasında çəkilir.

"Fazil İrəvani" ləqəbi ilə şöhrət tapmış Ayətullahu'l-uzma Molla Məhəmməd ibn Məhəmməd Baqir 1817-ci ildə İrəvan şəhərində doğulmuşdur. İrəvanda ibtidai dini təhsil aldıqdan sonra Məhəmməd daha yüksək səviyyəli bilik əldə etmək məqsədilə İraqa getmiş, Kərbəla şəhərində təhsilinin birinci mərhələsini başa vurmuşdur.

Sonra Fazil öz dövründə cəfəri məzhəbinin elm paytaxtı sayılan Nəcəfi-Əşrəfə köçmüş və böyük müctəhidlərin dərslərində iştirak etmişdir. Uzunmüddətli təhsil və tədqiqatlardan sonra Fazil İrəvani özünü hərtərəfli müctəhid kimi sübuta yetirərək Nəcəf elm mərkəzində dərs deməyə başlamışdır. Şimali və Cənubi Azərbaycandan dini təhsil almaq məqsədi ilə Nəcəfə gedən tələbələrin çoxu Fazil İrəvaninin dərslərində iştirak edirdi.

Fazil İrəvani Nəcəf şəhərindəki Şeyx Tusi məscidində camaat namazına imamlıq etmişdir. Bu böyük şəxsiyyət ölçüyəgəlməz dərəcədə dərin dini biliyə malik olmuşdur. Fazil İrəvani İslam maarifini yaymaq yolunda bütün ömrü boyu səylə çalışmış, qiymətli kitablar yazmışdır. Mənbələrdə ona aid edilən 15-ə yaxın kitabın adı çəkilir. Fazil İrəvaninin qələmindən çıxmış aşağıdakı əsərlər daha məşhurdur: "Beyzavi təfsirinə haşiyə", "İctihad və təqlid", "Üsulu'l-fiqh", "İstishab" və s.

Fazil İrəvaninin Şeyx Cavad, Şeyx Mahmud və Şeyx Mürtəza adlı oğulları da mükəmməl ruhani təhsili almışlar. Alimin qardaşı Şeyx Əli Əsgər İrəvani də Nəcəf və Kərbəla şəhərlərində məşhur alimlərdən dərs almışdır. Şeyx Əli Əsgərin oğlu Höccətül-İslam Hacı Şeyx Musa Nəcəfi İrəvaninin də zəmanəsinin islam alimləri arasında özünəməxsus böyük məqamı olmuşdur.

Ömrünü İslam maarifinin çiçəklənməsinə və təbliğinə həsr etmiş Ayətullahu'l-uzma Fazil İrəvani 1888-ci ilin noyabrında Nəcəf şəhərində vəfat etmiş və elə orada da dəfn olunmuşdur.

İrəvan şəhərində anadan olmuş görkəmli Azərbaycan həkimi və alimi Hacı Süleyman Qacar İrəvaninin (XVIII əsr) fars dilində yazdığı "Fəvaidül-hikmət" ("Hikmətin faydası") əsəri nəinki Azərbaycanda, eləcə də Orta Asiyada və İranda böyük şöhrət qazanmışdı. Bu kitab orta əsr əczaçılıq, ensiklopediyasıdır və minlərcə dərman bitkisinin, heyvan və mineralın müalicəvi keyfiyyətlərindən bəhs edir. "Fəvaidül-hikmət" əsərinin nadir əlyazma nüsxələri Azərbaycan MEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və eləcə də, İran və Misirdə saxlanılır. Kitab iki hissədən ibarətdir. Birinci hissədə dərman xassələrinin əlifba sırası ilə siyahısı verilib. İkinci hissə isə orta əsr farmakoloji

terminlərinin izahlı lüğətidir. Burada bitki, heyvan və mineralların Azərbaycan, türк, ərəb, fars, yunan, çin, hind və başqa dillərdə adları verilmişdir. Rəsmi sənədlərini və şəxsi yazışmalarını toplayıb qaydaya salmaq üçün Təbrizdən xəttat dəvət etmişdi. İrəvan xanlığının və İrəvan şəhərinin tarixi üçün qiymətli mənbə olan həmin əlyazmaların orijinalları “Hüseynəli xanın divanı” adı altında toplanaraq kitab şəklinə salınmışdı.

“Hüseynəli xanın divanı”nın yeganə əlyazma nüsxəsi hazırda Ermənistan Dövlət Muzeyində saxlanılır. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Elmi arxivində “İrəvanlı Hüseynəli xanın məktubları” adlı əsərin əlyazması saxlanılır. Əsəri Hüseynəli xanın dövründə əvvəlcə xanın divanxanasının mirzəsi, sonra isə vəzir təyin olunan Məhəmməd Müslüm Qüdsi toplamışdır. “Məktublar”a İrəvan xanlarının 1789-1791-ci illərdə Osmanlı sultanına, kartli-Kaxetiya çarı II İrakliyə, Xoy xanı Əhməd xana, Qarabağ xanı İbrahimxəlil xana göndərdiyi məktublar toplanmışdır. Məktublar İrəvan xanlığının siyasi, iqtisadi, ticarət əlaqələri, idarəçilik sistemi mülkiyyət və vergi formaları haqqında geniş məlumat verir.

Erməni tarixçisi Tadevos Hakopyan yazır ki, 1923-cü ildə İrəvandakı məscidlərdən və kilsələrədən əlyazmalar toplanaraq Eçmiədzin kilsəsindəki əlyazmalar fonduna təhvil verilmişdir. Məscidlərdə saxlanılan əlyazmalar əsasən ərəb və fars dillərində idilər. Onların böyük əksəriyyəti Quran və müsəlman dininə aid kitablar idilər. Həmçinin əlyazmalar içərisində ərəb və fars qrafikası ilə dünyəvi məzmunlu şeirlər və bədii yaradıcılıq nümunələri olmuşdu. Evlərdə saxlanılan əlyazmalarda tarixə aid qiymətli məlumatlar var idi.

İrəvan şəhərində mövcud olmuş təhsil sistemi haqqında ən dolğun məlumat xanlığın Rusiya tərəfindən işğalından sonra 1829-1831-ci illərdə həmin ərazidə kameral siyahıyaalma keçirən rus tarixçi-statistiki İvan Şopenin 1852-ci ildə Sankt-Peterburqda çap olunaraq “Erməni Vilayətinin Rusiyaya birləşdirilməsi dövrünün tarixi yaddaşı” əsərində verilmişdir. Həmin məlumatlardan aydın olur ki, İrəvan xanlığının ərazisindəki təhsil sistemi mahiyyət etibarilə Azərbaycanın digər xanlıqlarındakı təhsil sistemindən fərqli olmamışdır.

İ.Şopenin yazdığına görə, İrəvan xanlığının ərazisində təhsillə əsasən müəyyən təhsil görmüş din xadimləri məşğul olurdular. Hər bir məscidin nəzdində böyük və yaxud kiçik mədrəsə fəaliyyət göstərmişdir. Aşağı siniflərdə müəllimlər müdərris, yuxarı siniflərdə isə vaiz adlandırılırdılar. Mədrəsələrdə geniş dərs otaqları ilə yanaşı, tələbələrin yaşadıqları kiçik otaqlar – hücrələr olurdu. Bəzi məscidlərdə adlı-sanlı müctəhidər dərs deyirdilər ki, onları dinləmək üçün ölkənin hər yerindən dinləyicilər gəlirdilər. İrəvan xanlığının süqutu ərəfəsində təkcə İrəvan şəhərindəki 8 məsciddə 200 şagird təhsil alırdı.

İ.Şopenin məlumatına görə, müsəlman alimləri bütün elmləri üç əsas sahəyə bölürdülər: Əl-ərəbiət, Əl-şəruə və Əl-hakimə. Birincisi sahəyə əsasən ərəb dilinin qaydaları, tarix və Quranın oxunması daxil idi. İkinci sahəyə Quranın təfsiri, hədislərin öyrənilməsi, islam hüququnun əsaslarının və kəlamların öyrənilməsi daxil idi. Üçüncü sahəyə isə məntiqin, riyaziyyatın, həndəsə və astronomiyanın, tibbin və nəzəri fəlsəfənin öyrənilməsi daxil idi. İstər məktəblərdə, istərsə də mədrəsələrdə hüsn-xəttə xüsusi diqqət yetirilirdi. İrəvan xanlığının ərazisində məktəb və mədrəsələrdən başqa fərdi tədris növü də mövcud idi. Xanın və yaxud sərdarın, əyanların və tacir uşaqlarının təhsili ilə onların evində ayrıca müəllimlər məşğul olurdular.

İ.Şopenin verdiyi məlumata görə, hər bir müsəlmanın evində məktəblərdə tədris olunan fənlərə, xüsusən də Qurana və şəriətə aid kitabların nüsxələrinə, özü də hərəsindən bir neçə nüsxəyə rast gəlmək olar. Müəllif İrəvanda kalliqrafik xətlə üzü köçürülmüş şeir kitablarının bahalı olduğunu, tarixə aid

kitabların isə daha da baha qiymətə satıldığını yazır. Onun yazdığına görə, ermənilər isə kitab sarıdan kasaddırlar. Yalnız bəzi varlı ermənilərin evlərində «İncilə» və yaxud dini ibadət qaydalarına aid hansısa kitaba nadir halda rast gəlmək olar. Bütün bunlar bir daha ona dəlalət edir ki, həqiqətən də İrəvan şəhəri xanlıqlar dövründə Azərbaycanın inkişaf etmiş elm və mədəniyyət mərkəzlərindən biri olmuş, təhsilə xüsusi fikir verilmişdir.

İrəvan progimnaziyasının hazırlıq sinfinin müəllimi olmuş Stepan Zelinskinin (milliyyətcə erməni idi) "Qafqazın ərazi və tayfalarının təsviri materialları məcmuəsi"ində dərc etdirdiyi "İrəvan şəhəri" məqaləsində göstərir ki, 1880-ci ildə İrəvan şəhərindəki məscidlərdə 153 şagird təhsil alırdı ki, onların təlimi ilə 8 müəllim məşğul olur.

S.Zelinski yazır ki, bundan əlavə, İrəvanda ali dini müsəlman məktəbi fəaliyyət göstərir və orada tələbələrdən təhsil haqqı alınmır, əksinə təhsildə müvəffəqiyyətlərindən asılı olaraq məscid onlara 3 rubldan 10 rubladək mükafat verir. Müəllif ali dini müsəlman məktəbində əksəriyyətinin kəndlərdən gələnlərdən ibarət olduğunu, hər il 60-a qədər tələbənin təhsil aldığını, tam kursu bitirdikdən sonra onlara axund rütbəsi verildiyini və əmmamə daşımaq səlahiyyətinə malik olduqlarını yazır. S.Zelinski ali dini məktəbin hansı məscidin nəzdində fəaliyyət göstərdiyini yazmasa da, belə güman etmək olar ki, həmin məktəb şəhərin baş məscidi olan Cümə və yaxud Hüseynəli xan məscidinin nəzdində fəaliyyət göstərmişdir.

Rusiya işğalı dövründə İrəvan şəhərində ilk dövlət ikisinifli qəza məktəbi 14 yanvar 1832-ci ildə açılmışdır. İrəvan qalasında yerləşən həmin məktəbin təşkilatçısı və inspektoru Moskva universitetinin tələbəsi F.Zuboev olmuşdur.

1836-cı ildə Sankt-Peterburqda çap edilən "Qafqazdakı Rusiya torpaqlarının icmalı" əsərində yazılır "İrəvan şəhərində 60 şagirdin təhsil aldığı bir xalq məktəbi Eçmiədzindən 1827-ci ildə köçürülmüş bir erməni və 8 tatar (azərbaycanlı) məktəbi vardır. Bütün bu 9 məktəbdə 120-yə qədər şagird oxuyur ki, onlar da imkanları nəzərə alınmaqla ayda 20 qəpikdən 1 gümüş rubladək vəsait ödəyirlər. 15 mart 1868-ci ildə İrəvan qəza məktəbi dördsinifli klassik progimnaziyaya çevrilmişdir. Azərabyacanlı uşaqların da təhsil aldıqları bu məktəbdə din dərsləri, rus, tatar (Azərbaycan dili), erməni, latın, fransız dilləri, tarix, coğrafiya, riyaziyyat və təbiətşünaslıq fənləri tədris edilirdi. Stepan Zelinski yuxarıda adı çəkilən "İrəvan şəhəri" məqaləsində göstərir ki, 1850-ci ildən 1880-ci ilədək 30 il ərzində İrəvan qəza məktəbini və progimnaziyasını üst-üstə 558 tatar (azərbaycanlı) bitirmişdir.

Progimnaziya 31 mart 1881-ci ildə səkkizsinifli tam gimnaziyaya çevrilmişdi və sonralar İrəvan Oğlan Gimnaziyası adlanırdı. 1 yanvar 1883-cü ilə olan məlumata görə, İrəvan gimnaziyasında təhsil alan 237 şagirddən 37-si azərbaycanlı olmuşdur.

Progimnaziya 31 mart 1881-ci ildə səkkizsinifli tam gimnaziyaya çevrilmişdi və sonralar İrəvan Oğlan Gimnaziyası adlanırdı. 1 yanvar 1883-cü ilə olan məlumata görə, İrəvan gimnaziyasında təhsil alan 237 şagirddən 37-si azərbaycanlı olmuşdu. Əldə edilən məlumatlara görə, ilk dəfə İrəvan qəza məktəbi kimi fəaliyyətə başladığı dövrdən 1918-ci il avqustun 6-da bağlanmasınadək keçən müddət ərzində İrəvan Oğlan Gimnaziyasına şəriət dərslərini və Azərbaycan dili fənnini 1836-1856-cı illərdə Molla Tağı Mahmud oğlu, 1856-1885-ci illərdə Mirzə Ələkbər Elxanov, 1885-1895-ci illərdə Firidun bəy Köçərli, 1895-1905-ci illərdə İsmayıl bəy Şəfibəyov, 1905-1906-cı illərdə Mirzə Məhəmməd Şeyxzadə, 1907-1918-ci illərdə Şeyx Abusəttar Kazımov tədris etmişlər.

Məşhur Azərbaycan alimi, tənqidçisi, pedaqoqu Firidun bəy Köçərlinin 1885-ci ildə Qori Müəllimlər seminariyasını bitirərək təyinatla İrəvan Oğlan Gimnaziyasında işləməyə göndərilmişdi. O, maarifçi-demokrat kimi ictimai bəlaların kökünü cəhalətdə, elmsizlikdə görür, xalqın maarifləndirilməsi

yolunda öz əməyini əsirgəmirdi.

İrəvanda yeni tipli məktəblərin açılmasında, onların tədris vəsaitləri ilə təmin olunmasında Firidun bəyin müstəsna xidməti olmuşdu. İrəvanda işlədiyinin beşinci ilində – yəni 1890-cı ildə “İrəvandan məktub” başlıqlı məqaləsində Firidun bəy yazırdı: “Belə ki, iki-üç sənə var ki, şəhərimizdə bir-iki qaydalı və səliqəli məktəb açılıb, müsəlman balaları da sair millətlərin ətfalı (yəni uşaqları) təki təzə üsul ilə elm və ədəb təhsil edirlər… Əlbəttə, bu məktəblərin bu halda qüsurları da çoxdur amma ümid var ki, İrəvan əhli hümmət edib az zamanda məktəblərin hər bir maehtiyacını düzəldələr. İrəvan şəhəri Azərbaycan elminə bir sıra görkəmli şəxsiyyətlər bəxş etmişdir. Uzun müddət Ermənistan SSR Maarif Nazirliyi sistemində işləmiş Nurəddin İbrahimovun tərtib etdiyi siyahıdan məlum olur ki, sovet hakimiyyətinin süqutunadək əslən İrəvan şəhərindən olan, elmin müxtəlif sahələrini əhatə edən 6 akademik, akademiyanın 3 müxbir üzvü, 27 elmlər doktoru və 73 fəlsəfə doktoru yetişmişdir. Bir ənənə olaraq Ermənistan SSR Maarif nazirinin müavinlərindən biri azərbaycanlı olurdu. Bu vəzifədə müxtəlif vaxtlarda Rəhim Allahverdiyev, Rza Vəlibəyov, Suren Şərifov, İsrafil Məmmədov işləmişlər.

1988-ci ildə Dağlıq Qarabağda erməni separatizminin baş qaldırması Ermənistanda azərbaycanlıların tamamilə deportasiya olunması və bununla da zəngin ənənəyə malik olan təhsil ocaqlarının birdəfəlik məhv edilməsi ilə nəticələndi. 1988-ci ilin fevralında M.F.Axundov adına İrəvan şəhər azərbaycanlı orta məktəbinin binası erməni vandalları tərəfindən yandırıldıqdan sonra məktəbdə tədris prosesinə son qoyuldu.

## ƏDƏBİYYAT

1. İradə Sarıyeva. Milli təhsil tariximizin əsası olan seminariyalar... Azərbaycançılıq ideologiyasının yayılmasında onların rolu... Bakı xəbər.- 2016.- 5 -7 noyabr.- s.15
2. Abbas Hacıyev. Tiflis ədəbi mühiti. B.: Yazıçı, 1980
3. Амрали Тсмаилов, Тайны и явъ Армянства, «Муаллиь» нешрий, Баку: 2006. стр., 12,
4. “Vedibasar” qəzeti, N 07(122), 01-15 aprel 2008
5. Vəliyev Şamil. Füyuzat ədəbi məktəbi. Bakı: Elm, 1999
6. Qlinka S. N. Ermənilərin Azərbaycana köçürülməsi. Bakı: 1995
7. Ermənistan Ensiklopediyası, III cild, cəhifə 571.
8. Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı: 1995
9. Ədəbi irsimizə qayğı, Nərgiz Qurbanov. “Respublika” qəzeti, N 123(2551) 9 iyun 2009
10. İbad İbrahimov. Alınmaz qala. Gəncə “Gəncə Poliqrafiya” ASC, 2009
11. Mahmudov M. VII-XII əsr ərəb dilli Azərbaycan alimləri. Bakı: AMEA-nın nəşri. 1983
12. Musayev Talib. Ermənilər və faciələrimiz. Bakı: 2008
13. Nizaməddin Şəmsizadə. Seçilmiş əsərləri. I cild. Bakı: “Elm”, 2008
14. “Respublika” qəzeti, 2 aprel 2008, səhifə 4.
15. Çavçavadze. İlya Qriqoryeviç «Армянские ученые и вопиющие камни ». Тифлис, 1902, стр., 2, 3.
16. Zeynalov Əsgər. İrəvan ziyalıları. Bakı: 1999, s. 6-7.

## SUMMARY

**Sevda Karımova**

**AZERBAIJAN CULTURE AND EDUCATION IN IRAVANRESUME**

In the article, the important role played in the development of educational culture and knowledge in the Iravan region of the city of Azerbaijan, the activity of Azerbaijani teachers at the teachers' seminary, the development of education, etc. is spoken. The article also mentions the literary environment of Yerevan.

***Key words:*** *Azerbaijan, Azerbaijanis, teachers, seminary, Yerevan, literary environment.*



## РЕЗЮМЕ

**Севда Каримова**

**КУЛЬТУРА И ОБРАЗОВАНИЕ АЗЕРБАЙДЖАНА В ИРАВАНЕ**

В статье важную роль сыграли в развитии образовательной культуры и знаний в Иреванском районе города Азербайджана деятельность азербайджанских учителей в учительской семинарии, развитие образования и др. говорится. В статье также упоминается литературная среда Еревана.

***Ключевые слова:*** *Азербайджан, азербайджанцы, учителя, семинария, Ереван, литературная среда*

**GÜLMİRA HACIYEVA**
*Naxçıvan Müəllimlər İnstitutu*
*gulmirahaciyeva90@gmail.com*

## İRƏVAN TƏDRİS MÜƏSSİSƏLƏRİ VƏ NAXÇIVANLI MƏZUNLAR

*Məqalədə pedaqoji kadrların hazırlanmasında İrəvan Müəllimlər Seminariyasının rolu və xidmətlərinin böyük olduğu qeyd edilmişdir. Burada dərs deyən müəllimlər təkcə tədris işi ilə məşğul olmamış, həm də böyük ictimai-siyasi, elmi-pedaqoji və metodiki işlər həyata keçirmişlər. Onlar bir çox dərslik və dərs vəsaiti yazmış, lüğətlər tərtib etmişlər. Teatr tamaşaları hazırlamış, dərs dediyi tələbələrin elmi-pedaqoji yaradıcılıqlarını inkişaf etdirmişlər.*

*Xalqımızın bir sıra tanınmış nümayəndələri, maarif fədailəri - Həmid bəy Şahtaxtinski, Haşım bəy Nərimanbəyov, Haşım bəy Vəzirov, Tağı bəy Səfiyev, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, İbadulla Muğanlinski, Ş.Mahmudbəyov, C.Məmmədov və başqaları vaxtilə ilk pedaqoji təhsillərini İrəvan Müəllimlər Seminariyasında almışdılar. İrəvan Müəllimlər Seminariyasının məzunları Azərbaycanın bir çox bölgələrində, şəhər və kəndlərində uğurla pedaqoji işlə məşğul olmuş, xalqın, millətin tərəqqisində, irəli getməsində mühüm xidmətlər göstərmişlər.*

***Açar sözlər:*** *İrəvan, müəllim, millət, elm, mədəniyyət, təhsil*

“İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2021-ci il tarixli sərəncamı deyilir. “İrəvan Müəllimlər Seminariyası 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüş və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışlar”.

Bizə məlumdur ki, İrəvan və onun ətraf əraziləri tarixən qədim Azərbaycan yurdu, qədim Azərbaycan torpaqlarıdır. Soydaşlarımız uzun əsrlər, illər boyu bu torpaqlarda yaşamış, işləmiş, yazıb yaratmış, təhsil ocaqları açmış, zəngin mədəni irs yaratmışlar.

XIX əsrin 70-ci illərinədək bütün Qafqazda dünyəvi fənlər tədris edən məktəb, bu fənlərdən dərs demək üçün pedaqoji kadrlar hazırlayan hər hansı bir təhsil ocağı yox idi. Məlumdur ki, Azərbaycanda olduğu kimi, İrəvanda da dünyəvi məktəblər açılana qədər təlim müəssisəsi kimi yalnız məscidlərin nəzdində mollaxanalar və mədrəsələr fəaliyyət göstərmişdir. Əsrlər boyu fəaliyyət göstərən mollaxana və mədrəsələr xalqımızın mədəni yüksəlişini təmin edə bilməmiş, onun inkişaf prosesini ləngitmişdir. XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyillərin yaranmasına səbəb oldu. Artıq təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə tənəzüllə uğrayır, öz yerini dünyəvi məktəblərə verməyə məcbur olurdu.

Məşhur səyyah İ.İ.Şopenin hesablamalarına görə, XIX əsrin əvvəllərində təkcə İrəvan şəhərində 2400 azərbaycanlı ailə, 12 min nəfər azərbaycanlı yaşayırdı. Şəhər ruslar tərəfindən alınandan sonra əhalinin bir qisminin İrana köçməsinə baxmayaraq, yenə də azərbaycanlılar şəhər əhalisinin böyük əksəriyyətini təşkil edirdi. 1829-cu ilin məlumatına görə, təkcə İrəvan şəhərində əhalinin 80 faizini azərbaycanlılar təşkil edirdi.

XIX əsrin əvvəllərindən başlayaraq 1920-ci ilə qədər İrəvan sürətlə inkişaf etmiş və bölgədə böyük

mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan şəhəri Bakı, Təbriz, Naxçıvan, Xoy və başqa şəhərlər kimi Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzi olmuşdur. Buna görə də Şərq maarif və mədəniyyət tarixində çox sayda "İrəvani" təxəllüsü ilə məşhur alim və yazıçılara, şairlərə, incəsənət adamlarına rast gəlmək olur. Məsələn, Mirzə Qədim İrəvani – XIX əsrdə yaşamış böyük rəssam olmuşdur. Axund Fazil İrəvani – XIX əsrdə yaşamış görkəmli alim, filosof, ictimai və siyasi xadim olmuşdur. 1817-ci ildə anadan olmuş və ilk təhsilini İrəvanda, mədrəsədə aldıqdan sonra 20 yaşında ikən ali dini təhsil almaq üçün Misirdə dünyada məşhir olan "Əl-Əzhər" Universitetində təhsil almışdır. Axund Məhəmmədbağır İrəvani Qazizadə-Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, dövlət quruculuğunun inkişafında böyük xidmətlər göstərmişdir. Axund Molla Məhəmmədbağır 1829-cu ildə İrəvan şəhərində doğulmuş, ilk dini təhsilini atasından almış, sonra İrəvanda mədrəsədə oxumuş, daha sonra ali ruhani təhsili almaq üçün qədim mədəniyyət mərkəzlərindən olan Nəcəf şəhərinə gedərək təhsilini orada davam etdirmişdir. Hacı Süleyman Qacar İrəvani XIX əsr görкəmli Azərbaycan həkimi və alimidir. Onun fars dilində yazdığı "Fəvaidül-hiкmət" ("Hiкmətin faydası") əsəri nəinki Azərbaycanda, eləcə də Orta Asiyada və İranda böyüк şöhrət qazanmışdı. Bu kitab orta əsr əczaçılıq ensiklopediyasıdır və minlərcə dərman bitkisinin, heyvan və mineralın müalicəvi keyfiyyətlərindən bəhs edir (1, s.157).

XIX əsrin birinci yarısında Tiflisdə və Bakıda rus məktəbi açıldı. İrəvanda Azərbaycan türklərinin sayca çox olduğunu nəzərə alaraq, dörd ildən sonra bu məktəbdə - İrəvan qəza məktəbində azərbaycanlı şöbəsi yaradılmışdır. Sonralar Azərbaycanda üsuli-cədid məktəbləri – dünyəvi məktəblər açıldığı kimi, İrəvanda da bu tipli məktəblər açıldı.

Bu illərdə Tiflisdə Gimnaziya, İrəvanda (14 may, 1832-ci il), Bakıda, Şuşada, Şamaxıda, Naxçıvanda qəza məktəbləri açıldı. 1882-ci ildə İrəvanda rus-tatar məktəbləri açıldı. Bu illərdən başlayaraq dünyəvi biliklər verən məktəblər genişləndi və həmin məktəblərdə Azərbaycan dili tədris olunmağa başladı. XIX əsrin ortalarından başlayaraq, İrəvanda azərbaycanlılar üçün xüsusi məktəblər açıldı ki, burada Məhəmməd Tağı Mahmud oğlu, Mirzə Ələkbər Elxanov kimi təcrübəli müəllimlər dərs deyirdi.

İrəvanda "Rus-Azərbaycan" qız məktəbləri də açıldı ki, bu məktəblər əhalinin rəğbətini qazanmışdı. Məktəbin müdiri Haşım bəy Nərimanbəyov, İrəvan gimnaziyasının müəllimlərindən İsmayıl bəy Şəfibəyov, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan dili müəllimi Rəhim Xəlilov, Mirzə Məmmədvəli Qəmərlinski, Axund Məmmədbağır Tağızadə və başqaları bu məktəblərdə dərs deyirdilər. İrəvanda yeni üsullu ana dili məktəbinin yaradıcısı isə Məşədi Molla İsmayıl Hacı Kazımov idi. Onun qabaqcıl təcrübəsi hətta Cənubi Azərbaycanda da yayılmışdı. Bu məktəbdə N.Nərimanbəyov, F.Köçərli, C.Məmmədquluzadə, M.Əliyev, T.Sultanova, M.V.Qəmərlinski, M.Qazıyev və başqaları dərs demiş və onlar bu bölgənin ilk müəllimləri olmuşlar (1, s.27).

1881-ci ildə İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır. 37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır.

Bu seminriyanın ilk açılış zamanı 69 şagirdi olmuşdur. Müəllimlər seminariyasının məzunu Firidun bəy Köçərli 1885-ci ilin iyun ayında İrəvan gimnaziyasına Azərbaycan dili və şəriət müəllimi təyin edilmişdir. O, bu tədris ocağında 10 il müddətində pedaqoji fəaliyyətini davam etdirmişdir. Müəllimlər seminariyasının digər məzunu Cəlil Məmmədquluzadə 1887-ci ildə Qori seminariyasını bitirdikdən sonra İrəvan və Yelizavetpol xalq məktəbləri direktorluğunda yerləşən Uluxanlı məktəbinə müəllim təyin edilib və ilk dərsini həmin məktəbdə demiş və burada da ilk olaraq "Çay dəstgahı" əsərini yazmışıdr (2, s.124).

1906-cı ilin iyun ayında Cəlil Məmmədquluzadə İrəvanda olmuş, seminariyada qabaqcıl

azərbaycanlı ziyalılarla, müəllim və tələbələrlə görüş keçirmiş, “Molla Nəsrəddin” jurnalı barədə geniş fikir mübadiləsi aparmışdır. “Molla Nəsrəddin” jurnalının İrəvanda özünə möhkəm yer tutmasında İrəvan Müəllimlər Seminariyasının Azərbyacan bölməsinin müəllimlərinin və tələbələrinin də böyük rolu olmuşdur. “Tuti”, “Zənbur”, “İqdam”, “İrşad”, “Babayi-Əmir”, “Məzəli”, “Kaspi”, “Şəlalə”, “Sovqat”, “Kəşkül”, “Tərcüman” və s. bu kimi mətbuat orqanlarının da İrəvanda yayılmasında azərbaycanlı ziyalıların və tələbələrin böyük rolu olmuşdur.

1895-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirmiş Tağı bəy Səfiyev də uzun müddət Naxçıvanın Nehrəm kəndində müəllim işləmişdir. Həmin dövrdə onun “Nehrəm kəndi” adlı kitabçası da işıq üzü görmüşdür.

İrəvan Müəllimlər Seminariyasının məzunlarından biri də Həsən Səfərli olmuşdur. Rus dilinin və riyaziyyatın gözəl bilicisi olan Həsən Səfərli 1917-ci ildən 1919-cu ilin ortalarına qədər Naxçıvanda fəaliyyət göstərən “Rüşdiyyə” məktəbində də dərs demişdir. H.Səfərli 1919-cu ildə Naxçıvanda kimsəsiz uşaqlar evinin müdiri işləmişdir. 1965-ci ildə isə Əməkdar müəllim adına layiq görülmüşdür (3, s.347).

Seminariyanın 1885-ci ildə ilk buraxılışı olmuşdur. Məzunlar içərisində 25 nəfər azərbaycanlı var idi ki, bu məzunlar İrəvan qəza məktəblərində, Naxçıvanda, Uluxanlıda dərs demişlər. Seminriyanın ikinci buraxılışı beş ildən sonra-1890-cı ildə olmuşdur. Bu buraxılışda isə 69 nəfər yüksəkixtisaslı, hazırlıqlı azərbaycanlı pedaqoji kadrlar olmuşdur. İrəvan Müəllimlər Seminariyasının məzunları içərisində Naxçıvandan getmiş xeyli məzun olmuşdur ki, onlardan Həmid bəy Şahtaxtinskinin, İbrahim Şahtaxtlının, Tağı bəy Səfiyevin, İbrahim Səfinin, Mirzə Bağır Əliyevin və başqalarını göstərə bilərik.

Onlar Naxçıvanda maarif və mədəniyyətinin inkişafında, təhsilin yüksəlişində böyük xidmətlər göstərmişlər. Pedaqoji kadrların hazırlanmasında İrəvan Müəllimlər Seminariyasının rolu və xidmətləri böyük olmuşdur. Burada dərs deyən müəllimlər təkcə tədris işi ilə məşğul olmamış, həm də böyük ictimai-siyasi, elmi pedaqoji və metodiki işlər həyata keçirmişlər. Onlar bir çox dərslik və dərs vəsaiti yazmış, lüğətlər tərtib etmişdir. Teatr tamaşaları hazırlamış, dərs dediyi tələbələrin elmi – pedaqoji yaradıcılıqlarını inkişaf etdirmişlər. İrəvan Müəllimlər Seminariyasının məzunları Azərbaycanın bir çox bölgələrində, şəhər və kəndlərində uğurla pedaqoji işlə məşğul olmuş, xalqın, millətin tərəqqisində, irəli getməsində mühüm xidmətlər göstərmişlər.

“İrəvan Müəllimlər Seminariyasının nəzdində ibtidai məktəb fəaliyyət göstərirdi. Seminaristlər pedaqoji təcrübələrini həmin məktəbdə keçirdilər. Ordubad şəhər məktəbi həmin seminariyanın təcrübə məktəbi hesab olunurdu. Burada müxtəlif fənlər tədris edilməklə yanaşı, həm də bir sıra peşələr öyrədilirdi. Bu cəhətdən İrəvan Müəllimlər Seminariyasında xarratlıq, cildçilik, tərəvəzçilik və ipəkçilik fənləri də tədris olunurdu” (3, s.324).

Millət yaratdığı şərəfli tarixi ilə özünü ifadə edir. İndi yadlara, yağılara qalan qədim İrəvan şəhərində 140 il bundan əvvəl fəaliyyətə başlayan müəllimlər seminariyası təhsil və pedaqoji fikir tariximizin, maarifçilik tariximizin, milli mədəniyyət tariximizin və kimliyimizin parlaq səhifələrindən birini təşkil edir.

## ƏDƏBİYYAT

1. Cəfərov C., Allahverdiyev C. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb, 2017, 440 s.
2. Cəfərov C., Allahverdiyev C. İrəvanda ictimai-siyasi və mədəni mühit. Bakı: ADPU, 2018, 242 s.
3. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ADPU, 2020, 538 s.

## SUMMARY

In the article, it was mentioned that the role and services of the Yerevan Teachers' Institute in the training of pedagogical personnel are great. The teachers who teach here have not only been engaged in teaching work, but also carried out great socio-political, scientific pedagogical and methodical works. They wrote many textbooks and textbooks, compiled dictionaries. He created theater performances and developed the scientific and pedagogical creativity of the students he taught.

A number of well-known representatives of our people, devotees of education - Hamid bey Shahtakhtinsky, Hashim bey Narimanbeyov, Hashim bey Vazirov, Taghi bey Safiyev, Vahid Musabeyov, Farrukh Agakisibeyov, Ibadulla Mughanlinski, Sh. they had bought. Graduates of the Yerevan Teachers' Seminary successfully engaged in pedagogical work in many regions, cities and villages of Azerbaijan and rendered important services in the progress and progress of the people and the nation.


***Key words**: Yerevan, teacher, nation, science, culture, education*


## РЕЗЮМЕ

В статье отмечено, что роль и заслуги Ереванского учительского института в подготовке педагогических кадров велики. Преподаватели, преподающие здесь, занимались не только преподавательской работой, но и провели большую общественно-политическую, научно-педагогическую и методическую работу. Им было написано множество учебников и учебников, составлены словари. Он создавал театральные постановки и развивал научно-педагогическое творчество обучаемых им студентов.

Ряд известных представителей нашего народа, подвижников просвещения - Хамид бек Шахтахтинский, Хашим бек Нариманбеков, Хашим бек Вазиров, Таги бек Сафиев, Вахид Мусабеков, Фаррух Агакисибеков, Ибадулла Муганлинский, Ш. они купили. Выпускники Ереванской учительской семинарии успешно занимались педагогической работой во многих районах, городах и селах Азербайджана и оказали важные услуги в деле прогресса и прогресса народа и нации.


***Ключевые слова:** Ереван, учитель, нация, наука, культура, образование*

**MEHPARƏ ƏHMƏDOVA**
*Naxçıvan Dövlət Universiteti*
*ehmedovamehpare69@gmail.com*

# PEDAQOJİ FİKİR TARİXİMİZDƏ İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ ROLU

*Məqalədə Azərbaycanda pedaqogika elminin yayılması və inkişafinda İrəvan Müəllimlər Seminariyasının rolu araşdırılır. Qeyd edilir ki, 37 il fəaliyyət göstərən İrəvan Müəllimlər Seminariyası təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda, Azərbaycanda təhsil, pedaqoji fikir, maarifçilik və mədəniyyət tariximizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynamışdır.*

*Əsaslandırılır ki, pedaqoji fikir tariximizin parlaq səhifələrindən biri olan İrəvan Müəllimlər Seminariyası Azərbaycan tarixində pedaqoji kadrların formalaşması və təhsil sisteminin inkişafında müstəsna rolu olan görkəmli şəxsiyyətlər yetişdirmişdir. Seminariyanın məzunları Avropanın inkişaf etmiş ölkələrində və Rusiyanın müxtəlif ali məktəblərində təhsillərini davam etdirib, daha sonra Azərbaycana qayıdaraq ölkəmizdə elmin, təhsilin, mədəniyyətin və digər sahələrin inkişaf etdirilməsində yaxından iştirak etmişlər.*

***Açar sözlər:*** *Pedaqoji fikir tarixi, İrəvan Müəllimlər Seminariyası, pedaqoji kadrlar, xalq maarifi, dünyəvi məktəblər*

## Giriş

Azərbaycanda milli-mənəvi dəyərlərin qorunub-saxlanmasına, daha da inkişaf etdirilməsinə tələbkarlıqla yanaşıldığı bir şəraitdə xalqımızın öz pedaqoji irsinə, tarixi keçmişinə son dərəcədə həssaslıq göstərməyi təbiidir.

Poetik təfəkkürə, yüksək əxlaqi keyfiyyətə və həssas mənəvi aləmə malik olan xalqımızın mənəviyyat xəzinəsi özünün zənginliyi ilə seçilir və qiymətləndirilir. Bu mənəvi əxlaqi-pedaqoji sərvətləri öyrənmək, onları pedaqoji təfəkkür süzgəcindən keçirib yetişən nəslin tərbiyəsində istifadə etmək və məktəb təcrübəsinə gətirmək çağdaş elmi fikri düşündürən problemlər sırasındadır. Xüsusilə məktəb və pedaqoji fikrin inkişaf tarixini öyrənmək daha çox zəruridir. Çünki məktəb, xalq maarifi, pedaqoji fikir xalqın sərvət səviyyəsinin həm göstəricisi, həm də təkamül amilidir.

Elmi-texniki tərəqqinin, sivilizasiyanın geniş vüsət aldığı bir dövrdə yaşamağımıza baxmayaraq, ümumbəşəri dəyərlərdən bəhrələnmək yenə də keçmişdən bu günədək xalqımızın yaratdığı mənəvi irsə daha qayğı ilə müraciət etməyi zərurətə çevirir. Bu mənada təhsil, pedaqoji fikir, maarifçilik və mədəniyyət tariximizin parlaq səhifələrindən biri olan İrəvan Müəllimlər Seminariyasının Azərbaycan pedaqoji fikrinin inkişafındakı rolunun araşdırılması aktuallığı ilə seçilir.

Məlum olduğu kimi, Prezident İlham Əliyev İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda qeyd edilir: “İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət aldı. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin - İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir.”

Seminariyanın təşkili.

Aparılan elmi araşdırma və tədqiqatlardan məlum olur ki, XIX əsrin ikinci yarısınadək bütün Qafqazda Azərbaycan dilində dünyəvi fənləri tədris edən məktəblərin və müəllimlərin olmaması üzündən belə məktəblərin açılması və dərs demək üçün pedaqoji kadrların hazırlanması olduqca vacib məsələlərdən idi. Rus maarifçilik hərəkatının təsiri ilə Qafqaz xalqlarının azadlıq, milli dirçəliş, milli mədəniyyətlərinin yüksəlməsi uğrunda mübarizəsində yeni mərhələnin əsasının qoyulduğu artıq hiss olunurdu. Burada qəza məktəblərinin açılması, yeni üsullu dərsliklərin hazırlanması, təhsilin rus dilində və hər millətin öz ana dilində aparılmasına yaradılan imkan zamanın tələbi kimi diqqəti cəlb edirdi. Rusiyanın Zaqafqaziyada yeritdiyi siyasəti Azərbaycan xalqının mənəvi sarsıntıları ilə yanaşı, bir çox sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyillərin yaranmasına səbəb oldu. Yəni cəmiyyətdə gedən ictimai-siyasi proseslər zamanın tələblərinə uyğun məsələləri də istər-istəməz önə çəkirdi. Təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə tənəzüllə uğrayır, öz yerini dünyəvi məktəblərə verməyə məcbur olurdu. Cənubi Qafqaz, o cümlədən Azərbaycan xanlıqları Rusiya tərəfindən işğal edildikdən sonra həyatın bütün sahələri Rusiya tərəfindən idarə olunmağa başladı. Rusiya Maarif Nazirliyi 1829-cu il avqustun 2-də "Zaqafqaziya məktəblərinin vəziyyəti haqqında" qərar qəbul etmişdi. Qərarda öz əksini tapmış məsələlər - qəza məktəblərinin yaranması və ümumi təhsil sistemi ilə idarə edilməsi idi.

Qeyd etmək yerinə düşər ki, XIX əsrin ilk onilliklərindən başlamış XX əsrin iyiriminci illərinədək olan müddətdə Azərbaycanın qərbində, xüsusilə də İrəvan quberniyasında ictimai-bədii təfəkkürün xarakterik xüsusiyyətlərini özündə kifayət qədər əks etdirən regionlardan biri İrəvanın ictimai-siyasi, mədəni və ədəbi mühiti olmuşdur. İrəvanın quberniya mərkəzi olması, burada ədəbi mühitin milli-mənəvi oyanışı və milli özünüdərk prosesinin milli mənlik şüuru səviyyəsinə çatıb, xalqın əlindən alınan istiqlal mübarizəsinə qaldırmaqda oynadığı rol xüsusilə diqqəti cəlb etdi. Maarifçilik fəaliyyəti bilavasitə İrəvanla bağlı olan Firidun bəy Köçərli 1926-cı ildə işıq üzü görən iki cildlik “Azərbaycan ədəbiyyatı tarixi materialları”nda bu haqda kifayət qədər məlumat (Köçərli 1981, 29) vermişdir.

Cənubi Qafqazda başlanan maarifçilik hərəkatına İrəvanda da onlarla azərbaycanlı ziyalı qoşularaq gənclərin təhsilə cəlb edilməsi uğrunda mübarizəyə başladı. İrəvanda 14 yanvar 1832-ci ildə açılan ilk qəza məktəbində müxtəlif millətlərin uşaqları ilə yanaşı, azərbaycanlılar da təhsil almağa başladılar. 1832-ci ildə açılan İrəvan qəza məktəbi 1869-cu ildə progimnaziyaya, 31 mart 1881-ci ildən isə 5 sinifli gimnaziyaya çevrildi.

8 noyabr 1881-ci ildə İrəvanda daha bir təhsil müəssisəsi - İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladı. Seminariyada müxtəlif millətlərin nümayəndələri ilə yanaşı, azərbaycanlılar da təhsil alırdı. Onu da qeyd edək ki, İrəvan Müəllimlər Seminariyasının və gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha geniş vüsət almasına ciddi təsir göstərdi. 1881-ci ildə yaradılan və 69 şagirdi olan İrəvan Müəllimlər Seminariyasında Axund Məmmədbağır Kazımzadənin tatar dili (Azərbaycan dili) müəllimi işlədiyi göstərilir (Məhərrəmov 2010, 55). O, 1853-cü ildə İrəvanda anadan olmuş, İrəvan progimnaziyasını bitirmişdir. Axund Məmmədbağır Qazızadə həm də seminariyada Azərbaycan bölməsinə rəhbərlik edirdi. Yeri gəlmişkən qeyd edək ki, o, 1911-ci ildə İrəvan müəllimlər seminariyasının bir qrup əməkdaşları ilə Tiflisdə Azərbaycan dilində nəşr olunmuş "Ana dili" dərsliyinin həm müəlliflərindən biri idi. Aparılan tədqiqatlardan məlum olur ki, Axund Məmməd Bağır Qazızadə seminariyada şəriət dərslərinin yüksək səviyyədə keçirilməsində böyük rol oynamışdır. O, eyni zamanda tədris şəraitinin yaxşılaşdırılması, gənclərin seminariyaya daha çox cəlb edilməsi istiqamətində də böyük işlər görmüşdü.

Qeyd edək ki, 1906-cı ilin iyun ayında Cəlil Məmmədquluzadə İrəvanda olmuş, seminariyada qabaqcıl azərbaycanlı ziyalılarla, müəllim və tələbələrlə görüş keçirmiş, "Molla Nəsrəddin" jurnalı barədə geniş fikir

mübadiləsi aparmışdır. İrəvanda "Molla Nəsrəddin" jurnalının özünə möhkəm yer tutmasında, eyni zamanda İrəvanda "Tuti", "Zənbur", "İqdam", "İrşad", "Babayi-Əmir", "Məzəli", "Kaspi", "Şəlalə", "Sovqat", "Kəşkül", "Tərcüman" və s. bu kimi mətbuat orqanlarının da geniş yayılmasında seminariyanın Azərbaycan bölməsinin müəllimlərinin və tələbələrinin də böyük rolu olmuşdur.

Seminariyanın azərbaycanlı məzunları.

Qeyd edək ki, 37 il fəaliyyət göstərən seminariya Azərbaycan tarixində pedaqoji kadrların formalaşması və təhsil sisteminin inkişafında müstəsna rolu olan görkəmli şəxsiyyətlər yetişdirmişdir. Seminariyanın məzunları Avropanın inkişaf etmiş ölkələrində və Rusiyanın müxtəlif ali məktəblərində təhsillərini davam etdirib, Azərbaycana qayıdaraq ölkəmizdə elmin, təhsilin, mədəniyyətin və iqtisadiyyatın bir çox sahələrinin inkişaf etdirilməsində yaxından iştirak etmişlər.

İrəvan Müəllimlər Seminariyasında 1904-cü ildə Rəşid bəy Şaxtaxtinski, 1907-ci ildə isə Həmid bəy Şahtaxtinski Azərbaycan (tatar) dili fənnini tədris etmişlər. Həmid bəy 5 iyun 1899-cu il tarixdə İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra 1899-cu il tarixdən İrəvan rus-tatar məktəbinə Azərbaycan dili müəllimi, 1901-ci ildə isə İrəvan Müəllimlər Seminariyasına tatar (Azərbaycan) dili müəllimi təyin edilir. Həmid bəy 1907-ci ildə İrəvan Müəllimlər Seminariyasının tatar dili müəllimi vəzifəsindən azad edildikdən sonra onun yerinə Mirzə Cabbar Məmmədzadə tatar (Azərbaycan) dili müəllimi təyin edilmiş və 1913-cü ilə qədər seminariyada tatar (Azərbaycan) dili müəllimi işləmişdir.

İrəvan Müəllimlər Seminariyasının məzunları Əhməd bəy Qaziyev, Əli Əşrəf Qaziyev, Həsən bəy Axund Molla Xəlil bəy oğlu Qaziyev, Fərəməz Mahmudbəyov, Yusif bəy Qaziyev (Qazızadə), Məmməd bəy Əli bəy oğlu Mahmudbəyov, Xəlil Məmmədəliyev, Həsən Nəsirbəyov, ictimai xadim Saleh Məşədi Teymur oğlu Güllücinski, Ağa bəy Rəhim bəy oğlu Firudinbəyov, Abbas Allahverdi oğlu Qədimov, Mir Haşım bəy Vəzirov, Əli Sultanov, Fərrux Ağakişibəyov, Əli Cəlilzadə, Mirzə Bağır Əliyev, Şıxəli bəy Firudinbəyov, Cəfərbəy Cəfərbəyov, İbrahim Şahtaxtlı və başqaları olmuşlar. Yeri gəlmişkən qeyd edək ki, 1910-cu ilə qədər müəllimlər seminariyasını 30 nəfər azərbaycanlı bitirmiş, 1915-ci ildə isə seminariyada təhsil alan azərbaycanlıların sayı 22 nəfər olmuşdur.

Elmi-tarixi mənbələrdən və arxiv sənədlərindən də məlum olur ki, seminariyada rus dili, Azərbaycan dili, riyaziyyat, coğrafiya, idman və s. fənlərlə yanaşı, musiqi fənni də tədris edilirdi. 1885-ci ildə seminariyada musiqi fənnini tədris edən N.Kasradzenin rəhbərliyi altında 69 nəfər musiqi təhsili almışdır ki, onların arasında azərbaycanlılar da var idi.

Qeyd etdiyimiz kimi, Cənubi Qafqazda milli maarifçiliyin inkişaf etdirilməsi istiqamətində İrəvan Müəllimlər Seminariyasının məzunları çox böyük rol oynamışlar. Onlar azərbaycanlılar yaşayan bölgələrdə yeni məktəblərin açılmasında və azərbaycanlı uşaqların təhsilə cəlb edilməsində fəal iştirak etmişlər. Məmməd Axundov, İbadullah bəy Muğanlinski, Məmməd Vəli Qəmərlinski, Cəfər Kərimov və başqaları İrəvanda xalqımızın mədəni yüksəlişi yolunda təkcə səy və bacarıqlarını deyil, həyatlarını və maddi imkanlarını da bu məqsədə sərf etmişlər. Cəfərbəy Cəfərbəyov İrəvanda həm də III dərəcəli xüsusi məktəb açmış və açdığı pansionata rəhbərlik etmişdir. Cəfərbəy 1897-ci ildə İrəvan Gimnaziyasının hazırlıq sinfini, 1901-ci ildə isə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir.

Təhsil almaq üçün seminariyaya gəlmiş azərbaycanlı gənclər ilk pedaqoji təhsillərini aldıqdan sonra həyat fəaliyyətlərini azərbaycanlıların yaşadığı kəndlərdə ibtidai məktəblərin yaradılması işinə və yaxud mövcud ibtidai kənd məktəblərində müəllimlik peşəsinə həsr edərək xalq kütlələri arasında elm və maarifin yayılması və savadsızlığın aradan qaldırılması işində yaxından iştirak edirdilər (Səfərov 2022).

Onu da qeyd edək ki, 1911-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirən Əsgər Axundov da burada III dərəcəli 1 sinifli, pansionlu məktəb açmışdır. Seminariyanın məzunu olmuş, əslən Vedili Şəmdin bəy

Mahmudbəyov 1903-cü ildən 1917-ci ilə kimi Uluxanlı kənd məktəbinin, Şıxəli bəy Firudinbəyov Qəmərli kənd məktəbinin, Yusif Babayev Dvin-Aysor kənd məktəbinin, Mirzə Cabbar Məmmədov Göyməsçid kənd məktəbinin, İbadullah bəy Muğanlinski Dərəçiçək kənd məktəbinin müdirləri olmuşlar. İlya bəy Mahmudbəyov, Əhməd Haşimov Çobankərə kəndində, Şıxəli bəy Firudinbəyov, Cəlil Məmməd oğlu Mirzəyev, Mirzə Məhəmməd Axundov Qəmərlidə, Həsənbəy Axund Molla Xəlil bəy oğlu Qaziyev, Axund Məmməd Bağır Qazızadə İrəvanda, Məmməd bəy Lütvəli bəy oğlu Qaziyev Uluxanlıda, Fəraməz bəy Mahmudbəyov Böyük Vedidə, Cəfər Kərimov Şərurda müəllim işləmişlər. İrəvanda və bölgələrdə fəaliyyət göstərən bu müəllimlər milli tərəqqi üçün çox böyük işlər görmüşlər. 1895-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirmiş Tağı bəy Səfiyev də uzun müddət Naxçıvanın Nehrəm kəndində müəllim işləmişdir. Həmin dövrdə onun "Nehrəm kəndi" adlı kitabçası da işıq üzü görmüşdür.

Seminariyanın məzunlarından biri də Həsən Səfərli olmuşdur. Rus dilini və riyaziyyatı gözəl bilən Həsən Səfərli 1917-ci ildən 1919-cu ilin ortalarına qədər Naxçıvanda fəaliyyət göstərən "Rüşdiyyə" məktəbində dərs demişdir. H.Səfərli 1919-cu ildə Naxçıvanda kimsəsiz uşaqlar evinin müdiri işləmişdir. 1965-ci ildə isə Əməkdar müəllim adına layiq görülmüşdür (Köçərli, 1981, 219).

İrəvan Müəllimlər Seminariyasının ilk buraxılışı 1884-cü ildə olub. Həmin il məktəbi 5 azərbaycanlı bitirmişdi. Seminariyanın 10-cu buraxılışı 1893-cü ildə, 20-ci buraxılışı 1903-cü ildə, otuzuncu buraxılışı isə 1913-cü ildə olub.

Qeyd edək ki, İrəvan Müəllimlər Seminariyası şəhərdə yalnız təhsil ocağı deyil, elm və mədəniyyət mərkəzinə çevrilmişdi. 1881-ci ildən 1914-cü ilədək İrəvan Müəllimlər Seminariyasını 63 azərbaycanlı bitirmişdi (Rüstəmov 2022).

Nəticə

Azərbaycanın Qərbində, xüsusən İrəvan xanlığının əhatə etdiyi, tarixi kökləri və zəngin yaradıcılıq ənənələri olan ərazilərdə 140 il bundan əvvəl fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası Azərbaycanda elmin, təhsilin, məktəbdarlığın, maarifçiliyin və mədəniyyət tariximizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynamış, müasir dünyagörüşə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrlarının hazırlanmasında təqdirəlayiq xidmətlər göstərmişdir.

Pedaqoji fikrin, elmin və məktəb təhsilinin inkişafı tarixinə parlaq səhifələr yazmış, milli maarifimizin inkişafında, milli pedaqoji kadrların hazırlanması işində böyük xidmətləri olmuş İrəvan Müəllimlər Seminariyasının ziyası hələ neçə yüz illər bundan sonra da parlayacaqdır.

## ƏDƏBİYYAT

1. Ağazadə F. Firidun bəy Köçərlinin müxtəsər tərcümeyi-halı. Azərbaycan ədəbiyyatı tarixi materialları. Bakı: Azərnəşr, 1925, 346 s.
2. Allahverdiyev Calal. İrəvan Ədəbi mühiti (1920-1950-ci illər). Bakı: Elm, 2010, 456 s.
3. Azərbaycan SSR Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası, Azərbaycanda Dövri Mətbuatı (1832-1920) biblioqrafiyası, B.: 1987, 378 s.
4. Fərrux Rüstəmov. Azərbaycanlı müəllim kadrları hazırlığında İrəvan Müəllimlər Seminariyasının rolu. Azərbaycan məktəbi, 2022, №1/698
5. Fərrux Rüstəmov. İrəvan Müəllimlər Seminariyası -140 (az). Azərbaycan Dövlət İnformasiya Agentliyi. 13 yanvar 2022.
6. Fərrux Rüstəmov. Pedaqoji fikir tarixi. Bakı: Nurlan, 2006, 748 s.
7. Köçərli F. Azərbaycan ədəbiyyatı. II cild, Elm, Bakı: 1981, 475 s.

8. Misir Mərdanov, Cəlal Allahverdiyev. Azərbaycan təhsil tarixinin şərəfli səhifəsi İrəvan Müəllimlər Seminarsiyası-140, 525-ci qəzet, 2021, s.8-9,14; 15
9. Məmmədov İ.Tariximiz, torpağımız, taleyimiz, Bakı: 2002, 639 s.
10. Nəbiyev Bəkir. Mənalı ömürdən səhifələr. Firidun bəy Köçərli, Bakı: Gənclik, 1984, 286 s.
11. Rafiq Səfərov. 140 yaşlı Seminariya. “Kaspi.az.”, 05.02.2022.
12. Ziyəddin Məhərrəmov. İrəvanda məktəbdarlıq və maarifçilik (1800–1920-ci illərdə ədəbi-mədəni mühit). Bakı: Nurlan, 2010, 320 s.

## SUMMARY

**M.Ahmadova**

## THE ROLE OF IRAVAN TEACHERS' SEMINARY IN OUR HISTORY OF PEDAGOGICAL THOUGHT

The article examines the role of the Yerevan Teachers' Seminary in the spread and development of pedagogic science in Azerbaijan. It is noted that the Yerevan Teachers' Seminary, which has been operating for 37 years, has played a great role not only as an educational institution, but also in the development, formation and preservation of our history of education, pedagogical thought, enlightenment and culture in Azerbaijan.

It is justified that the Iravan Teachers' Seminary, which is one of the bright pages of the history of our pedagogical thought, has produced outstanding personalities who have an exceptional role in the formation of pedagogical personnel and the development of the education system in the history of Azerbaijan. Graduates of the seminary continued their studies in the developed countries of Europe and in various higher schools of Russia, and then returned to Azerbaijan and closely participated in the development of science, education, culture and other fields in our country.

***Key words:*** *History of pedagogical ideas, Yerevan Teachers' Seminary, pedagogical personnel, public education, secular schools.*

## РЕЗЮМЕ

**М.Ахмедова**

## РОЛЬ ИРАВАНСКОЙ УЧИТЕЛЬСКОЙ СЕМИНАРИИ В НАШЕЙ ИСТОРИИ ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ

В статье рассматривается роль Ереванской учительской семинарии в распространении и развитии педагогической науки в Азербайджане. Отмечается, что Ереванская учительская семинария, действующая уже 37 лет, сыграла большую роль не только как учебное заведение, но и в развитии, формировании и сохранении нашей истории образования, педагогической мысли, просвещения и культуры в Азербайджане.

Обосновано, что Ираванская учительская семинария, являющаяся одной из ярких страниц истории нашей педагогической мысли, дала выдающиеся личности, сыгравшие исключительную роль в становлении педагогических кадров и развитии системы образования в истории России. Азербайджан. Выпускники семинарии продолжили обучение в развитых странах Европы и в различных высших учебных заведениях России, а затем вернулись в Азербайджан и активно участвовали в развитии науки, образования, культуры и других областей в нашей стране.

***Ключевые слова:*** *История педагогической мысли, Ереванская Учительская семинария, педагогические кадры, народное образование, светские школы.*

**ƏKRƏM HÜSEYNZADƏ**
*Naxçıvan Dövlət Universiteti*

# İRƏVAN MAARİFÇİLİK MÜHİTİNİN GÖRKƏMLİ PEDAQOJİ KADRLARI

*XIX əsrin 1880-ci illərinin əvvəllərində İrəvanda kadr hazırlayan üç böyük tədris müəssisəsi yaranıb fəaliyyət göstərmişdir ki, onlar vətənə, xalqa bilikli, mükəmməl ixtisaslı pedaqoji kadrlar hazırlamış, layiqli mütəxəssislər yetişdirmişdir. Belə kadrların yetişdirlməsində İrəvan Kişi Gimnaziyasının, İrəvan Müəllimlər Seminariyasının (1881), İrəvan qız progimnaziyasının böyük rolu və xidmətləri olmuşdur.*

*Bu gün İrəvan maarifçilik mühiti, orada yaradılmış tədris müəssisələri ilə tanış olanlar, xüsusilə gənclərimiz bizim qədim, ulu torpaqalrımızın Qərbi Azərbaycan dediyimiz məkanda, əzəli Azərbaycan torpaqlarında xalqımızın necə zəngin maarif və mədəniyyətə sahib olduğunun, necə dəyərli məktəblər, texnikumlar, ali məktəblər yaratdıqlarının, bu təhsil ocaqlarında necə fədakar, səriştəli, peşəkar pedaqoji kadrların, elm xadimlərinin yetişməsini öyrəndikcə milli iftixar hissi keçirir və qürur duyurlar.*

***Açar sözlər:*** *İrəvan Kişi Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası, İrəvan qız progimnaziyası, Eynəli bəy Sultanov.*

**Pedaqoji kadrlar.**

Möhtərəm Prezidentimiz çıxışlarında, nitqlərində bu məsələyə xüsusi diqqətlə yanaşaraq demişidir: "Biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu, gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı-bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq".

Azərbaycanlıların tarixi torpaqları olan qədim İrəvan şəhərində 1881-ci ildə fəaliyyətə başlamış İrəvan Kişi Gimnaziyası vətən üçün xeyli dəyərli kadrlar hazırlamış və onun ilk direktoru Vladimir İosifoviç Brajnikov olmuşdur. Burada 216 tələbə təhsil almşıdır. Gimnaziyada təhsil müddəti 4 il olmuşdur. 1883-cü ildə gimnaziyada 37 azərbaycanlı tələbə oxuyurmuş. Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuşdur. 1881-1915-ci illər ərzində Gimnaziyada 582 azərbaycanlı təhsil almışdır. Bu gimnaziyanın pansionu var idi ki, görkəmli ədəbiyyatşünas alim, Əməkdar elm xadimi Əziz Şərif də burada hazırlıq mərhələsi keçmiş, sonra da İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmişdir. Əziz Şərif xatirələrində yazır: "İrəvanda pansionda yaşayan zaman atam mənə fars dili müəllimi tapmışdı. Bəxtimdən mənim İrəvandakı müəllimim olduqca bilikli və təcrübəli imiş". Cabbar bəy Məmmədovun atası Molla Abbas fars dilinin mütəxəssisi olduğu üçün "Fars Abbas" adı ilə şöhrət tapmışdı.

Gimnaziyanın çox görkəmli, tanınmış müəllimləri olmuşdur.

Firidun bəy Köçərli 1892-ci ildən İrəvan Kişi Gimnaziyasında Azərbaycan bölməsinin müdiri, eyni zamanda Azərbaycan dili müəllimi işləmişdir. Bu böyük maarif xadimi gimnaziyada müsəlman şöbəsinin müdiri və gimnaziyanın tərkibində olan pansionun müdiri vəzifələrində də çalışmışdır. İrəvan gimnaziyasında çalışdığı illərdə F.Köçərli maarif məsələlərinə dair dəyərli metodik məqalələr yazmış, Zöhrabzadə ilə birlikdə "Təlimi-lisani-türki" adlı dərslik tərtib etmiş, "Təlimati-Sokrat" (1891) adlı fəlsəfi əsərini nəşr etdirmiş, rus klassiklərindən bədii tərcümələr etmişdir. Daha sonralar onun yazdığı

“Balalara hədiyyə” kitabı uşaq ədəbiyyatı üçün ən dəyərli əsərlərdən sayılmaqdadır.

İrəvan Kişi Gimnaziyasının tanınmış məzunlarından biri Eynəli bəy Sultanov olmuşdur. O, Naxçıvan qəza məktəbində ibtidai təhsilini 1879-cu ildə başa vurmuş, bir il sonra, yəni 1880-ci ildə İrəvan Kişi Gimnaziyasına daxil olmuş, 1886-cı ildə oradan məzun olmuşdur. Eynəli bəy Sultanova 1886-cı il 5 iyunda gimnaziyanın pedaqoji şurasının qərarı ilə 538 saylı müəllimlik hüququ verən Şəhadətnamə təqdim edilmişdir. Gimnaziyanı bitirdikdən sonra Eynəli bəy 1886-1891-ci illərdə fasilələrlə Naxçıvanda yaşamış, Qarsda “Mühüm işlər üzrə məmur” vəzifəsində çalışmışdır. Eynəli bəy Sultanov Gimnaziyada oxuduğu müddətdə mükəmməl təhsil almış, xüsusən Avropa dövlətlərini və Qərb maarifçiliyini dərindən öyrənə bilmişdir. O, xarici dillərdən rus, latın, yunan və fransız dillərini, habelə riyaziyyat, fizika, tarix, coğrafiya, ilahiyyat, ədəbiyyat kimi fənləri də mükəmməl öyrənmişdir.

Eynəli bəy Sultanov geniş ədəbi, pedaqoji, publisistik fəaliyyəti ilə yanaşı, həm də folklorumuzun mahir bilicilərindən olmuş, Naxçıvan folklorunun toplanmasında, yayılmasında böyük əmək sərf etmişdir. Görkəmli ədib folklor toplayıcısı kimi 1886-1890-cı illərdə-4 il müddətində İrəvan quberniyasını və Naxçıvan diyarını dolaşaraq 3 mindən çox atalar sözü və zərbi-məsəllər, əfsanə və rəvayətlər, şəbeh xalq tamaşaları, aşıq yaradıcılığı nümunələri toplamışdır. Topladığı folklor materiallarının bir çoxunu 20 məktub vasitəsilə Firidun bəy Köçərliyə göndərmişdir.

E.Sultanov 1882-ci ildə öz evində “Ziyalılar cəmiyyəti”, 1883-cü ildə “Müsəlman incəsənəti və dram cəmiyyəti” yaratmış, öz evində ilk teatr tamaşaları təşkil etmiş və özünün yazdığı “Tatarka” (“Azərbaycan qadını”). Əsər bəzi mənbələrdə “Sənəm” adı ilə də işlədilmişdir) adlı tamaşa ilə ev şəraitində ilk tamaşa göstərmiş, əsərin baş qəhrəmanı Sənəm obrazını da gənc müəllifin özü oynamışdır. Bu tamaşa qadının ictimai mövqeyi, hüquqları, ailə-məişət həyatı məsələlərinə həsr olunmuşdu ki, o dövr üçün bu çox mühüm və mütərəqqi hadisə idi. C.Məmmədquluzadə “Xatirələr”ində yazırdı ki, ilk dəfə qadın hüquqlarını müdafiə edən Eynəli yoldaşımız olmuşdur. O, ziyalı dostları Cəlil Məmmədquluzadə, Paşa ağa Sultanov, Mirzə Ələkbər Süleymanov, Mirzə Cəlil Mirzəyev (Şürbi), Əsəd ağa Kəngərli, Qurbanəli Şərifzadə və başqaları ilə birlikdə “Naxçıvanda “Üsuli-cədid” məktəbi və kitabxana açdırmağa nail olmuşdur. 1892-ci ildə Naxçıvanda yaxın dostu Əsəd ağa Kəngərli ilə birlikdə gizli mətbəə təşkil edərək burada müxtəlif məzmunlu bəyannamələr də çap etdirmişdir.

XIX əsrin səksəninci illərindən başlayaraq dövrünün mətbuat orqanları ilə əməkdaşlığa başlayan E.Sultanov bir çox qəzet, jurnal və məcmuələrdə müxtəlif mövzulu yazılarla çıxış edir və ictimaiyyət arasında qələmli publisist kimi tanınırdı. Məhz qələminin kəsərli olmasının nəticəsi idi ki, 1905-1908-ci illərdə “Kaspi” qəzetinin İrəvan və Naxçıvandakı xüsusi müxbiri vəzifəsi ona həvalə edilmişdi. İrəvanda olarkən 10 il müddətinə hüquq sistemində müxtəlif vəzifələr daşıması artıq E.Sultanovun bir hüquqşünas kimi də yetişməsinə səbəb olmuşdur. Buna görə də 1906-cı ildən etibarən İrəvan Dairə məhkəməsi prokurorunun Naxçıvan mahalı üzrə köməkçi vəzifəsini də daşımışdır. Hətta 1907-ci ildə Dövlət Dumasına deputat seçilmişdir.

O, Tiflisdə yaşayarkən pedaqoji fəaliyyətlə də məşğul olmuş, belə ki, 1912-ci ildən 1916-cı ilə qədər Tiflis Birinci Qadın Gimnaziyasında rus dili müəllimi, 1917-ci ildən isə ana dili müəllimi və sinif nəzarətçisi vəzifəsində çalışmışdır. O, latın əlifbasına keçmək uğrunda ardıcıl səy göstərmiş, Yeni Əlifba Layihəsinin Tiflis şöbəsinin katibi vəzifəsini daşımışdır.

Ömrünü xalqının maariflənməsinə, tərəqqisinə həsr edən, humanizm ideyaları təbliğ edən, qadın azadlığı, dini fanatizmin aradan qaldırılması və yeni əlifba uğrunda mübarizə aparan Eynəli bəy Sultanovun bütünlüklə həyatı, fəaliyyəti, yaradıcılıq irsi vətənə, xalqına, millətinə həsr edilmişdir.

**Nəticə**

Beləliklə, deyə bilərik ki, Naxçıvan pedaqoji mühitinin inkişafında, Naxçıvanda müəllim kadrlarının təminatında və təkmilləşməsində İrəvan maarifçilik mühiti, o cümlədən İrəvan Kişi Gimnaziyasının böyük rolu olmuşdur.

## ƏDƏBİYYAT

1. İlham Əliyev. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncam. Bakı şəhəri, 29 dekabr 2021-ci il/https:/ /president.az/az/articles/view/55116.
2. Cəfərov C.Ə., Allahverdiyev C.V. Təhsil tariximizdən: İrəvan pedaqoji məktəbi. Bakı: Orxan NPM, 2017, 240 s.
3. Eynəli bəy Sultanov. Taleyi və sənəti. (Redaktoru akad. İsa Həbibbəyli). Bakı: Elm və təhsil, 201, 240 s.
4. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ADPU, 2021, 538 s.

## SUMMARY

**Akram Huseynzade**

## OUTSTANDING PEDAGOGICAL STAFF OF IRAVAN EDUCATION ENVIRONMENT

In the early 1880s of the 19th century, three large educational institutions were established and operated in Yerevan. Yerevan Men's Gymnasium, Yerevan Teachers' Seminary (1881), (1881), Yerevan Girls' Progymnasium had a great role and services in training such personnel. Today, those who are familiar with the educational environment of Yerevan, the educational institutions established there, especially our young people, are aware of the rich knowledge and culture of our people in the land of our ancient, great land, called West Azerbaijan, in the ancient lands of Azerbaijan, and what valuable schools, technical schools, and universities. They feel a sense of national pride and pride when they learn about what they have created, how selfless, competent, professional teaching staff and scientists grow in these educational institutions.

***Key words***: *Yerevan Boys' Gymnasium, Yerevan Teachers' Seminary, Yerevan Girls' Progymnasium, Eynali Bey Sultanov.*

## РЕЗЮМЕ

**Акрам Гусейнзаде**

## ВЫДАЮЩИЙСЯ ПЕДАГОГИЧЕСКИЙ СОСТАВ ИРАВАНСКОЙ ОБРАЗОВАТЕЛЬНОЙ СРЕТЫ

В начале 1880-х годов 19 века в Ереване были созданы и действовали три крупных учебных заведения. Большую роль и заслуги в подготовке таких кадров имели Ереванская мужская гимназия, Ереванская учительская семинария (1881 г.), (1881 г.), Ереванская женская прогимназия. Сегодня те, кто знаком с образовательной средой Еревана, созданными там учебными заведениями, особенно наша молодежь, знают о богатых знаниях и культуре нашего народа на земле нашей древней, великой земли, называемой Западным Азербайджаном, в древние земли Азербайджана, и какие ценные школы, техникумы, университеты. Они испытывают чувство национальной гордости и гордости, когда узнают о том, что они создали, как в этих учебных заведениях растут самоотверженные, грамотные, профессиональные педагогические кадры и ученые.

***Ключевые слова:*** *Ереванская мужская гимназия, Ереванская учительская семинария, Ереванская женская прогимназия, Эйнали бек Султанов.*

**AYTƏN MƏMMƏDOVA**
*“Naxçıvan” Universiteti*

# İRƏVAN VƏ NAXÇIVAN ETNOPEDAQOJİ NÜMUNƏLƏRİ

*Qədim Azərbaycan diyarı olan İrəvan və Naxçıvan bölgələri tarixən bir ərazidə bir coğrafiyada yerləşmişdir. Bu cəhətdən hər iki bölgənin həyat tərzi, məişəti, folkoru, etnopedaqoji materialları bir-birinə çox yaxın olmuş və hətta bir çox məqamlarda eyniyyət təşkil etmişdir. Naxçıvan və İrəvan şəhərləri tarixən qədim türk-oğuz tayfalarının yaşadığı ərazilər olmuşdur. Bu ərazilərdə isə saysız-hesabsız yaşayış yerləri, kurqanlar, qala və abidələr, saray və istehkamlar, karvansaraylar, körpülər, qəbirüstü sərdabələr, eləcə də müxtəlif formalı daşlar, at, qoç heykəlləri, məbəd, kilsə, məscid, pir və ocaqlar yerli əhalinin tarixindən, dünyagörüşündən, etnik mənsubiyyətindən xəbər verir.*

***Açar sözlər***. *Naxçıvan, İrəvan, folklor, etnopedaqogika, tarix.*

**Giriş**

Ulu öndər Heydər Əliyev Naxçıvan tarixinin, onun folklorunun, adət və ənələrinin öyrənilməsinə xüsusi diqqət göstərilməsini tövsiyə edərək deyirdi: “Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox paralaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi - həm təbiətinin, həm adət-ənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür” (Heydər Əliyev. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə nitq// Bakı: 2005).

Bəli, xalq müdrikliyində yaxşı demişlər кi, keçmişi unutmaq olmaz, çünki o gələcəyin müəllimidir. Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadə deyirdi ki, biz tariximizi ona görə öyrənirik ki, gələcəkdə səhvlər etməyək.

İrəvan və Naxçıvanın qədim tarixi, mədəniyyəti, mənəviyyatı, məişəti, həyat tərzi, mifik təfəkkürü onun şifahi söz sənətində, ağız ədəbiyyatında, folklor nümunələrində, yaratdığı xalq nümunələrində, milli incəsənət və musiqisində, müdrik ata sözlərində, nağıl və dastanalarında, xalça, toxuma və tikmə sənətində öz əksini tapmışdır. Bir xalq nə qədər qədimdirsə, onun tarixi, ədəbiyyatı, mənəviyyat və mədəniyyəti, məişəti, həyat tərzi də bir o qədər qədim və zəngindir.

**İrəvan folkloru və etnopedaqogikası**

İstər yer-yurd və coğrafi adlar, istərsə də müasir dövrümüzə qədər gəlib çatmış İrəvan folklor nümunələri vaxtilə bu ərazidə yaşamış Azərbaycan türklərinin (azərbaycanlıların) keçmişini, zəngin mədəni ədəbi irsini özündə əks etdirir. Naxçıvan və İrəvan əhalisi daha çox sənətkarlıq, əkinçilik və heyvandarlıqla məşğul olmuş, təbiətin bəxş etdiyi nemətlərdən səmərəli istifadə etmişdir. Yerli əhalinin zəngin təxəyyülünün məhsulu olan folklor, mif və əsatirlər, nağıllar, poetik nümunələr burada yurd salmış insanların həm də mifik təfəkkürünün təcəssümüdür. İrəvan şəhərində ənənəvi türk dünyagörüşünü əks etdirən nağıl və dasatanlar, mif və rəvayətlərdən başqa, hər bir coğrafi adın, müqəddəs yerin tarixini özündə yaşadan hekayətlər xalq müdrikliyi, etnopedaqoji fikirlər yaranmışdır. İrəvan, Ağbabadan Vedibasara, Lorudan Zəngəzura, Göyçədən Zəngibasara, Zəngi çayına qədər olan yerlərdə yaşamış İrəvan əhli tarixi kökləri çox qədimlərə gedən türk-oğuz boyları ilə bağlıdır. Bu gün Qərbi Azərbaycan adlandırdığımız ərazilərin, yerlərin, abidə adlarının əksəriyyəti türk mənşəli semantika ilə seçilir.

Qərbi Azərbaycanın Ağbaba, İrəvan, Qaraqoyunlu, Zəngəzur, Göyçə mahallarının folklorunun, etnopedaqogikasının öyrənilməsi, yayılması və təbliği həmişə ziyalılarımızın diqqət mərkəzində olmuşdur. İrəvan mahalında toplanan folklor nümunələri janr zənginliyi ilə xüsusilə seçilir. Ağbaba folklorunda nanaylar, lağamalar, boranlar, bəxtaçmalar, papaqaltılar və yaylıqaltılar, tırınqılar, İrəvan

folklorunda haxıştalar, Qaraqoyunlu folklorunda yasaqlar, yalvarışlar, Zəngəzur folklorunda diləklər, hekayətlər, dodaqqaçmalar, Göyçə folklorunda sicilləmələr janr baxımından hələ də geniş öyrənilməmişdir. Belə az öyrənilmiş, yaxud yetərincə araşdırılmamış folklor örnəklərinin bir qismini professor Həsən Mirzəyev Dərələyəz mahalından yazıya almış, bu barədə dəyərli əsərlər yazmışdır ki, orada mövsüm və mərasim nəğmələri bölgüsündə təqdim olunan nümunələrin oxunduğu mərasimlər geniş təsvir olunur. Holavar, sayaçı sözü, eydirmə kimi əmək nəğmələrinin ardınca “Qodu-qodu”, “Kosa-Kosa”, “Yel Baba”, “Xıdır Nəbi” nəğmələri verilir və bu təqdimat “Çillə”, “Boz Ay”, “Üzərlik yandırma”, “Yağışkəsmə” kimi mərasimlərin təsviri ilə tamamlanır. İrəvan mahalının folklor nümunələrinin bu şəkildə təqdimi onların mahiyyətini, məqsədini və vəzifəsini hərtərəfli anlamağa kömək edir. İrəvan folklor nümunələrində Azərbaycan türklərinin bu bölgənin köklü, qədim əhalisi olması bir daha təsdiq edilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qərbi Azərbaycan İcmasının bir qrup ziyalı nümayəndəsi ilə görüşündə demişdir: “Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar....” (İlham Əliyevin. Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən bir qrup ziyalı nümayəndə ilə görüşündən nitqi. 24 dekabr 2022- ci il).

Cənab prezident çıxışında, həmçinin vurğuladı ki, Qərbi Azərbaycan tarixən Azərbaycan torpaqları olmuş və bizim ata-babalarımız bu torpaqalarda yaşayıb yaratmışlar: Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır… Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, bunu tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin” (İlham Əliyev. Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən bir qrup ziaylı nümayəndə ilə görüşündə nitq. 24 dekabr 2022- ci il).

Bəli, zaman-zaman Naxçıvan və İrəvan bölgəsinə edilən təzyiqlər, basqınlar, müxtəlif ərazi iddiaları nəticəsində ulu babalarımızın yaratdıqları zəngin elmi, ədəbi və pedaqoji irsin mühüm bir qismi tələf edilmiş, böyük bir mənəvi xəzinə vətənimizdən çıxarılmış, başqa ölkələrə, aparılmış və bir qismi itirilmiş, bir qismi də yadellilərin “sərvətinə” çevrilmişdir. Bu mənəviyyat xəzinəsinin içində zəngin folklor nümunələrimiz – o cümlədən dastanlarımız, qədim xalçalarımız, qədim məişət əşyalarımız, musiqi alətlərimiz, qəbirüstü daşlarımız vardır.

**Naxçıvan folkloru və etnopedaqogikası**

Naxçıvan qədim və zəngin etnoqrafiya mədəniyyətinə malik olmaqla, bəşər sivilizasiyasının, şəhər mədəniyyətinin ilk beşiklərindən biri kimi həmişə regionun mədəni, iqtisadi, siyasi həyatında mühüm yer tutmuş və özünün zəngin arxeoloji, etnoqrafik, xüsusilə folklor qaynaqları ilə tədqiqatçıların diqqətini cəlb etmişdir. Nuh Peyğəmbərin məzarı, Əshabi-Kəhf mağarası, Əlincə qalası, Çalxanqala, Gəmiqaya, Haçadağ kimi dağlarda həkk olunmuş kitabələr, Naxçıvan ərazisində türk-oğuz tayfalarının yaşadığını təsdiq edir.

İrəvan və Naxçıvan zəngin ortaq şifahi xalq ədəbiyyatımız - “Kitabi-Dədə Qorqud”, “Alp Ər Tunqa”, “Oğuz”, “Ərkənəqun”, “Nuhtaban” kimi dastanlarımız, Oğuznamələr, Ustadnamələr, Aşıq sənəti bu şəhərlərin qədimliyindən, burada yaşayan insanaların ictimai-mədəni həyatından, zəkasından, istək və arzularından, müdrik mifik təfəkküründən xəbər verir.

Şumerlərin Nuh tufanından bəhs edən “Bilqamış” dastanı ilə “Nuhtaban” dastanının məzmununda olan yaxınlıq, yer adlarının bir çoxunun eyniyyəti, İrəvan mahalında yer adlarının və Naxçıvanda mövcud olan Gəmiqaya abidəsinin adının keçməsi və bu qayalar üzərindəki rəsmlər, yazı, işarələr, piktoqraflar, mixi yazılar insanların bir-biri ilə qədim ünsiyyət, əlaqə, öyrətmə və öyrənmə - etnopedaqoji prosesi əks etdirir.

“Oğuznamə”lərdə, “Dədə Qorqud” dastanında, “Oğuz-Kağan” dastanında, daha çox qədim türk yazılı abidələrində əks etdirilmiş atalar sözlərinin Naxçıvan və İrəvan atalar sözləri ilə uyğunluğu bu bölgənin böyük türk, turan dünyası ilə sıx bağlı olduğunu göstərməkdədir.

Deyə bilərik ki, xalqın ilkin mədəniyyəti, mənəviyyatı ilkin düşüncə tərzi, dünyaya, həyata sistemli baxışı folklor nümunələrindən, etnopedaqogika, etnoqrafiya, xalq müdrikliyindən başlayır. Naxçıvan və İrəvan folkloru öz zənginliyi, qədimliyi, xüsusilə məna dəyəri ilə seçilir, semantik anlamı ilə həm filoloji, həm də elmi-ictimai əhəmiyyəti ilə xüsusi dəyər kəsb edir.

Qayaüstü təsvirlərdə rəqs səhnələri o dövrün mifik estetik təfəkkürünü və zövqünü bildirir, ov səhnələri, örüş sahələri, keçi, maral, quş, habelə əmək alətləri o dövrün peşələri olan xalqın ovçuluq sənətindən, əkinçiliyindən, maldarlığından xəbər verir, at, dəvə, ulaq, araba təsvirləri isə insanların istifadə etdikləri nəqliyyat növünü göstərir. Bu rəsmlər qayaların köksündə bədii, həndəsi-riyazi dəqiqliklə qazılmış, həkk edilmiş işarələr xalqın Tanrıçılıq - yaradılış inamını, yer-göy əlaqələrini, kosmik düşüncələrini, xalqımızın inanclarını, mifik təfəkkürünü əks etdirir. Nuhun gəmisinin də Gəmiqayada məskunlaşdığı dini və şifahi xalq ədəbiyyat nümunələrində, etnopedaqoji mənbələrdə bildirilir. Bütün bunlar onu deməyə əsas verir ki, bəşəriyyətin ilk mədəniyyət mərkəzi Naxçıvan olmuşdur.

Gəmiqayadakı iki təkərli və dörd təkərli araba rəsmləri xüsusilə diqqət çəkicidir. Belə ki, qədim dastanlarımızdan, xüsusilə, “Oğuznamə”lərdən məlum olur ki, arabanı kəşf edənlər qədim türklər, Kanqlı tayfaları olmuşlar. Oğuzanamədə deyilir: “...Oğuz Kağanın çeriyində bacarıqlı, cüssəli, yaxşı bir kişi vardı. Bu kişi bir araba çapdı... Arabalar gedəndə “Kanq, kanq” deyə səs çıxarırdılar. Onun üçün arabaya “Kanğa” adı qoydular. Oğuz Kağan kanğaları gördü, güldü, ayıtdı.. Qoy yüklü arabaları əsirlər çəksin. Sənə verilən “Kanğaluğ” adı qoy kanğanı yada salsın” (Oğuznamələr, 1993). Bu ad Naxçıvanda məskunlaşmış qədim Kəngərli tayfasının adıdır.

Henrix İohann Hübşman Naxçıvan toponimini Nuh peyğəmbərlə bağlı “dünya tufanı” hadisəsi ilə əlaqələndirir. Onun fikrincə, “Naxçıvan” toponimi “ilk törəyiş yeri” mənasını verir. Aparılmış tədqiqat işlərinin nəticəsində bildirilir ki, Nuh tarixi şəxsiyyət olmuş və məzarı Naxçıvandadır, məzarı üzərində böyük türbə ucaldılmışdır.

Naxçıvan və İrəvan diyarının insanları inkişafa, mənəviyyata, xeyirxahlığa, yaxşılığa, insanpərvərliyə səsləyən müdrik fikirlər söyləmiş, dağlara, daşlara, qayalara qiymətli sözlər yazmışlar. Bu fikirlər, sözlər xalqın şifahi yolla, daha sonrlar, daşlar üzərində həkk etdikləri piktoqrafik yazılarla, işarələrlə, mixi əlifba ilə, müxtəlif ünsiyyət formaları ilə nəsildən-nəslə keçmiş, qan yaddaşına hopmuş, xalqın mifik təfəkküründə, nağıl və dastanlarında, folklorunda, etnopedaqoji materiallarında yaşamış və bu günlərimizədək gəlib çıxmşdır. Biz bu gün o fikirlərə xalq müdrikliyi, mifik təfəkkür, etnopedaqoji fikirlər deyirik. Demək, xalq nə qədər qədimdirsə, o xalqın fikri də, folkloru da (“folklor” xalq müdrikliyi deməkdir), etnik dəyərli, tərbiyəvi fikirləri də - yəni etnopedaqogikası da bir o qədər qədim və zəngindir. O zaman deyə bilərik ki, Azərbaycan folklor və etnopedaqogikası, xüsusilə onun qədim şəhərləri olan İrəvan və Naxçıvan folkloru ən qədim və ən zəngin etnopedaqogikadır.

Tariximizin çox qədimliyini göstərən arxeoloji qazıntılar, maddi, mədəni nümunələr, xaraba şəhər və qəsəbələr Azərbaycanın qədim bir parçası olan Naxçıvanda hələ daş dövründən istifadə edilən duz mədəni və buradakı duz müalicəxanası çox uzaq keçmişimizdən xəbər verir. Duzdağın dünyanın ilkin insan məskəninin Naxçıvanda var olması bu torpağın müqəddəsliyinə və qədimliyinə dəlalət edən

faktlardan biridir.

Naxçıvan və İrəvan folklorunda duza böyük inam və ehtiram göstərilmiş, duzla bağlı etnopedaqoji nümunələr, əfsanə və rəvayətlər yaranmışdır. Bu barədə bir neçə Naxçıvan atalar sözünə və onların açıqlamasına nəzər sala bilərik: “Hələ duza gedir”. Açıqlamasını belə izah etmək olar: Bir insan hələ xamdır, həyat çətinliklərini görməmiş, duza gedib oradan duz gətirməyin ağırlığını hələ dərk etməmişdir. "Axşamdan duza gedən çox olar". Açıqlaması belədir ki, insan bəzən düşünüb-daşınmadan, işin ağırlığını dərk etmədən söz verir, amma işin ağırlığı ağıla gəlincə, onun məsuliyyəti dərk edilincə işdən qaçılır. Axşamdan verilən söz, səhər unudulur və müxtəlif bəhanələrlə işdən qaçınılır.

Duzla bağlı deyimlər də vardır: “Duz–çörək kəsmək” - xalq deyimi də Naxçıvan və İrəvan regionunda geniş işlənməkdədir. Duz və çörək xalqın ən müqəddəs nemətidir. Duz, çörək həmişə qorunmalıdır. Duz-çörək evin bərəkətidir. Əlbəttə, hər adamla da “Duz-çörək” kəsmək olmaz, bu ölçülüb biçilib, düşünülməlidir.“Əlimin duzu yoxdur”- deyimində bir insan başqalarına etdiyi yaxşılıqlar, qayğılar başa düşülməyəndə, ona qarşılıq verilmədiyində işlənə bilir. Duz həmçinin insanların and-aman yeri olmuşdur. “.... bu duz çörək mənə qənim olsun, əgər...” – demişlər. Bütün bunlar bir daha göstərir ki, Naxçıvan qədim diyar olmaqla, həm də Naxçıvan ilk duz məkanı, ən dadlı və faydalı duz diyarıdır (Naxçıvan folkoru, 210).

İrəvan folklor nümunələrində isə belə deyilir: “Günəş batannan sonra evdən başqasına duz vermək olmaz. Yoxsa evin bərəkəti qaçar”. Sınama da inamdır, ancaq sınamada dəfələrlə təkrarlanan, yəni sınaqdan "çıxarılan" hadisələrə və mülahizələrə üstünlük verilir: “Duz günü səfərə çıxmazlar”. Yaxud, “Yemək vaxtı duz tökülürsə, ehtiyatlı olmaq lazımdı, evdə dava düşə bilər, bu zaman duzun üzərinə şəkər qoymaq lazımdı” (Azərbaycan folkloru antologiyası. X kitab. 2004).

Firidun bəy Köçərli Azərbaycan folklorşünaslığında da xüsusi xidmətləri olan şəxsiyyətlərdəndir. Mütəxəssislərin də təsdiqlədikləri kimi, folklorşünaslığın yaranması şifahi xalq ədəbiyyatının toplanılması, sistemləşdirilib nəşr olunması bilavasitə onun adı ilə bağlıdır.

Qori Müəllimlər Seminariaysının məzunu və müəllimi Firidun bəy Köçərli İrəvanda pedaqoji fəaliyyəti dövründə onu düşündürən mühüm məsələlərdən biri İrəvan folklor nümunələrinin, etnopedaqoji materiallarının toplanması, xalqa çatdırılması və xalqın savadlanması, tərəqqi etməsi qayğısına qalması idi. Amma bu tərəqqinin qarşısını bir tərəfdən rus çarizmi alırdısa, digər bir qismi isə fanatik din xadimləri, xurafatçı mollalar idi. Bu barədə İrəvan mühiti ilə yaxından tanış olan F.Köçərli öz təəssüratlarını belə bölüşürdü: “İrəvanın 202 üləması çox geridə qalmışdır. Onlar o dərəcədə cəhalətə qapılıblar ki, hətta “Tərcüman” qəzetini oxumağı, mühəriri İsmayıl Bəy Qaspıralı sünni olduğu üçün qadağan edirlər. Bunlar başa düşmürlər ki, inkişaf üçün nəinki Şərqdən, hətta xristian Qərbindən də kitab, qəzet gətirmək vacibdir” (Firidun bəy Köçərli, 2005).

F.Köçərli İrəvan şair və ədiblərin əsərlərini, folklor nümunələrini fədakarcasına toplamış və “İrəvan şairləri” adlı məqaləsində belə yazmışdır: “Şəhri İrəvan keçmişdə mərkəzi –üləma, füzəla və şüəra olub, Axund Molla Məhəmməd İrəvani kimi böyük alim və mücahidlər yetiribsə də, axır vaxtlarda belə fazil və alim şəxslərdən və dəqiq ədiblərdən və xoştəb şairlərdən məhrum qalıbdır...” (Firidun bəy Köçərli, 2005). F.Köçərli topladığı folklor nümunələrinin 1912-ci ildə “Balalara hədiyyə” adlı əsərində toplu şəklində nəşrinə nail olmuşdur.

**Nəticə**

Beləliklə, deyə bilərik ki, xalqın ilkin mədəniyyəti, mənəviyyatı, təfəkkürü, düşüncə tərzi, dünyaya, həyata sistemli baxışı folklor nümunələrində, xalq müdrikliyində etnopedaqoji materiallarda öz əksini tapır ki, İrəvan və Naxçıvan folklor və etnopedaqogikası öz qədimliyi və janr müxtəlifliyi ilə seçilməkdədir.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə nitq// Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi. Bakı: Nurlan, 2005, s. 17.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən bir qrup ziyalı nümayəndə ilə görüşündə nitqi. 24 dekabr 2022- ci il/ Xalq qəzeti, 25 dekabr, 2022- ci il.
3. Azərbaycan folkloru antologiyası. III kitab. Göyçə folkloru. Bakı: Səda, 1999, 430 s.
4. Azərbaycan folkloru antologiyası. X kitab. İrəvan çuxuru folkloru. Bakı: Səda, 2004, 282 s.
5. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. İki cilddə. Bakı: Avrasiya, 2005. I cild, 564 s., II cild, 560 s.
6. Naxçıvan folkoru. 3 cilddə. I cild. Naxçıvan: Əcəmi, 2010, 510 s.
7. Oğuznamələr. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993.

## SUMMARY

**Ayten Mammadova**

## ORGANIZATION OF ETHNOPEDAGOGY OF IRAVAN AND NAKHCHIVAN

The regions of Iravan and Nakhchivan, which are the ancient land of Azerbaijan, were historically located in the same territory in one geography. In this respect, the lifestyle, everyday life, folklore, ethno-pedagogical materials of both regions were very close to each other and were even identical in many aspects. The cities of Nakhchivan and Iravan were historically inhabited by the ancient Turkic-Oghuz tribes. In these areas, countless settlements, mounds, castles and monuments, palaces and fortifications, caravanserais, bridges, tomb tombs, as well as stones of various shapes, horse, ram statues, temples, churches, mosques, pyres and hearths are from the history and worldview of the local people., indicates his ethnicity.

***Key words.*** *Nakhchivan, Iravan, folklore, ethnopedagogy, history*.

## РЕЗЮМЕ

**Айтен Мамедова**

## ОРГАНИЗАЦИЯ ЭТНОПЕДАГОГИИ ИРАВАНА И НАХЧЫВАНИ

Городы Иреван и Нахчыван, являющиеся древней землей Азербайджана, исторически располагались на одной территории в одной географии. В этом отношении быт, быт, фольклор, этнопедагогические материалы обоих регионов были очень близки друг к другу и во многом даже тождественны. Города Нахчыван и Иреван исторически были заселены древними тюрко-огузскими племенами. В этих районах находится бесчисленное множество жилищ, курганов, замков и памятников, дворцов и укреплений, караван-сараев, мостов, усыпальниц, а также камней различной формы, статуй лошадей, баранов, храмов, церквей, мечетей, костров и очагов из история и мировоззрение местного населения., указывает на его этническую принадлежность.

***Ключевые слова.*** *Нахчыван, Иреван, фольклор, этнопедагогика, история.*

**BİLAL ƏRDOĞAN**
*"Naxçıvan" Universiteti*

# İRƏVAN MUSİQİ MÜHİTİ

*Məqaləmin hazırlanmasında Türkiyə dövlət arxivlərində saxlanılan Osmanlı mənbələrinə də müraciət edilmiş və bu mənbələrdə "Osmanlı dövləti ilə Azərbaycan türk xanları arasında münasibətlərə dair arxiv bilgiləri" adı ilə iki cilddə nəşr edilmiş dəyərli sənədlərə, yazılara rast gəldim. Bu arxiv sənədlərinin əhəmiyyəti onda idi ki, bu sənədlərdə İrəvan maarifçilik muhitində musiqi, icəsənət, teatr məsələlərinə də yer verilmiş, İrəvan xanəndələri, musiqişünasları haqıqnda da məlumatlar verilmişdir. Sənədlərdə, habelə İrəvan xanlarının Türkiyə Osmanlı sarayı ilə yazışmaları, sultanın fərmanları, Rusiya və İran təcavüzü ilə bağlı Osmanlı paşalarının rəsmi məktubları öz əksini tapmışdı. Osmanlı sənədləri İrəvan tarixi ilə bağlı, oradakı pedaqoji, maariçilik, habelə musiqi mühitini öyrənmək baxımından çox əhəmiyyətlidir.*

***Açar sözlər:*** *İrəvan müsiqi mühiti, teatr, incəsənət, Səid Rüstəmov.*

## Giriş

İrəvan teatrının yaranma tarixi 1882-ci ilə müəyyənləşdirilmişdir. İrəvanda çıxan "Psak" ("Çələng") qəzeti 1882-ci il 10 aprel, 7-ci sayında "Fars teatrı" adlı geniş rəy dərc edib. Məqalədə yazılır ki, kasıb tələbələrə xeyriyyə məqsədilə İrəvan türklərindən ibarət teatr həvəskarları Vasaq Mədətov Nəzminin "Tamahkarlıq düşmən qazanır" tamaşasını 1881-ci ilin ikinci yarısında birinci dəfə, 1882-ci il aprelin 2-də ikinci dəfə oynamışlar.

İrəvan teatrının ilk illərində (1880-1882) İrəvanda həvəskar aktyorlar tərəfindən tamaşalar təqdim olunurdu. 1886-cı ildə 23 yaşlı gimnaziya müəllimi Firidun bəy Köçərli İrəvanda teatr tamaşası təşkil edir. M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli Şah" komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilmişdir. F.Köçərli, 1895-ci ildə İrəvanı tərk etdikdən sonra teatra 18 yaşlı Yunis Nuri rəhbərlik etmişdi (Cəfərov C., Allahverdiyev C.2017. s.45).

1896-cı ildən etibarən İrəvanda müntəzəm olaraq Azərbaycan dilində tamaşalar nümayiş etdirilmişdir. İnqilabdan əvvəlki illərdə həvəskarlar bölgədə bir çox tanınmış pyesləri səhnələşdirdilər. Erkən səhnələşdirilən pyeslər: "Dursunəli və Ballıbadı" (1893), "Qırt-Qırt" (1893), "Hacı Qara" (1894), "Evli ikən subay" (1899).

Bu pyeslər kiçik məkanlarda səhnələşdirilmiş və mətbuat tərəfindən işıqlandırılmamışdı. 1909-cu ildə böyük sənətkar Hüseyn Ərəblinski "Bəxtsiz cavan" (Ə.Haqverdiyev), "Nadir şah" (N.Nərimanov) tamaşaları ilə İrəvan teatrında çıxış etmişdir. 1912-ci ildə isə Zülfüqar Hacıbəyovun rəhbərliyi ilə İrəvan teatrında "O olmasın, bu olsun", "Əlli yaşında cavan", "Kərbəlayi Şükür xalça satan" əsərləri oynanılır. "Arşın mal alan", "Məşədi İbad" kimi məşhur tamaşalar teatrın daimi repertuarında idi.

1918-ci ildə daşnakların hücumları teatrı yerindən-yurdundan elədi və dağıtdı. Lakin sovet hökuməti qurulduqdan sonra 1922-ci ildə, didərgin düşmüş bütün insanlar kimi incəsənət insanları da geriyə döndülər. Teatrın yenidən dirçəlməsi, inkişaf etməsi üçün yerli ziyalılardan-Bala Əfəndiyev, Əkbər Rzayev, Rza Şeyxzadə, Abbasəli Axundov, Əşrəf Yusifzadə, Yusif Ziya, Nəsib Əfəndiyev və s. kimi milli mədəniyyət təəssübkeşləri xeyli iş gördülər. Hətta Bala Əfəndiyev öz arvadı Fatma Əfəndiyevanı teatra gətirərək ilk qadın aktrisa kimi səhnəyə çıxarmışdı. Fatma xanım həmin vaxtlar İrəvan türk qadınlar klubunun ilk müdiri idi. Əkbər Rzayev də öz arvadı Firəngiz xanımı Fatma xanımla birgə səhnəyə çıxardı. Bala Əfəndiyev 1921-28-ci

illərdə İrəvanda partiya işçisi kimi məsul vəzifə daşıyırdı.

1928-ci ildə teatr dövlət statusu almışdır. 1935-ci ildə teatra görkəmli dramaturq Cəfər Cabbarlının adı verilir. Dramaturqun “Aydın” pyesi həmin dövrdə teatrın səhnəsində uğurla oynanılırdı.

**İrəvanda musiqi, incəsənət.**

İrəvan tarixən məşhur müğənnilər, xanəndələr, musiqişünaslar yetişdirmişdir.

Görkəmli musiqişünas, bəstəkar Səid Rüstəmov İrəvan müühtinin yetişdirməsidir. Səid Rüstəmov 1907-ci il mayın 12-də indi Ermənistan ərazisi olan tarixi türk yurdunda - İrəvanda doğulmuşdur. Səidin musiqiyə olan marağı İrəvanda ibtidai məktəbdə oxuduğu illərdə də nəzərə çarpıb. 1918-ci ildə İrəvanda baş verən erməni vəhşiliyi zamanı Səidgil qaçqın düşüb Türkiyəyə getmişlər.

Az vaxtdan sonra onlar yenidən İrəvana qayıdıblar. Türkiyədən qayıtdıqdan sonra onlar evlərini dağılmış görüb, 1919-cu ildə Gəncəyə köçmüşlər. Səidin musiqiyə marağı böyük olmuşdur. Tezliklə Rüstəmovlar ailəsi Bakıya köçmüş, Səid Müəllimlər Seminariyasına daxil olmuşdur. Həmin məktəbdə musiqi dərsləri keçilirdi. Səidin musiqi istedadı müəllimlərdən birinin diqqətini cəlb edir. O, Səidi Üzeyir Hacıbəylinin yanına aparır. Bu da Səidin taleyini həll edir. S.Rüstəmov 1924-cü ildə musiqi məktəbinin xalq çalğı alətləri şöbəsinə qəbul olunmuş oranı bitirmiş və məşhur bəstəkar olmuşdur. Səid Rüstəmov 1931-ci ildən Azərbaycan radiosunun xalq çalğı alətləri orkestrinin konsertmeysteri, 1935-ci ildən isə direktoru və bədii rəhbəri olmuşdur. O, 1940-1949-cu illərdə Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direktoru, 1943-48-ci illərdə Azərbaycan Radio Komitəsinin musiqi verilişləri redaksiyasının rəhbəri olmuşdur. S. Rüstəmov “Azərbaycan rəqs melodiyaları”, “Beş yüz Azərbaycan xalq mahnıları”, “Azərbaycan aşıq mahnıları”, “Azərbaycan xalq mahnıları”, “Azərbaycan xalq rəngləri” kitablarında musiqi işləmələri apararaq onları nəşr etdirmişdir. 1948-1952-ci illərdə Azərbaycan bəstəkarlar ittifaqının sədri olmuş, 1928-ci ildən Bakı musiqi məktəbində, 1958-1983-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasında tar sinfində dərs demişdir. S.Rüstəmovun əsas əsərləri “Beşmanatlıq gəlin”, “Durna” və “Rəisin arvadı” komediyaları, solo, xor və orkestr üçün “Azərbaycan” kantatası, xalq çalğı alətləri üçün “Bayatı kürd” fantaziya-kantatası, tar və orkestr üçün konsert, Azərbaycan mahnı, rəqs və xalq çalğı alətləri orkestri üçün “Günəşli Azərbaycan” musiqili dramatik kompozisiyası və başqalarıdır. O həmçinin dramatik səhnə əsərlərinə musiqilər yazmışdır. S. Rüstəmovun “Alagöz”, “Süreyya”, “Gəlmədin”, “Həkim qız” mahnıları lirik və qəlb oxşayandır. Səid Əli oğlu Rüstəmov dəfələrlə Azərbaycan Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur. 1983-cü ildə Bakıda vəfat etmişdir.

İrəvan mühitinin yetişdirməsi olan xalq artisti Mübariz Tağıyev bildirir ki, onun atası, bababsı da İrəvanda məşhur musiqişünaslar olmuşlar. Onunla aparılan müsahibədə Mübariz Tağıyev demişdir: Mən ziyalı ailəsində anadan olmuşam. Elə bu sənətə gəlməyimin də səbəbi qandan-gendən irəli gəlir. Babam Aşıq Muxtar 1900-cü illərdə İrəvanın məşhur aşıqlarından olub. Atam Hüseyn kişini isə Göyçə mahalında adla çağırardılar - mahir kamança ustası. Anam uzun illər İrəvanda radioda redaktor vəzifəsində çalışıb. Orada Azərbaycan dilində 1 saatlıq efir vaxtı ayırmışdılar. Sonralar “Sovet Ermənistanı” qəzetində və Ali Sovetdə şöbə müdiri vəzifələrində çalışıb. Valideynlərim mənim muğam sənəti ilə məşğul olmağımı istəyirdilər. Lakin sonradan fikirlərini dəyişdilər - skripka çalmaqdan dərs aldım. Sonradan hiss etdilər ki, məndə vokal sənətinə meyl daha güclüdür. Odur ki, istəyimə qarşı çıxmadılar. Pionerlər evində bədii özfəaliyyət kollektivinin üzvü oldum. Artıq 13-14 yaşımdan musiqi kollektivində çıxış etməyə başladım.

Orta məktəbi bitirdikdən sonra İrəvan Pedaqoji İnstitutuna daxil oldum və institutun bədii özfəaliyyət kollektivinin solisti kimi çıxış etməyə başladım. Estrada ansamblının heyəti qarışıq idi-burada yerlilərlə yanaşı, rus, gürcü millətindən olanlar da var idi. Odur ki, repertuarımız da müxtəlif idi-bütün dillərdə mahnılar

oxuyardıq. O illər bir qədər başqa idi-tez-tez keçmiş SSRİ respublikalarının şəhərlərinə qastrol səfərinə gedərdik, eləcə də digər respublikalardan bizə konsert vermək üçün gələrdilər.

**Nəticə**

Beləliklə, deyə bilərik ki, İrəvan mühitində böyük incəsənət xadimləri, musiqişünaslar yetişmişdir.

## ƏDƏBİYYAT


1. Əliyev İ.H. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2021–ci il tarixli, 3094 nömrəli sərəncam/ Xalq qəzeti, 30 dekabr, 2021-ci il
2. Cəfərov C., Allahverdiyev C. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb, 2017
3. Hüseynzadə R.L. İrəvan maarifçiliyi// Azərbaycan məktəbi jurn. 2018, №1, s. 61-68


## SUMMARY

**Bilal Erdogan**

## IRAVAN MUSIC ENVIRONMENT


In the preparation of the article, the Ottoman sources stored in the state archives of Turkey were consulted, and in these sources, "with the Ottoman state "Archival information on the relations between the Turkic khans of Azerbaijan". I came across valuable documents and writings published in two volumes. The importance of these archival documents was that in these documents, music, art, and theater examples were given place in the environment of Yerevan enlightenment, as well as information about Yerevan singers and musicologists. The documents also contained the correspondence of the Iravan khans with the Turkish Ottoman court, the sultan's decrees, and the official letters of the Ottoman pashas regarding Russian and Iranian aggression. Ottoman documents are very important in terms of studying the history of Iravan, pedagogy, education, as well as musical environment there.


***Key words:*** *Yerevan musical environment, theater, art, Said Rustamov*

## РЕЗЮМЕ

**Билал Эрдоган**

## ИРАВАНСКАЯ МУЗЫКАЛЬНАЯ СРЕДА


При подготовке статьи были проведены консультации с османскими источниками, хранящимися в государственных архивах Турции, и в этих источниках «с Османским государством «Архивные сведения о взаимоотношениях тюркских ханов Азербайджана». Я наткнулся на ценные документы и сочинения, изданные в двух томах.Значение этих архивных документов состояло в том, что в этих документах отводилось место музыкальным, художественным и театральным образцам в среде ереванского просвещения, а также сведения о ереванских певцах и музыковедах. . Документы содержали также переписку ireванских ханов с турецким османским двором, султанские указы и официальные письма османских пашей о российской и иранской агрессии. Османские документы очень важны с точки зрения изучения истории Иревана, педагогики, образования, а также музыкальной среды.


***Ключевые слова****: Музыкальная среда Еревана, театр, искусство, Саид Рустамов.*

**SABİRƏ BAYRAMOVA**
*Gəncə Dövlət Universiteti*
*sabire.04@mail.ru*

# İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASINDA DƏRS DEYƏN AZƏRBAYCANLI MÜƏLLİMLƏR

*Məqalədə İrəvan Müəllimlər Seminariyasının yaranması və fəaliyyəti haqqında məlumat verilmiş və burada fəaliyyət göstərən azərbaycanlı müəllimlərin fəaliyyətinə toxunulmuşdur. Burada Azərbaycan pedaqoji elminin inkişafında və İrəvan Müəllimlər Seminariyasında var gücü ilə çalışan Firidun bəy Köçərli haqqında məlumat verilmiş, onun həm gimnaziyada, həm seminariyada, həmçinin bütövlükdə İrəvan ədəbi – mədəni mühitində rolu açıqlanmışdır. Axund Məmmədbağır Qazızadə, İsmayıl bəy Şəfibəyov, Məmmədvəli Əli oğlu Qəmərlinskinin pedaqoji faəliyyətləri haqqında məlumat verilmişdir. Göstərilir ki, İrəvan Müəllimlər Seminariyası yarandığı gündən ermənilər tərəfindən dağıldığı günə qədər bu müəssisədə gənc nəslin maariflənməsində xeyli iş görülmüş, azərbaycanlıların təhsil alınmasında, mədəni inkişafında böyük rol oynamışdır.*

***Açar sözlər:*** *İrəvan gimnaziyası, azərbaycanlı müəllimlər, təhsil, pedaqoji fəaliyyət, Azərbaycan dili, şəriət.*

Bildiyimiz kimi, XIX əsrin II yarısı Azərbaycan məktəb və pedaqoji fikir tarixində əhəmiyyətli yer tutur. Bu dövrdə təhsillə bağlı bir neçə problemin həlli dövrün ziyalılarından daha məsuliyyətli yanaşma tələb edirdi. Bu dövrdə bir neçə təhsil müəssisələrinin açılması böyük əhəmiyyət kəsb edirdi. Belə məktəblərdən biri İrəvanda açılmış Müəllimlər Seminariyası idi. “İrəvan Müəllimlər Seminariyası 8 noyabr 1881-ci ildə 9 müəllim, 42 şagirdlə fəaliyyətə başlayıb. İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladığı ilk dövrdə tədris prosesi üçün lazımi səviyyədə əlverişli şəraiti olmayan, illik icarə haqqı 5 min rubl olan birmərtəbəli binada yerləşmişdi” [2.8].

Qərbi Azərbaycan ərazisinin şimal və cənub qovşağında yerləşən İrəvan xanlığı müsəlman milli maarifçiliyinin aparıcı elm və təhsil mərkəzlərindən biri olmuşdur. Burada məscid və mədrəsələrdə şagirdlərə şəriət, oxu və yazı öyrədilirdi.

1875-ci ildə qəbul edilmiş “Müəllimlər seminariyaları haqqında təlimat” müsəlmanlara pravoslavlarla bərabər şəkildə seminariyalarda təhsil almağa icazə verdi. Təlim üç il davam etdi. Seminariyada hazırlıq sinfi və ibtidai məktəb fəaliyyət göstərirdi. Seminariyada pansionat da fəaliyyət göstərirdi. Burada azərbaycanlılarla yanaşı, erməni, gürcü, rus və başqa millətlərin uşaqları da təhsil alırdılar.

Tədqiqatçıların əldə etdikləri məlumatlara görə, İrəvan seminariyasının fəaliyyətə başladığı dövrdən 1918-ci il avqustun 6-da bağlanmasınadək keçən müddət ərzində İrəvan Gimnaziyasında şəriət dərslərini və Azərbaycan dili fənnini 1836-1856-cı illərdə Molla Tağı Mahmud oğlu, 1856-1885-ci illərdə Mirzə Ələkbər Elxanov, 1885-1895-ci illərdə Firidun bəy Köçərli, 1895-1905-ci illərdə İsmayıl bəy Şəfibəyov, 1905-1906-cı illərdə Mirzə Məhəmməd Şeyxzadə, 1907-1918-ci illərdə Şeyx Abusəttar Kazımov tədris etmişlər.

İrəvan Müəllimlər Seminariyasında dərs deyən ilk azərbaycanlı müəllim görkəmli Azərbaycan maarifçisi Axund Məmmədbağır Qazızadə olmuşdur. O, İrəvanda anadan olmuş, ilk təhsilini burda mədrəsədə almış, sonra Nəcəfə getmiş və ruhani təhsilini burada davam etmişdir. Mükəmməl dini təhsili ilə yanaşı o, riyaziyyat, nücum, ədəbiyyat və d. elmlərə dərindən yiyələnmişdir. İrəvan Quberniyasının

ruhani icmasının üzvü olmuşdur.

Seminariya açıldığı gündən 1897-ci ilə kimi burada ilahiyyat və Azərbaycan dili, 1897-ci ildən 1917-ci ilə qədər isə yalnız ilahiyyatdan dərs demişdir. İrəvan Müəllimlər Seminariyasında Azərbaycan dilinin və şəriətin tədrisi təsadüfi deyildi. Çünki, burada yaşayan əhalinin əksəriyyəti azərbaycanlılar idi. Pedaqoji təhsil almış azərbaycanlı gənclər seminariyanı bitirdikdən sonra Azərbaycan kəndlərindəki ibtidai məktəbdə pedaqoji fəaliyyətə başlamışlar. "O, 1911-ci ildə İrəvan müəllimlər seminariyasının bir qrup əməkdaşları ilə Tiflisdə Azərbaycan dilində nəşr olunmuş "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri idi. Aparılan araşdırmalardan məlum olur ki, seminariyanın Azərbaycan bölməsinin rəhbəri Axund Məmməd Bağır Qazızadə burada şəriət dərslərinin yüksək səviyyədə keçirilməsi, tədris şəraitinin yaxşılaşdırılması, gənc soydaşlarımızın seminariyaya daha çox cəlb edilməsi istiqamətində böyük rol oynamışdır" [1].

İrəvan Müəllimlər Seminariyasında dərs deyən azərbaycanlı müəllimlərdən biri görkəmli pedaqoq, Azərbaycan məktəb və pedaqoji fikir tarixində xüsusi rolu olan Firidun bəy Köçərlidir. Firidun bəy Köçərli İrəvan Seminariyasında Azərbaycan şöbəsinin müdiri və Azərbaycan dili müəllimi kimi çalışmışdır. "Kafkazki kalenadar"ın verdiyi məlumata görə, Firuddin bəy Köçərli gimnaziyada həmçinin pansion müdiri kimi də fəaliyyət göstərmişdir. Əldə edilən məlumatlara görə, Firuddin bəy Köçərli bütövlükdə İrəvanda faydalı işlərlə məşğul olmuş, azərbaycanlıların təhsili, yaşayışı və maariflənməsində xeyli iş görmüşdür. "1885-ci ildə iyun ayında Köçərli İrəvan Gimnaziyasına Azərbaycan dili və şəriət müəllimi təyin olunur. Pedaqoji işdə böyük müvəffəqiyyət göstərdiyi üçün o, demək olar ki, hər il mükafat alır, ona "kolejski sekretar", "titulyar sovetnik", "ştatski sovetnik" kimi rütbələr verilir.

İrəvan Müəllimlər Seminariyasında çalışdığı illərdə Firidun bəy Köçərli maarif məsələlərinə dair məqalələr yazır, Zöhrabzadə ilə birlikdə "Təlimi – lisani – türki" adlı dərslik tərtib edir, "Təlimati Sokrat" adlı fəlsəfi əsərinin nəşrinə nail olur, həm də ədəbiyyata ciddi maraq göstərir, bədii tərcümə ilə məşğul olur, Puşkindən, Lermontovdan, Tolstoydan, Koltsovdan tərcümələr edir, tənqidi məqalələr yazır" [3,5]. Mənbələrin verdiyi məlumata görə, Firidun bəy Köçərli həmçinin İrəvanda teatrın inkişafında da xeyli iş görmüşdür. Köçərlidən sonra İrəvan Seminariyasında bu işləri İsmayıl bəy Şəfibəyov davam etdi. İrəvan Seminariyasında və bütövlükdə İrəvan şəhərində çoxşaxəli fəaliyyətindən sonra o, Zaqafqaziya Müəllimlər Seminariyasında pedaqoji fəaliyyətini davam etmişdir.

İrəvan Müəllimlər Seminariyasında dərs deyən digər azərbaycanlı müəllim isə İsmayıl Məmmədbəy oğlu Şəfibəyov olmuşdur. O, İrəvan gimnaziyasında müsəlman şöbəsinin müdiri vəzifəsində çalışmışdır. İsmayıl Şəfibəyov 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdur. Şuşada fəaliyyət göstərən realnı məktəbi bitirmişdi. Sonradan Zaqafqaziya Müəllimlər Seminariyasını bitirmiş və pedaqoji fəaliyyətlə məşğul olmağa başlamışdır. İsmayıl Şəfibəyov Şuşa şəhərində teatrın təşkil olunmasında və fəaliyyət göstərməsində yaxından iştirak etmişdir. İsmayıl Şəfibəyov İrəvan gimnaziyasında düz iyirmi üç il fəaliyyət göstərmişdir.

İrəvan Müəllimlər Seminariyasında dərs deyən azərbaycanlı müəllimlərdən biri də Məmmədvəli Əli oğlu Qəmərlinskidir. O, həm pedaqoji fəaliyyətlə məşğul olmuş, həmçinin İrəvan ədəbi mühitinin tanınmış ziyalılarından biri olmuşdur. Məmmədəli Qəmərlinski 1898-ci ildə İrəvanda rus-tatar məktəbini bitirmiş, 1900-cü ilin martında İrəvan quberniya məclisində imtahan verərək müəllim adı qazanmışdır. Onun yazdığı "Atalar sözü" kitabı 1889-cu ildə İrəvanda "Edilson" mətbəəsində çap olunmuşdur. 1907, 1908 və 1911-ci illərdə çap edilən "Ana dili" dərsliyinin müəlliflərindən biri Mirzə Məmmədvəli Qəmərlinski olmuşdur. Qəmərlinski 1906-cı ildə Bakıda Mirzə Ələkbər Sabirlə tanış olmuşdur. İrəvanda

mövcud olan məktəblər haqqında şairə məlumat vermiş və o dövrün bir neçə tanınmış maarifçiləri ilə birlikdə xalqın maariflənməsi uğrunda mübarizə aparmışdır.

Mirzə Ələkbər Elxanovda İrəvan seminariyasında dərs deyən azərbaycanlı müəllimlərdən biridir. Onun səs üsulu ilə tərtib etdiyi "Vətən dili" dərsliyi XIX yüzilliyin 80-ci illərində çap edilmişdir. M.Ə.Elxanov 1856-cı ildən başlayaraq ömrünün sonuna kimi əvvəlcə İrəvan qəza məktəbində, sonra isə gimnaziyada Azərbaycan dilindən dərs demişdir.

İrəvan Müəllimlər Seminariyası erməni vəhşiliyinin qurbanı olur. 1918-ci ildə gimnaziya fəaliyyətini dayandırır. Bu otuz yeddi il ərzində burada Azərbaycanın müxtəlif elm sahələrində fəaliyyət göstərən mütəxəssisləri yetişmişdir. Bu məzunlar sırasında Nəriman bəy Nərimanbəyov, Mirabbas Mirbağırzadə, Məhəmməd Məhərrəmov, Mehdibəy Məlikaslanov, Bülbülxanım Ağaxan qızı, Qambay Vəzirov, Ələkbərbəy Qədimbəyov, Miryusif Mirbayev və b. həm Azərbaycanda, həm Avropada, həm Rusiyada elmi fəaliyyətlə məşğul olmuş və tarixdə dərin izlər qoymuşlar.

## ƏDƏBİYYAT

1. Mərdanov M., Allahverdiyev C. Azərbaycan tarixinin şərəfli səhifəsi. Bakı: 2022
2. Rüstəmov F.A. Azərbaycanlı müəllim kadrları hazırlığında İrəvan Müəllimlər Seminariyasının rolu. Sumqayıt Dövlət Universiteti. Konfrans materialları. Bakı: 2022 №4
3. Əsgər Zeynalov. İrəvan məktəbləri. Bakı: Mütərcim, 2011

## SUMMARY

**Sabira Bayramova**

## AZERBAIJANIAN TEACHERS WHO TEACHED IN THE YEREVAN TEACHER'S SEMINARY

The article provides information about the creation and activities of the Yerevan Teachers' Seminary, as well as the activities of Azerbaijani teachers working there. Here, information was given about Firuddin-bek Kocherli, who worked with all his might in the development of Azerbaijani pedagogical science and in the Yerevan Teachers' Seminary, and his role in the gymnasium and seminary, as well as in the literary and cultural environment of Yerevan as a whole, was explained. Information about the pedagogical activity of Akhund Mammadbagir Gazizade, Ismail bey Shafibekov, Mammadvali Ali oglu Gamarlinsky is given. It is shown that from the day the Yerevan Teachers' Seminary was founded to the day it was destroyed by the Armenians, a lot of work was done in this institution to educate the younger generation, it played a big role in the upbringing and cultural development of Azerbaijanis.

***Key words:*** *Iravan gymnasium, Azerbaijani teachers, education, pedagogical activity, Azerbaijani language, Shariat.*

**РЕЗЮМЕ**

**Сабира Байрамова**

**АЗЕРБАЙДЖАНСКИЕ УЧИТЕЛЯ ПРЕПОДАВАВШИЕ В ЕРЕВАНСКОЙ УЧИТЕЛЬСКОЙ СЕМИНАРИИ**

В статье представлена информация о создании и деятельности Ереванской учительской семинарии, а также о деятельности работающих там азербайджанских учителей. Здесь были даны сведения о Фируддин-беке Кочерли, который всеми силами работал в развитии азербайджанской педагогической науки и в Ереванской учительской семинарии, и его роли в гимназии и семинарии, а также в литературно-культурной среде Еревана как целом, объяснили. Дана информация о педагогической деятельности Ахунда Мамедбагира Газизаде, Исмаил бека Шафибекова, Мамедвали Али оглы Гамарлинского. Показано, что со дня основания Ереванской учительской семинарии до дня ее разрушения армянами в этом учреждении была проделана большая работа по воспитанию подрастающего поколения, оно сыграло большую роль в воспитании и культурном развитии азербайджанцев.

***Ключевые слова:*** *Иреванская гимназия, учителя-азербайджанцы, образование, педагогическая деятельность, азербайджанский язык, шариат.*

**NƏRGİZ RƏSULOVA**
*Gəncə Dövlət Universiteti*
*nararasulova@bk.ru*

## İRƏVANIN ERMƏNİLƏRƏ GÜZƏŞTLİ VERİLMƏ MƏCBURİYYƏTİ

*1918-ci il mayın 28-də müstəqilliyini elan edən Azərbaycanın daxili və xarici düşmənlərlə üz-üzə qaldığı bir vaxtda Bakı və ətrafını bolşevik-daşnak quldur dəstələrindən təmizləmək, yerli əhalinin təhlükəsizliyini təmin etmək, bütün Azərbaycanda milli idarəçiliyin yaradılmasını bərqərar etmək və "Müstəqillik Bəyannaməsi"ndə göstərilən prinsipləri həyata keçirmək üçün hərbi qüvvə tələb olunurdu. Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına ermənilərə dövlət yaradılmasının tərəfdarı olan bir sıra Osmanlı rəsmiləri güman edirdilər ki, bununla ermənilər həm Anadoludan uzaqlaşdırılacaq, həm Türkiyə-erməni münasibətləri birdəfəlik nizama salınacaq, həm də "erməni məsələsi" ilə bağlı Türkiyəyə qarşı beynəlxalq qınağa son qoyulacaqdır. Azərbaycan və Osmanlı dövlətləri arasında imzalanan Batum müqaviləsinin Azərbaycan üçün ən vacib olan dördüncü bəndinə əsasən isə Osmanlı dövləti sülh və sabitliyin bərqərar edilməsi və ölkənin etimadını təmin etmək üçün lazım gəldikdə Azərbaycana hərbi yardım göstərməyi öz üzərinə götürürdü. Nəticədə Batumdakı türk nümayəndə heyəti Azərbaycan torpaqları hesabına ermənilərin lehinə qədim Azərbaycan yurdu olan İrəvan şəhəri də daxil olmaqla bir sıra ərazi güzəştlərinə gedərək, Cənubi Qafqazda erməni dövlətinin qurulmasını təsdiqlədi.*
***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, İrəvan, Batum konfransı, erməni xəyanəti.*

### Giriş

Azərbaycan torpaqlarında Ermənistan adlı dövlətin yaradılması müasir Azərbaycan tarixinin ən mühüm məsələlərindəndir. Azərbaycan Milli Şurasının İrəvanın Ermənistana verilməsi haqqında 1918-ci il 29 may tarixli qərarı (Protokol №3) (Протоколы заседаний мусульманских фракций Закавказского Сейма и Азербайджанского Национального совета 1918 г. Баку, 2006, док. №23, с.130-131) bu prosesin final mərhələsi olub, eyni zamanda onun tanınması demək idi. Bununla da Azərbaycanın İrəvan xanlığının (1747-1827) mərkəzi Qafqazda yeni meydana gələn Ermənistan dövlətinin paytaxtına çevrildi. İrəvanın verilməsi tarixində Trabzon, xüsusilə Batum konfransının gedişindəki diplomatik fəaliyyətlər həlledici yer tutub. Bir sıra siyasi maraqlar zəminində ortaya atılan "erməni məsələsi"nin beynəlxalq status almasından güc və dəstək alan ermənilərin Azərbaycan türklərinə qarşı soyqırım cinayətləri kulminasiya həddinə çatmışdır. Məlum tarixi səbəblərdən özünümüdafiə qüvvələrinə malik olmayan Azərbaycan türklərinin yeganə ümid yeri qanı bir, dili bir, dini bir olan qardaşları idi. Beynəlxalq güclər arasında mühüm yer tutan Cənubi Qafqaz siyasətində “erməni məsələsi”nin diqqət mərkəzində olması Osmanlı hakim dairələrində də Azərbaycana münasibətdə fərqli yanaşmalar gətirdi. Bu səbəbdən Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yardım xahişlərinə müəyyən şərtlər müqabilində cavab verilməsi nəticədə tarixi torpaqlarımızda erməni dövlətinin yaradılması ilə başa çatdı.

“Anadolu Türkünün Azerbaycan Türküne kavuşmasıyla Türk milleti muasırlaşmış olacaktır. Bugün mezaya ve hasail-i askeriyesi sayesinde Anadolu, Azerbaycan’ı en menfur bir esaretten hilas ediyor ve bu mukaddes beldede kanını akıtıyor, fakat yarın da Azerbaycan menabi-i iktisadiye ve terakkiyat-ı ticariyesi sayesinde Anadolu’yu sefalet-i iktisadiyeden hilas edebilir. Azerbaycan’ı kurtaran Anadolu kendi kendini de kurtarıyor, buna şüphe etmeyiniz!”.

Birinci Dünya müharibəsini aparan hərbi blokların hər ikisinin, həm Antantanın (Çar Rusiyası, İngiltərə, Fransa, ABŞ), həm də Almaniya-Osmanlı blokunun üzvləri arasında ermənilərə dövlət yaratmaq barədə ümumi fikir formalaşmışdı. Çar Rusiyası, İngiltərə, Fransa və ABŞ gələcək erməni dövlətinin Osmanlı imperiyası ərazisində – Şərqi Anadoluda yaradılmasına tərəfdar idilər. Osmanlı imperiyasının bəzi siyasi dairələri isə "erməni təhlükəsi"ni özündən, yəni Şərqi Anadoludan uzaqlaşdırmaq üçün erməni dövlətinin imperiya sərhədləri xaricində – Azərbaycan torpaqlarında yaradılmasına çalışırdılar.

Müsəlman Milli Şurasının mayın 27-də keçirilən iclasında Nəsib bəy Yusifbəyli bildirir ki, Batum konfransında təmsil olunan Türkiyə (Osmanlı) nümayəndə heyətinin qənaəti belədir ki, Cənubi Qafqaz müstəqilliyini qorumalıdır, onun birliyinin və həmrəyliyinin qorunması üçün ermənilərə bir qədər torpaq güzəşt olunmalıdır. Azərbaycan türklərinə qarşı daşnak-bolşevik qırğınlarına son qoymaq demokratik prinsiplərə əsaslanan Azərbaycan Cümhuriyyəti hakimiyyətini bütün Azərbaycan ərazisində bərqərar etmək və vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün diplomatik və hərbi qüvvəyə ehtiyacı olan Azərbaycan Milli Şurası Osmanlı dövlətinin tələblərini yerinə yetirmək məcburiyyətində idi. Əgər Batum konfransında tərəflər dil tapa bilməsəydi, öz aralarında Azərbaycanın bir hissəsi İrana, bir hissəsi Rusiyaya, digər hissəsi isə Türkiyəyə veriləcəkdi. Batum danışıqları zamanı Azərbaycan ərazisində dövlət yaratmaq üçün ermənilərə torpaq veriləcəyi halda erməni tərəfi Azərbaycan və Osmanlı tərəfləri qarşısında bir sıra öhdəliklər yerinə yetirməyi, həmçinin Azərbaycana qarşı ərazi iddialarından imtina etmək təhəddüdü üzərinə götürürdü. İrəvan və ətrafındakı torpaqların verilməsi müqabilində ermənilər Azərbaycanla vahid konfederativ dövlət halında birləşməli idilər. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli qərarına əsasən ermənilərə dövlət yaratmaq üçün İrəvanla birlikdə bir sıra digər Azərbaycan torpaqları da güzəştə gedildi. Amma qısa müddət sonra Batumidə əldə edilən razılaşmanın şərtləri ermənilər tərəfindən pozuldu - azərbaycanlılara qarşı soyqırım siyasəti davam etdirildi. Batum müqaviləsinin şərtlərinə və 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının qərarına əsasən ermənilərə güzəşt edilmiş, İrəvan və ətrafı da daxil olmaqla 9 min kvadratkilometr sahəsi olan Azərbaycan torpağında yaradılmış Ermənistan dövləti müxtəlif dövrlərdə sovet imperiyasının birbaşa köməyi ilə daha 20,8 min kvadratkilometr Azərbaycan torpağını ələ keçirərək ərazisini 29,743 min kvadratkilometrə çatdırdı.

**Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi**

İndiki Ermənistan (Qərbi Azərbaycan) ərazisində haylar tərəfindən bütün maddi-mənəvi soyqırımlara baxmayaraq, türklərin izləri hələ də mövcudiyyətini qoruyub saxlayır. Bu gün istər arxiv sənədlərində, istərsə də araşdırılan bütün məqalələrdə və arxeoloji qazıntılarda erməni tarixçilərinin Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarını elmi cəhətdən təkzib edən heç bir sənəd, məlumat və tapıntı yoxdur.

XVIII əsrin sonlarından Qafqaza effektiv şəkildə nüfuz etməyə çalışan çar Rusiyası, bu dövrdə İran və Osmanlı İmperiyası ilə başlayan müharibələrdə qələbə çaldıqdan sonra digər Qafqaz ölkələri ilə birlikdə Şimali Azərbaycan torpaqlarını işğal etməyə də nail oldu. Rusiya Cənubi Qafqazda yerləşmək və gələcək ekspansionist planlarını gerçəkləşdirmək üçün Türkmənçay (Rusiya tərəfinin təkidi ilə bu müqavilənin 15-ci maddəsinə əsasən İranda yaşayan ermənilərin Azərbaycana kütləvi köçü rəsmiləşdirilmişdir) və Ədirnə (Rusiya tərəfinin təkidi ilə bu müqavilənin 13-cü maddəsinə əsasən Osmanlı İmperiyasında yaşayan ermənilər Azərbaycan torpaqlarına kütləvi miqrasiyası rəsmiləşdirilib) müqavilələrinin şərtləri əsasında erməniləri dərhal İran və Osmanlı dövləti torpaqlarından toplu halında Şimali Azərbaycan torpaqlarına köçürməyə başladı. Ermənilərin köçürüldükləri torpaqlar haqqında rus

yazıçısı, tarixçi Sergey Qlinka belə yazır; bu torpaqlar yer üzünə səpələnmiş erməniləri bir araya toplayacaq və I Nikolayın xoşbəxt dövlətinin himayəsi altında erməni çarlığı öz şöhrəti və bütün xatirələri ilə diriləcək (Глинка 1831, 93). Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi layihəsi hələ 1827-ci ildə A.S.Qriboyedovun rəhbərlik etdiyi Cənubi Qafqaz regionunun diplomatik dəftərxanasında hazırlanmışdır. İran və Türkiyə sərhədlərində bufer xristian zonası yaratmaq niyyətində olan Rusiya, erməniləri Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının, xüsusən də münbit torpaqlarına köçürürdü. İrəvan və Naxçıvan xanlıqlarının işğalından sonra bu torpaqlarda yeni Rusiya sistemi işə salındı. Bu sistemə əsasən yerli xalq olan Azərbaycan türkləri, dövlət idarəçiliyi və müdafiəsindən məhrum olmuşdular (Necefli, 287). Rusiya dövlətinin həyata keçirdiyi bu qanlı siyasət Azərbaycanın qədim tarixi torpaqlarında gələcəkdə ermənilər üçün dövlət qurmaq məqsədi daşıyırdı.

Azərbaycanda çar administrasiyasının qurduğu istibdad rejimi, gözləntilərin əksinə, XIX əsr Azərbaycan türkləri arasında milli şüurun oyanmasına və inkişafına səbəb olmuşdur. Silahlı müqavimətin ciddi bir nəticə vermədiyini görən ilk Azərbaycan realistləri mübarizənin forma və metodlarını dəyişərək, yüz illərin ümmət anlayışından yeni əsrin millət düşüncəsinə keçməyin zərurətini ideya istiqaməti olaraq irəli sürdülər (Həsənli 2009, 8). Bu dövrdə Azərbaycanda inkişaf edən millətçilik hissləri türk aydınlarına "Milli-yerli muxtariyyət" və "mədəni muxtariyyət" kimi məqsədlərinə çatmağa imkan verdi. Onlar bu məqsədlərə nail olmaq üçün istər mətbuat, istərsə də siyasi cəmiyyət və partiyalar yaratmaqla mübarizə aparırdılar (Ağayev, 2006, 1).

Nəticə.

Osmanlı dövləti Batum konfransının gedişində İrəvan mərkəz olmaqla Azərbaycan torpaqları hesabına kiçik bir ərazidə (9 min km") ermənilərə dövlət yaratdı və İstanbul hökuməti onu de-fakto tanıyan ilk dövlət oldu. Bununla da Xəlil bəy Menteşənin təbirincə desək, Osmanlı dövləti bir tərəfdən "erməni məsələsi" ilə bağlı beynəlxalq aləmdə ona qarşı olan "qınağı" aradan qaldırmış olur, digər tərəfdən də Rusiya və Fransa kimi dövlətlərin Şərqi Anadoluda yaratmaq istədikləri erməni dövlətini Cənubi Qafqazda yaratmaqla həm də erməni problemini özündən uzaqlaşdırmış olurdu. (Kazımbəyli 2017, 39). Amma qısa müddət sonra Batumidə əldə edilən razılaşmanın şərtləri ermənilər tərəfindən pozuldu – azərbaycanlılara qarşı soyqırım siyasəti davam etdirildi.

Azərbaycan Milli Şurasının 13 iyun tarixli iclasında ermənilərin müsəlmanlara qarşı törətdiyi qırğınlar haqqında İrəvandan gələn xəbərlər ətrafında müzakirələr zamanı, İrəvan Quberniyasında ağır vəziyyətdə olan qaçqınların sayının 150 min nəfərə çatdığı, ermənilərin 206 kəndi yox etdiyi bildirildi. Milli Şura İrəvan Quberniyasında qaçqınlara maddi yardım üçün nümayəndə göndərmək qərarına gəldi. Eyni zamanda İrəvan Quberniyası ərazisində olan türk qoşunları komandanlığından qaçqınlara ərzaq yardımı və öz yurdlarına qayıtmaları üçün Ermənistan hökumətinə təzyiq göstərməsi xahiş edildi (Mustafa 2015, 86). Ermənilərin Batum konfransında üzərlərinə götürdükləri öhdəliklərin əksinə olaraq, Andranikin başçılıq etdiyi erməni silahlılarının Zəngəzuru işğal etməsi, Ermənistan hökumətinin Dağlıq Qarabağa mübahisəli bölgə kimi baxması Azərbaycanın da əks addım atmasına gətirib çıxardı. Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsinin Ermənistanın Gürcüstandakı nümayəndəsinə yazdığı məktubda Qarabağın mübahisəli ərazi elan edilməsi haqqındakı Ermənistanın iddiasının tərəflər arasında əldə edilmiş razılaşmanın pozulması demək olduğunu və Azərbaycan tərəfinin də İrəvan şəhərinə, İrəvan quberniyasının Eçmiədzin, Novo-Beyazit və İrəvan qəzalarının bir hissəsinə yönəlik haqlı iddia etmək hüququnu hələ də özündə saxladığını bəyan etmişdi (Mustafa 2015, 87). İrəvan Quberniyası Vətəndaş Təşkilatının başçısı Teymur Xan Makinskinin 1919-cu il yanvarın 4-də göndərdiyi hesabatda, 1917-ci ilin dekabrından 1918-ci ilin iyun ayına yəni türk qoşunlarının gəlişinə

qədər İrəvan Quberniyasında erməni hərbi birləşmələri tərəfindən 200-dən çox müsəlman yaşayış məntəqəsinin qarət edilərək dağıdılması, əhalinin bir qisminin öldürülməsi, bir qisminin isə dağlara qaçaraq aclıqdan və soyuqdan həyatını itirməsi, zorla boşaldılan müsəlman kəndlərində Türkiyədən gələn erməni köçkünlərin məskunlaşması deyilirdi (Azərbaycan 1998, 150-156). Mir Hidayət Seyidovun 1919-cu ilin yanvarında İrəvan Quberniyası müsəlmanları adından Azərbaycan hökuməti başçısına yazdığı məktubda deyilirdi: "Ermənistan hökuməti kənardan gələn erməni qaçqınları silah gücü ilə qovulmuş müsəlmanların kəndlərinə yerləşdirir. Onların məqsədi müsəlmanları mümkün qədər bu torpaqdan təmizləmək və Paris konfransında bu torpaqların ermənilərə məxsus olduğunu sübut etməkdir" (Mustafa 2015, 88).

Əslində, Batum müqaviləsində İrəvanın güzəştə gedilməsi və ermənilərin hər hansı öhdəlik götürməsi ilə bağlı razılaşma əksini tapmayıb: İrəvan erməni Milli Şurası ilə Azərbaycan Milli Şurası arasında centlmen razılaşması əsasında verilib. 1918-ci ildə erməni cümhuriyyəti yaratmaq üçün paytaxt olmadığına görə Azərbaycan Milli Şurası İrəvanı güzəştə gedib. Bunun müqabilində erməni Milli Şurası Yelizavetpol quberniyasının dağlıq hissəsinə, indiki Dağlıq Qarabağa olan iddialarından imtina haqda öhdəlik götürüb. Batum müqaviləsində həmin razılaşmanı özündə ehtiva edən hər hansı bir maddə yoxdur.

AXC dövründə Ermənistanın ərazisinin 9 min $km^2$ olduğu halda, Azərbaycanın həmin dövrdə ərazisi 114 min $km^2$ idi. 27 aprel işğalından sonra proseslər bir qədər fərqli məcraya yönəldi. Xüsusən də, 1920-ci il noyabrın 30-da Ermənistan SSR-in yaradılmasından sonra, çox təəssüflər olsun ki, biz Azərbaycan torpaqlarının bir hissəsinin itirilməsi ilə qarşılaşdıq.

## ƏDƏBİYYAT


1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. I cild, Bakı: 1998
2. Ağayev Mehman. Milli Mücadele Yıllarında Türkiye ve Azerbaycan İlişkileri. Doktora Tezi. İstanbul: 2006
3. Altunsoy Yılmaz. Kafkas İslam Ordusu ve Bakü Zaferi. Karatay Sosyal Araştırmalar Dergisi, Sayı: 2, 2019
4. Bal Halil. Azerbaycan Cümhuriyetinin Kuruluş Mücadelesi ve Kafkas İslam Ordusu. İdil Yayıncılık, 2010
5. Həsənoğlu Aygün. Erməni sindromu. Bakı: 2007
6. Həsənli Cəmil. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920), Bakı: 2009
7. Kazımbəyli İbrahim. İrəvanın ermənilərə verilməsi tarixi-siyasi şəraitində imzalanmış bəzi müqavilələrin bu prosesə təsiri. AMEA Naxçıvan bölməsinin xəbərləri. İctimai və humanitar elmlər seriyası. 2017, № 3
8. Qasımov R.Y. Osmanlı arxiv sənədləri Azərbaycan Xalq Cümhuriyyəti - Osmanlı dövlətlərarası münasibətlərinin ilkin dövrünün öyrənilməsinə dair mənbə kimi. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2015
9. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922), Bakı: Azərnəşr, 2011, 474 s.
10. Mustafa Nazim. İrevan şehri. Türk - İslam varlığı nasıl yok edildi. Ankara: 2015
11. Necefli Güntekin. Çarlık Rusyası'nın ermenileri Azerbaycan Topraklarına Göç Ettirmesi (Rusiya Arşiv Kaynakları Işığında)

## SUMMARY

**Nargiz Rasulova**

**COMPULSORY TRANSFER OF YEREVAN TO ARMENİANS**

At a time when Azerbaijan, which declared its independence on May 28, 1918, was facing internal and external enemies, military force was required to clear Baku and its surroundings from Bolshevik-Dashnak bandits, to ensure the safety of the local population, to establish the establishment of national administration in all of Azerbaijan, and to implement the principles stated in the "Declaration of Independence". A number of Ottoman officials who supported the creation of a state for Armenians at the expense of Azerbaijani lands in the South Caucasus, they assumed that Armenians would be removed from Anatolia, Turkish-Armenian relations would be settled once and for all, and international criticism against Turkey regarding the "Armenian issue" would be put to an end. According to the fourth clause of the Batum Treaty signed between Azerbaijan and the Ottoman states, which is the most important for Azerbaijan, the Ottoman state undertook to provide military assistance to Azerbaijan when necessary to establish peace and stability and ensure the country's trust. As a result, the Turkish delegation in Batumi approved the establishment of an Armenian state in the South Caucasus by making a number of territorial concessions, including the city of Iravan, the ancient homeland of Azerbaijan, in favor of Armenians at the expense of Azerbaijani lands.

***Key words:*** *Azerbaijan Democratic Republic, Yerevan, Batumi conference, Armenian betrayal*.

## РЕЗЮМЕ

**Наргиз Расулова**

**ВЫНУЖДЕННАЯ ПЕРЕДАЧА ЕРЕВАНА АРМЯНАМ**

В то время, когда Азербайджан, провозгласивший свою независимость 28 мая 1918 года, столкнулся с внутренними и внешними врагами, требовалась военная сила для очистки Баку и его окрестностей от большевистско-дашнакских бандитов, обеспечения безопасности местного населения, установления общенациональной администрации во всем Азербайджане и реализации принципов, изложенных в «Декларации независимости». Ряд османских официальных лиц, выступавших за создание государства для армян за счет азербайджанских земель на Южном Кавказе, предполагали что армяне будут отстраниться из Анатолии, турецко-армянские отношения будут урегулированы раз и навсегда, а международная критика Турции в отношении «армянского вопроса» будет прекращена. Согласно четвертому пункту Батумского договора, подписанного между Азербайджаном и Османскими государствами, который является наиболее важным для Азербайджана, Османское государство обязалось оказывать Азербайджану военную помощь, когда это необходимо для установления мира и стабильности и обеспечения доверия страны. В результате турецкая делегация в Батуми одобрила создание армянского государства на Южном Кавказе, сделав ряд территориальных уступок, в том числе город Иреван, древнюю родину Азербайджана, в пользу армян за счет азербайджанских земель.

***Ключевые слова:*** *Азербайджанская Демократическая Республика, Иреван, Батумская конференция, армянское предательство*

**ARZU MƏMMƏDOVA**
*Bakı Slavyan Universiteti*
*arzumamedova9999@gmail.com*

# İRƏVAN TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLİM–TƏRBİYƏ MƏSƏLƏLƏRİNİN HƏYATA KEÇİRİLMƏSİ TEXNOLOGİYASI

*XIX əsrin 70-ci illərinədək bütün Qafqazda dünyəvi fənlər tədris edən məktəb, bu fənlərdən dərs demək üçün pedaqoji kadrlar hazırlayan hər hansı bir təhsil ocağı yox idi. Məlumdur ki, Azərbaycanda olduğu kimi, İrəvanda da dünyəvi məktəblər açılana qədər təlim müəssisəsi kimi yalnız məscidlərin nəzdində mollaxanalar və mədrəsələr fəaliyyət göstərmişdir. Əsrlər boyu fəaliyyət göstərən mollaxana və mədrəsələr xalqımızın mədəni yüksəlişini təmin edə bilməmiş, onun inkişaf prosesini ləngitmişdir. 14 yanvar 1832-ci ildə İrəvanda açılan ilk qəza məktəbində müxtəlif millətlərin uşaqları ilə yanaşı, azərbaycanlı uşaqlar da təhsil almağa başladılar. 8 noyabr 1881-ci ildə İrəvanda daha bir təhsil müəssisəsi - İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladı. İrəvan Müəllimlər Seminariyasının və gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha geniş vüsət almasına ciddi təsir göstərdi. 140 il bundan əvvəl qədim Azərbaycan torpağı olan İrəvan şəhərində fəaliyyətə başlamış Müəllimlər Seminariyasının-təhsil tariximizin şərəfli səhifələrindən birini təşkil edən bu maarif ocağının-tarixinin öyrənilməsi, bununla əlaqədar konfransların, dəyirmi masaların, bir sıra tədbirlərin keçirilməsi təhsil tariximizə faydalı töhfə verir. Milli maarifimizin inkişafında böyük xidmətləri olan, təhsil tariximizə parlaq səhifələr yazmış bu qocaman maarif ocağının ziyası hələ neçə yüz illər bundan sonra da parlayacaqdır.*

***Açar sözlər:*** *İrəvan maarifçilik mühiti, İrəvan təhsil müəssisələri, İrəvan Müəllimlər Seminariyası, tədris texnologiyaları*

## GİRİŞ

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 dekabr 2021-ci il tarixində "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" imzaladığı Sərəncamda deyilir: "1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır" (Əliyev İ.H. 29 dekabr, 2021).

İrəvan Müəllimlər Seminariyası Qafqaz məktəbləri üçün müəllim kadrlarının hazırlanmasında müstəsna rol oynamışdır. "Azərbaycanda pedaqogika elminin yayılması və inkişafı, xalq maarifinin bütöv bir dövrü İrəvan Müəllimlər Seminariyası məzunlarının və müəllimlərinin fəaliyyəti ilə bağlıdır. Görkəmli Azərbaycan maarifçisi Firidun bəy Köçərlinin pedaqoji fəaliyyəti də bu təhsil ocağında təkmilləşmiş və o 10 il bu təhsil müəssisəsində çalışmışdır.

XIX əsrin 70-ci illərinədək deyə bilərik ki, Qafqazda dünyəvi fənlər tədris edən məktəb, bu fənlərdən dərs demək üçün pedaqoji kadrlar hazırlayan hər hansı bir tədris müəssisəsi yox idi. Məlumdur ki, Azərbaycanda olduğu kimi, İrəvanda da dünyəvi məktəblər açılana qədər təlim müəssisəsi kimi yalnız məscidlərin nəzdində mollaxanalar və mədrəsələr fəaliyyət göstərmişdir. Əsrlər boyu fəaliyyət göstərən mollaxana və mədrəsələr xalqımızın mədəni yüksəlişini yetərincə təmin edə bilməmiş, inkişaf prosesini bir qədər ləngitmişdir.

**İrəvan mollaxana və mədrəsələrində təhsil**

Mənbələrdən məlum olur ki, İrəvanda dünyəvi məktəblər açılana qədər hələ XIII, XIV əsrlərdə Novruzəli bəy məscidi, Abbas Mirzə məscidi, Şah Abbas məscidi və digər adlarla məscidlər inşa edilmişdir ki, bu məscidlərin nəzdində mollaxana və mədrəsələr fəaliyyət göstərmişdir. XVIII əsrdə İrəvan xanı Hüseyn Əli xanın əmriylə 1766 -cı ildə burada möhtəşəm Göy Məscid inşa edilmişdir ki, bu İrəvan şəhərində o dövrdə inşa edilən məscidlərin ən böyüyü hesab edilmiş və onun nəzdinə məktəb və mədrəsələr fəaliyyət göstərmişdir.

Məscidlər islamın hələ ilk dövrlərində ortaya çıxan təlim-tərbiyə mərkəzləri idilər. Məscid və mədrəsələrdə təlim bir qədər təkmil formada aparılırdı. Orta əsrlərdə İrəvanda məscidlər və orada təşkil edilən məktəblərə, mollaxana deyilirdi. Bu dövrdə bilikli, savadlı insanlara, müəllimlik edənlərə ya molla, ya da mirzə deyilirdi. Məsələn Molla Pənah Vaqif, yaxud Mirzə Ələkbər Sabir. Məscid və mədrəsədə tədris üsulu texnologiyalarına baxdıqda görürük ki, tələbələrin öyrənmələri üçün müəllimin ətrafına toplaşan yerə “Həlqə” deyilirmiş. Tədris üsuluna da “Həlqeyi-tədris” deyilirdi. Həlqələr çox zaman müəllimin adı ilə adlanırdı. Artıq mədrəsələrdə təlim prosesi həlqələr şəklində həyata keçirilirdi. Bir müəllim məsciddə bir guşəyə çəkilir və ya bir sütunun dibində dərisini yerə sərər, bu yer də elə o müəllimin adı ilə bilinərdi.

Məscid və ya mədrəsəyə girildiyində rəngarəng bir həyat görünürdü. Eyni məkanda namaz qılanlar, istirahət edənlər, söhbət edənlərlə bərabər dərs alanlar da var idi. Belə bir hal İrəvan məscid və mədrəsələrdə də mövcud olmuşdur.

Həlqədə 20 nəfərə qədər adam olurdu. Həlqədən çıxan hər bir müdavim Quranı əzbər öyrənə bilirdi. İrəvan mədrəsə və məscidlərində Quran, Hədis, Fiqh kimi dini elmlər öyrədilməklə bərabər, sosial həyatla bağlı elmlər də öyrədilirdi.

İrəvan mahalında məktəblərin proqramları müxtəlif idi. Amma ümumiləşmiş şəkildə proqramlar təxminən belə idi:

1) Qurandan müəyyən hissənin oxunub, əzbərlədilməsi (“Çərəkə”);
2) Ərəb əlifbasının şifahi yolla öyrədilməsi (hərflərin adları, hərəkə işarələri, hərəkəli və hecalı əlifba);
3) Əbcəd (ərəb hərflərinin rəqəmlərlə ifadə olunması) öyrədilməsi və ərəbcə sözlərdən ibarət ilk qiraət;
4) Mətbu, ya da əl yazısı ilə yazılmış mənzum və mənsur kitabların, şeirlərin ahənglə oxunuşu;
5) Nəsihətamiz kitabların oxunması, hədislərin öyrənilməsi, dini hekayələrin, rəvayətlərin, zərbli məsəllər, əxlaqi söhbətlərin öyrənilməsi;
6) Fars dili və ədəbiyyatının öyrədilməsi;
7) Ərəb dili qrammatikasının öyrədilməsi.

Uşaqlar az-çox ərəbcə kəlmələri yazmağa başladıqdan sonra, onlara ərəb üsulu ilə gözəl xətlə yazmaq öyrədilirdi. Daha sonra İrəvan məktəblərində şagirdlərə məktub yazmağı, kəbin kəsməyi, müxtəlif məzmunlu dualar yazmağı da öyrədirdilər. Uşaqlar qamışdan hazırlanmış iti ucluqlu qələm ilə, gözəl xətlə yazırdılar. Belə yazı nazik və zərif görünürdü.

Daha sonralar xanlıqlar Rusiya tərəfindən işğal olunduqdan sonra İrəvanda Qəza məktəbləri, progimnaziyalar, gimnaziyalar, realni məktəblər və s. yaranmışdır.

Əsası 1747-ci ildə Mir Mehdi xan tərəfindən qoyulan İrəvan xanlığı Ağrıdağ ovasını, Göyçə gölünün sahillərini, Araz çayını əhatə edirdi. Xanlıq Naxçıvan və Maku xanlıqları ilə, Osmanlı İmperiyası, Kartli-Kaxetiya çarlığı, Borçalı, Qazax sultanlıqları və Qarabağ xanlığı ilə həmsərhəd olmuşdur. Xanlığın mərkəzi İrəvan şəhəri olmuşdur.

Şəhər ruslar tərəfindən alınandan sonra əhalinin bir qisminin İrana köçməsinə baxmayaraq, yenə də azərbaycanlılar şəhər əhalisinin böyük əksəriyyətini təşkil etmişdir. 1829-cu ilin məlumatına görə

təkcə İrəvan şəhərində əhalinin beşdə dördünü və ya 80 faizini azərbaycanlılar təşkil edirdi.

İrəvani təxəllüslü görkəmli şəxslər.

XIX əsrin əvvəllərindən başlayaraq 1920-ci ilə qədər İrəvan sürətlə inkişaf etmiş və bu bölgə böyük mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan şəhəri Bakı, Təbriz, Naxçıvan, Xoy və başqa şəhərlər kimi Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzi olmuşdur. Buna görə də Şərq elmi tarixində xeyli "İrəvani" təxəllüslü məşhur şəxslərə rast gəlmək olur.

Məsələn, Mirzə Qədim İrəvani (1825-1875) məşhur rəssam və nəqqaş olmuş, bir çox əsərləri Sankt-Peteburqda-Ermitajda saxlanılır.

Hacı Süleyman ibn Salman Qacar İrəvani - XVIII əsrdə yaşamış görkəmli Azərbaycan həkimi və alimi olmuşdur.

Şeyxülislam Fazil İrəvani - XIX əsrdə Qafqazın Şeyxülislamı olmuşdur.

Elə böyük alimlər də olmuşdur ki, onlar İrəvani nisbəsi ilə deyil, öz dövrü üçün mühüm olan başqa bir şəhərin (və ya əyalətin) adını özünə nisbə götürmüşdür. Bu adamlar da öz vətənlərinin əzəli Azərbaycan torpaqları olmasını sübut edən bir fakt kimi özlərinə nisbə, "təxəllüs" seçmişlər. Belə şəxslərdən biri qədim zamanlarda yaşamış Əbül-Fədl İsmayıl ibn Əli ibn İbrahim əl-Gəncəvi kimi böyük alim fiqh və hədis elmlərini Əli əl Masisi kimi mötəbər alimdən dərs almışdır. Əli əl-Masisi on birinci yüzillikdə yaşamış böyük alim olmuşdur.

İrəvanda ilk dünyəvi məktəblər.

14 yanvar 1832-ci ildə İrəvanda açılan ilk qəza məktəbində müxtəlif millətlərin uşaqları ilə yanaşı, azərbaycanlı uşaqlar da təhsil almağa başladılar. Bu məktəblər uşaqlara dünyəvi, elmi biliklər verən rus məktəbləri idi.

İrəvan maarifçilik mühitinin milli təhsilimizin, maarif və mədəniyyətimizin inkişafında xüsusi yeri və əhəmiyyəti vardır. İrəvan maarifçilik mühitinin öyrənilməsi pedaqoji fikir tariximizi, təhsil tariximizi yeni bilik məlumatlarla xeyli zənginləşdirir və dəyərli ensiklopedik mənbəyə çevrilir.

Bu gün İrəvan maarifçilik mühiti ilə tanış olan müasir oxucu, xüsusilə gənclərimiz bizim qədim, ulu torpaqlarımızın Qərbi Azərbaycan dediyimiz məkanda, əzəli Azərbaycan torpaqlarında xalqımızın necə zəngin maarif və mədəniyyətə sahib olduğunun, necə dəyərli məktəblər, texnikumlar, ali məktəblər yaratdıqlarının, bu təhsil ocaqlarında necə fədakar, səriştəli, peşəkar pedaqoji kadrların, elm xadimlərinin yetişməsini öyrəndikcə milli iftixar hissi keçirir və qürur duyurlar.

XIX əsrin 1880-ci illərin əvvəllərində İrəvanda kadr hazırlayan üç böyük tədris müəssisəsi yaranıb fəaliyyət göstərmişdir.

İrəvan Kişi Gimnaziyası

Onlardan biri 1881-ci ildə açılmış İrəvan Kişi Gimnaziyası, ikincisi yenə həmin il - 1881-ci ildə yaranmış İrəvan Müəllimlər Seminariyası və üçüncüsü 1884-cü ildə yaranmış İrəvan qız progimnaziyasıdır.

1881-ci ildə açılmış İrəvan Kişi Gimnaziyasının direktoru Vladimir İosifoviç Brajnikov olmuşdur. 1881-ci ildə burada 216 tələbə təhsil almşıdır.

Gimnaziyada təhsil müddəti 4 il olmuşdur. 1883-cü ildə gimnaziyada 37 azərbaycanlı tələbə oxuyurmuş. Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuşdur. 1881-1915- ci illər ərzində Gimnaziyada 582 azərbaycanlı təhsil almışdır. Bu gimnaziyanın pansionu var idi ki, görkəmli ədəbiyyatşünas alim, Əməkdar elm xadimi Əziz Şərif də burada hazırlıq mərhələsi keçmiş, sonra da İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmişdir. Əziz Şərif xatirələrində yazır: "İrəvanda pansionda yaşayan zaman atam mənə fars dili müəllimi tapmışdı. Bəxtimdən mənim İrəvandakı müəllimim olduqca bilikli və təcrübəli imiş". Cabbar bəy Məmmədovun atası Molla Abbas fars dilinin mütəxəssisi olduğu üçün "Fars Abbas" adı ilə şöhrət tapmışdı. Gimnaziyanın çox görkəmli tanınmış müəllimləri olmuşdur.

Firidun bəy Köçərli 1892-ci ildən İrəvan Kişi Gimnaziyasında Azərbaycan bölməsinin müdiri, eyni

zamanda Azərbaycan dili müəllimi işləmişdir. Bu böyük maarif xadimi gimnaziyada müsəlman şöbəsinin müdiri və gimnaziyanın tərkibində olan pansionun müdiri vəzifələrində də çalışmışdır. İrəvan gimnaziyasında çalışdığı illərdə F.Köçərli maarif məsələlərinə dair dəyərli metodik məqalələr yazmış, Zöhrabzadə ilə birlikdə “Təlimi-lisani-türki” adlı dərslik tərtib etmiş, “Təlimati-Sokrat” (1891) adlı fəlsəfi əsərini nəşr etdirmiş, rus klassiklərindən bədii tərcümələr etmişdir. Daha sonralar onun yazdığı “Balalara hədiyyə” kitabı uşaq ədəbiyyatı üçün ən dəyərli əsərlərdən sayılmaqdadır.

F.Köçərli İrəvan gimnaziyasında 10 illik fəaliyyətindən sonra 1895-ci ilin oktyabr ayından Qori Müəllimlər Seminariyasında pedaqoji fəaliyyətini davam etdirmişdir.

İsmayıl bəy Şəfibəyov F.Köçərlidən sonra 1895-ci ildən İrəvan Kişi Gimnaziyasının həm müsəlman şöbəsinin müdiri, həm Azərbaycan dili müəllimi, həm də gimnaziyanın nəzdində pansionun müdir müavini kimi fəaliyyət göstərmişdir.

Mirzə Abbas Məhəmmədzadə XIX əsrin sonları və XX əsrin əvvəllərində Qərbi Azərbaycanda, xüsusən də İrəvanda ictimai-siyasi, mədəni və ədəbi mühitdə barmaqla göstərilən məşhur ziyalılardan biri kimi tanınırdı. Başqa ziyalılardan onu fərqləndirən ən üstün cəhəti zamanının ensiklopedik biliyə malik fars dili mütəxəssisi olması idi. İrəvanda təhsil görmüş adamlar onu Mirzə Abbas Məhəmmədzadə kimi deyil, "Fars Abbas" kimi tanıyırdılar. Həm pansionda, həm də gimnaziyada fars dilindən dərs deməsi, tələbkar bir müəllim tək şagirdlərinin rəğbətini qazanması, "Razi" təxəllüsü ilə ədəbi-bədii cəhətdən dolğun məzmunlu şeirlər yazması onu daha məşhur etmişdir.

Molla Tağı Mahmud oğlu İrəvan Kişi Gimnaziyasında 1836-1856-cı illərdə, Mirzə Ələkbər Elxanov isə 1856-1885-ci illərdə burada dərs demişdir.

Mirzə Ələkbər Elxanov əslən Uluxanlıdandır. Şəhərdəki Şah Abbas məscidi nəzdindəki mədrəsədə mükəmməl təhsil almışdır. Onun səs üsulu texnologiyası ilə tərtib etdiyi “Vətən dili” dərsliyi XIX yüzilliyin 80-ci illərində Rusiya Xalq Maarif Nazirliyində müzakirə edilərək çapa tövsiyə edilmişdir. Sözügedən əsrin sonlarına doğru İrəvanda yeni məktəblər açılır, şəhərin teatr həvəskarları tez-tez tamaşalar göstərirdilər. “Rus-Azərbaycan” qız məktəbləri əhalinin rəğbətini qazanmışdı.

İrəvanda Azərbaycan dilində metodik kitablar da nəşr edilmişdir. İrəvanda kitab çapına XIX əsrin 80-ci illərindən başlanmışdır. Metodik kitab, dərslik, dərs vəsaiti nəşri sahəsində ilk təşəbbüsü Molla Hüseyn İrəvani göstərmiş, onun 121 səhifəlik şəkilli 1888-ci ildə Təbrizdə daş basması ilə “Müseyibnamə” kitabı, bir il sonra Mirzə Ağa Əli Həkimi İrəvaninin Azərbaycan dilində, həm də fars dilində metodik kitabları da çap olunmuşdur. İrəvan məktəb müəllimlərindən Mirzə Qəmərliniski, Haşım bəy Nərimanbəyov, Şahtaxtınski, Rəcəbov, Qazıyev, Məhəmmədov, Şəfibəyov, Sultanov və Mirzə Ələkbər Mirzəzadənin yazdıqları I, II, III “Ana dili” dərslikləri 1907-1908-ci illərdə Tiflisdə “Qeyrət” mətbəəsində Abbas Məmmədzadənin “Bədərəqətül-ətfal” kitabı 1911-ci ildə Bakıda Orucov qardaşlarının elektrik mətbəəsində, Həsənzadə Mirzə Hüseyn İrəvaninin “Tamam əlifba” kitabı Tiflisin “Kultura” mətbəəsində (1913) çap olunmuşdur.

**İrəvan Müəllimlər Seminariyası.**

1881-ci il, 8 noyabrda İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır.

İrəvan Müəllimlər Seminariyasının və gimnaziyasının təşkil edilməsi Cənubi Qafqazda maarifçiliyin daha geniş vüsət almasına ciddi təsir göstərdi. 140 il bundan əvvəl qədim Azərbaycan torpağı olan İrəvan şəhərində fəaliyyətə başlamış Müəllimlər Seminariyasının - təhsil tariximizin şərəfli səhifələrindən birini təşkil edən bu maarif ocağının - tarixinin öyrənilməsi, bununla əlaqədar konfransların, dəyirmi masaların, bir sıra tədbirlərin keçirilməsi təhsil tariximizə faydalı töhfə verir. Milli maarifimizin inkişafında böyük xidmətləri olan, təhsil tariximizə parlaq səhifələr yazmış bu qocaman maarif ocağının ziyası hələ neçə yüz illər bundan sonra da parlayacaqdır.

Firidun bəy Köçərli İrəvan Müəllimlər Seminariaysında uzun illər çalışmış və çalışdığı müddətdə xalqın maariflənməsində, tərəqqisində böyük işlər görmüşdür. İrəvan teatrının əsaslı fəaliyyəti demək olar ki,

Firidun bəy Köçərli ilə başlamışdır. 1886-cı ildə Firidun bəy Köçərli İrəvanda teatr tamaşası təşkil etmişdir. M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilmişdir. "F.Köçərli İrəvan şairlərinin əsərlərini, folklor nümunələrini toplamış və bu gün seçilmiş əsərlərində "İrəvan şairləri" adlı məqaləsində deyilir: "Şəhri İrəvan keçmişdə mərkəzi – üləma, füzəla və şüəra olub, Axund Molla Məhəmməd İrəvcanı kimi böyük alim və mücahidlər yetiribsə də axır vaxtlarda belə fazil və alim şəxslərdən və dəqiq ədiblərdən və xoştəb şairlərdən məhrum qalıbdır..." (Firudin bəy Köçərli. II, s. 215).

37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır. Seminariyanın direktoru, görkəmli maarifçi Yakop Stepanoviç Şuşevski əsas diqqətini tədris ocağını müəllim kadrları və şagird kontingenti ilə təmin etməyə yönəltmişdir. Onun səyi nəticəsində birinci il seminariyaya 9 müəllim və 42 şagird cəlb edilmişdi. Seminariyanın Azərbaycan bölümünün rəhbəri səriştəli, peşəkar müəllim Axund Məmmədbağır Qazızadə olmuşdur. Seminariyaya Azərbaycanın müxtəlif bölgələrindən təhsil almağa gəlmişlər. İrəvan Müəllimlər Seminariyası xalqın maariflənməsində, intellektual potensialının yüksəlməsində mühüm rol oynamışdır (Cəfərov C., Allahverdiyev C. 2017, s.1298).

Seminariyanın fəaliyyətində Qori Müəllimlər Seminariyasının azərbaycanlı məzunlarının böyük rolu olmuşdur. Görkəmli maarifçi-demokratlar Firidun bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, C.Ələkbərbəyov, Cəlil Məmmədquluzadə, M.Terequlov və başqalarının ilk pedaqoji fəaliyyəti İrəvan maarifçilik mühiti ilə, xüsusilə İrəvan Müəllimlər Seminariyası ilə sıx bağlı olmuşdur.

"İrəvan Müəllimlər Seminariyasının nəzdində ibtidai məktəb fəaliyyət göstərirdi. Seminaristlər pedaqoji təcrübələrini həmin məktəbdə keçirdilər. Tədris prosesində tələbələrə pedaqoji fəaliyyətin metodik xüsusiyyətləri, texnologiyaları öyrədilirdi. Tələbələrin daha uzunmüddətli pedaqoji təcrübəsi Ordubad şəhər məktəbində təşkil edilirdi. Burada müxtəlif fənlər tədris edilməklə yanaşı, həm də bir sıra peşələr öyrədilirdi. Bu cəhətdən İrəvan Müəllimlər Seminariyasında xarratlıq, cildçilik, tərəvəzçilik və ipəkçilik fənləri də tədris olunurdu" (Hüseynzadə R. L. 2020, s 267 ).

Seminariyanın 1885-ci ildə ilk buraxılışı olmuşdur. Məzunlar içərisində 25 nəfər azərbaycanlı olmuşdur. İrəvan Müəllimlər Seminariaysının müsəlman şöbəsinin müxtəlif vaxtlarda direktorları Məmmədbağır Qazızadə, Rəşid Bəy Şahtaxtinski, Həmid Bəy Şahtaxtinski, Cəfər bəy Cəfərbəyov olmuşdur.

**Nəticə**

Yekun olaraq ümumilikdə İrəvan Müəllimlər Seminariyasının əhəmiyyətini tarixi və müasirlik çərçivəsində olmaqla iki istiqamətə ayırmaq olar. Belə ki, birinci istiqamət həmin dövr üçün tələb olunan pedaqoji kadrların formalaşması və təhsil sisteminin inkişafını təmin etməkdən, ikinci istiqamət isə seminariyanın tarixini dərindən öyrənərək dünya ictimaiyyətinə çatdırmaqdan ibarətdir. Biz təkcə bu günü deyil, sabahı, gələcəyi dərindən dərk etmək, qiymətləndirmək baxımından keçmişi yaxşı öyrənməli və sələflərimizin yaratdıqları mənəvi dəyərlərə sahib çıxmalıyıq.

## ƏDƏBİYYAT

1. Əliyev İ.H. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2021–ci il tarixli, 3094 nömrəli sərəncam/ Xalq qəzeti, 30 dekabr, 2021-ci il.
2. Firudin bəy Köçərli . Azərbaycan ədəbiyyatı. İki cilddə. Bakı: Avrasiya, 2005. I cild, 564 s., II cild, 560 s.
3. Cəfərov C., Allahverdiyev C. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb, 2017, 440 s.
4. Hüseynzadə R. L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti. Bakı: ADPU, 2020, 538 s.

## SUMMARY

**Arzu Mammadova**

## TECHNOLOGY OF IMPLEMENTATION OF EDUCATIONAL ISSUES IN IRAVAN EDUCATIONAL INSTITUTIONS

Until the 70s of the 19th century, there was no school teaching secular subjects in the entire Caucasus, nor any educational institution that trained pedagogical staff to teach these subjects. It is known that, as in Azerbaijan, until secular schools were opened in Yerevan, only mollakhanas and madrasahs functioned as educational institutions near mosques. The mollakhanas and madrasahs, which have been operating for centuries, could not ensure the cultural progress of our people and slowed down its development process. On January 14, 1832, in the first emergency school opened in Yerevan, along with children of different nationalities, Azerbaijani children began to study. On November 8, 1881, another educational institution - the Yerevan Teachers' Seminary - was opened in Yerevan. The establishment of the Yerevan Teacher's Seminary and Gymnasium had a significant impact on the spread of enlightenment in the South Caucasus. Studying the history of the Teachers' Seminary, which started its activity in the ancient land of Azerbaijan 140 years ago, which is one of the glorious pages of our educational history, as well as holding conferences, round tables, and a number of events related to this, make a useful contribution to our educational history. The legacy of this great source of knowledge, which has made great contributions to the development of our national education and has written bright pages in our educational history, will continue to shine hundreds of years from now.

***Key words:*** *İrevan educational environment, İrevan educational institutions, İrevan Teachers' Seminary, teaching technologies.*

## РЕЗЮМЕ

**Арзу Мамедова**

## ТЕХНОЛОГИЯ РЕАЛИЗАЦИИ ОБРАЗОВАТЕЛЬНЫХ ВОПРОСОВ В ИРАВАНСКИХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

До 70-х годов XIX века на всем Кавказе не было ни одной школы, ни одного учебного заведения с преподаванием светских предметов, готовившего педагогические кадры для преподавания этих предметов. Известно, что, как и в Азербайджане, до открытия светских школ в Ереване в качестве учебных заведений при мечетях функционировали только моллаханы и медресе. Действовавшие веками моллаханы и медресе не могли обеспечить культурный прогресс нашего народа и тормозили процесс его развития. 14 января 1832 года в первой аварийной школе, открывшейся в Ереване, наряду с детьми разных национальностей стали учиться азербайджанские дети. 8 ноября 1881 года в Ереване открылось еще одно учебное заведение - Ереванская Учительская Семинария. Создание Ереванской Учительской Семинарии и гимназии оказало значительное влияние на распространение просвещения на Южном Кавказе. Изучение истории семинарии, начавшей свою деятельность на древней азербайджанской земле 140 лет назад, является одной из славных страниц нашей образовательной истории, а также проведение конференций, круглых столов и ряда мероприятий, связанных с этой темой, вносят полезный вклад в нашу образовательную историю. Наследие этого великого источника знаний, внесшего большой вклад в развитие нашего национального образования и вписавшего яркие страницы в историю нашего образования, будет сиять и через сотни лет.

***Ключевые слова:*** *Иреванская образовательная среда, Иреванские образовательные учреждения, Иреванская учительская семинария, технологии обучения.*

**SƏBA NAMAZOVA**
*Gəncə Dövlət Universiteti*
*seba8080@mail.ru*

# "MOLLA NƏSRƏDDİN" JURNALININ İRƏVAN MÜXBİRLƏRİ

*İrəvanda bədii fikrin, ictimai-siyasi mühitin canlanmasında və inkişafında bir sıra mətbuat orqanlarının mühüm rolu danılmazdır. Belə ki, İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin tərəqqisi naminə xidmətlər göstərən Mirzə Əlixan Şəmsül Hükəma "Ləli" "Şərqi-Rus", Mir Abbas Mir Bağırov "İrşad", Cabbar Əsgərzadə "Kavkaz", "Molla Nəsrəddin", "Məzəli", Mirzə Naseh İrəvani "Yeni İrşad", Əli Məhzun Rəhimov "Molla Nəsrəddin", Mirzə Cabbar Məmmədov "Yeni İqdam" qəzetlərinin İrəvan üzrə ən fəal müxbirləri olmaqla yanaşı, həmin mətbu orqanların bölgədə oxuculara çatdırılmasında da fəaliyyətlərini əsirgəməmişlər.*

*1906-cı il aprel ayının 7-də işıq üzü görən "Molla Nəsrəddin" jurnalı ümumən Azərbaycan mətbuatı, ictimai-siyasi və bədii düşüncəsinin inkişafı tarixində yeni bir mərhələni təşkil etmişdir. Dövrün nöqsanlarını, eybəcərliklərini satirik dillə, karikaturalarda oxucularına çatdıran "Molla Nəsrəddin" jurnalının nəşri böyük əks-səda doğurmaqla bərabər, qısa zamanda İrəvanda da çox sayda oxucuların diqqətini cəlb etmişdi. Beləliklə, İrəvandan olan ziyalılar içərisindən də mollanəsrəddinçilər formalaşmış, Cabbar Əsgərzadə, Əli Məhzun, Məmmədəli Nasir, Məşədi Mehdi Sadıqzadə kimi istedadlı qələm sahibləri jurnala yazılarını ünvanlamışlar.*

*İrəvanda hər vəchlə xalqın savadlanmasına qarşı çıxan cəhalətpərəstlərin təhdidləri üzündən "Molla Nəsrəddin"in buradan olan müxbirləri də jurnalda gizli imzalarla çıxış etmişlər. Onlardan Əli Məhzun "Anaş qurbağa", "Yetim cücə", Cabbar Əsgərzadə "Məhkəmə pişiyi" kimi satirik imzalardan istifadə edərək özlərini qaragüruhçulardan məhz bu vəsilə ilə qorumağa çalışırdılar. "Molla Nəsrəddin"in səhifələrində yer alan yazılarda 1905-1906-cı illərdə İrəvan quberniyasında və Zəngəzur qəzasında erməni silahlı dəstələrinin törətdikləri kütləvi qırğınlardan canını qurtararaq Bakı və Gəncə quberniyalarına pənah gətirən qaçqınların acınacaqlı vəziyyətindən də bəhs edilir, bu cür hallara biganə qalan yerli sahibkarlar tənqid olunurdu.*

***Açar sözlər:*** *"Molla Nəsrəddin", İrəvan, müxbir, satirik dil, jurnal.*

## Giriş

XIX əsrin sonu XX əsrin başlanğıcında Cənubi Qafqazda Azərbaycan dilində nəşr olunan mətbu nümunələrinin sayının getdikcə artması İrəvanda da o dönəmdə bu sahəyə marağın güclənməsinə səbəb olmuşdu. Sözügedən dövrdə artıq İrəvanda ədəbi-ziyalı mühiti formalaşmağa başlamış, qələm əhli, ələlxüsus da İrəvanda fəaliyyət göstərən məktəblərin müəllim və məzunları "Əkinçi", "Kəşkül", "Kaspi", "Şərqi-rus", "Həyat", "İrşad", "Füyuzat", "Molla Nəsrəddin" kimi qəzet və jurnallarla müntəzəm əməkdaşlıq etmişlər.

Qeyd edək ki, İrəvanda Azərbaycan dilində ilk mətbuat çar Rusiyası dövründə işıq üzü görmüşdür. Çar Rusiyası zamanında İrəvan ziyalılarından Mirzə Kazım Qazi Əsgərzdə ("Mütəlle") və Hacı Seyid Rza Əmirzadə ("Sabir"), Məhəmmədəli bəy Vəliyev "Əkinçi" qəzeti ilə yaradıcılıq əlaqəsində olmuşlar. İrəvanda yaşayarkən "Kəşkül" qəzetində Firidun bəy Köçərli və Haşım bəy Vəzirovun çeşidli yazıları da dərc olunmuşdur.

Görkəmli ədib Cəlil Məmmədquluzadənin həyatının müəyyən dönəmləri də İrəvan şəhəri ilə bağlı olmuş, o, 1901-1903-cü illərdə İrəvanda məhkəmə vəkili kimi çalışmaq üçün imtahanlara hazırlaşmış, həmçinin "Kaspi" qəzetində İrəvanda yaşayan azərbaycanlıların hüquqlarının tapdalanmasından söz

açan məqalələrini dərc etdirmişdir. Mirzə Cəlilin “Kaspi” qəzetinin 7 mart 1902-ci il tarixli sayında yer alan “İrəvan müxbirimizdən” sərlövhəli yazısında şəhərin cənub-qərbində, Zəngi çayının sahilində salınıb Dəlmə arxı ilə suvarılan, azərbaycanlıların böyük əziyyətlə becərib yaratdıqları sayı 60-a qədər olan üzüm bağlarını şəhər bələdiyyəsinin özününküləşdirməsi üçün həyata keçirdiyi qanunsuz əməllərdən bəhs edilmişdir. Müəllifin “C.M.” imzası ilə 28 mart 1902-ci ildə “Kaspi” qəzetində çıxmış “İrəvan” başlıqlı məqaləsində isə şəhər Dumasının iclaslarında azərbaycanlıların ərizələrini müzakirə etməyərək onlara rədd cavablarının verilməsi məsələsindən söz açılmışdır. XX yüzilliyin başlanğıcında İrəvan şəhərində yaşayan azərbaycanlıların hüquqlarının rəsmi dövlət orqanları tərəfindən kobudcasına pozulması hallarına dair məsələlər ədibin qələmə aldığı məqalələrində ətraflı işıqlandırılmışdır.

Azərbaycan ədəbi-mədəni fikir tarixində özünəməxsus mövqeyi olan, İrəvan Oğlanlar Gimnaziyasının məzunu, “Kaspi” qəzetinin İrəvan quberniyası üzrə müxbiri, yazıçı-publisist Eynəli bəy Sultanovun da 1905-1906-cı illərdə İrəvan şəhərində ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar haqqında həmin qəzetin səhifələrində silsilə məqalələri yer almışdı. O məqalələrlə hərtərəfli tanışlıq mövcud dönəmdə İrəvan şəhərində baş verən hadisələr haqqında dürüst və obyektiv məlumatlar əldə etmək imkanını verir.

**Əli Məhzunun mətbuatla əməkdaşlığına dair.**

İrəvan azərbaycanlılarının həyatına, ictimai-mənəvi taleyinə öz yaradıcılığı ilə qüvvətli təsir göstərmiş şəxsiyyətlərdən biri də Əli Məhzun Rəhimovdur. O, hələ yeniyetməlik çağlarından etibarən ədəbiyyata güclü maraq göstərmiş, maarifpərvər ziyalı, istedadlı qələm sahibi kimi ədəbi fikir tariximizdə özünəməxsus mövqe qazanmışdır.

Bəllidir ki, 1917-ci il yanvarın 1-də İrəvanda Əli Hacı Zeynalabdinzadə Rəhimovun (Əli Məhzun) mühərrirliyi və Həsən Mirzəzadə Əliyevin naşirliyi ilə “Bürhani-həqiqət”in ilk sayı çapdan çıxmışdır. O dövrdə İrəvan kimi qədim mədəniyyətə, sənətkarlıq abidələrinə, maarifpərvər şəxsiyyətlərə, şair və ədiblərə malik olan azərbaycanlıların həyatında belə bir jurnalın meydana çıxması mühüm ictimai, ədəbi hadisə idi.

Əli Məhzun “Bürhani-həqiqət” jurnalını nəşr edənədək Cənubi Qafqazın əksər mətbuat orqanlarında şeirləri, ictimai-siyasi mövzulu məqalələri, felyetonları ilə mütəmadi çıxışlar etmişdi. O, “Molla Nəsrəddin” jurnalının İrəvan müəllifləri sırasında jurnalla ən çox əməkdaşlıq edənlərdən sayılır. Əli Məhzun milli ruhda yazılmış roman və hekayələrin də müəllifidir. Onun cəhaləti kəskin tənqid edən əsərlərindən olan “Şəriət xadimi” 1927-ci ildə Bakıda nəşr olunmuşdu. Pedaqoji fəaliyyətlə bağlılığı isə ona xalqın qəflət yuxusundan ayılması, ictimai şüurunun formalaşması yönündə çoxsaylı işlər görməsinə şərait yaratmışdı.

Əli Məhzun İrəvanın tərəqqipərvər ruhlu ziyalıları ilə qüvvələrini birləşdirib xalqın cəhalət girdabından qurtulması yolunda fəal ideoloji mübarizə aparmışdır. Əli Məhzun maarifpərvər ziyalı, qüdrətli qələm sahibi kimi, ədəbi fəaliyyətini dilimizin, mədəniyyətimizin, mənəvi-əxlaqi dəyərlərimizin qorunmasına və yeni ənənələrlə inkişafına həsr etmişdir.

Əli Məhzun Rəhimovun “İranlı olmasaydı” satirik şeirinin, mollanəsrəddinçi şair Bayraməli Abbaszadənin 1948-ci ildə işıq üzü görmüş “Seçilmiş əsərləri” və 1964-cü ildə çapdan çıxmış “Seçilmiş şeirləri” kitabına daxil edilməsi də bu yerdə diqqət çəkir. “İranlı olmasaydı” satirik şeiri “Molla Nəsrəddin” məcmuəsinin 1914-cü il aprelin 11-də nəşr olunan 13-cü nömrəsində dərc edilmişdi. Şeirin sonunda verilmiş “Yetim cücə” gizli imzası Bayraməli Abbaszadənin bədii irsinin tədqiqatçısı İ.Rzayevin çaşqınlığına səbəb olmuşdu. Belə ki, “Yetim cücə” Bayraməli Abbaszadənin deyil, Əli Məhzun Zeynalabdinzadə Rəhimovun gizli imzası idi. “Bürhani-həqiqət” məcmuəsinin 1917-ci il aprelin 15-də çıxan 6-cı sayında “Hərdənbir” başlıqlı yazının Əli Məhzuna məxsus olduğu və o yazının “Yetim cücə” imzası ilə verilməsi məsələyə aydınlıq gətirirdi. Bu cəhətə ilk dəfə tanınmış ədəbiyyatşünas-alim,

filologiya elmləri doktoru, professor Asif Rüstəmli "Azərbaycan" jurnalının 1989-cu il tarixli 1-ci sayında dərc etdirdiyi "Özgə imzalar" sərlövhəli məqaləsində, daha sonra isə Bayraməli Abbaszadəyə həsr etdiyi "Tufanlardan keçən ömür" monoqrafiyasında diqqəti yönəltmişdi.

Göründüyü kimi, Əli Məhzun ədəbi fəaliyyətinə şeirlə başlamış, elə mətbuat aləmində də, əsasən, şair kimi tanınmışdır. Mollanəsrəddinçi şairin Mirzə Ələkbər Sabirə bənzətmə halında şeirlər yazdığı da məlumdur. O, "Molla Nəsrəddin"lə yanaşı, "Məzəli", "Babayi-Əmir", "İqbal" və s. kimi mətbuat orqanları ilə fəal şəkildə əməkdaşlıq etmiş, "Məhzun", "Yetim cücə", "Həmişəki" gizli imzaları ilə dərc etdirdiyi əsərlərində qəddar vəzifə sahiblərini, yalançı mövhumatçıları, qumarbazları kəskin ifşa etmişdir.

**Mirzə Cabbar Əsgərzadə "Molla Nəsrəddin"də.**

XX yüzilin başlanğıcında Azərbaycanın əksər bölgələrində kök salan cəhalətin, fanatizmin, avamlığın, geriliyin acı nəticələrindən təsirlənən mollanəsrəddinçi şair, maarifçi-pedaqoq Mirzə Cabbar Əsgərzadə mövcud duruma qarşı çıxmaq üçün "Məhkəmə pişiyi" gizli imzası ilə tribun axtarırdı.

Hələ ilk dönəmlərdə Cəlil Məmmədquluzadə Cabbar Əsgərzadəyə "Bakıdan Lək-lək imzası ilə yazan şairə. Məcmuəmizdə çap olunan şeirlərin gərək qüsuru olmaya" – deyə müraciətini də "Molla Nəsrəddin" vasitəsilə ünvanlamışdı (Molla Nəsrəddin 1906: 35).

Mollanəsrəddinçi Mirzə Cabbar Əsgərzadə "Məhkəmə pişiyi" imzası ilə "Molla Nəsrəddin"in səhifələrində yer almış "Balaca felyeton" şeirində cəmiyyətdəki çatışmazlıqları satirik dillə olduqca mükəmməl şəkildə təsvir edərək tipləri öz dilləri ilə ifşa edir, onların əsl simasından xalqı bu vəsilə ilə xəbərdar edirdi.

Mirzə Cabbar Əsgərzadənin jurnalda dərc olunmuş şeirində müxtəlif dünyagörüşlü, əqidəli sənət sahibləri ürək sözlərini bölüşür, onların hər biri özünəməxsus dildə danışır, xüsusi məharətlə zəhmətkeş xalqı soymalarından, aldatmalarından həvəslə söhbət açırlar. Mirzə Cabbar Əsgərzadə hər bir peşə sahibinin xarakterinin mənfi tərəflərini ifşa etməklə qalmır, həm də onları Vətənə həqiqi xidmət etməyə səsləyirdi.

Mirzə Cabbar Əsgərzadə əsərlərində insanları həmişə cəmiyyət üçün faydalı işlər görməyə çağırırdı. O, başqasının əməyi ilə şəxsi sərvətini artırıb xoşbəxt həyat sürməyə çalışanların əməllərini kəskin tənqid edirdi. Mollanəsrəddinçi şairə görə, əmək insanların yaşayışının və inkişafının mənbəyidir. Mirzə Cabbar Əsgərzadə onu da qeyd edirdi ki, əməksiz insan həyatı heç vəchlə mövcud deyil, işləməyən, çalışmayan adam xoşbəxtliyə də nail ola bilməz.

"Molla Nəsrəddin"in fəal əməkdaşlarından sayılan Məmmədəli Nasir də Mirzə Cəlil məsləkinə sadiq qələm sahiblərindən idi. XX əsr Azərbaycan ictimai fikir tarixində tanınmış şəxsiyyətlərdən olan yazıçı-publisist Məmmədəli Nasir dövrünün "Sədayi-həqq", "İqbal", "Lək-lək", "Molla Nəsrəddin", "Tuti", "Açıq söz", "Məzəli", "Dirilik", "Sovqat", "Şeypur", "Qırmızı Gəncə", "Azərbaycan", "Azərbaycan füqərası", "Yeni yol", "Yeni fikir", "Bakı", "Ədəbiyyat və incəsənət", "Kirpi" kimi qəzet və jurnallarında çeşidli yazılarla çıxış etmişdir. Bu yaradıcılıq ümumən millətin maariflənməsinə və kamilləşməsinə xidmət göstərirdi.

Məmmədəli Nasir ictimai-ədəbi mühitdə ən əsası felyetonçu kimi tanınmışdır. Onun felyetonçu olaraq yetişməsində "Molla Nəsrəddin" satira jurnalının məxsusi rolu olduğu danılmazdır. O, jurnalda "Anaş qurbağa", "Qarınqulu bəy", "Bir nəfər", "Fil-fil", "Zaqatalalı", "Görən" və s. imzalarla satirik-tənqidi məqalələr, məzhəki xəbər və elanlar dərc etdirmişdir. Yazıçının jurnala gəlişinin də maraqlı tarixçəsi vardır. 1912-ci ilin payızında İrəvan ziyalılarından olan Bağır Rzayev "Molla Nəsrəddin"ə abunə toplamaqdan ötrü şəhərin nüfuzlu hacılarından olan Hacı Məmməd kişinin də qapısını döyür. Gəlişinin məqsədini bildirəndən sonra ondan jurnala müştəri olmasını rica edir. Hacı Məmməd kişi, "Molla Nəsrəddin"ə müştəri yazılmaq istəmədiyini söyləsə də, kasıba, yetimə, dara düşənə həmişə

kömək etdiyindən qapısına gələni əliboş qaytarmaq istəməyərək cibindən bir qızıl onluq çıxarıb onun qarşısına qoyur. Kişi əlindəki dəftərə nə isə qeyd edərək gedir.

Atası ilə qonağın söhbətini maraq və diqqətlə dinləyən 13 yaşlı Məmmədəli bir həftədən sonra poçtdan qəzet və jurnalları, məktubları götürəndə arasında şəkilli bir jurnal da görür. Onları evə gətirərək gizlincə mütaliəyə başlayır. Hər dəfə jurnalı oxuyan Məmmədəlinin gözləri önündə sanki fərqli aləm açılırdı. O zamanlar Bakıda çıxan “İqbal”a, “Sədayi həqq”ə İrəvandan kiçik xəbərlər ünvanlayan Məmmədəli günlərin birində bu jurnala da yazmağa həvəs göstərir. Mövzusunu qonşuları Mir Qafar ağanın evində keçirilən dini söhbətlərdən alan oğlan, nəhayət, elan formasında ilk yazısını qələmə alır və “Molla Nəsrəddin”in İrəvandan olan müxbiri Əli Məhzunla Tiflisə, Mirzə Cəlilin görüşünə gedərək məktubunu redaktora özü şəxsən təqdim edir. Həmin yazı “Molla Nəsrəddin” jurnalının 29 yanvar 1914-cü il tarixli 3-cü sayında dərc olunur. Elə kiçik yazısı ucbatından da İrəvan cəhalətpərəstləri tərəfindən sui-qəsdə məruz qalaraq əlindən xəncərlə ağır yaralanır. Həmin yazıdan sətirlərə nəzər salaq:

“İrəvanda təzə açdığım qiraətxanada beş yaşına kimi müsəlman qardaşlara ərəb dilinin mədd məxrəcini və qiraətini öyrədirəm. Hər kəsin pulu olub-olmamağına papey deyiləm. Məqsudim din qardaşlarıma qiraət əzbərlədib cəhənnəm odundan nicat verməkdir. Hər kəsin həmd surəsi düz deyil, təşrif gətirsin ona vələzzallinin boğazın harasından çıxmasını başa salım. Adres: İrəvan, Dəmirbulaq. Mir Qafar oğlu” (Molla Nəsrəddin 1914: 3).

Göründüyü kimi, müəllif, burada öz imzasını  göstərməsə belə, təcrübəsizliyindən yazının ona məxsus olduğunu bildirdiyi üçün elanda tənqid hədəfi seçilmiş qonşuları Mir Qafar ağanın ailəsi bu heyfi onda qoymayaraq xəncərlə ağır xəsarət yetirmişdi.

Elə həmin ildə jurnalın 13-cü sayında “Abdulla Cövdət bəyə” nəzirə ilə çıxış edən müəllif, “Molla Nəsrəddin”lə əlaqəsini 1926-cı ildə Mirzə Cəlillə Borjomidə görüşəndən sonra ədibin təklifi ilə müntəzəm şəkildə nəşrin sonunadək davam etdirmişdir. Məmmədəli Nasirin “Qaxdan", “Bibiheybət məktubları”, “Ağa Mirzə Ələkbər ağa” sərlövhəli yazıları o dövrdə cəmiyyətdə mövcud olan dini fanatizmə qarşı fikirləri öyrənmək baxımından maraq doğurur.

Məmmədəli Nasirin “Qəzet yaxşı şeydir”, “Qəzet nə üçündür” (1927) felyetonlarında adlarından da bilindiyi kimi, xalqın həyatına mətbuatın təsiri vurğulanırdı. “Qəzet yaxşı şeydir” felyetonunda müəllif  yazırdı:

“Qəzet doğrudan yaxşı şeydir və hər şeyə yarayır. Amma iş burasındadır ki, adam hər zada pul versə daha cibində pulu qalmaz. Və bir də adam elə şeyə pul verməlidir ki heç olmazsa bir balaca adı çıxsın” (Molla Nəsrəddin 1927: 36).

Məmmədəli Nasir “Qəzet yaxşı şeydir” felyetonunda qaldırdığı problemi bir qədər də genişləndirərək “Qəzet nə üçündür?” başlıqlı yazısında daha konkret, zəngin faktlar əsasında oxuculara təqdim etmişdi.

M.Nasirin felyetonlarında, ümumən publisistikanın əksər janrlarında qələmə aldığı əsərlərdə qadının ailədə, ictimai həyatda yeri məsələsi hərtərəfli əksini tapmışdır. O da bir çox sənətkarlar kimi mədəni geriliyin, qadın əsarətinin başlıca səbəbini dini xurafatda görürdü. Dilin, ifadə tərzinin bədiiliyi, hadisələrin təsviri baxımından maraqla oxunan “On il” (1927) felyetonunda müəllif, keçmiş adətləri xatırlayıb yaşadığı dövrlə əlaqəsinə diqqət yönəldirdi. “Bunlar köhnə sözlərdir” (1928) felyetonunda isə Məmmədəli Nasir qadın azadlığına mane olan qüvvələrə qarşı çıxırdı.

Məmmədəli Nasir əsərlərindəki maarifçi ideyalara görə Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əli Nəzmi, Əbdürrəhim bəy Haqverdiyev də daxil olmaqla bütövlükdə mollanəsrəddinçi ədəbi məktəbə istinad edirdi. O, “Molla Nəsrəddin” dərgisində olduqca maraqlı, ictimai xarakterli

felyetonlarla çıxış etmişdir. Müəllif o dövrdə xüsusi rəğbət və coşqu ilə qarşılanan bir sıra felyetonlarını müəllimi və ustadı hesab etdiyi Mirzə Cəlilin təklifi ilə qələmə almışdı. Onun felyetonları XX yüzilliyin ikinci onilliyindən başlayaraq ictimai mühitin naqis tərəflərini, cəmiyyətdəki mövcud problemləri tənqid və ifşa etməsi baxımından səciyyəvidir.

Ən əsası isə budur ki, "Məmmədəli Nasirin publisistik yaradıcılığını tarixi-etnoqrafik bir əsərə bənzətmək mümkündür. Çünki onun yazılarında cəmiyyətin demokratik inkişafının əhəmiyyətindən bəhs olunduğu kimi, həmin əsərlərin simasında ölkənin tarixi-coğrafi panoramını da görmək mümkündür. …M.Nasirin publisistikası bu gün də həyatın bir çox sahələrində rastlaşdığımız neqativ hallara qarşı mübarizədə aktuallığını itirməmişdir" (Nasir, 2013, 160).

Məmmədəli Nasirin mollanəsrəddinçi kimi ən böyük xidməti bir də ondan ibarətdir ki, ustadı Cəlil Məmmədquluzadənin əsərlərində irəli sürdüyü bütün məsələlərdə, ictimai-siyasi problemlərin həlli yolundakı ideya mübarizəsini "Molla Nəsrəddin"in nəşrinin sonunadək aparmış, sonrakı dövr yaradıcılığında da bu istiqamətə sadiq qalmışdır.

**Nəticə.**

Bir sözlə, XX əsrin əvvəllərinin gərgin ictimai-siyasi hadisələrinin burulğanında "Molla Nəsrəddin" jurnalı xalqın mənafeyi uğrunda fədakarcasına mübarizəsini son dərəcə qətiyyətlə və uzaqgörənliklə aparır, mövcud şəraitdən irəli gələn nöqsanlı cəhətləri satirik qələmin gücündən istifadə edərək qamçılayarkən bütün ədəbi üsul və vasitələrdən yararlanırdı. Keçən əsrin ədəbiyyat və mətbuatında çoxcəhətli yaradıcılıqları ilə mühüm yer tutan jurnalın İrəvan müxbirləri də məhz xalqın ictimai taleyini mövcud həyatın gerçəklikləri fonunda qələmə almışlar.

## ƏDƏBİYYAT

1. Nasir Şəfəq. Məmmədəli Nasir. Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2013, 176 s.
2. Molla Nəsrəddin 1906:35. "Molla Nəsrəddin" 1 dekabr 1906, № 35
3. Molla Nəsrəddin 1911:26. "Molla Nəsrəddin" jurnalı, 20 iyul 1911, № 26
4. Molla Nəsrəddin 1911:29. "Molla Nəsrəddin" jurnalı, 11 avqust 1911, № 29
5. Molla Nəsrəddin 1911:31. "Molla Nəsrəddin" jurnalı, 27 avqust 1911, № 31
6. Molla Nəsrəddin 1911:38. "Molla Nəsrəddin" jurnalı, 30 oktyabr 1911, № 38
7. Molla Nəsrəddin 1914:3. "Molla Nəsrəddin" jurnalı, 29 yanvar 1914, № 3
8. Molla Nəsrəddin 1927: 36. "Molla Nəsrəddin" jurnalı. 1 sentyabr 1927, № 36

## SUMMARY

**Saba Namazova**

## WRITERS OF "MOLLA NASREDDIN" FROM IREVAN

The important role of a number of press organs in the revival and development of artistic thought, the socio-political environment of Irevan is undeniable. Mirza Alikhan Shamsul Khukema, being the most active writer of "Lali", "Shargi-Rus", Mir Abbas Mir Baghirov – "Irshad", Jabbar Askerzade – "Caucasus", "Molla Nasreddin", "Mazal" Mirza Naseh Iravani – "Yeni Irshad", Ali Makhzun Rahimov – "Molla Nasreddin", Mirza Jabbar Mammadov – "Yeni Igdam", served the development of the Azerbaijani literary, cultural, socio-political environment of Irevan, and spared no effort to deliver printed publications to readers in the regions.

"Molla Nasreddin", which saw the light of day for the first time on April 7, 1906, marked a new

stage in the history of the development of the press, socio-political and artistic thought in Azerbaijan as a whole. Conveying to its readers the vices and ugliness of the era in a satirical context with the help of cartoons, “Molla Nasreddin” caused a great resonance and in a short time attracted a large number of readers from Irevan. The journal supporters, so-called mollanasreddinists, formed among the Irevan intelligentsia, and such talented writers as Jabbar Askerzade, Ali Mahsun, Mammadali Nasir, Mashedi Mehdi Sadygzade turned to the magazine with their articles.

The writers of “Molla Nasreddin” in Irevan also published under false names because of the threats of the ignoramuses who oppose the enlightenment of the people. Among them Ali Mahsun was published under “Mother Frog” and “Orphan Chicken”, Jabbar Askerzade – “Court Cat”. “Molla Nasreddin” told about the plight of refugees who saved their lives from the massacre perpetrated by the Armenian armed groups in Irevan and Zangazur districts in 1905-1906, and took refuge in Baku and Ganja provinces, and criticized local entrepreneurs who showed indifference to such situations.

***Key words:*** *“Molla Nasreddin”, Irevan, writer, satirical language, journal*

## РЕЗЮМЕ

**Саба Намазова**

### ИРЕВАНСКИЕ ПИСАТЕЛИ ЖУРНАЛА «МОЛЛА НАСРЕДДИН»

В возрождении и развитии художественной мысли, общественно-политической среды Иревана неоспорима важная роль ряда органов печати. Мирза Алихан Шамсул Хюкема, являясь самым активным писателем газеты «Лали», «Шарги-Рус», Мир Аббас Мир Багиров – «Иршад», Джаббар Аскерзаде – «Кавказ», «Молла Насреддин», «Мазали», Мирза Насех Иравани – «Ени Иршад», Али Махзун Рагимов – «Молла Насреддин», Мирза Джаббар Мамедов – «Ени Игдам», служили развитию азербайджанской литературно-культурной, общественно-политической среды Иревана, а также они не жалели сил для доставки печатных изданий читателям в регионах.

Журнал «Молла Насреддин», увидевший свет 7 апреля 1906 года, ознаменовал новый этап в истории развития печати, общественно-политической и художественной мысли Азербайджана в целом. В сатирическом контексте с помощью карикатур доносящий до своих читателей пороки и уродства эпохи, «Молла Насреддин» вызвал большой резонанс и за короткое время привлек внимание большого числа читателей Иревана. Тем самым, среди иреванской интеллигенции сформировались сторонники журнала, так называемые молланасреддинисты, а в журнал обращались со своими статьями такие талантливые писатели, как Джаббар Аскерзаде, Али Махсун, Мамедали Насир, Мешеди Мехди Садыгзаде.

Из-за угроз невежд, выступающих против просвещения народа, писатели «Молла Насреддина» в Иреване также публиковались под вымышленными именами. Среди них Али Махсун печатался под именем «Мать-лягушка» и «Цыпленок-сирота», Джаббар Аскерзаде - «Судебный кот». На страницах «Молла Насреддина» рассказывается о бедственном положении беженцев, спасших свои жизни от резни, учиненной армянскими вооруженными отрядами в Иреванской губернии и Зангезурском уезде в 1905-1906 годах, и укрывшихся в Бакинской и Гянджинской губерниях, и критикуются местные предприниматели, проявившие равнодушие к таким ситуациям.

***Ключевые слова:*** *«Молла Насреддин», Иреван, писатель, сатирический язык, журнал*

**ZAMİN ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
zaminalisoy@gmail.com

# XIX ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN BÖLGƏSİNİN ETNODEMOQRAFİK VƏZİYYƏTİNİN DƏYİŞDİRİLMƏSİ

*XIX əsrin sonu XX əsrin əvvəllərində Rusiyanın dəstəyi ilə tarixi Azərbaycan torpaqlarına ərazi iddiaları ilə çıxış edən ermənilər mərhələ – mərhələ bu əraziləri ələ keçirməyə çalışırdılar. Bu qəspkarlıq siyasətində ilk olaraq İrəvan bölgəsini erməniləşdirmək siyasəti onlar üçün prioritet məsələ sayılırdı. XIX əsrdə Rusiyanın dəstəyi ilə İrəvana yerləşdirilən ermənilər bölgədə etnik üstünlüyü təmin edə bilməmişdilər. XIX əsrin əvvəllərindən başlayaraq bölgəyə məqsədli şəkildə köçürülən ermənilər XX əsrin ilk rübündə də bu siyasəti davam etdirdilər. Birinci Dünya müharibəsinin yaratdığı xaotik vəziyyətdən yararlanaraq bu siyasəti daha da sürətləndirdilər. Köçürmə siyasəti sayəsində ermənilər 1918-ci ildə ilk dəfə olaraq Cənubi Qafqazda, Azərbaycan ərazilərində siyasi təsisat əldə edə bildilər. Ermənilərin ərazi iddiaları İrəvan bölgəsi ilə yekunlaşmamışdır. Daha azğın formada Naxçıvan və Qarabağ bölgələrinə qarşı bu siyasəti davam etdirdilər. Müxtəlif tarixi mənbələr İrəvan ərazilərində tarixən azərbaycanlıların yaşadığını şübhəyə yer qoymadan sübut edir. Ümumiyyətlə, Cənubi Qafqazda ermənilər heç bir tarixi mərhələdə üst kimlik olaraq xatırlanmır. Tarixi qaynaqlar bu nankor millətlə bağlı bir çox hadisələri gün işığına çıxarır. Zamanında Bizans ərazilərində yaşayan ermənilər bir zamanlar nökərliyini etdikləri Bizansa qarşı ərəblərlə yaxınlaşmış və həmin yaxınlıqdan yararlanaraq qədim ərmən türklərinin yurdu olan Ərməniyyə bölgəsinə iddialar irəli sürmüşdür. Daha sonra Osmanlı İmperiyası ərazilərində "Milləti sıddıka" adlandırılan bu millət Osmanlıya qarşı Rusiya və digər Avropa ölkələri ilə ittifaqa girərək Osmanlı dövlətinə xəyanət etmişdir.*

***Açar sözlər:*** *İrəvan, ermənilər, etnodemoqrafiq vəziyyət, köçürülmə.*

İşğaldan sonra Rusiya Şimali Azərbaycanın digər xanlıqları ilə müqayisədə İrəvan xanlığında xristianlaşdırma və erməniləşdirmə daha sürətli şəkildə aparılırdı. Qərb tədqiqatçıları faktları konkretləşdirərək yazırlar ki, Rusiya işğalı dövründə İrəvan xanlığının müsəlman əhalisinin təxminən 30 faizi ya məhv edilmiş, ya da bölgəni tərk etmək məcburiyyətində qalmışdı. Bölgənin erməniləşdirilməsi prosesi XIX əsrdə yekunlaşmamış, daha azğın formada XX əsrin əvvəllərində də davam etmişdir. Rusların dəstəyi ilə İrəvan bölgəsində demoqrafik üstünlüyü ələ keçirməyə çalışan ermənilər eyni zamanda yeni ərazilər uğrunda qondarma ideoloji mübarizəyə qoşulmuşdular. Nəticə etibarilə qədim Azərbaycan torpaqları olan İrəvan və ətraf bölgələri XIX- XX əsrlərdə imperialist maraqları olan Çar Rusiyası, Böyük Britaniya və digər dövlətlərin dəstəyi ilə ələ keçirmiş və qondarma erməni dövlətini yaratmışdılar.

İrəvan bölgəsində erməni qurumunun yaradılması Rusiyanın milli və geosiyasi maraqlarına uyğun gəlməsə də, imperiya mənafeyini əks etdirən qərar qəbul edildi. Çar I Nikolayın fərmanı ilə yaranan xüsusi komitə erməniləri imperiya ərazisinə köçürməyə başladı. M.Süleymanov yazır ki, Rusiya sarayında hazırlanan layihənin ermənilərin etnik arzularına cavab verməyə biləcəyi ehtimalını nəzərə alan çar hakimiyyəti işğal edilmiş İrəvan xanlığı ərazisində özlərinə sərf edən formada qurumun yaradılması üçün layihə hazırlatmağa başladı. Həmin layihənin hazırlanması ilə X.Lazaryan, A.Xudabaşyan, K.Arqutyan-Dolqoruki və başqaları məşğul olurdular. Onların üzərində işlədikləri layihə

1827-ci ilin sonlarında hazır oldu və Rusiya hökumətinə təqdim edildi (Süleymanov 2008, 360).

Ermənilərin layihəsində İrəvan xanlığı ərazisində “Erməni dövləti” yaradılmalı, bu qondarma qurum Çar Rusiyasının muxtar bir vahidinə çevrilməli idi. Məkrli şəkildə silahlanmağa çalışan ermənilər deyirdilər ki, yaradılacaq yeni qurumun təhlükəsizliyi ermənilərin özləri tərəfindən təmin edilməlidir. Daha dəhşətlisi isə bu dəstələrdə xidmət edəcək erməni əsgər və zabitlər üçün xüsusi güzəştlərin tələb edilməsi idi. Qafqaz Arxeoloji Komissiyasının sənədlərindən birində göstərilir ki, erməni muxtar hakimiyyətinin qurulması üçün zəruri olan kadrlar Moskvadakı Lazarev institutundan və Tiflisdəki “Nersesyan” məktəbindən seçilməsinin məqsədəuyğunluğu da ermənilərin tələbələri və istəkləri sırasında idi (Акты собранные Кавказской Археологической Комиссии.1878,.481).

Beləliklə, İrəvan xanlığı ləğv edildi, ruslar xanlığın etnik tərkibini dəyişdirməyə, erməniləşdirməyə cəhd etdilər. İrəvan şəhərini işğal etdikdən sonra Rusiya qoşunlarının baş komandanı İ.F.Paskeviç İrəvan Şəhər Müvəqqəti İdarə Komitəsi yaratdı. Komitəyə üç nəfər daxil edildi: general-leytenant Krasovski (sədr), podpolkovnik Borodin – şəhər komendantı və erməni yepiskopu Nerses Aştaraketsi (Naxçıvan ensiklopediyası 2005, 144). Göründüyü kimi, burada azərbaycanlıların sayının çox olmasına baxmayaraq, onların heç bir nümayəndəsi xanlığın idarəetmə sisteminə təyin edilməmişdi.

Müvəqqəti İdarəetmə Komitəsi aşağıdakı vəzifələri yerinə yetirirdi:

1. Xanlığı Rusiyanın maraqlarına cavab verən qayda əsasında idarə etmək;
2. Xanlığın İrəvan və Sərdarabad qalalarının sərhədlərinin qorunması, həmçinin xanlıq ərazisində yerləşən rus hərbi qarnizonunun təchizatı məsələlərini həll etmək;
3. Xanlığın təhlükəsizliyini təmin etmək, qarovul xidməti keçmək üçün ermənilərdən piyada və atlı dəstələr təşkil etmək;
4. Gürcüstanla Dilican və Aparan vasitəsilə əlaqələri qaydaya salmaq.

İrəvan xanlığının əmlakını siyahıya almaq və onu Rusiyanın xeyrinə müsadirə etmək (Парсамян 1972, 71).

Buradan məlum olur ki, Azərbaycanın İrəvan xanlığının təhlükəsizliyinin təmin olunmasını ruslar ermənilərə etibar edir, xanlığın var-dövlətini mənimsəyirdilər.

Rusiyanın Naxçıvan və İrəvan xanlığını işğal etməsi ermənilərin burada ərazi iddialarını reallaşdırmağa ümidlərini artırdı. Rusiya İmperiyası və Qacar şahənşahlığı arasında bağlanan Türkmənçay müqaviləsindən sonra Rusiya imperatoru I Nikolayın 21 mart 1828-ci il tarixli fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ləğv olundu, Rusiyaya birləşdirildi və “Erməni vilayəti” adlandırıldı. “Bu vilayətin quruluşu və onun idarəetmə qaydaları haqqında ali senat öz vaxtında zəruri göstəriş alacaqdır” (Гаджиев 2011, 38-39).

İrəvan xanlığı işğal edildikdən sonra Qacarların idarə etdiyi İranın daxilindən və Türkiyədən ermənilər tarixi Qərbi-Azərbaycanda, İrəvan xanlığı ərazilərində yaranan “Erməni vilayəti”nə köçürülür, bölgənin yerli avtoxton azərbaycanlı əhalisi isə indiki Türkiyə və İran ərazilərinə köçməyə məcbur edilirdi. F.Səfərov yazır ki, qondarma vilayətin tərkibinə daxil edilmiş ərazilərdə Türkmənçay müqaviləsinin imzalanmasına qədər cəmi 22 min 500 nəfər erməni yaşayırdısa, köçürmələr nəticəsində sonrakı iki il ərzində onların sayı süni şəkildə az qala üç dəfə artırılmışdı (Səfərli 2008, 60].

Qraf Paskeviç qraf Nesselorda yazdığı məktubda göstərirdi ki, İrəvan xanlığından 100 ailə qarapapaqlar, 300 ailə ayrım Qarsa qaçmış, Uluxanlı tayfasının nüfuzlu 600 ailəsi Bəyazidə keçmişdilər. Mənbədən aydın olur ki, 800 ailədən ibarət qarapapaqların digər bir hissəsi Arazı keçərək İrəvan xanı Hüseyn xanın qardaşı Həsən xanla birləşmişdilər (Акты собранные Кавказской Археологической Комиссии 1878, 547).

"Erməni vilayəti" İrəvan, Naxçıvan əyalətlərinə və Ordubad dairələrinə ayrılmışdı. Vilayətin idarə rəisi vəzifəsini rus ordusunun komandanı Aleksandr Çavçavadze yerinə yetirirdi. Sonra isə 1830-1838-ci illərdə vilayətin idarə rəisi vəzifəsini erməni əsilli general V.Bebutov yerinə yetirmişdi.

Vilayətin yaradılması ilə yanaşı, atılan digər məkrli addım alban kilsəsinin kilsə müstəqilliyinin ləğvi və ərazidəki alban kilsələrinin erməni kilsəsinin tam tabeliyinə verilməsi olmuşdu. 1836-cı il martın 11-də "Kilsə Nizamnaməsi"nə əsasən erməni kilsəsinin hüquqları, vəzifələri və quruluşu yenidən müəyyən edilmişdi. Erməni kilsəsi daşınar və daşınmaz əmlaka malik olub, nigah bağlamaq, təhsil və maarif məsələlərini yerinə yetirmək hüququna sahib oldu. Ruhanilərin dünyəvi hakimiyyətə müdaxilə etməsi ciddi qadağan edilirdi.

Qondarma vilayətin gerbinin layihəsi Rusiya Elmlər Akademiyasının və Rəssamlar Akademiyasının prezidenti A.Oleninin təşəbbüsü ilə hazırlanmış, I Nikolay tərəfindən 1833-cü il fevralın 27-də təsdiqlənmişdi. Gerbdə mavi gümüş sahədə Ararat dağlarının qarlı zirvəsi gümüşü buludlarla əhatə olunmuş, dağların zirvəsində qızıldan Nuhun gəmisi, "qədim" erməni çarlarının tağları (qızıldan), Üçkilsə monastırının təsviri, Rusiya qartalı təsvir edilmişdi. Gerbin mərkəzi fiqurları Ararat dağı və Nuhun gəmisi idi və bu guya ermənilərin qədim etiqada malik olduqlarını simvolizə edirdi (Цугунян). Gerbin üzərində Çar Rusiyasının mütləqiyyətinin rəmzləri, o cümlədən ikibaşlı qartal da əksini tapmışdı.

Ermənilərin başqa bir saxtakarlığı İrəvan xanlığının demoqrafik şəraitini ermənilərin xeyrinə dəyişdirmək cəhdləri olmuşdur. Erməni əsilli Amerikan tarixçisi Corc Burnutyan əsərində hələ XIV əsrdə İrəvan, Naxçıvan bölgələrində, ümumiyyətlə, tarixi Qərbi Azərbaycan ərazilərində ermənilərin çoxluq təşkil etdiyini əsaslandırmağa çalışmışdır. C.Burnutyan yazır ki, guya yalnız XIV əsrin sonlarında Teymurun çoxsaylı yürüşlərindən sonra bu ərazilərdə türk tayfaları məskunlaşdırılmış, islam isə əsas üstün dinə çevrilmişdi. Regionda qalan ermənilər yadelli hökmdarların idarəsi altına düşmüşdü. Halbuki XVI əsrə qədər bölgə əhalisinin etnik tərkibi ilə bağlı qaynaqlardan əldə olunmuş məlumatlar bunun əksini sübut edir. Hələ XII-XVIII əsrlərdə Azərbaycan əhalisindən bəhs edən Nəsəvi o dövrdə Azərbaycanı "türklərin dəniz qumunun dənələri qədər çox olduğu ölkə" kimi təsvir etmişdi (Bournatian 1980, 514 ).

Ermənilər "Şərqi Ermənistan" adlandırdıqları ərazilərin, əslində isə tarixi Qərbi-Azərbaycan torpaqlarının Səfəvilərin idarəsi altına keçməsindən sonra Səfəvi hakimiyyətinin yerli erməniləri Persiyanın dərinliklərinə zorla deportasiya etdiyini, əksinə həmin regionlara – "erməni əyalətləri"nə müsəlmanların köçürüldüyünü yazırlar (История Востока 1981). Erməni müəllifləri 1605-ci ildə İrəvan və Naxçıvan əyalətlərindən indiki İranın daxili vilayətlərinə 250 min nəfərdən artıq erməninin deportasiya olunduğunu iddia edirlər (Bournatian 2004, 96). Lakin əslində I Şah Abbas Səfəvi-Osmanlı müharibələri zamanında Osmanlı ordusunun davamlı hücumlarının qarşısını almaq üçün bölgə əhalisinin İranın daxili vilayətlərinə köçürülməsi barədə, həqiqətən də, göstəriş vermiş, İsfahan yaxınlığındakı yeni Culfa şəhəri də məhz I Şah Abbasın göstərişi ilə bu məqsədlə yaradılmışdı. Lakin məsələ ondan ibarətdir ki, orta əsr şərtlərində 27 min nəfər insanın 1137 kilometr məsafəni qət etməsi mümkün deyildi. Köçürülənlərin içərisində uşaq, qadın, ahılların olması çətinlikləri daha da artırırdı. Bu baxımdan Şah Abbasın göstərişi ilə İsfahan yaxınlığında Culfa şəhəri salınsa da, buraya Naxçıvan Culfasının əhalisi köçürülməmişdir. Əhalinin köçürülməsi mərhələli şəkildə aparılmış, Culfa əhalisi Qaradağ, Təbriz istiqamətinə, Təbrizdən əhalinin müəyyən qismi Qəzvin istiqamətinə yerləşdirilmişdir. Qəzvindən indiki İranın daxili vilayətlərinə doğru əhali yerdəyişmələri olmuş, köç prosesi bu şəkildə baş vermişdir. Nəticə olaraq deyə bilərik ki, indiki İsfahan yaxınlığındakı yeni Culfada məskunlaşmış ermənilər üçün "orta əsrlər dövrünün ana vətəni"ni Naxçıvan ərazisində deyil, İranın daxili vilayətlərində axtarmaq daha

doğru olardı (Kelbizadeh 2020, 21).

Rusiya tərəfindən İrəvan xanlığı ərazisinin işğalından sonra ermənilərin bu bölgəyə də kütləvi köçürülüb yerləşdirilməsinə başlanılsa da, azərbaycanlılar yenə də say üstünlüyünə malik olmuşdular. Lakin yerlərdəki rus məmurları hesabatlarında hər vəchlə ermənilərin sayını olduğundan daha çox göstərməyə çalışırdılar. Bu, əsasən, imperiya mərkəzinin qarşıya qoyulan məqsədlərin yüksək səviyyədə icrasını göstərmək üçün idi. Sonrakı dövrdə rus məmurlarının bu cür şişirdilmiş məlumatlarından erməni “tədqiqatçılar” fəal şəkildə yararlanmağa başladılar. Məsələn: İ.Şopen artıq 1838-ci ildə guya ermənilərin əyalət əhalisinin yarısını təşkil etdiyini yazmışdı. O göstərirdi ki, Qacarlar İranından İrəvan əyalətinə 23568 nəfər, Türkiyədən 21639 nəfər köçürüldükdən sonra 1829-1832-ci illərdə “Erməni əyaləti”ndə ermənilərin sayı 65280 nəfərə çatmışdı (Шопен 1991, 638).

1829-cu ildə qraf Paskeviç İrəvanskinin tapşırığı ilə kollec assesoru İ.Şopen Erməni əyalətinin əhalisinin kameral siyahılarını tərtib etmişdi. 20 cilddən ibarət əlyazması nəticəsində İ.Şopen özünün məşhur əsərini yazmış və göstərmişdir: “Erməni vilayətində 752 kənd olmuş, onlardan İrəvan əyalətində 17000 ailə olmuşdur. Siyahıya almanın nəticələrinə görə, İrəvanda 81.749 müsəlman və 25.131 erməni yaşamışdır” (Шопен, 1991, 635-638). Başqa bir məlumatdan aydın olur ki, İrəvan əyalətinə bu dövrdə yalnız Qacarlar və Osmanlı dövlətlərinin ərazilərindən 57 min 226 nəfər erməni köçürülmüşdü. Təbii ki, bu cür kütləvi köçürülmə yerli avtoxton əhalinin narazılığını artırırdı. Bunun qarşısını almaq üçün çar hökuməti yeni inzibati islahatlar aparmağa başladı. 1840-cı il aprelin 10-da imperator I Nikolayın “Qafqaz diyarının idarəsinə dair təsisatlar” adlı fərmanı ilə “Erməni vilayəti” ləğv edildi. İrəvan qəza kimi 1841-ci il yanvarın 1-də Gürcü-İmereti quberniyasının tərkibinə daxil edildi. İrəvan qəzasının əhalisinin 51,4%-ni azərbaycanlılar, 38,5%-ni ermənilər, 5,42%-ni kürdlər, 2%-ni ruslar, 1,5%-ni aysorlar təşkil edirdi. 1846-cı il dekabr 14-də I Nikolayın fərmanı ilə Cənubi Qafqaz dörd quberniyaya ayrıldı. İrəvan qəza kimi Tiflis quberniyasına daxil edildi.

Lakin bu cür tədbirlər sadəcə narazılıqları azaltmaq məqsədi daşıyırdı. Çar Rusiyası özünün məqsədləri naminə ermənilərdən istifadəni davam etdirir, onların Qafqaza yerləşdirilməsinə şərait yaradırdı. Xüsusən Çar Rusiyasının əzəli düşməni hesab etdiyi Osmanlı dövlətinə qarşı bu qüvvədən istifadə etmək planları geniş idi. Səbəb o idi ki, uzun illər ərzində Osmanlı dövlətində “milleti-sıddıka” (sadiq millət) adlandırılmış, Osmanlı dövlət sisteminə yaxşı bələd olan ermənilər Osmanlı dövlətinə qarşı mübarizənin təşkili üçün əhəmiyyətli rol oynaya bilərdilər. İrəvan əyalətinin məhz Anadoludan Qafqaza keçid yolu üzərində yerləşməsi buraya ermənilərin yerləşdirilməsində xüsusi əhəmiyyətli rol oynadı. Çar Rusiyası Qafqaz türkləri ilə Osmanlı türklüyü arasında əlaqəni kəsmək üçün bu məsələyə xüsusi diqqət yetirirdi.

Nəticədə bütün Qafqaza olduğu kimi, İrəvan bölgəsinə də ermənilərin köçləri XIX əsrin ikinci yarısında da davam etmiş, kütləvi köçürülmə nəticəsində Rusiya imperiyası etnodemoqrafik şəraiti əsaslı sürətdə dəyişdirə bilmişdi. İ.F.Paskeviç etiraf edirdi ki, məhz köçürmə kompaniyasından sonra da İrəvan əyalətinin yerli, avtoxton əhalisi – azərbaycanlılar ümumi əhalinin üçdə birini təşkil edirdilər (Акты собранные Кавказской Археологической Комиссии 1878, 888).

Tarixi faktlar, müxtəlif mənbələr sübut edir ki, qədim Azərbaycan ərazisi olan İrəvan regionu (sonralar xanlıq, qəza, quberniya inzibati vahidi kimi) azərbaycanlıların yaşadığı ərazi olmuşdur. Lakin yaranmış əlverişli siyasi şəraitdən və xristianlıq amilindən sui-istifadə etməyi bacaran erməni ideoloqları, siyasi qüvvələri və terror təşkilatları Türkiyədə erməni muxtariyyəti ideasının iflasından sonra Cənubi Qafqazda, xüsusən Azərbaycanda və onun İrəvan regionunda öz ərazi iddialarını və məkrli dövlətçilik ideyalarını reallaşdırmağa başlamışlar. Bunun üçün onlar Çar Rusiyasının ermənipərəst məmurları və

erməni elitasının köməyi ilə dövlətçilik layihəsini tərtib etmiş, tarixi Azərbaycan torpaqlarında "Erməni vilayəti"nin yaranmasına nail olmuş, ermənilərin Anadoludan və indiki İranın daxili vilayətlərindən bu bölgəyə köçürülməsilə etnodemoqrafik şəraiti özlərinin xeyirlərinə dəyişdirmiş, terror, soyqırımı, etnik təmizləmə siyasəti ilə İrəvan bölgəsindən avtoxton azərbaycanlıları sürgün etmiş və həmin əraziləri erməniləşdirməyə və xristianlaşdırmağa cəhd etmişdilər. XX əsrin əvvəllərində ermənilər artıq İrəvan bölgəsində say etibarı ilə üstünlüyü ələ keçirmiş və öz ərazi iddialarını və dövlətçilik ideyalarını gerçəkləşdirmək üçün fürsət əldə etmişlər.

## ƏDƏBİYYAT

1. Süleymanov, M. Erməni millətçiliyi və təcavükarlığı tarixindən / M.Süleymanov. Bakı: Hərbi Nəşriyyat, 2008, 398 s.
2. Акты собранные Кавказской Археологической Комиссии. Архив Главного Управления Наместника Кавказского. / Издан под редакцией председателя комиссии д.с.с. Ад.Берже / – Тифлис. Типография Главного Управления Наместника Кавказского. – Т. 7. – 1878, – 1011 с.
3. Naxçıvan ensiklopediyası: [2 cilddə] / Buraxılışa məsul: V.Talıbov. – İstanbul: Bakanlar Medya, – 2005. c.1. – 356 s.
4. Парсамян, В.А. История армянского народа / В.А. Парсамян. – Ереван: – 1972. – 320 с.
5. Гаджиев, И. Армянская область – мина замедленного действия // İRS –Наследие. – 2011. – №6 (54), – с.38-42.
6. Səfərli, H.Y. Qondarma erməni soyqırımı və tarixi həqiqətlər / H.Səfərli. –Naxçıvan: Əcəmi NPB, – 2018. – 208 s
7. Акты собранные Кавказской Археологической Комиссии. Архив Главного Управления Наместника Кавказского. / Издан под редакцией председателя комиссии д.с.с. Ад.Берже / – Тифлис. Типография Главного Управления Наместника Кавказского. – Т. 7. – 1878, – 1011 с.
8. Цугунян, М.К. Из истории создания герба Армянской: [Электронный ресурс] / URL: https: www.liberalasy-oa/at/4738/1/1983-3 (99).pdf.
9. Bournatian, G.A. The Population of Persian Armenia Prior to and Immediately Following its Annexation to the Russian Empire, 1826-32 // Washington, D.C.: Woodrow Wilson International Center for Scholars; Kennan Institute Occasional Paper Series – 91, – 1980. – 17 p.
10. Nəcəf, Ə. Səlcuqlu dövlətləri və atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından XIV əsrə qədər) / Ə.Nəcəf. – Bakı: Qanun, – 2010. – 756 s.
11. История Востока. Восток на рубеже средневековья и нового времени XVI - начале XVIII: [В 6 томах] / – Москва: Наука. – 1981. Т.3. – 202 с. Mammadova, Ş.R. Creating the "Enemy Nation": The Difficult Historical Legacies of Armenian-Azerbaijani Relations // Caucasus Analytical Digest, – 2016, No. 84. – pp. 8-13.
12. Bournatian, G.A. Eastern Armeni from the Seventeenth Century to Russian Annexatio // The Armenian People From Ancient to Modern Times. / Edited by R. Hovannisian. – New York: St. Martin's, – 2004. – 234 p.
13. Kelbizadeh, E. Armenian community and diaspora factor in İran-Armenian relations // – Baku: Caucasus Studies scientific-theoretical journal. – 2020, № 1. – pp. 16-26
14. Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи / И.Шопен. – СПб.: Типог. ИАК, – 1852. – 1231 с.

15. Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи / И.Шопен. – СПб.: Типог. ИАК, – 1852. – 1231 с.
16. Акты собранные Кавказской Археологической Комиссии. Архив Главного Управления Наместника Кавказского. / Издан под редакцией председателя комиссии д.с.с. Ад.Берже / – Тифлис. Типография Главного Управления Наместника Кавказского. – Т. 7.

**SUMMARY**

**Aliyev Zamin**

## CHANGING THE ETHNO DEMOGRAPHIC SITUATION OF THE YEREVAN REGION AT THE END OF THE 19TH CENTURY AND THE BEGINNING OF THE 20TH CENTURY

At the end of the 19th century and the beginning of the 20th century, the Armenians, who made territorial claims to the historical lands of Azerbaijan with the support of Russia, tried to take over these territories step by step. In this policy of usurpation, the policy of Armenianizing the Yerevan region was considered a priority issue for them. Armenians settled in Yerevan with the support of Russia in the 19th century could not ensure ethnic supremacy in the region. Armenians, who were purposefully moved to the region from the beginning of the 19th century, continued this policy in the first quarter of the 20th century. Taking advantage of the chaotic situation created by the First World War, this policy was accelerated. Thanks to the resettlement policy, Armenians were able to obtain a political institution for the first time in the South Caucasus, in the territories of Azerbaijan, in 1918. The territorial claims of the Armenians did not end with the Yerevan region. They continued this policy against Nakhchivan and Karabakh regions in a more deviant form. Various historical sources prove without a doubt that Azerbaijanis lived in the Iravan area historically. In general, Armenians in the South Caucasus are not mentioned as a top identity at any historical stage. Historical sources bring to light many events related to this ungrateful nation. At that time, Armenians living in Byzantine territories became closer with the Arabs against Byzantium, to which they once served, and, benefiting from that closeness, they made claims to the ancient Turkic lands. This nation, which was later called "Milleti siddika" in the territories of the Ottoman Empire, betrayed the Ottoman state by entering into an alliance with Russia and other European countries against the Ottomans.

***Key words:*** *Yerevan, Armenians, ethnodemographic situation, resettlement*.

## РЕЗЮМЕ

**Замин Алиев**

## ИЗМЕНЕНИЕ ЭТНОДЕМОГРАФИЧЕСКОЙ СИТУАЦИИ В РАЙОНЕ ЕРЕВАНА В КОНЦЕ 19-НАЧАЛЕ 20 ВЕКА

В конце 19-го и начале 20-го века армяне, выдвигавшие территориальные претензии на исторические земли Азербайджана при поддержке России, пытались шаг за шагом завладеть этими территориями. В этой политике узурпации приоритетным вопросом для них считалась политика арменизации Ереванского края. Армяне, поселившиеся в Ереване при поддержке России в XIX веке, не смогли обеспечить этническое превосходство в регионе. Армяне, целенаправленно переселенные в регион с начала 19 века, продолжили эту политику и в первой четверти 20 века. Воспользовавшись хаотичной обстановкой, созданной Первой мировой войной, эта политика была ускорена. Благодаря переселенческой политике армяне смогли впервые получить политический институт на Южном Кавказе, на территориях Азербайджана, в 1918 году. Территориальные претензии армян не закончились на Ереванской области. Они продолжили эту политику в отношении Нахчыванского и Карабахского регионов в более девиантной форме. Различные исторические источники, несомненно, доказывают, что азербайджанцы исторически проживали на территории Иревана. В целом армяне Южного Кавказа не упоминаются как высшая идентичность ни на одном историческом этапе. Исторические источники освещают многие события, связанные с этим неблагодарным народом. В это время проживающие на византийских территориях армяне сближались с арабами против Византии, которой они когда-то служили, и, пользуясь этой близостью, предъявляли претензии на исконно тюркские земли. Этот народ, который впоследствии на территориях Османской империи назывался «Миллети сиддика», предал Османское государство, вступив в союз с Россией и другими европейскими странами против османов.


***Ключевые слова:*** *Ереван, армяне, этнодемографическая ситуация, расселение.*

**QAHİRƏ ŞAHBAZOVA**
*ADPU-nun Şamaxı filialı*

# İRƏVAN KİŞİ GİMNAZİYASI

*1881-ci ildə İrəvan şəhərində İrəvan Kişi Gimnaziyası açılmışdır ki, onun ilk direktoru Vladimir İosifoviç Brajnikov olmuşdur. İlk açılış ilində yəni - 1881-ci ildə burada 216 tələbə təhsil almşıdır. Gimnaziyanın milli tərkibi erməni, rus və azərbaycanlılardan ibarət olmuşdur.*

*Gimnaziyada təhsil müddəti 4 il olmuşdur. 1883-cü ildə gimnaziyada 37 azərbaycanlı tələbə oxuyurmuş. Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuşdur. 1881-1915-ci illər ərzində Gimnaziyada ümumilikdə 582 azərbaycanlı təhsil almışdır. Bu gimnaziyanın pansionu var idi ki, görkəmli ədəbiyyatşünas alim, Əməkdar elm xadimi Əziz Şərif də burada hazırlıq mərhələsi keçmiş, sonra da İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmişdir.*

***Açar sözlər:*** *İrəvan, maarif mühiti, gimnaziya, məzunlar, müəllimlər.*

## Giriş

Qədim Azərbaycan yurdu, həm də maarif və mədəniyyət mərkəzi olan İrəvan zəngin mədəni- ədəbi irs yaranmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev İrəvan Müəllimlər Seminariyasının 140 illiyi münasibətilə sərəncam imzalamışdır ki, burada deyilir: “1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır” (İlham Əliyev 29 dekabr 2021-ci il/https:/ /president.az/az/articles/view/55116).

Firidun bəy Köçərli eyni zamanda 1892-ci ildən İrəvan Kişi Gimnaziyasında Azərbaycan bölməsinin müdiri və Azərbaycan dili müəllimi vəzifəsində də işləmişdir. Bu böyük maarif xadimi gimnaziyada müsəlman şöbəsinin müdiri və gimnaziyanın tərkibində olan pansionun müdiri vəzifələrində də çalışmışdır. İrəvan Kişi Gimnaziyasında çalışdığı illərdə F.Köçərli maarif məsələlərinə dair dəyərli məqalələr yazmış, Zöhrabzadə ilə birlikdə “Təlimi-lisani-türki” adlı dərslik də tərtib etmişdir.

F.Köçərli İrəvan gimnaziyasında 10 illik fəaliyyətindən sonra 1895-ci ilin oktyabr ayından Qori Müəllimlər Seminariyasında pedaqoji fəaliyyətini davam etdirmişdir (Cəfərov C.Ə., Allahverdiyev C.V. 2017, s. 125).

**İrəvan Kişi Gimnaziyasının görkəmli məzunları.**

İrəvan Kişi Gimnaziyasının aşağıda adları çəkilən görkəmli məzunları olmuşdur:

Əziz Əliyev (1897-1962 ) Akademik. - İrəvan Kişi Gimnaziyasını 1917-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, Hacı Zeynalabdin Tağıyevin maliyyə yardımı ilə Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsil almış, Səhiyyənin müxtəlif sahələrində yüksək vəzifələrdə çalışmış, Tibb İnstitutunun rektoru olmuş, professor, “Əməkdar həkim”, ictimai və dövlət xadimi olmuşdur.

Əhməd Rəcəbli (1898-1963) Akademik. 1907- ci ildə Gimnaziyaya daxil olmuş və 1916-cı ildə oranı gümüş medalla bitirmişdir. Azərbaycan Kənd Təsərrüfatı Elmlər Akademiyasının akademiki, bitkiçilik bölməsinin akademik katibi olmuşdur.

Heydər Hüseynov (1908-1950) - Akademik. Əmək fəaliyyətinə 1924-cü ildən başlamış, pedaqoji

texnikumun kitabxanasında işləmişdir. 1931-ci ildə ADPİ-nin ictimai elmlər fakültəsinin qiyabi şöbəsini bitirmişdir. 1931-1932-ci illərdə Azərbaycan Elmi-Tədqiqat İnstitutunun aspirantı olmuşdur. 1939-cu ildə "M.F.Axundovun fəlsəfi görüşləri" mövzusunda namizədlik, 1944-cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1936-1940-cı illərdə Heydər Hüseynov SSRİ Elmlər Akademiyası Azərbaycan filialı Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru olmuşdur. 1939-1945-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı sədrinin müavini, 1945-1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse prezidenti olmuşdur. 1943-1945-ci illərdə Azərbaycan Dövlət Universitetinin əvvəl fəlsəfə kafedrasının müdiri, 1945-1950-ci illərdə Azərbaycan Partiya Tarixi İnstitunun direk¬toru olmuşdur. O, Bəhmənyar, Nizami Gəncəvi, Bakıxanov, Mirzə Kazım Bəy, Həsən Bəy Zərdabi və başqaları haqqında 100-dən artıq dəyərli elmi-tədqiqat işləri aparmışdır.

Eynəli bəy Sultanov (1866-1935) İrəvan Kişi Gimnaziyasının məzunlarından biri kimi geniş və hərtərəfli elmi, pedaqoji, ədəbi fəaliyyəti ilə xalqı maarif və mədəniyyətə, tərəqqiyə, elmə, sənətə səsləmiş, fədakar həyat və fəaliyyəti ilə yaddaşlarda qalaraq, qəlblərdə yaşamışdır. Naxçıvanın maarifçi mühitinin formalaşmasında, Naxçıvan teatrının, ədəbi-mədəni mühitinin inkişafında, Naxçıvan folklorunun toplanmasında böyük xidmətlər göstərmişdir.

Məlum olduğu kimi, Eynəli bəy Sultanov geniş ədəbi, pedaqoji, publisistik fəaliyyəti ilə yanaşı, həm də folklorumuzun mahir bilicilərindən olmuş, Naxçıvan folklorunun toplanmasında, yayılmasında böyük əmək sərf etmişdir. O, əsərlərində xəlqilik ideyalarından geniş istifadə etmişdir. Görkəmli ədib folklor toplayıcısı kimi 1886-1890-cı illərdə - 4 il müddətində İrəvan quberniyasını və Naxçıvan diyarını dolaşaraq 3 mindən çox atalar sözü və zərbi-məsəllər, əfsanə və rəvayətlər, şəbeh xalq tamaşaları, aşıq yaradıcılığı nümunələri toplamışdır.

Mehdi Kazımov - (1890-1954) İrəvanda azərbaycanlı ziyalıların təşəbbüsü ilə yaradılan ilk təhsil ocaqlarında rus dili dərsi demiş, 1924-cü ildə İrəvan Türk Pedaqoji Texnikumunun açılmasının təşəbbüskarı və ilk direktoru olmuşdur.

Miryusif Mirbabayev (1889-1951) Miryusif Mirbabayev ilk təhsilini İrəvan rus-tatar məktəbində, daha sonra İrəvan Kişi gimnaziyasında almışdır. O, 1916-cı ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra M.Mirbabayev Azərbaycanın İrəvandakı diplomatik nümayəndəliyində katib işləmişdir. Onun 4 cildlik "Rusca-azərbaycanca lüğət"inə görə 1948-ci ildə ona yüksək dövlət mükafatı verilmişdir. Miryusif Mirbabayev 1951-ci ildə Bakıda vəfat etmişdir.

Maqsud Məmmədov-ictimai xadim, 1929-cu ildə Bakı Dövlət Universitetinin rektoru, maarif naziri olmuşdur.

Adil və Əslidar Muğanlinski-qardaşları Gimnaziyanı bitirdikdən sonra Almaniyanın Leypsiq Universitetində təhsil almışlar.

Səid Rüstəmov (1907-1983) - görkəmli bəstəkar, dirijor, pedaqoq. Azərbaycanın Xalq artistidir. 1921-ci ildə o, Bakıya köçərək müəllimlər seminariyasını, 1929-cu ildə Musiqi Texnikumunu və 1932-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun kimya fakültəsini bitirmişdir. Səid Rüstəmov musiqi sənətinə ilk dəfə tarzən kimi gəlmiş, bu sənətin sirlərini Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovdan və tarzən Mansur Mansurovdan mənimsəmişdir. S.Rüstəmov 1931-ci ildə Ü.Hacıbəylinin təşkil etdiyi ilk notlu Azərbaycan xalq çalğı alətləri orkestrinin yarandığı gündən əvvəl konsertmeyster, daha sonra isə həmin orkestrin bədii rəhbəri və baş dirijoru kimi uzun illər fəaliyyət göstərmişdir. 1930-cu illərdə bəstəkarlığa başlayan S.Rüstəmovun ilk əsəri "Bayatı-kürd" muğamı əsasında fantaziya məhz xalq çalğı alətləri orkestri üçün yazılmışdı. Sonralar o, həmin orkestr üçün "Cəngi" və "Qəhrəmani" pyeslərini, üç süita, tar konserti və bir sıra kantatalar bəstələmişdir.

Həsən Seyidov, Hüseyn Şahtaxtinski, Mirhəsən Mirbababayev, Əbdülhəmid Qənizadə, Əsədula Bəy Kəngərlinski, Abbasqulu bəy Şadlinski, Rza bəy Səfərbəyov, Abbas ağa Fərəcov, Qulam Fərhadov, Əjdər bəy Hacıbəylinski, Əbdülhəmid Qənizadə, Hüseyn Şahtaxtinski, Rza Ağayev, Əkbər bəy Qazıyev,

Həbib bəy Səlimov və başqaları da İrəvan Kişi Gimanziyasını bitirmişlər.

**Nəticə**

1918-ci il avqustun 6-da İrəvanda erməni daşnaqlarının törətdiyi fəlakətlər nəticəsində həm İrəvan Kişi Gimnaziyası, həm də İrəvan Müəllimlər Seminariyası fəaliyyətini dayandırmışdır.

## ƏDƏBİYYAT

1. İlham Əliyev. “İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsihaqqında” Sərəncam. Bakı şəhəri, 29 dekabr 2021-ci il/https:/ /president.az/az/articles/view/55116.
2. Cəfərov C.Ə.,Allahverdiyev C.V. Təhsil tariximizdən: İrəvan pedaqoji məktəbi. Bakı: Orxan NPM, 2017, 240 s.
3. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: ADPU, 2021, 538 s.

## SUMMARY

**Qaira Shahbazova**

## IRAVAN MALE HIGH SCHOOL

In 1881, the Yerevan Male Gymnasium was opened in the city of Yerevan, the first director of which was Vladimir Iosifovich Brajnikov. In the first year of its opening, i.e. in 1881, 216 students were educated here. The national composition of the gymnasium consisted of Armenians, Russians and Azerbaijanis. The duration of education in the gymnasium was 4 years. In 1883, 37 Azerbaijani students studied in the gymnasium. The first edition of the gymnasium was in 1885. During the years 1881-1915, a total of 582 Azerbaijanis studied at the Gymnasium. This gymnasium had a boarding house, where Aziz Sharif, a prominent literary scholar, Honored Worker of Science, had his preparatory stage, and then continued his education at the Yerevan Male Gymnasium.

***Key words:*** *Yerevan, educational environment, gymnasium, graduates, teachers*.

## РЕЗЮМЕ

**Каира Шахбазова**

## ИРАВАНСКАЯ МУЖСКАЯ СРЕДНЯЯ ШКОЛА

В 1881 году в городе Ереване была открыта Ереванская мужская гимназия, первым директором которой стал Владимир Иосифович Брайников. В первый год открытия, т. е. в 1881 г., здесь обучалось 216 студентов. Национальный состав гимназии состоял из армян, русских и азербайджанцев. Продолжительность обучения в гимназии составляла 4 года. В 1883 году в гимназии училось 37 азербайджанских учеников. Первый выпуск гимназии был в 1885 году. В 1881-1915 годах в гимназии училось 582 азербайджанца. В этой гимназии был пансион, где прошел подготовительный этап видный литературовед, заслуженный деятель науки Азиз Шариф, а затем продолжил образование в Ереванской мужской гимназии.

***Ключевые слова:*** *Ереван, образовательная среда, гимназия, выпускники, учителя*.

**NURİDƏ QULİYEVA**
*Bakı Dövlət Universiteti*

# QORİ VƏ İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYALARININ MÜƏLLİMİ FİRİDUN BƏY KÖÇƏRLİNİN QAZAX MÜƏLLİMLƏR SEMİNARİYASININ TƏŞKİLİNDƏ VƏ İNKİŞAFINDA ROLU

*Qazax Müəllimlər Seminariyasının təşklində, inkişafında və təkimilləşməsində Qori Müəllimlər Seminariyasının məzunlarının bir çoxunun o cümlədən Firidun bəy Köçərlinin böyük əməyi və xidmətləri olmuşdur.*

*Öncə qeyd edək ki, 1881-ci ildən fəaliyyətə başalayan İrəvan Müəllimlər Seminariyasının elə ilk açılışı vaxtlarından Qori Müəllimlər Seminariyasının məzunlarından orada pedaqoji fəaliyyətə başlamışlar ki, bu da Seminariyanın fəaliyyətini daha da təkmilləşdirmiş və işinin məzmununu daha da zənginləşdirmişdir. Belə ki, Qori Müəllimlər Seminariyasından məzun olan Firidun bəy Köçərli İrəvan Müəllimlər Seminariyasının ilk müəllimlərindən olaraq təyinatla oraya göndərilmişdir.*

***Açar sözlər:*** *İrəvan Müəllimlər Seminariyası, Qori Müəllimlər Seminariyası, Qazax Müəllimlər Seminariyası, Firidun bəy Köçərli*

## Giriş

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 dekabr 2021–ci il tarixində "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" imzaladığı verdiyi Sərəncamda deyilir: "1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır" (İlham Əliyev 29 dekabr 2021-ci il/https:/ /president.az/az/articles/view/55116).

İrəvan Müəllimlər Seminariyasında Firidun Bəy Köçərli 10 il dərs demiş, mədəni-maarif işləri aparmış və yenidən məzun olduğu Qori Müəllimlər Seminariyasına qayıtmış, orada Azərbaycan şöbəsinin rəhbəri vəzifəsində çalışmışdır.

F.Köçərlini düşündürən mühüm məsələlərdən biri seminariyanın Azərbaycan şöbəsinin Qoridən köçürülməsi olmuşdur. Firudin bəy Bakıda olarkən "Nəşri-maarif" cəmiyyətinin iclasında nitq söyləyərək ziyalılara müraciətlə seminariyanın Azərbaycan şöbəsində vəziyyətin ağır olduğunu söyləmiş və bölgələrimizdən birinə köçürülməsini təklif etmişdi. Lakin nə rus çarlığı, nə də gürcü knyazlığı buna icazə vermirdi. Onun qərarı isə qəti idi: "Necə olursa-olsun, seminariyanı Azərbaycana gətirməliyik ki, oxuyanların sayı çoxalsın, ailələrin "Qori uzaqdır, mən uşağımı ora göndərmərəm" bəhanəsi də kəsilsin".

Beləliklə, 1918-ci ilin yayında rus çarının yıxılmasından və gürcü knyazlarının başlarının hökumət qurmağa qarışmasından istifadə edən böyük ziyalı F.Köçərli seminariyanı Qazaxa köçürmək üçün əlverişli imkana sahib olur.

**Firidun bəy Köçərli.**

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Qori şəhərində seminariyanın Azərbaycan şöbəsinin əmlakını yığıb Azərbaycana gətirmək barədə bu şöbənin sonuncu inspektoru Firidun bəy Köçərliyə göstəriş və səlahiyyət verdi. Firidun bəy Köçərli seminariyanı 1918-ci ilin 1 sentyabrında çox çətinliklərlə, böyük maneələrlə Qazaxa köçürə bildi. Bu Seminariyanın ilk direktoru kimi də özü fəaliyyətə başladı. Məşədi İbrahim ağa Kosalı özünün böyük bir mülkünü təmənnasız olaraq tədris binası kimi seminariyaya hədiyyə etdi.

Köçərli Qazax seminariyasında təkcə dərs demək, yaxud bir müdir kimi seminariaynın işini təşkil etməklə fəaliyyətini məhdudlaşdırmadı, yaşının 60 olmasına baxmayaraq, yenə də həvəslə çalışdı, özfəaliyyət dərnəkləri təşkil etdi, yaşlılar üçün savad kursları açdı, kitabxanalar təşkil etdi və Qazaxda ilk uşaq evinin yaradılmasının da təşəbbüskarı oldu.

Qori Müəllimlər Seminariyasının məzunlarından olan Əhməd ağa Mustafayev, Əhməd Seyidov, Haley bəy Şıxlınski, Süleyman Qayıbov, Yusif Əfəndiyev, Əhməd ağa Gülməmmədov, Alyoşa Mustafayev, Osman Şıxlinski, Səlim Əfəndiyev, Yusif Qasımov, Əli Hüseynov, İbrahim Qayıbov və bir çox başqaları Qazax Seminariyasında pedaqoji fəaliyyətə cəlb olunmuşdular. Bunlarla bərabər, həmçinin görkəmli pedaqoq müəllimlər, tanınmış ziyalılar, şairlər pedaqoji fəaliyyət göstərmək üçün Qazax Müəllimlər Seminariyasına dəvət olunmuşdular ki, bunlardan Səməd Vurğun, Osman Sarıvəlli, Möhsün Poladov, Hacıbala Hacıyev, Əhməd Əhmədov, Osman Cəfərov, Əhməd Qaravəliyev, Yusif Yusifov, Zülfüqar Qayıbov, Alı Aliyev, Hüseyn Çəndirli, İsmayıl Şıxlı, Əli Zeynalov və başqalarını göstərmək olar ki, onlar fədakarlıqla azərbaycanlı pedaqoji kadrların hazırlanmasında mühüm xidmətlər göstərmişlər (Cəfərov C., Allahverdiyev C. Bakı: 2017, 240).

**Nəticə**

Qazax Müəllimlər Seminariyasının Səməd Vurğun, Osman Sarıvəlli, İsmayıl Şıxlı, Mehdi Hüseyn, Əli Zeynalov kimi görkəmli məzunları da olmuşdur.

## ƏDƏBİYYAT

1. Əliyev İ.H. “İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında” 29 dekabr 2021–ci il tarixli, 3094 nömrəli sərəncam/ Xalq qəzeti, 30 dekabr, 2021-ci il.
2. Cəfərov C., Allahverdiyev C. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb, 2017
3. Hüseynzadə R.L. İrəvan maarifçiliyi// Azərbaycan məktəbi jurn. 2018, №1, s. 61-68

## SUMMARY

**Nurida Guliyeva**

## THE ROLE OF THE TEACHER OF GORI AND IRAVAN TEACHERS' SEMINARY FIRUDIN BEY KOKHARLI IN THE ORGANIZATION AND DEVELOPMENT OF THE KAZAKH TEACHERS' SEMINARY

Many of the graduates of Gori Teachers' Seminary, including Firidun Bey Kocherli, had great work and services in the establishment, development and improvement of the Kazakh Teachers' Seminary. First of all, let's note that from the very first opening of the Yerevan Teachers' Seminary, which has been operating since 1881, some of the graduates of the Gori Teachers' Seminary have started teaching there, which further improved the activities of the Seminary and enriched the content of its work. Thus, Firidun

Bey Kocherli, who graduated from Gori Teachers' Seminary, was sent there as a teacher by appointment as one of the first teachers of Yerevan Teachers' Seminary.

***Key words:*** *Yerevan Teachers' Seminary, Gori Teachers' Seminary, Kazakh Teachers' Seminary, Firidun Bey Kocherli.*

**РЕЗЮМЕ**

**Нурида Гулиева**

**РОЛЬ ПРЕПОДАВАТЕЛЯ ГОРИЙСКОЙ И ИРАВАНСКОЙ УЧИТЕЛЬСКОЙ СЕМИНАРИИ ФИРУДИН БЕЯ КОХАРЛИ В ОРГАНИЗАЦИИ И РАЗВИТИИ КАЗАХСКОЙ УЧИТЕЛЬСКОЙ СЕМИНАРИИ**

Многие выпускники Горийской учительской семинарии, в том числе и Фирудин-бек Кочерли, имели большой труд и заслуги в становлении, развитии и совершенствовании Казахской учительской семинарии. Прежде всего отметим, что с самого первого открытия Ереванской учительской семинарии, действовавшей с 1881 года, в ней начали преподавать некоторые из выпускников Горийской учительской семинарии, что еще больше улучшило деятельность семинарии и обогатил содержание своей работы. Так, Фирудин-бек Кочерли, окончивший Горийскую учительскую семинарию, был направлен туда в качестве учителя по назначению одним из первых преподавателей Ереванской учительской семинарии.

***Ключевые слова:*** *Ереванская учительская семинария, Горийская учительская семинария, Казахская учительская семинария, Фирудин бек Кочерли.*

**BƏSİRƏ ABBASOVA**
*Gəncə Dövlət Universiteti*
*abbasova-abbasova777@mail.ru*

# AZƏRBAYCANDA MAARİFÇİLİYİN İNKİŞAFINDA İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI MÜƏLLİMLƏRİNİN ƏVƏZSİZ XİDMƏTLƏRİ

*Məqalə Azərbaycanda müəllim kadrlarının hazırlanmasında İrəvan Müəllimlər Seminariyasının rolu və orada fəaliyyət göstərən bəzi müəllimlərin xidmətlərinə həsr edilmişdir. İrəvan Müəllimlər Seminariyası Azərbaycan türklərinin min illər boyu tarixən İrəvan bölgəsində milli-mənəvi irsin nümunəsi kimi İrəvan intellektinin dəyərli mədəni-maarif irsidir. Keçmişi bilməmək nəinki indiki reallıqların dərk edilməsinə mane olur, o həm də gələcəyə yönəlmiş təşəbbüslərin inkişafına da mane olur. Keçmiş gələcək kimi bu gün ilə də sıx bağlıdır. Ona görə də nəinki bu günü, həm də sabahı, gələcəyi dərindən dərk etmək, qiymətləndirmək baxımından biz keçmişimizi hərtərəfli öyrənməli, əcdadlarımızın əsrlər boyu yaratdığı mənəvi dəyərlərin sahibi olmalıyıq. Bu baxımdan İrəvan Müəllimlər Seminariyasının 140 illik yubileyinin keçirilməsi haqqında sərəncamın böyük elmi-pedaqoji, siyasi-ideoloji, mədəni-mənəvi əhəmiyyəti vardır. Möhtərəm prezidentimiz İlham Əliyev cənabları Yeni Azərbaycan Partiyasının VI Qurultayındakı nitqində demişdir: “...biz tarixi torpaqlarımızı unutmamalıyıq və unutmaq da olmaz. Bu, gələcək fəaliyyətimizdə bizim üçün bələdçi olmalıdır. Bizim tarixi torpaqlarımız İrəvan xanlığı, Zəngəzur, Göyçədir. Bunu həm gənc nəsil, həm də bütün dünya bilməlidir”.*

***Açar sözlər:*** *müəllimlər seminariyası, pedaqoji fəaliyyət, milli yaddaş, yeni ictimai fikir, M.Qazızadə, F.Köçərli.*

Azərbaycan təhsil tarixi uzun inkişaf yolu keçərək öz nailiyyətləri ilə xalqımıza töhfələr vermiş və onu daha da zənginləşdirmişdir. Azərbaycanda elm, mədəniyyət, ictimai-pedaqoji fikrin inkişafında müstəsna rolu olan tədris müəsissələri öz nailiyyətləri ilə təhsil taximizin fəxrinə çevrilmişdir. Söhbət 8 noyabr 1881-ci ildə fəaliyyətə başlamış və yeni pedaqoji-ictimai fikrin inkişafında mühüm rol oynamış İrəvan Müəllimlər Seminariyasından və onun müəllimlərindən olan F.Köçərlidən gedir. Tarix boyu Azərbaycan müəllimləri təhsildə daima novatorluq nümayiş etdirərək, maarifçiliyin inkişafına əvəzsiz töhfələr bəxş etmişdir.

İrəvanda yeni məktəb sisteminin yaradılması XIX əsrin 30-cu illərinə təsadüf edir. 1829-cu ildə yerli xalqları itaətdə saxlamaq məqsədilə milli ucqarlarda qəza məktəblərinin açılmasını nəzərdə tutan Zaqafqaziya məktəblərinin ilk nizamnaməsi qəbul olundu. 1829-cu il nizamnaməsinə görə Cənubi Qafqazda 20 qəza məktəbinin açılması nəzərdə tutulurdu. 1832-ci ildə İrəvan şəhərində ilk dünyəvi məktəb – ikisinifli qəza məktəbi yaradıldı. Qəza məktəbi 1839-cu ildə üçsinifli qəza məktəbinə, 1869-cu ildə dördsinifli progimnaziyaya, 1881-ci ildə gimnaziyaya çevrildi. İrəvan Müəllimlər Seminariyası 8 noyabr 1881-ci ildə 9 müəllim, 42 şagirdlə İrəvan Xalq Təsərrüfatı İnstitutunun indiki binasında fəaliyyətə başladı. Seminariyanın ilk direktoru görkəmli maarifçi Yakob Stepanoviç Suşevski olmuşdur. Seminariyada təhsil müddəti 3 il idi, nəzdində hazırlıq sinfi, nümunəvi ibtidai məktəb fəaliyyət göstərirdi. Seminariya tələbələri pedaqoji təcrübəni həmin məktəbdə keçirdilər. Seminariyanın nəzdində pansionat (yataqxana) fəaliyyət göstərirdi. Seminariyada azərbaycanlılarla bərabər, erməni, gürcü, rus və digər xalqların uşaqları təhsil alırdı. Seminariyanın əsasnaməsi Qori Müəllimlər Seminariyasının əsasnaməsi ilə eynilik təşkil edirdi. Digər seminariyalarda olduğu kimi, İrəvan Müəllimlər Seminariyasında da təhsil

pullu idi. Şagirdlərin müəyyən hissəsi dövlət vəsaiti hesabına oxuyurdu. Seminaristlər üç il müddətində Azərbaycan dili ilə bərabər, ilahiyyat, rus dili, riyaziyyat, tarix, coğrafiya, fizika, təbiətşünaslıq, pedaqogika, nəğmə, hüsnxət, rəsmxət, rəsm, gimnastika fənlərini öyrənirdilər. Seminaristlər hazırlıq qrupunda həftədə 30, 1-ci sinifdə 31, II sinifdə 33, III sinifdə 28 saat dərs keçirdilər. Seminariyada şagirdlər könüllü olaraq xarratlıq, tərəvəzçilik, cildçilik, ipəkçilik üzrə də dərslər keçirdilər. Tədris planı eyni olduğundan müəllimlər seminariyalarının hamısında eyni fənlər tədris edilirdi, seçim yalnız əlavə peşə fənləri ilə bağlı olurdu. İrəvan Müəllimlər Seminariyası şəhərdə yalnız təhsil ocağı deyil, elm və mədəniyyət mərkəzinə çevrilmişdi. Seminariyada azərbaycanlılarla yanaşı, demoktarik fikirli rus, Ukrayna və erməni müəllimləri fəaliyyət göstərirdi. 1881-ci ildən 1914-cü ilədək İrəvan Müəllimlər Seminariyasını 63 nəfər azərbaycanlı bitirmişdir. Ümumilikdə, gimnaziyanın 600-ə yaxın azərbaycanlı məzunu olub.

Cənubi Qafqazda elmin, maarifçiliyin inkişafının daha geniş vüsət almasına İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti ciddi təsir göstərdi. Belə ki, onun məzunları yalnız İrəvanın deyil, eləcə də bütün Qafqazda yeni maarifçilik hərəkatının yayılmasında, ictimai-humanitar düşüncənin formalaşmasında mühüm rol oynamışdır. İrəvan Müəllimlər Seminariyasında dərs deyən ilk azərbaycanlı müəllim dövrünün görkəmli alimi Məmmədbağır Qazızadə olmuşdur. Belə ki, seminariya açılan gündən o, 1897-ci ilə qədər seminariyada ilahiyyat və tatar dili (Azərbaycan dili) fənnini, 1897-ci ildən 1917-ci ilədək isə yalnız ilahiyyat fənnini tədris etmişdir. 1892-ci ildən başlayaraq seminariyada tatar dili (Azərbaycan dili) dərsini Mirzə Rəhim Xəlilov tədris etmişdir. O bu vəzifəyə müəllimi Axund Məmmədbağır Qazızadənin təqdimatı ilə götürülmüşdü. Ümumiyyətlə, seminariyada Azərbaycan məktəbləri üçün müəllimlərin hazırlanmasında Axund Məmmədbağır Qazızadənin xüsusi rolu olmuşdur. Axund Məmmədbağır Kazımzadə, Mirzə Məmmədvəli Qəmərli, Rəşid bəy Şahtaxtinski, Həmid bəy Şahtaxtinski, Cəfər bəy Cəfərbəyov, Məmməd Axundov, Axund Məmmədbağır Tağızadə, Mirzə Cabbar Məhəmmədzadə ayrı-ayrı vaxtlarda seminariyada şəriət və ya tatar dili (Azərbaycan dili) fənnini tədris etmişdilər.

Firidun Əhməd bəy oğlu Köçərli Azərbaycanın görkəmli maarifçisi, pedaqoqu, metodisti, ədəbiyyatşünası, publisisti və ədəbiyyat tarixi elminin banisidir. Görkəmli Azərbaycan maarifçisi Firidun bəy Köçərlinin pedaqoji fəaliyyətinin mühüm bir hissəsi İrəvan Müəllimlər seminariyası ilə bağlı olub. F.Köçərli Qori Seminariyasında altı illik təhsilini başa vurduqdan sonra (1885) Azərbaycan türklərinin qədim yaşayış məskənlərindən və mədəni mərkəzlərindən olan İrəvan şəhərindəki gimnaziyada pedaqoji fəaliyyətə başlayır. O, ana dili, şəriət və hüsnxətdən dərs deyir, eyni zamanda pansion mürəbbisinin köməkçisi təyin olunur və bu işi də böyük ustalıqla yerinə yetirir. Gənc müəllim şəhərin ədəbi-mədəni mühiti, xüsusilə müxtəlif məktəblərin müəllim və müdərrisləri ilə tanış olur, onlarla pedaqoji təcrübə mübadiləsi aparır, onların işlədikləri məktəbə gedib nümunə dərslərində iştirak edir. Eyni zamanda İrəvanın Azərbaycan məktəblərində çalışan bəzi müdərrisləri gimnaziyadakı təlim üsulları ilə tanış edir, onların iştirakı ilə özü də açıq dərslər deyirdi.

Gimnaziyada işləyərkən Firidun bəy İrəvan ədəbi mühiti, xüsusilə məktəblərdə çalışan şairlərin yaradıcılığı ilə yaxından tanış olur, onların şeirlərini dinləyir, tərcümeyi-hallarını öyrənir. Seminariyada həmin dövrdə İrəvan gimnaziyasında müəllim işləyən görkəmli Azərbaycan maarifçisi F.Köçərlinin yazdığı "Azərbaycan dili proqramı"ndan istifadə olunurdu. Belə ki, 1886-cı ilə qədər Qafqazdakı dövlət məktəblərində öyrədilən yerli dillərin, o cümlədən Azərbaycan dilinin proqramı yox idi. Belə ki, 1886-cı il mayın 10-da bu dillərin tədrisinin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə QTD-nin popeçiteli K.Yanovski bütün məktəblər direksiyalarına sərəncam verərək qarşıdakı yay tətili zamanı yerli dil müəllimlərinin proqram tərtib etmələrini tapşırdı. Popeçitelin bu sərəncamı ilə əlaqədar Bakı, Gəncə,

İrəvan, Tiflis, Quba, Göyçay, ZMS-nin Azərbaycan bölməsi, Kürdəmir, Salyan və s. kəndlərdəki dövlət məktəblərinin Azərbaycan dili müəllimləri proqram tərtib etdilər. O cümlədən İrəvan gimnaziyasının Azərbaycan dili müəllimi vəzifəsində işləyən gənc Firidun bəy də həmin proqramı tərtib etmişdir.

Köçərli bu proqramı 1886-cı ilin axırlarında müstəqil müəllimliyə başladığı ilk dövrlərdə yazmışdır. Həmin proqramda Köçərlinin təqdir etdiyi pedaqoji prinsip təlim prosesində sadədən mürəkkəbə, asandan çətinə qaydasına əsaslanırdı. Bu isə, öz növbəsində, keçirilən materialın şagirdlər tərəfindən mənimsənilməsi üçün ən yaxşı təminat yaradır.

Proqram aşağıdakı hissələrdən ibarətdir: giriş hissəsi, hazırlıq sinfi, yazılı təmrinlər (Çernyayevskinin "Vətən dili" dərsliyi əsasında), birinci sinif, ikinci sinif.

Proqramın giriş hissəsində müəllif Azərbaycan dilinin tədrisi, bu dilin təkcə azərbaycanlılar üçün deyil, həm də digər millətlərdən, o cümlədən ruslar üçün məcburi fənn olmasını qeyd edir. Pedaqoji və metodiki baxımdan yüksək olan bu proqram özünün elmiliyi ilə fərqlənirdi.

Firidun bəy Köçərli ana dilinin aşiqi idi. Onun 1913-cü ildə qələmə aldığı "Ana dili" məqaləsi o dövr üçün çox böyük əhəmiyyət kəsb edirdi. Bir sıra qələm sahibləri müxtəlif dərgilərdə qəliz bir dildə yazılmış məqalələr dərc etdirərək Azərbaycan dilini korlayırdılar. Həmin vaxt mollanəsrəddinçilər, xüsusilə də Mirzə Cəlil, Əli Nəzmi belə mətbuata qarşı amansız mübarizə aparırdılar.

Görkəmli ədəbiyyatşünas alim, tənqidçi və maarif xadimi Firidun bəy Köçərlinin elmi fəaliyyəti Azərbaycan tarixinin qiymətli səhifələrindəndir. Onun “Azərbaycan ədəbiyyatı” əsəri isə ədəbiyyatşünaslığımızın inkişafında böyük rol oynayan və bu gün də təravətini itirməyən əsərlərindən biridir. Firidun bəy Köçərli böyük pedaqoqdur. O, Qori və İrəvan Müəllimlər Seminariyasında fəaliyyəti ilə xalqımızın maariflənməsində əvəzolunmaz əməyi olan şəxsiyyətdir. Firidun bəy sadəcə praktik müəllim deyildi. O həm də nəzəriyyəçi-pedaqoq və yüksək mədəniyyətli humanist ziyalı idi. F.Köçərli xalqın ehtiyaclarını ödəmək, dərdinə çarə axtarmağın yolunu da göstərməyə səy edirdi. Ədib deyirdi ki, hər şey əql ilə, hünər, qeyrət və birlik ilə, səy və cəhd ilə, elm və mərifət nuru ilə əldə edilir. Bir maarifçi-demokrat kimi F.Köçərlinin göstərdiyi əsas, həlledici çıxış yolu xalqı maarifləndirməkdən, mədəniləşdirməkdən ibarət idi. XX əsrin başqa maarifpərvər-demokratları kimi o da ictimai bəlaların kökünü cəhalətdə, nadanlıqda, elmsizlikdə görür, maarifə, elmə xalqı azadlığa çıxaran bir vasitə kimi baxırdı. O, xalqı qəflət yuxusundan ayıltmağa cəhd edir, S.Ə.Şirvaninin "nadanlıq dərdinin dərmanı elmdir", "hər kimin elmi var, o insandır" müddəasını təbliğ edirdi.

**ƏDƏBİYYAT**

1. Azərbaycan ədəbiyyatı tarixi: 3 cilddə.- Bakı: Azər.EA nəşri, 1960. c.2: XIX əsr Azərbaycan ədəbiyyatı
2. Bəkir Nəbiyev. Seçilmiş əsərləri: 5 cilddə. Bakı: 2009, c.I, s.61
3. Zeynalov, Ə. İrəvan məktəbləri /Əsgər Zeynalov; red. T.Əhmədov. Bakı: Mütərcim, 2011
4. F.Köçərli. Balalara hədiyyə. Bakı: 2014

## SUMMARY

The article is devoted to the consideration of the role of the Iravan Teachers' Seminary in the training of Azerbaijani teachers. The Irevan Teachers' Seminary, which is an example of the national and spiritual heritage created by the Azerbaijani Turks in the historical Irevan region for thousands of years, is a valuable cultural and educational heritage of the Irevan intelligentsia. Ignorance of the past not only hinders awareness of the realities of the present, but also hinders initiatives aimed at the future. The past is as closely connected with the present as the future. From the point of view of a deep understanding, assessment of not only the present, but also tomorrow, the future, we must thoroughly study our past and become masters of the moral values created by our ancestors over the centuries. In this regard, the order to celebrate the 140th anniversary of the Iravan Teachers' Seminary is of great scientific-pedagogical, political-ideological, cultural-spiritual significance. In his speech at the VI Congress of the New Azerbaijan Party, President Ilham Aliyev said: "... we must not forget and do not forget our historical lands. This should become a guideline for our future activities, just as we are working in this direction today. Our historical lands are the Irevan Khanate, Zangezur, Goycha. Both the younger generation and the whole world should know about this."

We must become the owners of our historical heritage in Irevan.


***Key words:*** *teachers' seminary, pedagogical activity, national memory, new social thought, M. Gazizade, F. Kocharlinskiy.*


## РЕЗЮМЕ

Статья посвящена рассмотрению роли Ираванской учительской семинарии в подготовке азербайджанских учительских кадров. Иреванская учительская семинария, являющаяся образцом национального и духовного наследия, созданного азербайджанскими тюрками в историческом Иреванском районе на протяжении тысячелетий, является ценным культурно-просветительским наследием иреванской интеллигенции. Незнание прошлого не только препятствует осознанию реалий настоящего, но и чинит препоны для инициатив, нацеленных на будущее. Прошлое столь же тесно взаимосвязано с настоящим, как и будущее. С точки зрения глубокого понимания, оценки не только настоящего, но и завтрашнего дня, будущего, мы должны основательно изучить свое прошлое и стать хозяевами моральных ценностей, создававшихся нашими предками на протяжении столетий. В этой связи распоряжение о праздновании 140-летия Иреванской учительской семинарии представляет важную научно-педагогическую, политико-идеологическую и культурно-духовную значимость. В своем выступлении на VI съезде партии «Ени Азербайджан» Президент Ильхам Алиев сказал: «… мы не должны забывать и не забываем наши исторические земли. Это должно стать ориентиром для нашей дальнейшей деятельности, так же, как мы и сегодня работаем в данном направлении. Наши исторические земли – Иреванское ханство, Зангезур, Гейча. Об этом должно знать и молодое поколение, и весь мир».

Мы должны стать хозяевами нашего исторического наследия в Иреване.


***Ключевые слова:*** *учительская семинария, педагогическая деятельность, национальную память, новую общественную мысль, М.Газизаде, Ф.Кочарлинский.*

**MÜNDƏRİCAT**

1. **RÜFƏT HÜSEYNZADƏ.** İrəvan milli maarifçilik mühiti, tədris müəssisələri, müəllimlər və məzunlar....................3
2. **LƏZİFƏ QASIMOVA.** Firidun Bəy Köçərli və İrəvan Müəllimlər Seminariyası....................11
3. **EMİN ŞIXƏLİYEV.** Ermənistan dövlətinin yaradılmasının böyük güclərin geosiyasi planlarında yeri, tarix və reallıqlar....................14
4. **VAHİD RZAYEV.** İrəvan ictimai- mədəni mühiti və F.Köçərli....................20
5. **CƏLAL ALLAHVERDİYEV**. İrəvanda Azərbaycan ədəbi mühiti....................26
6. **MEHRİBAN ƏSƏDULLASOY (QULİYEVA).** İrəvan gimnaziyasının məzunu yazıçı-publisist Eynəli Bəy Sultanovun hekayələrinin bədii dili....................29
7. **VƏLİ ƏLİYEV.** İrəvanda məktəbdarlıq və maarifçilik....................34
8. **TALEH XƏLİLOV, VALEH ƏLİXANOV.** İrəvan Müəllimlər Seminariyasının naxçıvanlı məzunlarının maarifçilik fəaliyyəti....................48
9. **NƏZAKƏT YUSİFOVA.** Axund Məmmədbağır Qazızadə İrəvan Müəllimlər Seminariyasının ziyalılarından biri kimi....................44
10. **MƏTANƏT QULİYEVA.** İrəvan Müəllimlər Seminariyası müəllim hazırlığında mühüm təhsil ocağı kimi....................51
11. **ELÇİN ZAMANLI.** Məhəmməd Xan Təkinskinin İrəvanda diplomatik fəaliyyəti....................55
12. **SEVDA KƏRİMOVA.** İrəvanda Azərbaycan mədəniyyəti və təhsili....................63
13. **GÜLMİRA HACIYEVA.** İrəvan tədris müəssisələri və naxçıvanlı məzunlar....................69
14. **MEHPARƏ ƏHMƏDOVA.** Pedaqoji fikir tariximizdə İrəvan Müəllimlər Seminariyasının rolu....................73
15. **ƏKRƏM HÜSEYNZADƏ.** İrəvan maarifçilik mühitinin görkəmli pedaqoji kadrları....................78
16. **AYTƏN MƏMMƏDOVA.** İrəvan və Naxçıvan etnopedaqoji nümunələri....................81
17. **BİLAL ƏRDOĞAN.** İrəvan musiqi mühiti....................86
18. **SABİRƏ BAYRAMOVA.** İrəvan Müəllimlər Seminariyasında dərs deyən azərbaycanlı müəllimlər....................89
19. **NƏRGİZ RƏSULOVA.** İrəvanın ermənilərə güzəştli verilmə məcburiyyəti....................93
20. **ARZU MƏMMƏDOVA**. İrəvan təhsil müəssisələrində təlim-tərbiyə məsələlərinin həyata keçirilməsi texnologiyası....................98
21. **SƏBA NAMAZOVA.** “Molla Nəsrəddin” jurnalının İrəvan müxbirləri....................104

**22. ZAMİN ƏLİYEV.** XIX əsrin sonu XX əsrin əvvəllərində İrəvan bölgəsinin etnodemoqrafik vəziyyətinin dəyişdirilməsi....................................................................................................110

**23. QAHİRƏ ŞAHBAZOVA.** İrəvan kişi gimnaziyası...................................................................117

**24. NURİDƏ QULİYEVA.** Qori və İrəvan Müəllimlər Seminariyalarının müəllimi Firidun Bəy Köçərlinin Qazax Müəllimlər Seminariyasının təşkilində və inkişafında rolu..........................120

**25. BƏSİRƏ ABBASOVA.** Azərbaycanda maarifçiliyin inkişafında İrəvan Müəllimlər Seminariyası müəllimlərinin əvəzsiz xidmətləri...........................................................................................123

| | |
|---|---|
| Nəşriyyat direktoru: | Əli Həşimov |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Aparıcı redaktor: | Sahilə Abbasova |
| Aparıcı redaktor: | Günel Məmmədova |
| Aparıcı korrektor: | Sitarə Əlizadə |

Yığılmağa verilib: 20.02.2023
Çapa imzalanıb: 10.03.2023
Formatı: 60/90, 32/1, həcmi 8.18 ç/v
Sifariş № 105, sayı 100 nüsxə

**REDAKSİYANIN ÜNVANI:** 7012. Naxçıvan şəhəri,
Universitet şəhərciyi,
Naxçıvan Dövlət Universiteti,
Əsas bina, I mərtəbə,
“Qeyrət” nəşriyyatı

**TELEFON:** (00994 036) 545-45-59
(00994 036) 544-08-61

**E-mail:** elmi.hisse@mail.ru